313news

SƏLƏFİ DƏLİLLƏRİNƏ DAİR ARAŞDIRMA

(Səhabələrin fəzilətinə dair uydurulan hədislər
və səhabələrin çıxardığı bidətlər)

Mərvan Xəlifat

Mərvan Xəlifat

SƏLƏFİ DƏLİLLƏRİNƏ DAİR ARAŞDIRMA

(Səhabələrin fəzilətinə dair uydurulan hədislər və səhabələrin çıxardığı bidətlər)

313news.net

Layihə rəhbəri : 313news.net
Texniki redaktor: Tural Ordubadi

MÜNDƏRİCAT

GİRİŞ 3
Birinci fəsil : Hədislər 7
İkinci hədis: “Mənim və səhabələrimin getdiyi yolda olan”. 20
Üçüncü hədis: Ümmətimdən bir tayfa 35
Dördüncü hədis. “Allahın kitabı və sünnəm”. 44
Beşinci hədis: “Məndən sonra Əbu Bəkr və Ömərə iqtida edin” 55
Altıncı hədis: “Mənim və xəlifələrin sünnəsinə əməl edin”. 61
Yeddinci hədis: “Səhabələrimi söyməyin” 88
Səkkizinci hədis: Hatibin hədisi: “Nə istəyirsiniz edin, artıq sizi bağışlamışam”. 95
İkinci fəsil: Hovuz hədisi 138
Peyğəmbərin (s) sağlığında dindən çıxanlar 161
Səhabələrin Peyğəmbərdən (s) sonra etdikləri dəyişikliklər 181
Namazda yenilik 182
Təravih namazı 187
Üç boşanma 188
Bayram namazlarında xütbəni namazdan əvvəl etmək 189
Müaviyənin bayram namazı üçün azan bidətini yaratması 193
Əhli-Beytin müraciət olunacaq yeganə insanlar olması səmavi layihənin davamıdır. 194
Səqəleyn hədisi 195
Sələfi şübhəsi 204
Şübhənin cavabı 207
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT 231

Birinci hissə

Hədislər

Allah rəsulu (s) buyurur: "Sizin üçün o şəxsdən qorxuram ki, üzündə nur görsənənədək Quran oxuyar, İslama yardım edər. Lakin Allahın istədiyi zaman dindən çıxaraq qonşusuna qarşı qılınc çəkər və onu şirkdə ittiham edər".[1]

Müqəddimə

Aləmlərin Rəbbi olan Allaha həmd olsun! Muhəmməd və onun pak Əhli-Beytinə Allahın salamı olsun! Şübhəsiz ki, sələfilik sahib olduqları maddi imkanlar və təbliğat mexanizmi sayəsində zəif əqidəli insanlara təsir edir. Bilgi vasitələrindən məhrum olan və dəlilləri araşdırmaq gücünə sahib olmayan çoxlu sayda müsəlmanlar onların təbliğatına uymuşlar. Bu təbliğatın təsiri altına düşən hər bir şəxs özünü xilas etməzsə terrorist insana çevriləcək. Buna əsasən də sələfilərin şübhələrinə cavab verəcək, batil əqidələrini və təhlükəli düşüncələrini məhv edəcək elmi tədqiqat mərkəzlərin olduqca əhəmiyyətlidir. Belə mərkəzlər İslam dinini zorakılıq və radikallıqdan uzaq saf və pak prinsiplərini bəşəriyyətə təqdim etməlidir.

Aşağıdakı araşdırmamız məhz bu məqsədi özündə ehtiva edir. Bu araşdırmada sələfilərin etimad etdikləri hədisləri və dəlilləri araşdırmaq qərarına gəldim. Sələfi kitablarını mütaliə edən hər bir oxucu həmin kitabların müəlliflərinin müəyyən hədislərə istinad etdikləri ilə rastlaşır. Onlar həmin hədislərə əsasən dəlil gətirərək özlərində və onların məzhəbinə mənsub olan oxucularda əminlik yaratmaq istəyirlər. Bununla

---

[1] Heysəmi, Məcməuz-zəvaid, c. 1, s. 187, 188; (Bəzzar bu hədisi nəql etmişdir. Sənədi həsəndir). İbn Kəsirin təfsiri, c. 2, s. 276. İbn Kəsir bu hədisin sənədinin yaxşı olduğunu demişdir.

da özlərinin doğru yolda olduqlarını bir daha təkid etmiş olurlar. Bu, başqalarını öz məsləkinə dəvət etmək üslubudur. Burada belə bir sual meydana çıxır: Sələfilərin daima istinad etdikləri dəlillər hansılardır? Həmin dəlillər obyektiv elmi tənqid baxımından necə dəyərləndirilir? Sələfilər müsəlmanların onlara tabe olmalarını gərəkdirən doğru dəlillərə sahibdirlərmi? Bu araşdırmada onların prinsiplərinə əsasən etimad etdikləri dəlillərinin əksəriyyətini Allah-taalanın bizə bəxş etdiyi lütf sayəsində müfəssəl surətdə tədqiq edəcəyik. Hər bir xeyirə doğru yönəldən məhz Odur!

GİRİŞ

Sələfiliyin mənası

Sələfi sözünün lüğəti mənası: İbn Faris "Mucəmu məqayisil-luğə" kitabında belə deyir: "السَلَفَ "sələf" sözü öndə olmaq və əvvəldə olmaq mənasını ifadə edir. Əvvəldə olub keçmişlərə sələf deyilir. Səllaf qövm əvvəl olmuşlar mənasındadır".[2]

Rağib İsfahani əl-Mufrədat kitabında belə deyir: "السَلَفَ" "sələf; öndə və əvvəldə olan mənasındadır. Allah-taala buyurur: **"Və onları sonradan gələnlərə öncül və ibrət etdik"** (Zuxruf surəsi, ayə 56). Yəni onları ibrətlik öncüllər qərar verdik. Filankəsin hörmətli sələfi var dedikdə onun əvvəl yaşamış ata-babaları nəzərdə tutulur..."

Lisanul-ərəb kitabında belə deyilir: "سَلَفَ, يَسلُفُ سَلَفاً سُلُفاً sələfə, yəslufu, sələfən sulufən; əvvəl oldu, öncül oldu. السَالِف"salif" əvvəl olan mənasındadır. السَلَفَ"sələf", السَلِيف "səlif" السُلْفَة "sulfə" əvvəldə olan camaat anlamındadır. Allah-taala buyurur: **"Və onları sonradan gələnlərə öncül və ibrət etdik"** (Zuxruf surəsi, ayə 56). Bu söz "sulufən" və "suləfən" kimi də oxunur. Zəccac deyir: سُلُفاً"sulufən" sözü سَلِيفٍ"səlifin" sözünün cəmidir. Yəni vəfat etmiş, keçmiş insanlar. Kim bu sözü سُلُفاً "sulufən" oxuyarsa bu sözسُلُفَةٌ "sulfətun" sözünün cəmidir. Yəni vəfat edib getmiş dəstə. التَسْلِف"təslif" önə keçirmək mənasınadadır". Fərra deyir: Onları öncədən olan sələf qərar verdik ki, başqaları onlardan ibrət götürsünlər". Deməli, sələf sözü əvvəlki insanlar və ümmətlər mənasındadır.

Sələf sözünün terminoloji mənası: Sələfi sözünün terminoloji mənası Elmi Araşdırmalar və Fətva Komitəsi tərəfindən belə izah edilir: "Sələfilik sələf sözünə nisbət verilir. Sələf Rəsulullahın (s) səhabələri və hicri ilk üç əsrdə yaşamış hidayət imamlarıdır. Rəsulullah (s) onların

[2] Mucəmu məqayisil-luğə, sələf sözünün mənası.

barəsində xeyrlə danışaraq belə buyurmuşdur: “Ən xeyirli insanlar mənim əsrimdə olanlardır. Sonra onların ardınca gələnlər. Daha sonra onların ardınca gələnlər. Bundan sonra isə elə insanlar gələcək ki, onlardan hər birinin andı şahidliyindən əvvəl, şahidliyi andından əvvəl olacaqdır”. Bu hədisi İmam Əhməd, Buxari və Müslim nəql etmişlər.

Sələfilər qeyd edildiyi kimi sələf sözündəndir. Onlar Quran və sünnəyə tabe olmaqda, Quran və sünnəyə dəvət etməkdə və onlara əməl etməkdə sələfin məsləki ilə gedənlərdir. Bununla da onlar əhli sünnə vəl-cəmaə olmuşlar. Müvəfəqqiyyət Allahın sayəsindədir. Allah salam və salavatı peyğəmbərimiz Muhəmmədə, ailəsinə və səhabələrinə olsun!”[3]

Sələfilik haqqında qısa məlumat

Sələfilik sələfə (əvvəlkilərə) tabe olaraq İslam dinini Quran və sünnəyə müraciət etməklə tədqiq etməkdir. Bu məktəb onların imamı Əhməd bin Hənbəlin (vəfat tarixi 241 h.) vasitəsi ilə formalaşmağa başlamışdır. Əhməd bin Hənbəlin vəfatından bir müddət sonra hədis əhlinin metoduna müxalif kəlam metodu meydana çıxdı. Bu metod Əbulhəsən Əşərinin əli ilə yaradılmışdı. İslam firqələri arasında qızğın mübahisələr baş verdi. Əhli sünnə məktəbi bu günədək bu iki metodu təmsil edir. Müasir sələfiliyin əqidə əsaslarının əksəriyyəti Əhməd bin Hənbələ nisbət verilir. Baxmayaraq ki, bir çox məsələlərdə Əhməd bin Hənbəl onlara müxalifdir.

Əhməd bin Hənbəlin əsrindən sonra İbn Teymiyyə (vəfat tarixi 728 h.) gəldi. O, sələfi metoduna ən çox bağlananlardan və təəssübkeşlik edənlərdən idi. O, dövrünün alimlərindən dəstək ala bilmədiyi üçün öz fikirlərini istədiyi kimi yaya bilməmişdir. Vəfat etdikdən sonra isə bəzi şagirdləri onun fikirlərini yaymışlar. Onların da vəfatından sonra

[3] Əhməd bin Əbdürrəzzaq Duveyş, “Elmi Araşdırmalar və Fətva Komitəsinin fətvaları”, c. 2, s. 165, 166.

Muhəmməd bin Əbdülvəhhab (vəfat tarixi 1206 h.) gələnədək uzun əsrlər həmin fikirlər itib batdı. Muhəmməd bin Əbdülvəhhab Nəcd və ətraf bölgələrdə bu fikirləri yenidən diriltdi. İndiyədək bu məktəb mövcuddur. Sələfilər müxtəlif vasitələrlə öz fikirlərini dünyanın müxtəlif yerlərində yaymağa çalışırlar. Hökümət tərəfindən əldə etdikləri maliyyə sayəsində dünyanın müxtəlif bölgələrində universitetlər və elmi mərkəzlər təsis etmişlər. Onlarn sevmədikləri adlardan biri də onlara nisbət verilən vəhabilikdir. Onlara bu adı (Muhəmməd bin Əbdülvəhhabın qardaşı) Süleyman bin Əbdülvəhhab vermişdir. O, qardaşı Muhəmmədə qarşı yazdığı **"əs-Səvaiqul-ilahiyyə fir-rəddi aləl-vəhabiyyə"** kitabında onlara bu adı vermişdir. Həmçinin sələfilər rəqiblərinin onları müşəbbəhə və mucəssəmə[4] adlandırmasından xoşlanmırlar. Onların xoşladığı adlar sələfilik, hədis əhli və başqalarıdır.[5]

Sələfilik dəvətinin ən əsas xüsusiyyətləri bunlardır:

1. Qurani-Kərimdə məcazi mənanın inkar edilməsi.[6]

---

[4] Muşəbbəhə Allah-təalanı məxluqlarına bənzədənlər, mucəssəmə isə Allah-təalaya cismanilik nisbət verənlərdir.

[5] Müxtəlif məzhəb və firqələrə mənsub olan islam alimləri sələfi vəhabi təbliğatına qarşı mübarizə aparmış və hələ də mübarizə aparmaqdadırlar. Şeyx Abdullah Muhəmməd Əli islam alimlərinin vəhabilərə qarşı yazdıqları kitabları toplayaraq **"Mucəmul-muəlləfatil-islamiyyə fir-rəddi aləl-firqətil-vəhabiyyə"** adlı kitab tərtib etmişdir. Həmin kitabda vəhabi əqidəsini və düşüncəsini elmi əsaslarla rədd edən alimlərin sayı 1800 müəllifdən çoxdur.

[6] Bu inkar bir neçə problem yaradır. Quran ərəb dilində nazil olmuşdur. Məcazi məna ərəb dilində çox istifadə edilir. Onların məcazi mənanı inkar etmələrinə əsasən Allah-təalaya unutqanlıq sifəti nisbət vermək lazım gəlir. Allah-təala buyurur: **"(Onlara belə) deyiləcək: "Siz bu gününüzə qovuşacağınızı (dünyada) unutduğunuz kimi, Biz də bu gün sizi unudacağıq (əbədi əzab içində buraxacağıq). Sizin məskəniniz Cəhənnəmdir. Sizə (Allahın əzabından qurtarmağa) kömək edənlər də olmayacaqdır!"** (Casiyə, 34)

2. İlahi sifətləri ifadə edən sözlərin öz zahiri mənasında anlamaq.

Məhz bu, etiraf etməmələrinə baxmayaraq onların Allah-taalaya cismanilik nisbət vermələrinə səbəb olmuşdur. Onlar peyğəmbərlər və övliyalara təvəssül etməyə qarşı çıxır, bu işi edənləri isə şirklə ittiham edirlər. Həmçinin təbərrük və yardım diləməyi qadağan edir, müsəlmanlardan bu işi yerinə yetirənləri təkfir edirlər.

Sələfilər radikallıq və kobudluqla seçilirlər. Onlar öz hədəflərinə çatmaq üçün günahsız insanları, uşaqları, qadınları, xüsusilə də Əhli-Beyt (ə) şiələrini qətlə yetirməkdən heç də çəkinmirlər. Bu radikallığın siyasi və fiqhi səbəbləri var. Bu cərayanın ən böyük alimləri siyasi rəhbərlərinin onlara diktə etdiklərinə canla başla tabe olurlar. Həmçinin sələfi fiqhi bəziləri barədə–istər tövbə etsinlər, istərsə də etməsinlər – təkfir, qətl və hədd cəzası tətbiq etmək kimi mətnlərlə (hədislərlə və fətvalar) doludur. Dinimiz terror və radikal deyil, dialoq və məntiq dini olduğu üçün bu gözəl dinimizə mənsub olanların, xüsusilə də sələfi dəvətinə mənsub olanların faydalanmaları üçün bu araşdırmaları yazdım.[7]

---

[7] Bu kitabda bu məsələlərin müzakirə olunması nəzərdə tutulmayıb. Lakin qeyd etmək lazımdır ki, bütün müsəlmanlar mənsub olduqları müxtəlfi məzhəblərə və firqələrə baxmayaraq əsrlər boyu qəbirləri ziyarət etmiş, təvvəssül etmiş, Allahın övliyalarının qəbirlərinə təbərrük etmiş, əməlisalehlərdən yardım diləmişlər. Bu məsələdə müsəlmanlar icma etmişlər. Ümmət heç vaxt zəlalətdə icma etməz. İbn Teymiyyə bu kimi məsələlərə qarşı çıxanadək müsəlmanların həyat tərzi bu minvalla olmuşdur. Son əsrdə onun fikirləri rəvac tapdı və bu məktəbə mənsub olanlar tərəfindən təbliğ olundu. “Rakibtus-səfinə” kitabımızda sələfilik barədə bir neçə fəsildə müfəssəl söhbət açmışıq.

Birinci fəsil : Hədislər

Birinci hədis: "Əsrlərin ən xeyirlisi mənim əsrimdir..."

Buxari İmran bin Hasinin belə nəql etdiyini yazır: "Rəsulullah (s) belə buyurub: "Ümmətimin ən xeyirlisi mənim əsrimdə olanlardır. Sonra onların ardınca gələnlər. Daha sonra isə onların ardınca gələnlər..."[8]

Səhih Müslim, Səhabələrin fəziləti kitabı, səhabələrin və onlardan sonra olanların fəziləti babında Abdullahdan belə nəql olunur: "Peyğəmbər (s) belə buyurdu: "İnsanların ən xeyirlisi mənim əsrimdə olanlardır. Sonra onların ardınca gələnlər. Daha sonra isə onların ardınca gələnlərdir".[9]

Bu hədisə əsasən dəlil gətirənlər

Aşağıdakılar bu hədisə əsasən dəlil gətirmişlər:

1. İbn Teymiyyə belə deyir: "Allahın dini yalnız (Allahın) peyğəmbərlərilə göndərdiyi və kitablarında nazil etdiyi dindir. Doğru yol məhz budur. Bu, əsrlərin ən xeyirlisindən və ümmətin ən fəzilətlilərindən olan Rəsulullahın (s) səhabələrinin yoludur".[10]

2. İbn Qəyyim qeyd olunan hədisin ardınca belə deyir: "Peyğəmbər (s) xəbər verir ki, ən xeyirli əsr mütləq olaraq onun əsridir. Buna əsasən də bütün xeyir məqamlarında onları öndə tutmaq lazımdır".[11]

3. Şovkani belə deyir: "Heç bir şübhə və şəkk yoxdur ki, haqq əsrlərin ən xeyirlisi olanda, sonra onların ardınca gələnlərdə, daha sonra isə onların ardınca gələnlərdədir".[12]

---

[8] Səhih Buxari, kitabul-mənaqib, bab fəzailu əshabin-nəbi, c. 4, s. 189.

[9] Səhih Müslim, c. 7, s. 184.

[10] Məcmuətul-fətəva, c. 3, s. 85. Bu kitabın c. 4, s. 264 və c. 10, s. 49–da qeyd olunan hədisləri dəlil gətirmişdir; Minhacus-sunnə, c. 2, s. 35.

[11] İlamul-muqiin, c. 4, s. 136.

Hədisin orjinalında olan "qarn" (əsr) sözünün mənası.

Alimlər bu sözün təfsiri barədə müxtəlif rəylər söyləmişlər. Nəvəvi Səhih Müslimin şərhində c. 16, səh. 84–də bu sözün təfsiri barəsində fərqli rəyləri qeyd etdikdən sonra belə deyir: "Doğrusu budur ki, Peyğəmbərin (s) əsri səhabələr, ikincisi tabeinlər, üçüncüsü isə onlara tabe olanlardır".

İbn Həcər deyir: "Müslimin nəql etdiyi Abdullah bin Məsudun hədisində "qarn" (əsr) sözünün yüz ilə dəlalət etdiyinə işarə var. Məşhur rəy budur".[13]

Hədisin mətninə əsasən qeyd olunan üç əsrin başqa əsrlərdən mütləq anlamda üstün olduğu başa düşülür. Bəs necə ola bilər ki, səhabələrin və ya tabeinlərin əsrlərini əvvəlki əsrlərdən üstün hesab edək? Halbuki həmin əsrlərdə ulul-əzm peyğəmbərlər, mürsəllər və əməlisalehlər yaşamışlar!

Bu hədislə təzad yaradan ayələr və hədislər

Alimlərin əksəriyyəti qeyd olunan hədisə əsasən üç əsrdə yaşayan insanların başqalarından üstün olması hökmünü çıxarmışlar. Lakin İbn Həcər belə deyir: "Bu üstünlük hamıya aiddir, yoxsa fərdlərə. Bu ixtilaflı məsələdir. Əksəriyyət ikinci mənaya meyl etmişdir".[14]

Quran ayələri və çoxlu hədislər qeyd olunan hədislə ziddiyyət yaradır. Əgər səhihliyi qəti olan mətn (Quran ayəsi) səhihliyi güman əsasında olan mətnlə (hədislə) ziddiyyət yaradarsa səhihliyi qəti olan mətn üstün tutulmalıdır. Allah-taala buyurur: **"Ey iman gətirənlər! Sizdən hər kəs**

---

[12] ət-Tuhəf fi məahibis-sələf, s. 5. İbn Həzm "əl-Fəsl fil-miləli vəl-əhvai vən-nihəl, c. 3, s. 73; İbn Əbulizz Hənəfi, "Şərhul-əqidətit-tahaviyyə", s. 469 və başqaları bu hədisə əsasən dəlil gətirmişlər.

[13] Fəthul-Bari, c. 7, s. 4.

[14] Həmin mənbə.

dinindən dönsə, (bilsin ki) Allah (onun yerinə) elə bir tayfa gətirər ki, (Allah) onları, onlar da (Allahı) sevərlər. Onlar möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olar, Allah yolunda vuruşar və heç kəsin tənəsindən qorxmazlar. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah (öz lütfü ilə) genişdir, (O, hər şeyi) biləndir!"[15]

Bu ayədə hamıdan əvvəl səhabələrə xitab olunur. Bu isə sonrakı əsrlərdə onlardan üstün olacaq şəxslərin gələcəyinə dəlalət edir. Həmçinin bu mətn mömin olan həmin şəxslərin (səhabələrin) dindən çıxmasının mümkünlüyünə bəhs edir.

Allah-taala buyurur: **"...Əgər (Ondan) üz döndərsəniz, (sizi yox edib) yerinizə sizlər kimi olmayan (Allaha cani-dildən ibadət və itaət edən) başqa bir qövm gətirər!"**[16]

Bu ayə səhabələrdən üstün olanların mövcudluğunu aşkarcasına sübuta yetirir.

Hədislərə gəlincə, onların sayı olduqca çoxdur. İslamda üstünlüyün səhabəliklə deyil, saleh əməllə olması prinsipini tamamilə özündə əks etdirən həmin hədislərin bəziləri bu hədisə aşkarcasına ziddir.

Ənəs bin Malikdən Rəsulullahın (s) belə buyurduğu nəql olunur: "Ümmətim yağış məsəlindədir. Onun əvvəlinin, yoxsa sonunun xeyirli olması bilinmir".[17]

İbn Həcər deyir: "İbn Əbdulbirr bu hədislə dəlil gətirmişdir: "Ümmətim yağış məsəlindədir. Onun əvvəlinin, yoxsa sonunun xeyirli

---

[15] Maidə, 54

[16] Muhəmməd, 38

[17] Müsnədi Əhməd, c. 3, s. 130; c. 4, s. 319; Sünəni Tirmizi, kitabul-əmsal, hədis 2869; Təbərani, "əl-Mucəmul-avsat", c. 4, s. 231; Müsnədi Əbu Davud Təyalsi Süleyman bin Davud Tayalisi s. 90; Müsnədi Əbu Yəla Mosuli, c. 8, s. 143; İbn Əsakir, "Tarixi mədinəti Diməşq", c. 43, s. 16.

olması bilinmir". Bu hədis həsən hədisdir. Bu hədisin elə sənədləri var ki, səhih hədis səviyyəsinə yüksələ bilər".[18]

Heysəmi deyir: "Bu hədisi Əhməd, Bəzzaz və Təbərani nəql etmişlər. Bəzzazın raviləri Həsən bin Quzə və Übeyd din Süleymandan başqa hamısı səhih hədis ravilərdir. Bu ikisi isə etibarlı hesab olunurlar. Übeyd barəsində ixtilaf var. Lakin bunun heç bir zərəri yoxdur".[19]

Muhəqqiq Həsən Səqqaf bu hədisi səhih hesab etmişdir.[20]

Peyğəmbərin (s) ümmətinin vəziyyəti əvvəlinin və ya sonunun xeyirli olması bilinməyən bir yağış kimidir. Əgər səhabələrin əsri başqalarının əsrindən daha üstün olsaydı Peyğəmbər (s) bunu "Ümmətim yağış məsələlindədir. Onun əvvəlinin, yoxsa sonunun xeyirli olması bilinmir" hədisində bəyan edərdi.

Aşağıdakı hədisdə bizim dediklərimiz təsdiqlənir: Əhməd bin Hənbəlin Əbu Cümədən nəql etdiyi hədisdə deyilir: "Rəsulullahla (s) birlikdə nahar etdik. Əbu Übeydə bin Cərrah da bizimlə idi. (Übeydə) dedi: "Ya Rəsulullah, bizdən xeyirli biri varmı? Biz sənlə birlikdə islamı qəbul etdik və sənlə birlikdə cihad etdik". (Peyğəmbər) buyurdu: "Bəli! Sizdən sonra olacaq məni görmədən mənə iman gətirən insanlar".[21]

Əbu Cümə səhabə idi. Onun nəql etdiyi hədislərin birində belə deyilir: "Biz "Ya Rəsulullah, bizdən xeyirli kimsə varmı?" deyə soruşduq. (Peyğəmbər) buyurdu: "Sizdən sonra gələcək insanlar. İki lövhə arasında yazı görəcəklər. Orada olanlara iman gətirəcəklər. Məni görmədən mənə iman gətirəcəklər. Mənim gətirdiyimi təsdiqləyəcək və əməl edəcəklər. Onlar sizdən xeyirlidirlər".

---

[18] Fəthul-Bari, c. 7, s. 5.

[19] Məcməuz-zəvaid, c. 10, s. 68.

[20] Səhih şərhil-əqidətit-tahaviyyə, s. 214.

[21] Müsnədi Əhməd, c. 4, s. 106

İbn Əbdülbirr deyir: “Bu hədisi Həmzə bin Rəbiə Mərzuqdan, o da Nafedən, o da Saleh bin Cubeyrdən, o da Əbu Cümədən nəql etmişdir. Onların hamısı etibarlıdırlar.[22]

Heysəmi Məcməuz-zəvaid kitabında belə deyir: “Bu hədisi Əhməd, Əbu Yəla və Təbərani sənədləri ilə nəql etmişlər. Əhmədin nəql etdiyi sənədlərdən birinin raviləri etibarlı ravilərdir.[23]

İbn Həcər Fəthul-bari kitabında bu hədisi həsən hesab etmişdir.[24]

İbn Əbdülbirr deyir: “Peyğəmbər (s) xəbər vermişdir ki, ümmətinin sonuncuları onun bəzi səhabələrindən üstün olacaqdır”.[25]

Bu hədisin mətni Rəsulullahla (s) islam dinini qəbul edən və onunla cihad edən səhabələrdən üstün olanların varlığını aşkarcasına bəyan edir. Hətta Cənnətlə müjdələnən on nəfərdən biri hesab etdikləri Übeydənin belə özündən üstün olanların varlığına dəlalət edir.

Başqa bir hədisdə isə belə deyilir: “Əbdürrəhman bin Cubeyr bin Nəfir belə nəql edir: “Mutə döyüşü günü Zeydlə birlikdə ölənlərə görə Peyğəmbərin (s) səhabələrinin qorxuları həddən artıq artdıqda Peyğəmbər (s) belə buyurdu: “Məsih (qayıdışı zamanı) bu ümmətdən elə insanlarla qarşılaşacaq ki, onlar sizin kimidirlər və ya sizdən daha xeyirlidirlər (üç dəfə bu sözü təkrar etdi). Əvvəli mən, sonu isə Məsih olan bir ümməti Allah heç vaxt xar etməz”.[26]

---

[22] əl-İstizkar, c. 10, s. 187, 188; əl-Mustədrək, c. 4, s. 85, 86;. Hakim və Zəhəbi bu hədisi səhih hesab etmişdir; Sünəni Darami, c. 2, s. 308.

[23] Məcməuz-zəvaid, c. 10 , s. 66.

[24] Fəthul-bari, c. 7, s. 5, 6.

[25] əl-İstizkar, c. 2, s. 172.

[26] İbn Əbu Şeybə əl-Kufi, “əl-Musənnəf”, c. 4, s. 567; İbn Həcər Fəthul-bari kitabında c. 7, s. 5-də bu hədisi həsən hesab etmişdir; Şovkani, “Neylul-əvtar”, c. 9, s. 229.

Məsih (ə)-ın yanında olacaq şəxslər səhabələr kimi və ya onlardan xeyirli olacaqlar. Hədisdə üç dəfə Peyğəmbərin (s) sözlərini təkrar etməsi onların daha xeyirli olmasına dəlalət edir.

Əbu Əmamədən belə nəql olunur ki, Peyğəmbər (s) belə buyurdu: "Xoş o kəsin halına ki, məni görüb mənə iman gətirib. Yeddi dəfə xoş o kəsin halına ki, məni görməmiş mənə iman gətirəcək".[27]

Hakim bu hədisi Ömərdən nəql edərək səhih hesab etmişdir: "Peyğəmbərlə (s) birlikdə əyləşmişdim. Rəsulullah (s) buyurdu: "Heç bilirsinizmi iman əhlindən imanı daha üstün olan kimlərdir?" (Səhabələr) dedilər: "Ya Rəsulullah, mələklər". (Peyğəmbər) dedi: "Bu belədir. Onların buna haqları var. Onların belə olmalarına maneə olacaq bir şey yoxdur. Allah onları layiq olduqları məqamlarında qərarlaşdırmışdır. Onlardan başqalarıdır". (Səhabələr) dedilər: "Ya Rəsulullah, Allahın nübüvvət və risalətlə hörmətli etdiyi peyğəmbərlərmi?" (Peyğəmbər) dedi: "Bu belədir. Onların buna haqları var. Onların belə olmalarına maneə olacaq bir şey yoxdur. Allah onları layiq olduqları məqamlarında qərarlaşdırmışdır. Onlardan başqalarıdır". (Ömər) deyir: "Biz dedik: "Bəs kim, Ya Rəsulullah?" (Peyğəmbər) dedi: "Onlar məndən sonra gələn kişilərin bellərindən gələcəklər. Məni görmədən mənə iman gətirəcəklər. Vərəqlərdə yazılanlara baxıb ordakılara əməl edəcəklər. Onlar iman əhli içərisində iman baxımından ən üstün olanlardırlar".[28]

Təbəraninin nəql etdiyi rəvayətdə belə deyilir: "(Səhabələr) dedilər: "Sənin səhabələrin, Ya Rəsulullah?" (Peyğəmbər) buyurdu: "Səhabələrim gördüklərindən sonra mənə necə iman gətirəməzlər? Lakin o insanların imanı təəccüblüdür ki, məndən sonra olacaqlar, məni görmədən mənə

---

[27] Albani, "Silsilətul-əhadis əs-səhihə, c. 3, s. 244. Hədis 1241.

[28] əl-Mustədrək, c. 4, s. 85, 86; Heysəmi Məcməuz-zəvaid kitabında bu hədisi həsən hesab etmişdir. Musnədi Əbu Yəla, c. 1, s. 147.

iman gətirəcəklər. Məni görmədən məni təsdiqləyəcəklər. Onlar mənim qardaşlarımdır”.[29]

Səhabələr iman baxımından başqalarından heç də üstün deyillər. Əksinə iman baxımdan üstün olan insanlar Peyğəmbəri (s) görmədən ona iman gətirən kişilərin bellərindən gələcəklər. Təkcə bu hədis sələfilərin əsaslandıqları hədisin doğru olmaması üçün yetərlidir.

Huzeyfə Peyğəmbəri görmədən ona iman gətirən tabeinlərə qibtə edərdi. İbn Əsakir Ömər bin Xəttabın azad etdiyi Zeyd bin Əsləmdən belə nəql edir: “Bir şəxs Huzeyfəyə dedi: “Sizin Rəsulullahla (s) yoldaş olmanız, onunla birlikdə olmanız və onu görmənizi, bizim isə onu görmədiyimiz üçün Allaha gileylənirik!” Huzeyfə dedi: “Biz sizin onu (Peyğəmbəri) görmədiyiniz halda iman gətirmənizi üçün Allaha gileylənirik. Allaha and olsun ki, ey qardaş oğlu, onun görsəydiniz bilərdiniz necə olardı. Bizi Xəndək döyüşü gecəsi soyuq və yağışlı bir gecədə görərdin. Əbu Süfyan və tərəfdarları xəndəyin kənarında idi. Rəsulullah (s) buyurdu: “Kim gedib onlardan bizə bir xəbər gətirər ki, Allah da onu Cənnətə daxil etsin?” Allaha and olsun ki, bizdən heç kim ayağa qalxmadı. Sonra (Peyğəmbər) belə dedi: “Kim gedib onlardan bizə bir xəbər gətirər ki, Allah da onu qiyamət günü Cənnətdə İbrahimin yoldaşı etsin?” Allaha and olsun ki, bizdən heç kim yerindən tərpənmədi. Sonra (Peyğəmbər) belə dedi: “Kim gedib onlardan bizə bir xəbər gətirər ki, Allah da onu qiyamət günü mənə yoldaş etsin?” Allaha and olsun ki, bizdən heç kim ayağa qalxmadı. Əbu Bəkr dedi: “Ya Rəsulullah, Huzeyfəni göndər”. Mən dedim: “Allaha and olsun ki, səndən sonra”. Rəsulullah (s) buyurdu: “Ey Huzeyfə!” Mən dedim: “Atam, anam sənə qurban! Ləbbeyk!” (Peyğəmbər) dedi: “Sən gedirsənmi?” Mən dedim: “Allaha and olsun ki,

[29] əl-Mucəmul-kəbir, c. 12, s. 68, 69.

ölməkdən deyil, əsir düşməkdən qorxuram". (Peyğəmbər) dedi: "Sən əsir düşməyəcəksən". Mən dedim: "Ya Rəsulullah, istədiyini əmr et".[30]

Hakim Əbdürrəhman bin Yeziddən belə nəql edir: "Abdullahın yanında Muhəmmədin (s) səhabələri və onların imanları barədə danışdılar. Abdullah belə dedi: "Muhəmmədin (s) məsələsi onu görən kəs üçün aşkar idi. Özündən başqa ilah olmayana and olsun ki, qeyb üzündən iman gətirən kəs kimi üstün biri yoxdur. Sonra bu ayəni oxudu: **"Əlif, Lam, Mim. Bu, (Allah tərəfindən nazil edilməsinə, haqdan gəlməsinə) heç bir şəkk-şübhə olmayan, müttəqilərə (Allahdan qorxanlara, pis əməllərdən çəkinənlərə) doğru yol göstərən Kitabdır... O kəslər ki, qeybə inanır..."**[31]

Budur Abdullah bin Məsud bu məsələni bizə Quranla uyğun bir tərzdə izah edir.

Səhih Müslimdə Əbu Hüreyrədən belə nəql olunur: "Rəsulullah (s) qəbristanlığa gəlib dedi: "Salam olsun sizə! Mömin insanların yurdu. Biz də Allahın izni ilə sizə qovuşacağıq. Çox istərdim ki, qardaşlarımızı görərdik". (Səhabələr) dedilər: "Ya Rəsulullah, məgər biz sənin qardaşların deyilik?" (Peyğəmbər) buyurdu: "Siz mənim səhabələrimsiniz. Bizim qardaşlarımız isə hələ dünyaya gəlməyiblər".[32]

Peyğəmbərin qardaşları hələ dünyaya gəlməyiblər. Şübhəsiz ki, qardaşlıq xüsusiyyəti Peyğəmbərin onlara nisbət verdiyi səhabəlik xüsusiyyətindən daha üstündür.

Deməli, sələfilərin əsaslandıqları bu hədis Quran ayələri və çoxlu hədislərlə ziddiyyət yaradır. Əgər bu hədislər arasında ortaq məxrəcə

---

[30] İbn Əsakir, "Tarixu mədinəti Diməşq", c. 23, s. 444.

[31] əl-Mustədrək, c. 2, s. 260. Hakim belə deyir: "Bu hədis iki şeyxin (Buxari və Müslim) şərtinə əsasən səhihdir. Lakin onlar bu hədisi qeyd etməmişlər". Həmçinin bax; Təfsiri İbn Əbu Hatəm, c. 1, s. 36. İbn Əbu Hatəm yazdığı təfsirdə yalnız sənədi səhih olan hədislərə etimad edəcəyini qeyd etmişdir. İbn Kəsirin təfsiri, c. 1, s. 44.

[32] Səhih Müslim, c. 1, s. 150, 151.

gəlmək imkanını fərz etsək də yuxarıda qeyd etdiyim iki ayəyə cavab tapa bilmərik. Quranın mətni qəti surətdə səhih olduğu üçün ən xeyirli əsr hədisi etibardan düşür. İbn Əbdülbirr qeyd edir ki, bəzi hörmətli alimlər ən xeyirli əsr hədisinə qarşı çıxmışlar. O belə deyir: "Bəzi hörmətli alimlər "Ən xeyirli insanlar mənim əsrimdə olanlardır" hədisinə "İnsanların ən xeyirlisi ömrü uzun və əməli gözəl olandır" hədisi ilə etiraz etmişlər.[33]

Kaş İbn Əbdülbirr həmin alimlərin adlarını qeyd edərdi! Onun sözləri bizə bu hədis barəsində ixtilaf olduğunu çatdırır.

Şübhəsiz ki, Peyğəmbəri görməməklə ona iman gətirmək, fitnələrin çoxluğu, düşmənlərin səfərbər olduğu halda Allahın dinində sabit qalmaq gözləri ilə möcüzələri görənlərin imanından daha üstündür. Mustafanın (s) onların arasında olması yetərli idi. Onun nuru müsəlmanları qarşılaşdıqları bütün azğınlıqlardan xilas edirdi.

Onları, etdikləri əməllərə baxmayaraq, yanar kömürü əllərində tutduqları kimi dinlərindən tutan möminlərdən üstün hesab etmək insafsızlıq deyilmi?!

Hədisin həqiqəti

Peyğəmbərin (s) vəfatından sonra insanların çoxu dindən çıxmışdır. Malik bin Nuveyrə və onun qövmü müsəlmanların vasitəsilə qətlə yetirildi. Həmin əsrdə Ömər bin Xəttaba suiqəsd olundu. Osman ilə səhabələr arasında fitnə baş verdi və nəticədə səhabələrin əli ilə Osman qətlə yetirildi. Əli (ə) hakimiyyətə gəldikdə bir dəstə beyəti pozdu, bir dəstə həddi aşdı, bir dəstə isə dindən çıxdı. Cəməl döyüşündə - əsrlərin ən xeyirlisində otuz minə qədər insan qətlə yetirildi! Siffin döyüşündə - əsrlərin ən xeyirlisində təqribən yüz min insan qətlə yetirildi! Daha sonra isə Nəhrivan döyüşündə - əsrlərin ən xeyirlisində minlərlə insan qətlə

[33] ət-Təmhid, c. 20, s. 252; Albani bu hədisi "Səhihut-tərğib vət-tərhib" kitabında səhih hesab etmişdir, hədis 3364.

yetirildi. Bütün bu müharibələr əsrlərin ən xeyirlisində yaşayanların arasında baş vermişdir. Bu əsrdə Əli bin Əbu Talib (ə) qətlə yetirildi, oğlu Həsən (ə) Müaviyə tərəfindən zəhərləndi və Müaviyənin əli ilə çoxlu sayda hörmətli səhabələr qətlə yetirildi. Bütün bu şər hadisələr əsrlərin ən xeyirlisində baş vermişdir. Əsrlərin ən xeyirlisində ən böyük müsibət baş vermişdir. Həmin müsibət İmam Hüseynin (ə) Kərbəlada qətlə yetirilməsi idi. Hətta südəmər körpələr belə bu cəfəng üstünlükdən öz nəsibini almışdır. İmam Hüseynin südəmər övladının nəsibi boğazına sancılmış ox olmuşdu. Sonra isə İmam Hüseynin kəsilmiş başı nizə ucunda Kərbələdan Şama aparılmışdır.

İbn Səd "ət-Təbəqat" kitabında Minhaldan belə nəql eidr: "Əli bin Hüseynin yanına gəldim. Ona belə dedim: "Allah sənə yardım etsin, necəsən?" O belə dedi: "Bu diyarda sənin kimi bir şeyx görmədim. Bilmir ki, biz necə olduq. Əgər bilmirsənsə və xəbərin yoxdursa mən sənə xəbər verirəm. Biz öz qövmümüzün içərisində Bəni İsrailin Fironun əhli arasında olduğu məqamda olduq. Onların övladlarının başlarını kəsirdilər, qadınlarını isə kəniz edirdilər. Bizim böyüyümüzü və ağamızı söyməklə və ya minbərlərdə hədyan söyləməklə düşmənimizə yaxınlaşdılar. Qureyş Muhəmmədin onlardan olmasını əsas gətirərək ərəblərdən üstün olduqlarını hesab etdilər. Onların üstünlüyü yalnız onun (Muhəmmədin Qureyşdən olması ilə) onlardan olmasına görədir. Ərəblər də bu fəziləti onlar üçün təsdiqlədilər. Əgər ərəblər əcəmlərdən üstün olmaqlarını deməkdə doğru olsalar və Qureyş Muhəmmədin onlardan olmasını əsas gətirərək ərəblərdən üstün olmalarını deməklə doğru olsalar, biz Əhli-Beyt Qureyşdən də üstünük. Çünki Muhəmməd bizdəndir. Onlar bizim haqqımızı əlimizdən aldılar, haqqımızı bizə vermədilər. Əgər bilmirsənsə necə olduq, bax belə olduq biz!"[34]

[34] ət-Təbəqatul-kubra, c. 5, s. 113.

Əsrlərin ən xeyirlisində peyğəmbər evinin qızları əsir düşdülər. Həmin əsrdə Rəsulullahın (s) şəhəri üç gün Yezidin ordusuna mübah oldu. Səhabələrin minə qədər bakirə qızlarının bəkarətləri pozuldu! Uşaqların və qocaların başları kəsildi. Kəbə evi mancanaqla vuruldu və dağıdıldı. Əsrlərin ən xeyirlisində baş verən bu kimi şər hadisələr görmüsənmi?

Bütün bu müsibətlərlə yanaşı biz həmin əsri müqəddəsləşdirməliyikmi? Biz həmin əsrdə yaşayanlara iqtida etməli və onların etdikləri bütün əməlləri yerinə yetirməliyikmi?

Peyğəmbər səhabəsi Ənəs bin Malik birinci əsrin vəziyyətini bizə izah edərək belə deyir: "Əgər bir kəs birinci sələflə qaşılaşsaydı sonra bu gün dirilsəydi İslamdan bir şey tanımazdı".[35]

Belə olan halda ikinci və üçüncü əsrin vəziyyəti necə olmuşdur?

Malik deyir: "Eşitdiyimə görə Əbu Hüreyrə **"(Ya Peyğəmbər!) Allahın köməyi və zəfər (Məkkənin fəthi) gəldiyi zaman; İnsanların dəstə-dəstə Allahın dininə (islama) daxil olduqlarını gördüyün zaman"** ayətini oxumuş sonra isə belə demişdir: "Canım əlində olana and olsun ki, insanlar dəstə-dəstə dinə daxil olduqları kimi, bu gün dindən dəstə-dəstə çıxırlar".[36]

Əgər hədisin səhihliyini fərz etsək bu hədisi başqa hədislərin məzmununun dəlalət etdiyi mənalara əsasən anlamalıyıq. Çünki hədislər bir-birini izah edir.

İbn Əbdülbirrin bu məsələ ilə bağlı çox gözəl sözü var. O belə deyir: "Mənim nəzərimdə – Allah doğrusunu bilir – "İnsanların xeyirliləri mənim əsrimdə olanlardır" hədisində səhih məna budur. Burada ümumi deyil xüsusi məna nəzərdə tutulub. Çünki aşkar dəlillər var ki, onun əsrində kafirlər, facirlər, xeyirli və şər olanlar var. Həmin əsrdə münafiqlər,

---

[35] Şatibi, "əl-İtisam", c. 1, s. 26.

[36] Mufidusl-mustəfid fi kufri tarikit-tovhid, s. 322; Muhəmməd bin Əbdülvəhhab, "əd-Durərus-səniyyə fil-əcvibətin-nəcdiyyə", c. 9, s. 439.

fasiqlər, zinakarlar, oğrular olmuşdur. Həmçinin həmin əsrdə siddiqlər, şahidlər, fəzilət sahibləri və alimlər olmuşdur. Bizim nəzərimizdə Peyğəmbərin (s) "İnsanların xeyirliləri mənim əsrimdə olanlardır" sözü "mənim əsrimdə xeyirli insanlar olmuşdur" anlamındadır.[37]

Bəlkə də İbn Əbdülbirrin bu mənanı başa düşməsinə Rəsulullahdan (s) nəql olunan "Xeyirli insanlar mən yaşayan əsrdə, sonra ikinci daha sonra isə üçüncü əsrdədir", yaxud "İnsanların xeyirlisi mənim əsrimdə olanlardır. Sonra onların ardınca gələnlər, daha sonra isə onların ardınca gələnlərdir"[38] rəvayətləri səbəb olmuşdur.

Bu məna doğrudur. Həmin əsrlərdə xeyirli insanların önündə Mustafa (s) sonra isə Quranın buyurduğu kimi peyğəmbərin özü məqamında olan Əli (ə) dayanır. Sonra isə aləmlərin qadınlarının xanımı Fatimə (ə) dayanır. Daha sonra isə Qurandan ayrılmayan və insanların hidayətçiləri olan Əhli-Beyt imamları (ə) gəlirlər. Səhih hədisdə deyildiyi kimi onların Quranla birlikdə olmaları fəxr etmələri üçün yetərlidir. Onlar ilk pillələrdə olanlardır. Onlardan sonra isə başqa fəzilət sahibləri gəlirlər.

Həqiqətən də həmin əsrlər əsrlərin xeyirlisi idi. Belə ki, insanların xeyirliləri həmin əsrlərdə yaşamışlar. Həmçinin ən pis insanların da həmin əsrdə yaşamalarını rəyinin də düzgün olmasını mümkün hesab edirəm!

İbn Əbdülbirrin bu hədis barədə anlayışı Əbusəlah Hələbinin anlayışına yaxındır. Əbusəlah belə deyir: "Nəql etdiklərinə gəlincə, Peyğəmbər (s) buyurmuşdur: "Əsrlərin ən xeyirlisi mənim yaşadığım əsrdir. Sonra onların ardınca gələnlər". Bu hədis həmin əsrlərdə yaşayanların hamısının deyil, xeyirli olanların çoxluğuna dəlalət edir. Məsələn, bir nəfər deyir: "Filan tayfa filan tayfadan xeyirlidir" və ya "Filan tayfa filan tayfadan daha şücaətlidir". Bu söz yalnız iki tayfadan birində

---

[37] əl-İstizkar, c. 1, s. 190.

[38] Albani, "Səhihul-camii", hədis 3288 və 4294.

digərinə nisbətdə xeyirli və şücaətli olanların say çoxluğuna dəlalət edir. Çoxlarının bu nişanədən çıxmaları dediyimizi təkid edir. Həmçinin qəti məlumdur ki, səhabədən üstün olan tabeinlər olmuş və onların ardınca gələnlər isçərisində isə onlardan da üstün şəxslər olmuşdur. Bizə müasir olanlar içərisində bir çox səhabədən üstün olanlar var".[39]

Üstünlük fərdlər deyil, hamını nəzərdə tutmaqla hesab olunur. Məsələn, "ərəblər İslam dininin yükünü daşımışlar" dedikdə bütün ərəbləri nəzərdə tutmuruq. Çünki ərəblər içərisində bu dinə qarşı çıxan, ona qarşı vuruşan və möminləri qətlə yetirənlər olmuşdur. Həmçinin Peyğəmbərin (s) "İnsanların xeyirlisi mənim əsrimdə olanlardır" hədisi fərdlər barədə deyil ki, həmin əsrdə yaşayan bütün fərdlərə şamil edək.[40]

Hədisdəki üstünlük Allah-taalanın bu ayəsindəki üstünlük kimidir**: "(Ey müsəlmanlar!) Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz (onlara) yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız..."** Deməli, hədisdəki üstünlük yaxşı işlərə əmr etmək və pisliklərdən çəkindirmək prinsipinə əsaslanır. Quran və sünnə bir-birini izah edir.

Hədisin dəlalət etdiyi məna

Bu araşdırmada əsas məsələ budur:"Əsrlərin xeyirlisi" hədisi sələfiləri necə dəstəkləyir? Onlar bu hədisi öz dəvətləri üçün necə dəlil hesab edirlər?

Bu iki suala Şovkaninin yuxarıda qeyd etdiyimiz sözləri ilə cavab vermək olar. Çoxları onun dediyi sözlərin mənasını təkrarlayırlar.

---

[39] Təqribul-məarif, s. 395.

[40] Abbas Musəvi, "Şubuhatun halə əş-şiə", s. 116.

Şovkani deyir: “Heç bir şübhə və şəkk yoxdur ki, haqq əsrlərin ən xeyirlisi olanda, sonra onların ardınca gələnlərdə, daha sonra isə onların ardınca gələnlərdədir”.[41]

Heç bir şübhə və şəkk yoxdur ki, bu söz əsassızdır. Çünki qeyd olunan üç əsrin insanlarının hamısı vahid əqidədə olmamışdırlar. Onların fiqhdə ixtilaf salmaları heç kəsə gizli deyil. Hətta o dərəcədə olmuşdur ki, tədqiqatçılar bəzi sələflərin özlərinə məxsus olan fiqhi barədə çoxcilidli kitablar yazmışlar.

Həmin əsrlərdə yaşanların əqidə məsələrində ixtilaflı olmaları daha aşkardır. Məlumdur ki, xəvaric, murciə, mötəzilə kimi kəlam məzhəbləri həmin əsrlərdə meydana çıxmışdır. Həmçinin bəzilərinin rafizi adlandırdığı şiələr də həmin əsrlərdə olmuşdur!

Deməli, bu hədis sələfilik üçün dəlil hesab oluna bilməz. Əgər bu hədisin həmin əsrlərdə yaşayan bəzi insanlara məxsus olduğunu desələr, hədisin onların müddəasına dəlalət etmədiyini isbat etmiş olarlar. Öz müddalarını izah və bəyan etmək üçün başqa hədislərə müraciət etməlidirlər. Qeyd olunan hədisə əsasən dəlil gətirmək məsləsində bu zəiflik bu hədisi bir kənara atmaları üçün kifayətdir!

İkinci hədis: “Mənim və səhabələrimin getdiyi yolda olan”.

Firqələrə bölünmək barədə hədis nicata çatacaq firqəni təyin etmədən bir çox hədis kitablarında qeyd edilmişdir. Bəzi rəvayətlərdə onlar camaat və ya böyük əksəriyyət olaraq təyin edilmişdir. Bəzən isə “mənim və səhabələrimin yolu” sözləri ilə təyin edilmişdir. Sələfilərin ən çox dəlilləri sonuncu mətnə əsaslanır. Buna əsasən də firqələrə bölünmək

[41] ət-Tuhəf fi məahibis-sələf, s. 5. İbn Həzm “əl-Fəsl fil-miləli vəl-əhvai vən-nihəl, c. 3, s. 73; İbn Əbulizz Hənəfi, “Şərhul-əqidətit-tahaviyyə”, s. 469 və başqaları bu hədisə əsasən dəlil gətirmişlər.

hədisinin səhih və ya yalan olmasını nəzərə almadan bu barədə araşdırma aparacağıq.

Tirmizi belə nəql edir: "Mahmud bin Ğəylan Əbu Davud Həfridən, o da Sufyandan, o da Əbdürrəhman bin Ziyad bin Ənəm İfriqidən, o da Abdullah bin Yeziddən, o da Abdullah bin Əmrdən belə nəql edir: "Rəsulullah (s) belə buyurdu: "Bəni İsrailin başına gələnlər eynilə mənim ümmətimin də başına gələcək. Bəni İsrail yetmiş iki dəstəyə bölünmüşdür. Mənim ümmətim isə yetmiş üç dəstəyə bölünəcək. Onların birindən başqa hamısı cəhənnəm odundadır". (Abdullah bin Əmr) dedi: "Həmin firqə kimlərdir, Ya Rəsulullah?" (Peyğəmbər) dedi: "Mənim və səhabələrimin yolunda olanlar".[42]

əl-Müstədrək kitabında isə belə yazılır: "Ya Rəsulullah, həmin bir dəstə hansıdır?" deyə soruşdular. (Peyğəmbər) buyurdu: "Bu gün mənim və səhabələrimin tutğu yolu tutanlar".

Bu hədisə əsasən dəlil gətirənlər

Sələfi imamları və alimləri bu hədisə əsasən özlərinin nicat tapan dəstə olduqlarına dəlil gətirirlər. Onlardan aşağıdakıların adlarını qeyd edirik:

1. İbu Qəyyim, "Muxtəsərus-səvaiqil-mursilə", c. 2, səh. 516.
2. İbn Əbulizz, "Şərhul-əqidətitahaviyyə", səh. 260.
3. Muhəmməd bin Əbdülvəhhab, "Usulul-iman".
4. İbn Baz, "əl-Əqidətus-səhihə və ənvaqizil-islam", səh. 21.
5. Doktor Əbdrrəhman bin Saleh Mahmud, "Movqifu İbn Teymiyyə minəl-əşairə", c. 1, səh. 28.
6. Şeyx Əhməd bin Əbdürrəzzaq Duveyş, "əl-Ləcnətud-daiməti lilbuhusil-ilmiyyəti vəl-ifta", c. 2, səh. 158.

[42] Sünəni Tirmizi, c. 4, s. 135.

Hədisin qeyd edilməsini Müsnədi Əhmədə, Əbu Davuda, Tirmiziyə, İbn Macəyə, Hakimə və Aciriyə nisbət vermişlər. Halbuki hədis bu mətnlə yalnız Hakim, Tirmizi və Aciri tərəfindən qələmə alınmışdır.

Elmi Araşdırmalar və Fətva Komitəsi belə deyir: "Nicat tapmış firqəni Muhəmməd peyğəmbər (s) bəzi hədislərdə bəyan etmişdir. Yuxarıda qeyd edilmiş hədisdə səhabələrin "Nicata çatmış firqə hansıdır?" sualına cavab verilmişdir. Belə ki, (Peyğəmbər) buyurmuşdur: "Kim mənim və bu gün səhabələrimin olduğu yolda olarsa". Peyğəmbər nicata çatmış firqəni əqidəsində, sözündə, əməlində və əxlaqında Muhəmməd peyğəmbərə (s) və səhabələrinə tabe olmaq xüsusiyyətilə vəsf etmişdir.[43]

7. Əhməd Salam "Mən və səhabələrimin yolunda olan" kitabında belə deyir: "Bu hədis, yəni "Mən və səhabələrimin yolunda olan" hədisi usuldandır.

Həmçinin belə deyir: "Hədisdəki bu cümlə dəlalət edir ki, müxtəlif firqələrdən fərqlənən nicata çatmış firqə əhəmiyyətli əlamətlə yanaşı ilk növbədə Rəsulullahın (s) sünnəsinə tabe olmaqdır. Həmin əhəmiyyətli əlamət isə səhabənin yoluna tabe olmasıdır. Bu əlamətə əsasən səhabənin yoluna tabe olmaq Rəsulullaha (s) tabe olmaq deməkdir. Kim səhabələrin yolu ilə gedərsə o, insanlar içərisində Peyğəmbərə (s) ən layiq kəsdir".[44]

8. Doktor Muhəmməd Kərim Abdullah. O, bu hədisi qeyd etdikdən sonra belə deyir: "Bu xüsusiyyət yalnız hədis və sünnə əhlinə uyğundur. Yalnız onlar Peyğəmbər və səhabələrinin yolundadırlar. Məhz onlar nicata çatmış firqədirlər. Buna əsasən də Əhməd bin Hənbəl firqələr barədə hədisi qeyd etdikdən sonra belə demişdir: "Əgər onlar hədis əhli deyilsə, kimin olduğunu bilmirəm".[45]

---

[43] Fətava əl-ləcinətud-daimə, c. 2, s. 151, 152.

[44] Mə ənə aleyhi və əshabi, s. 50, 51.

[45] Vasətiyyətu əhlis-sunnə, s. 121.

9. İbn Teymiyyəyə gəlincə, o, kitablarında bu hədisə əsasən çox dəlil gətirmişdir. Ondan firqələrə bölünmək hədisi barədə soruşanda belə demişdir: "Allaha həmd olsun ki, hədis səhihdir, sünən və müsnəd kitablarında məşhurdur... Nəql olunan rəvayətlərin birində soruşdular: "Ya Rəsulullah, nicata çatan firqə hansıdır?" (Peyğəmbər) belə buyurdu: "Bu gün mənim və səhabələrimin tutduğu yolda olan".[46]

Bu hədisə əsasən gətirilən dəlilin mahiyyəti: Peyğəmbər (s) xəbər vermişdir ki, nicata çatacaq firqə onun və səhabələrinin tutduğu yolda olandır. Sələfilikdən başqa Peyğəmbərin və səhabələrin yolunda olan başqa bir firqə yoxdur.

Hədisin sənədi

Bu hədisi Tirmizi nəql edərək belə demişdir: "Mahmud bin Ğəylan Əbu Davud Həfridən, o da Sufyandan, o da Əbdürrəhman bin Ziyad bin Ənəm İfriqidən, o da Abdullah bin Yeziddən, o da Abdullah bin Əmrdən belə nəql edir: "Rəsulullah (s) belə buyurdu: "Bəni İsrailin başına gələnlər eynilə mənim ümmətimin də başına gələcək. Bəni İsrail yetmiş iki dəstəyə bölünmüşdür. Mənim ümmətim isə yetmiş üç dəstəyə bölünəcək. Onların birindən başqa hamısı cəhənnəm odundadır". (Abdullah bin Əmr) dedi: "Həmin firqə kimlərdir, Ya Rəsulullah?" (Peyğəmbər) dedi: "Mənim və səhabələrimin yolunda olanlar".[47]

Bu hədisin sənədinə olan Əbdürrəhman bin Ziyad İfriqi nöqsanlı cəhətdir.

Hədis hafizi Mizzi deyir: "Əbu Musa Muhəmməd bin Musənna belə deyir: "Yəhyanın və Əbdürrəhmanın Sufyandan hədis nəql etmələrini eşitməmişəm". Əmr bin Əli deyir: "Yəhya ondan nəql etmirdi". Əli Mədini deyir: "Yəhya bin Səiddən onun barəsində soruşdum. Belə dedi: Hişam

---

[46] Məcmuətul-fətava, c. 3, s. 215.

[47] Sünəni Tirmizi, c. 4, s. 135.

bin Urvədən onun barəsində soruşdum. Mənə belə dedi: “Ondan danışma. Onun hədisi zəif hədisdir”.

Başqa bir yerdə belə deyir: “Yəhyanın belə dediyini eşitdim: “Hişam bin Urvəyə İfriqinin İbn Ömərdən dəstəmaz barədə nəql etdiyi hədis barədə danışdım. O dedi: “Bu zəif hədisdir”. Yəhya İfriqini zəif hesab etdi”.

Muhəmməd bin Yezid Mustəmli belə deyir: “Əbdürrəhman bin Məhdinin belə dediyini eşitdim: “İfriqiyə gəlincə, ondan hədis nəql etmək lazım deyil”.

Əbu Talib Əhməd bin Hənbəldən belə nəql edir: “Bir şey deyil”. Əhməd bin Həsən Tirmizi və başqaları Əhməd bin Hənbəldən belə dediyini nəql edirlər: “Mən onun hədisini nəql etmirəm”.

Əbu Bəkr Mərvəzi Əhməd bin Hənbəlin belə dediyini nəql edir: “Hədisi məqbul deyil”. Əbu Bəkr bin Xeysəmə Osman bin Əbu Şeybədən, o da Yəhya bin Muindən belə nəql edir: “Zəifdir”. Muhəmməd Yəhyanın belə dediyini də əlavə etmişdir: “Hədisi yazılar. Onun nəql etdiyi qəribə hədislər məqbul deyil”.

Abbas Duri Yəhya bin Muinin belə dediyini nəql edir: “Onun heç bir eybi yoxdur. O, zəifdir. O, mənim üçün Əbu Bəkr bin Əbu Məryəm Ğəssanidən daha əzizdir”. Əli bin Mədini belə deyir: “Səhabələrimiz onu zəif hesab edirdilər. Səhabələrimiz yalnız onun nəql etdiyi məqbul olmayan hədisləri inkar etmişlər”. İbrahim bin Yaqub Covzcani belə deyir: “Hədis nəqlində bəyənilmir”.

Əbdürrəhman bin Əbu Hatəm belə deyir: “Atamdan və Əbu Zurədən İfriqi və İbn Luheybə barədə soruşduq. Onların hansı sizin üçün daha sevimlidir?” Hər ikisi dedi: “Hər ikisi zəifdir. İfriqi ilə İbn Luheybə arasından İfriqi zəif olmağa daha oxşardır”.

Saleh bin Muhəmməd Bağdadi belə deyir: “Hədisi məqbul deyil. Lakin o, əməlisaleh insan idi”.

Tirmizi deyir: “Hədis əhlinin nəzərində zəifdir. Yəhya bin Qəttan və başqaları onu zəif hesab etmişlər. Muhəmməd bin İsmailin onu gücləndirdiyini gördüm. Onun barəsində belə deyirdi: “Nəql etdiyi hədislər (doğruya) yaxın hədislərdir”.

Nəsai deyir: “Zəifdir”. Əbu Bəkr bin Xuzeymə deyir: “Onun hədisi ilə dəlil gətirilməz”. İbn Xiraş deyir: “Hədisi tərk olunar”. Zəkəriya bin Yəhya Saci deyir: “Onda zəiflik var”. İbn Hibban deyir: “Etibarlı ravilərdən qondarma hədislər nəql edir. Muhəmməd bin Səid Məslubun adından yalan hədis uydurur”.

İfriqinin vəziyyət belədir. Onu etibarlı sayan bəzi alimlərin sözlərini qeyd etmirik. Çünki bu, adı çəkilən ravinin vəziyyətini dəyişmir. İbn Həcər onun barəsində söylədiyi fikri xülasə olaraq belə ifadə edir: “Doğrusu budur ki, o, çoxlu sayda məqbul olmayan hədislər nəql etdiyi üçün zəifdir. Bu, elə bir məsələdir ki, əməlisalehlərə nöqsan gətirər”.[48]

Alimlər İfriqini zəiflər və nəql etdiyi hədisi tərk olunanlar sırasında qeyd etmişlər. Onlardan; İbn Udəy “əl-Kamil fi zuəfair-rical”, c. 4, səh. 159; Əqili, “əz-Zuəfaul-kəbir”, c. 2, səh. 332, 333; Darqutni, “əz-Zuəfau vəl-mətrukin”, səh. 119.

Albani İfriqinin nəql etdiyi hədisi qeyd edərkən belə demişdir: “Əbdürrəhmanın sənəddə olmasına görə bu sənəd zəifdir. O, Ziyad bin Ənəm İfriqinin oğludur. Pis hafizəsinə görə zəifdir”.[49]

Muhəmməd Fuad Əbdulbaqi sənədində İfriqinin də olduğu bir hədis barədə tədqiqat apararkən belə deyir: “Hədisin vəziyyəti Əbdürrəhman bin Ziyad İfriqidən asılıdır. O, zəifdir. Zəif olması ilə yanaşı yalan hədis nəql edirdi”.[50]

---

[48] Təhzibut-təhzib, c. 6, s. 160.

[49] İrvaul-ğəlil, c. 8, s. 59.

[50] Sünəni İbn Macə, c. 1, s. 171.

Mubarəkfuri Tirmizinin nəql etdiyi hədisi şərh etdikdən sonra belə deyir: "Hədisin sənədində Əbdürrəhman bin Ziyad İfriqi var. O, zəifdir".[51]

Hakim "Mən və səhabələrimin bu gün tutduğu yolda olan" hədisi İfriqinin də olduğu sənədlə nəql etmişdir. Hakim o və Kuseyr bin Abdullah barədə belə demişdir: "Onların nəqlinə əsaslanmaq olmaz".[52]

Bu hədisi Aciri İfriqinin də olduğu sənədlə nəql etmişdir.[53]

Təbərani bu hədisi başqa sənədlə nəql edərək deyir: "Mahmud bin Muhəmməd Vasiti Muhəmməd bin Sabah Curcanidən, o da Kuseyr bin Mərvan Fələstinidən, o da Abdullah bin Yezid bin Adəm Diməşqidən, o da Əbu Dərdadan, Əbu Əmamədən, Vailə bin Əsqə və Ənəs bin Malikdən belə nəql etmişdir...[54]

Bu sənəddə isə Kuseyr bin Mərvan var. Zəhəbi onun barəsində belə deyir: "Kuseyr bin Mərvan Əbu Muhəmməd Fehri Muqəddəsi. Onu zəif hesab etmişlər. İbrahim bin Əbu Ublədən və başqalarından nəql etmişdir.

Yəhya və Darqutni belə demişlər: "Zəifdir". Yəhya onun barəsində "yalançıdır" da demişdir. Fəsəvi deyir: "Onun nəql etdiyi hədis bir şey deyil".

İbn Həcər deyir: "İbn Hibban demişdir: "Tanınmayan hədislər nəql edir". Yəhya, Sədi və Darqutni onu zəif hesab etmişlər. Nəsai deyir: "Onun nəql etdiyi hədis bir şey deyil". Mahmud bin Ğəylan belə deyir: "Əhməd, İbn Muin, Əbu Xeysəmə onu etibardan salmışlar. Yəhya bin Muindən onun yalançı olması nəql olunmuşdur".[55]

---

[51] Tuhfətul-əhvəzi, c. 7, s. 400.

[52] əl-Mustədrək aləs-səhiheyn, c. 1, s. 128, 129.

[53] Bax; Acirinin əş-Şəriət kitabına.

[54] əl-Mucəmul-kəbir, c. 8, s. 152, 153.

[55] Təcilul-mənfə, s. 390.

İbn Mədini və Əbu Hatəm onu zəif hesab etmişlər. Buxari onun barəsində deyir: "Tanınmayan hədislər nəql etmişdir". Nəsai deyir: "Hədisi tərk olunar". Əbu Zurə deyir: "Zəifdir".[56]

Kuseyr bin Mərvan zəif ravilər barədə yazılmış kitablarda adı qeyd edilmiş ravidir. Məslən, İbn Udəy "əl-Kamil", c. 7, səh. 207, Zəhəbi, "əl-Muğni fiz-zuəfa", c. 2, səh. 228 və Divanuz-zuəfa vəl-mətrukin, c. 2, səh. 259. İbn Hibban nöqsanlı ravilər barəsində yazdığı kitabda belə deyir: "Onunla və ondan nəql olunan rəvayətlə dəlil gətirilməsi caiz deyil".[57]

Təbəraninin nəql etdiyi hədisin sənədində İfriqinin əvəzinə Abdullah bin Sufyan qeyd edilmişdir.[58] Heysəmi də ondan nəql etmişdir. Heysəmi Kuseyr bin Mərvan barəsində belə demişdir: "Həddindən artıq zəifdir".[59]

Zəhəbi Abdullah bin Sufyanın hədisini Mizanul-itidal kitabında nəql etmiş və belə demişdir: "Bu hədis İbn Ənəm İfriqinin Abdullah bin Yeziddən, onun da Abdullah bin Əmrdən nəql etməsi ilə tanınır.[60]

Əqili "əz-Zuəfaul-kəbir" kitabında onun adını qeyd edərək belə deyir: "Onun Yəhya bin Səiddən nəql etdiyi hədisin əsli yoxdur. Bu hədis İfriqinin hədisi kimi tanınır".

Bu, hədisin sənədi barədə qarşı tərəfin kitablarında yazılanlardır. Bir çox islam alimləri bu hədisi zəif hesab etmişdir. Hətta bəzi sələfilər bu hədisi zəif hesab etmişlər. Onlardan bəzilərinin adlarını qeyd edirik:

– İbn Həzm. Onun nəzərində ümumiyyətlər firqələrə bölünmək barədə olan hədislər səhih deyil.[61]

---

[56] Darqutni, "əz-Zuəfa vəl-mətrukin" s. 144.

[57] əl-Məcruhin, c. 2, s. 225.

[58] əl-Mucəmul-kəbir, c. 1, s. 256.

[59] Məcməuz-zəvaid, c. 1, s. 189.

[60] Mizanul-itidal, c. 4, s. 9.

[61] əl-Fəsl fil-miləl vəl-əhva vən-nihəl, c. 2, s. 267.

– Rəşid Rza. O, “Mənim və səhabələrimin tutduğu yolda olan” rəvayəti barədə belə demişdir: “Rəvayətin özündə heç bir nöqsan olmasa belə, bu rəvayətin sənədində İbn Ziyad İfriqi var”.[62]

– Buti rəvayətin bu əlavəsini zəif hesab etmişdir. Bunu öz rəsmi internet səhifəsində qeyd etmişdir.

–Muhəqqiq Həsən Səqqaf bu rəvayəti zəif hesab etmişdir.[63]

– Doktor Seyid Əbdüləziz Sili belə deyir: “Tirmizi bu rəvayəti qeyd etmişdir. Bu rəvayət zəifdir. Onun bu rəvayətə etimad etməsi qəribədir”.[64]

– Fəvvaz Əhməd Zəmzəli “Əqaidu əimmətil-sələf” kitabında bu rəvayəti zəif hesab etmişdir.

– Hədis hafizi Muhəmməd bin Tahir Muqəddəsi bu rəvayəti zəif hesab etmişdir.[65]

Hədisin zəif olmasına baxmayaraq çoxları bu hədisə əsasən dəlil gətirmiş və onu sələfilik məktəbinin əsas sütünlarından hesab etmişlər. Hədisin zəifliyini etiraf etmələri ilə yanaşı bu hədisə əsaslanırlar. Sonra da şiələrə tənə vururlar ki, onların hədisləri zəifdir!

Albani ilə

Albani qələmə aldığı kitablarında bir çox yerdə İfriqini zəif hesab etmişdir. Lakin bununla yanaşı hədisi səhih hesab etmişdir. Onun bu hərəkəti yalnız öz sələfi əqidəsinə xidmət etmək məqsədi daşıyırdı. O, sənədində İfriqinin də olduğu başqa bir hədis barəsində belə deyir: “Bu hədisin sənədində Əbdürrəhman olduğu üçün sənəd zəifdir. O, İbn Ziyad bin Ənəm İfriqidir. Hafizəsi pis olduğu üçün zəifdir”.[66]

---

[62] əl-Muntəqa min rəvaiu fətaval-mənar, c. 1, s. 253.

[63] Səhihu şərhil-əqidətit-tahaviyyə, s. 632.

[64] əl-Əqidətus-sələfiyyə, s. 14.

[65] Zəxirətul-huffaz əl-məxrəcu aləl-hurufi vəl-əlfaz, c. 3, s. 1278.

[66] İrvaul-ğəlil, c. 8, s. 59.

Tahaviyyə əqidəsinin şərhi barədə danışarkən adı çəkilən hədis barəsində belə deyir: “Bu hədisdə zəiflik var”.[67]

Həmçinin deyir: “Bu məzmunda hədis zəifdir. Tirmizi bəzi nüsxələrdə qeyd olunduğu kimi bu hədisi həsən hesab etmişdir. Başqa dəlillərin olmasına əsasən bu mümkündür”.[68]

Tirmizinin hədisi həsən və ya səhih hesab etməsi alimlərinin nəzərində etibarlı deyil. Çünki o, bu məsələyə səthi yanaşmışdır. Albani özü dəfələrlə Tirmizi haqqında bunu demişdir. Məsələn o, Tirmizi haqqında deyir: “Tirmizinin (hədislərin sənədi barədə) güzəştə getməsi məlumdur. Bunun inkar edilməsi haqqa qarşı təkəbbürlükdür. Çünki bu məsələ alimlərin arasında məşhurdur. Onun hədislərini bir-bir araşdırdım. Həmin hədislərdə min zəif hədis vardı. Yəni onun qeyd etdiyi hədislərin hamısının təqribən beşdə biri...”[69]

Albaninin “Bu məzmunda hədis zəifdir. Tirmizi bəzi nüsxələrdə qeyd olunduğu kimi bu hədisi həsən hesab etmişdir. Başqa dəlillərin olmasına əsasən bu mümkündür” sözlərinə gəlincə, bu söz qəbul edilməzdir. Firqələr barədə olan hədisin bu əlavə olmadan və ya başqa əlavələrlə nəql olunması həmin hədisin mötəbər olması deyil. Albani bu sözü ilə yalnız öz sələfi məzhəbinə xidmət etmək məqsədi güdmüşdür.

Şübhəsiz ki, o, bu hədisi səhih hesab etməkdə səhvə yol vermişdir. Belə ki, bu hədisi Tahaviyyə kitabında tədqiq edərkən tərəddüt etmiş və qəti söz deməmişdir. Albani başqa rical alimləri kimi səhvə yol verə bilər. Muhəmməd Saleh Useymin belə deyir: “Hədis elmi tədqiqatları baxımından məlumdur ki, (Albani) bəzi hədislərin həsən və ya səhih

---

[67] Şərhul-əqidətit-tahaviyyə, s. 512.

[68] Həmin mənbə 260.

[69] əs-Silsilətuz-zəifə, c. 3, s. 30.

dərəcəsinə çatmamasına baxmayaraq onları yüksək dərəcədə qiymətləndirməkdə güzəştə gedirdi”.[70]

Biz bu hədisi zəif hədislərdən hesab edirik. Kim bu hədisi səhih hesab edirsə elmi əsaslara etimad etməli və qeyd olunan iradları cavablandırmalıdır.

Hədisə qarşı iradlar

Bu hədisə əsasən Peyğəmbər (s) ümmətinin qarşılaşacağı əhəmiyyətli hadisədən söhbət açır. Ümmət yetmiş üç firqəyə bölünəcək və yalnız bir firqə nicat tapacaqdır. Buna əsasən də səhabələr bu sözdən sonra dəhşətə gəlmiş və həmin firqənin hansı olduğunu soruşmuşlar. Peyğəmbər (s) də onlara belə cavab vermişdir: “Mən və səhabələrimin tutduğu yolda olan firqə”.

Hədisdə “mən və səhabələrimin tutduğu yolda olan firqə” deyilməsindən belə başa düşülür ki, sanki hədisdə xitab olunanlar səhabələr deyildi. Peyğəmbər (s) bu sözləri ətrafında olan müsəlmanlara, yəni səhabələrinə demişdir. Əslində onlara “mənim və sizin yolunuzda olan firqə” deməli idi. Lakin səhabələrə “mən və səhabələrimin yolunda olan firqə” demişdir.

Əslində nicata çatacaq firqə barədə soruşan səhabələrin özlərinin Peyğəmbər və onun səhabələrinin yolunda olmaları tələb olunurdu. Məgər onlar bu yolda deyildilər?

Bu söz hədisin etibardan düşməsi üçün kifayət deyilmi?! Məgər bu həll yolu - əgər doğru olarsa – ümməti xətadan qoruyurmu və ona nicat tapacaq firqəyə aparırmı?

Səhabələr nə üçün nicat tapmışlar. Çünki onlar Peyğəmbərin (s) yolu ilə gedirdilər. Nicatın meyarı yalnız Peyğəmbərdir. Belə olan halda “səhabələrim” əlavəsinin burada anlamı nədir?

---

[70] Həyatu Albani və asaruhu sənaul-uləma aleyhi, c.2, s. 543.

Məgər sələfilər iddia etmirlərmi onlar Peyğəmbərin (s) və səhabələrin yolu ilə gedirlər? Məgər əşərilər və maturiddiyə məzhəbinə mənsub olanlar Peyğəmbərin (s) və səhabələrin yolunda olduqlarını iddia etmirlərmi?

Məgər şiələr Peyğəmbərin (s) və Əli (ə) başda olmaqla səhabələrin yolunda olduqlarını iddia etmirlərmi?

Məgər təkcə bu əlamət nicata çatan firqə olmaq üçün yetərlidirmi? Bunun doğru olduğunu necə təyin edəcəklər? Hədis onların hansı prinsiplərə, etiqadlara və dəyərlərə əsaslandıqlarını bəyan etmir. Belə olan halda bunu necə təyin edəcəklər? Səhabələrin müxtəlif əqidədə olmaları və bir-birinə qarşı vuruşmaları heç kəsə gizli deyil.

Səhabələrdən elələri var ki, Səhih Buxaridə qeyd olunduğu kimi Rəsulullah (s) onları cəhənnəm oduna dəvət edənlər kimi vəsf etmişdir. Bu kitabda Hovuz hədisi barədə bəhs edərkən bu məsələni müfəssəl surətdə qeyd etmişik.

Hədisdə mütləq mənada bütün səhabələrə tabe olmaq nəzərdə tutulur? Bütün səhabələrin etiqadı və imanı barədə araşdırmaq mümkünsüzdür. Çünki onlardan çoxlarının vəziyyəti barədə məlumatlar yoxdur. Çoxlarının tərcümeyi-halı bizə məlum deyil. Çoxlarından rəvayət nəql olunmamışdır. Səhabəlrin sayı ən azı 114 min nəfər idi. İbn Həcərin "əl-İsabə" kitabında deyildiyi kimi bu sayın 1/10-nin kimliyi məlum deyil.[71]

Təkcə bu, hədisin rədd edilməsi üçün kifayət edir.

Hətta "əl-İsabə" kitabına əsasən tanınan səhabələrin sayı 16026 nəfərdir. Onlardan yalnız 1565 nəfərindən hədis nəql olunmuşdur.[72]

Əgər məqsəd bəzi səhabələrə tabe olmaqdırsa bunun heç bir dəlili yoxdur. Əgər fərz etsək ki, hədisin mətnində nəzərdə tutulan bəzi

---

[71] əl-İsabə fi təmyizis-səhabə, c. 1, s. 2.

[72] Daha ətraflı məlumat üçün "Rakibtus-səfinə" kitabımıza bax.

səhabələrdir. Onların kim olmasını təyin edən başqa bir mətn varmı? Nə üçün Peyğəmbər (s) ümmət üçün asan olsun deyə onların kimliyini bəyan etməmişdir?

Əgər səhabələr iki və ya daha artıq dəstəyə bölünərsə kiminlə olacağıq? Bu halda onların hamısına tabe olmaq nicata aparırmı? Məgər bu halda onların hamısına tabe olmaq ziddiyyət yaratmırmı? Məgər haqq bütün şübhələrdən arınmış vahid həqiqət deyilmi?

Belə bir hökmün hikmət sahibi olan biri tərəfindən verilməsini qəbul edə bilərikmi? Sələfilərin bizi yönləndirmək istədikləri səhabələr içərisində münafiqlər də var. Hətta onların bəzilərini Peyğəmbər (s) də tanımırdı. Allah-taala buyurur: **"Ətrafınızdakı bədəvilər və Mədinə əhalisi içərisində ikiüzlülüyü özlərinə adət etmiş (bu işdə mahir) münafiqlər var. Sən onları tanımazsan, Biz isə onları tanıyırıq..."** (Tövbə surəsi, ayə 101).

Müslim Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: "Səhabələrim arasında on iki münafiq var. Onlardan səkkizi dəvə iynənin gözündən keçməyənədək cənnətə girməzlər..."[73]

Huzeyfə bin Yəman belə nəql edir: "Münafiqlər bu gün Peyğəmbərin (s) zamanındakından daha şərdirlər. O vaxt gizli idilər. Bu gün isə aşkardadırlar".[74]

Hətta səhabələrdən hesab olunan bədəvilər də münafiqlərdən idilər. Onların sayı nə qədər çoxdur! Allah-taala buyurur: **"Bədəvilər küfr və nifaq baxımından daha pis (qəliz) və Allahın öz Peyğəmbərinə nazil etdiyi hökmləri (cahillikləri üzündən) bilməməyə (başa düşməməyə) daha layiqdirlər".** (Tövbə surəsi, ayə 98).

Əgər səhabələrin arasında çoxlu sayda münafiqlər vardısa və onların bəzilərini də Peyğəmbər (s) tanıyırdısa necə ola bilər ki, onların getdiyi

---

[73] Səhih Müslim, kitabu sifatil-munafiqinə və əhkamihim.

[74] Səhih Buxari, c. 8, s. 100.

yol ilə gedək və onları nicat meyarı hesab edək? Peyğəmbər İslamın sərvətlərini onlara necə əmanət edə bilərdi? Məgər oğrunu dükkanına tapşırıb dincəlməyə gedən bir zərgər görmüsən? Bir ağıllı bizə bu məsələni izah edə bilərmi?

Onların çoxunun cəhənnəm odunda yanacaqları təqdirdə necə ola bilər ki, Peyğəmbər (s) onları nicat yolunun meyarı hesab etmişdir?

Buxari Əbu Hüreyrənin Peyğəmbərdən (s) belə nəql etdiyini yazır: "(Qiyamət günü) mən görəcəm ki, tanıdığım bir dəstə insanla mənim aramdan bir şəxs çıxacaq və onlara ardımca gəlin deyəcək. Mən "Hara?" deyəcəm. (Həmin adam) deyəcək: "Allaha and olsun ki, Cəhənnəm oduna". Mən: "Onların günahı nədir?" deyəcəm. (Həmin adam) deyəcək: "Onlar səndən sonra geriyə (cahiliyyətə) dönmüşlər". Sonra tanıdığım bir dəstə insanla mənim aramdan bir şəxs çıxacaq və onlara ardımca gəlin deyəcək. Mən "Hara?" deyəcəm. (Həmin adam) deyəcək: "Allaha and olsun ki, Cəhənnəm oduna". Mən: "Onların günahı nədir?" deyəcəm. (Həmin adam) deyəcək: "Onlar səndən sonra geriyə (cahiliyyətə) dönmüşlər". Sonda onlar o qədər azalacaqlar ki, sahibsiz dəvə qədər (yəni az sayda) insan qalacaq".[75]

Buxari Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: "(Qiyamət günü) mən görəcəm ki, tanıdığım bir dəstə insanla mənim aramdan bir şəxs çıxacaq və onlara ardımca gəlin deyəcək. Mən "Hara?" deyəcəm. (Həmin adam) deyəcək: "Allaha and olsun ki, Cəhənnəm oduna". Mən: "Onların günahı nədir?" deyəcəm. (Həmin adam) deyəcək: "Onlar səndən sonra geriyə (cahiliyyətə) dönmüşlər". Sonda onlar o qədər azalacaqlar ki, sahibsiz dəvə qədər (yəni az sayda) insan qalacaq".[76]

Müslim Abdullahdan belə nəql edir: "Rəsulullah (s) buyurub: "Mən sizdən öncə hovuz başında olacam. Bəzi insanlara görə mübahisə edəcəm

---

[75] Səhih Buxari, c. 7, s. 208, 209.

[76] Həmin mənbə, kitabur-riqaq, babul-havz, c. 7, s. 209.

və məğlub olacam. Sonra deyəcəm: “Ya Rəbbi, səhabələrim! Səhabələrim!” Belə deyiləcək: “Səndən sonra nə etdiklərini bilmirsən”.[77]

İbn Kəsirin tarixində belə yazılıb: “Beyhəqi Əbu Dərdanın belə dediyini nəql edir: “Mən dedim: “Ya Rəsulullah (s) eşitmişəm ki, bəzi insanlar imanlarından sonra dindən çıxacaqlar”. (Peyğəmbər) dedi: “Bəli. Sən onlardan deyilsən”.[78]

Necə ola bilər ki, Peyğəmbər səhabələrinin etdiklərindən və dindən çıxacaqlarından xəbərdar olduğu halda bizə onların ardınca getməyi tapşırsın? Bu, Peyğəmbərin ümmətinə qarşı etinasız yanaşması deyilmi? Haşa ki, Rəsulullah (s) biganə olsun! Əgər onların dində etdikləri və dəyişdirdikləri msələlərdə onlara tabe olsaq bizim də aqibətimiz onlar kimi cəhənnəmə sürkülənmək olmayacaqmı? Məgər müxtəlif şəhərlərə və ölkələr səpələnmiş 9/10-nun adı və nəql etdikləri rəvayətlər məlum olmayan səhabələrin ardınca getməyi bizə tapşırması məntiqə sığırmı?

İbn Teymiyyənin dəfələrlə dəlil gətirdiyi rəvayət budur: “Bu gün mənim və səhabələrimin olduğu yolda olan”. Bu rəvayətdə “bu gün” sözündən belə başa düşürük ki, səhabələrin həmin vaxtda olduqları yolda davam edəcəkləri məlum deyil. Xüsusilə də onlar dində yeniliklər etdiklərini və dini dəyişdirdiklərini etiraf etmişlər. Hədis həmin vaxt onların olduğu yoldan bəhs edir.

Bu hədis nəzərdə tutulan səhabələrin kimlər olduğunu, Peyğəmbər sağ ikən və vəfatından sonra ona tabe olduqlarını, dində heç bir yenilik və dəyişiklik etmədiklərini bildiyimiz halda səhih ola bilər. Məhz həmin səhaəblərə tabe olanlar nicat tapanlardır. Lakin yuxarıda qeyd edilən rəvayətdən də bəlli olduğu kimi səhabələrin çoxunun cəhənnəm oduna vasil olacağını bildikdən sonra onları necə tanıya bilərik? Biz sələfilərdən tələb edirik ki, nicata çatan səhabələri həlak olan səhabələrdən seçib

---

[77] Səhih Müslim, kitabul-fəzail, bab isbat hozun-nəbi (s) və sifatuhu, c. 7, s. 68.

[78] əl-Bidayə vən-nihayə, c. 6, s. 731.

ayırsınlar. Sonra bizə də onlara tabe olaq və onların yolları ilə gedək. Səhabələrin hansının nicat tapanlardan olmasını bilmədiyimiz halda onlara tabe olmamaq və onlardan bir şey götürməmək bizə vacibdir.

Qeyd etmək lazımdır ki, ən əhəmiyyətli hədis kitabları "mən və səhabələrimin tutduğu yolda olanlar" əlavəsini qeyd etməmişdir. Baxmayaraq ki, bu əlavə sələfilərin nəzərində olduqca əhəmiyyətlidir. Hətta bəziləri onu usuldan (dinin əsas prinsiplərindən) hesab etmişdir. Buxari öz səhihində yüz min hədis yazmasına baxmayaraq bu əlavəni nəql etməmişdir. Həmçinin Müslim də bu əlavəni nəql etməmişdir. Əhməd bin Hənbəl altı yüz min hədisi ehtiva edən Müsnəd kitabında bu əlavəni nəql etməmişdir. Həmçinin Nəsai, Malik və başqaları bu əlavəni nəql etməmişlər.

Bütün bunlar onların iddiasına əsasən ümmətin gələcəyini təyin edən bu hədisin doğru olması barədə sual doğurur.

Buxarinin nəql etmədiyi bu hədisi bəziləri dinin usulundan hesab etmişdir. Əgər Buxari bu hədisin sənədini səhih hesab etsəydi hədis əhlinin səhabələrə tabe olması prinsipinə dəstək üçün onu öz kitabında qeyd edərdi.

İbn Əbdülbirr bu hədislər barədə belə deyir: "Buxari və Müslim bin Həccac bu hədislərdən bir dənəsini də nəql etməmişlər. Bu, hədisin zəif olması üçün yetərlidir".[79]

İbn Əbdülbirrin rəyinə əsasən qeyd edilən hədisin iki şeyx (Buxari və Müslim) tərəfindən qeyd olunmaması onun zəifliyi üçün yetərlidir!

Üçüncü hədis: Ümmətimdən bir tayfa

Buxari Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: "Ümmətimdən bir tayfa Allahın əmri gələnədək üstün olacaqlar. (Allahın əmri gəldikdə) onlar yenə üstün olacaqlar".[80]

---

[79] ət-Təmhid, c. 10, s. 278.

Müslim Sovbandan belə nəql edir: “Rəsulullah (s) belə buyurub: “Ümmətimdən bir tayfa haqqla üstün olacaqlar. Allahın əmri gələnədək onları xar edən heç kim onlara zərər verə bilməyəcək. (Allahın əmri gəldikdə) onlar yenə üstün olacaqlar”.[81]

Başqa bir rəvayətdə “Ümmətimdən bir qövm” deyilir.[82]

Başqa bir rəvayətdə isə “Müsəlmanlardan bir dəstə” deyilir.[83]

Sünəni Tirmizi kitabında bu hədisin başqa yolları da nəql olunmuşdur.[84]

Bu hədisə əsasən dəlil gətirənlər

1. İbn Teymiyyə. O, belə demişdir: “Onlar - əhli sünnə - ilahi yardım alan tayfadır. Peyğəmbər (s) belə buyurub: “Ümmətimdən bir tayfa haqqla üstün olacaqlar. Allahın əmri gələnədək onlara qarşı çıxna heç kim onlara zərər verə bilməyəcək. (Allahın əmri gəldikdə) onlar yenə üstün olacaqlar”.[85]

2. İbn Kəsir. O, bu hədisi qeyd edikdən sonra belə deyir: “Onlar Allahın kitabı və Rəsulullahın (s) sünnəsinə əməl edən əhli-sünnə vəl-cəmaədir. Onlar ilk çağın səhabələri, tabeinləri və müsəlmanların imamlarının yolu ilə gedənlərdir.[86]

---

[80] Səhih Buxari, kitabul-itisam bil-kitab vəs-sünnə, bab la təzalu taifətun min umməti, c. 8, s. 149.

[81] Səhih Müslim, kitabul-imarə, bab qəuluhu (s) la təzalu taifətun, c. 3, s. 1523.

[82] Həmin mənbə.

[83] Həmin mənbə, s. 1524.

[84] Sünəni Tirmizi, kitabul fitən, bab ma caə fiş-şam; Sünəni İbn Macə, kitabın müqəddiməsi, hədis. 6, 7, 8, 9, 10; Müsnədi Əhməd, c. 3, s. 436; c. 5, s. 24, 25, 279.

[85] Məcmuətul-fətava, c. 3, s. 105.

[86] Təfsiri İbn Kəsir, c. 4, s. 433.

3. İbn Qəyyim. O, İlamul-muqiin kitabında səhabələrə tabe olmağa dəlalət edən dəlillər ünvanı altında bu hədisi qeyd etmişdir.[87]

4. Muhəmməd bin Əbdülvəhhab.[88]

5. İbn Əbulizz Hənəfi.[89]

Hədisin işarə etdiyi haqq üzərində olan tayfa şübhəsiz ki, firqələrə bölünmək hədisində qeyd edilən nicata çatacaq tayfadır. Sələfilərin bu hədisə əsasən dəlil gətirmələri doğru deyil. Hədisdə ümumi mənada danışılır. Hər bir tayfa məhz özünün hədisdə nəzərdə tutulduğunu iddia edə bilər.

İbn Teymiyyənin rəyinə əsasən bu tayfa qiyamətədək Şamda olacaqdır. Bu isə sələfilərin bu hədisə əsasən dilil gətirmələrinin qapısını bağlayır. Çünki onların vətəni Nəcddir. İndiyədək sələfilik əqidəsi dünyanın müxtəlif yerlərinə məhz oradan yayılır.

İbn Teymiyyə deyir: "Məazın nəql etdiyi hədis kimi hədislər həmin tayfanın Şamda olacağını təsbit edir. Müslim Səhih kitabında Əbu Hüreyrənin Peyğəmbərdən (s) belə nəql etdiyini deyir: "Qərb əhli üstün olmaqda davam edəcəklər".

İmam Əhməd deyir: "Qərb əhli Şam əhlidir. Çünki Peyğəmbər (s) Mədinədə yaşayırdı. Mədinənin qərbində yerləşən qərb, şərq tərəfində yerləşən isə şərqdir. İbn Ömərin dediyi kimi (Peyğəmbər) Nəcd əhlini və onlardan şərqdə olanları məşriq əhli adlandırırdı".[90]

Mənə elə gəlir ki, İbn Teymiyyə bilsəydi ki, Nəcd onun ardıcılları ilə dolub daşacaq üstün tayfanın Nəcd olması üçün yol axtarardı. Lakin o bu sözü deməklə başqasına bu səyləri etmək üçün macal verməmişdir. İbn Teymiyyə deyir: "Peyğəmbər (s) Şam əhlinin dünyanın sonunadək daima

---

[87] İlamul-muqiin, c. 4, s. 149.

[88] Muəlləfatu Şeyx İmam Əbdülvəhhab bin Əbdülvəhhab, c. 3, s. 32.

[89] Şərhul-əqidətit-tahaviyyə, s. 72.

[90] Məcmuətul-fətava, c. 4, s. 273.

Allahın əmrini yerinə yetirmələri ilə başqalarından fərqləndirmişdir. Yəni dünyanın sonunadək Allah tərəfindən yardım olunan tayfa onlardan olacaq. Bu, onların daimi vəziyyəti barədə çoxlu sayda və güclü xəbərdir.[91]

Allahın müsəlmanlara lütfündəndir ki, Peyğəmbər (s) insanlara xeyir və nicat yolunu bəyan etmişdir. Həmçinin bunun müqabilində aşkarcasına şərin vətəninə işarə etmişdir ki, ehtiyatlı olub aldanmasınlar. Abdullah bin Ömərdən belə nəql olunur: "Rəsulullahın (s) əli ilə məşriqə işarə edərək belə dediyini eşitdim: "Şübhəsiz ki, fitnə buradan çıxacaqdır. Fitnə bax burada, Şeytanın buynuzunun çıxacağı yerdədir.[92]

İbn Ömər belə nəql edir: "Peyğəmbər belə buyurdu: "İlahi, Şamımızda bizə bərəkət ver. İlahi, Yəmənimizdə bizə bərəkət ver". (Səhabələr) dedilər: "Ya Rəsulullah, Nəcdimiz barədə də de!" (Peyğəmbər) buyurdu: "İlahi, Şamımızda bizə bərəkət ver! İlahi, Yəmənimizdə bizə bərəkət ver!" (Səhabələr) yenə dedilər: "Ya Rəsulullah, Nəcdimiz barəsində də de!" (İbn Ömər deyir) zənn edirəm ki, üçüncü dəfə belə buyurdu: "Zəlzələlər (dəyişikliklər) və fitnələr orada olacaqdır. Şeytanın buynuzunun çıxacağı yer oradır".[93]

Əbu Hüreyrə Rəsulullahın (s) belə buyurduğunu nəql edir: "Küfrün başı şərq tərəfdədir".[94]

İbn Teymiyyə deyir: "Peyğəmbərdən çoxlu sayda hədislər nəql olunmuşdur ki, şərin kökü şərqdəndir".[95]

---

[91] Məcmuətul-fətava, c. 4, s. 273.

[92] Səhih Buxari, kitabu bidil-xəlqi, bab sifəti İblis və cunuduhu, c. 4, s. 251; Səhih Müslim, kitabul-fitən və əşratus-saəti, babul-fitnəti minəl-məşriqi min heysu yətləu qarnuş-şeytan, c. 4, s. 2228.

[93] Səhih Buxari, kitabul-fitən, bab min qibəlil-məşriqi, c. 9, s. 97.

[94] Səhih Buxari, kitabu bidil-xəlq, bab xeyru malil-muslim ğənəmun yətbəu biha şəğəful-cibal, c. 4, s. 258.

[95] Məcmuətul-fətava, c. 4, s. 273.

Bu rəvayətlər dəlalət edir ki, şərin kökü şərq və ya məşriqdəndir. Ora küfrün başıdır. Şeytanın buynuzu oradan çıxacaqdır. Hədislərin aşkar mənasına əsasən Nəcd Mədinənin şəqrində yerləşir. Sələfilər hədislərin zahirinə müxalif olaraq heç bir əlamət olmadan qeyd olunan hədislərdə İraqa işarə edildiyini deyirlər. Bununla onlar İbn Teymiyyə və Əhməd bin Hənbələ də qarşı çıxırlar. Bütün hədisləri və dəlilləri öz həqiqi mənasından yayındırırlar ki, Nəcddən başlayan hərəkətlərini xilas etsinlər.

Yuxarıdakı hədislərə diqqət edən hər bir şəxsə aydındır ki, burada şərq deyildikdə Nəcd nəzərdə tutulur. İbn Ömərin nəql etdiyi rəvayətdə qeyd edildiyi kimi Peyğəmbər (s) "İlahi, Yəmənimizdə bizə bərəkət ver!" dedikdə onun ətrafında olan bəzi səhabələr "Nəcdimiz barədə də de!" deyirlər. Onlar Mədinənin şərqində olan Nəcdi nəzərdə tuturdular. Peyğəmbərin (s) bu sözü də dediklərimizi təkid edir. Belə ki, səhabələrin birbaşa tələblərindən sonra Peyğəmbər buyurur: "Zəlzələlər və fitnələr orada olacaq. Şeytanın buynuzunun çıxacağı yer!" Bu ifadə şərq və məşriq barədə deyilən ifadənin məzmunu ilə eynidir.

Elmi Araşdırmalar və Fətva Komitəsinin fətvalarında məşriq sözü bir neçə mənada təfsir edilmişdir. Həmin mənaların biri də Nəcddir.[96] Bundan əlavə rəvayətlər yaxına işarə edir. Bəzi rəvayətlərdə "hahuna" işarə əvəzliyi yaxını bildirir. Bu isə Mədinədən uzaqda olan deyil, yaxında olan bir yerin nəzərdə tutulduğuna dəlalət edir. Deməli, nəzərdə tutulan başqa yer deyil, məhz Nəcddir. Həmçinin Əhməd bin Hənbəl və İbn Teymiyyə bu mənada təfsir etmişlər. İmam Əhməd bin Hənbəl belə deyir: "Qərb əhli Şam əhlidir. Çünki Peyğəmbər Mədinədə yaşayırdı. Mədinədən qərbdə olan onun qərbində olandır. Mədinədən şərqdə olan isə onun

[96] Elmi Araşdırmalar və Fətva Komitəsinin fətvaları, c. 3, s. 94.

şərqindədir. Nəcd əhli və onlardan şərqdə olanlar əhli məşriq adlanır. Necə ki, İbn Ömər də belə demişdir”.[97]

Hədisdə İraqın nəzərdə tutulması hədisin zahirinə ziddir. Bu hədisdə olan əlamətlərə və dəlillərə nisbətdə sıçrayış sayılır. Bəzi rəvayətlər – səhihliyini fərz etsək – İraqın adını aşkarcasına bəyan etmişdir. Bəs nə üçün burada Peyğəmbər İraqın adını aşkar qeyd etməmişdir. Coğrafi baxımdan İraq Mədinəyə nisbətdə şərq tərəfdə yerləşmir. Əksinə İraq Mədinənin şimalında yerləşir.

Peyğəmbərin (s) bizi Nəcd və oradan çıxacaq fitnələrə görə ehtiyatlı olmağı tapşırması orada hakim olan əqidənin üzərinə sual işarəsi qoyur. Əgər orada yaranan sələfi hərəkatı Allahın və Rəsulun sevdiyi xeyirli və doğru hərəkat olsaydı Peyğəmbər (s) ümmətinə bu məsələni bəyan edərdi. Həmin tayfanı istisna edər və ona görə müjdə verərdi. Halbuki belə bir şey olmamışdır. Əksinə görürük ki, Peyğəmbər (s) bizə Nəcd və orada olacaqlar barədə işarələr verir.

Əbu Səid belə nəql edir: “Əli dedi: “Rəsulullaha (s) qızıl və qızıl tozu gətirdim. Yəmənə sədəqə olaraq göndərmişdi. (Peyğəmbər) dedi: “Dörd nəfərin arasında böl: Əqrə bin Habis, Zey Tai, Uyeynə bin Hisn Fəzari və Əlqəmə bin Əlasə Amiri. Gözləri çuxurda, gicgahları yara, alnın geniş və saçının ön hissəsi qırxılmış bir kişi ayağa qalxıb dedi: “Allaha and olsun ki, ədalətli olmadın”. (Peyğəmbər) dedi: “Vay olsun! Əgər mən ədalətli olmayandan sonra kim ədalətli olacaq? Mən onların qəlblərini (İslama) isinişdirirəm”. Onu öldürmək istədilər. (Peyğəmbər) buyurdu: “Buraxın onu! O, səs-küy salandır. Bunlar elə bir qövmdürlər ki, axırzamanda çıxacaqlar. İslam əhlini qətlə yetirəcək, bütpərəstləri isə azad

[97] Məcməul-fətava, c. 4, s. 273.

buraxacaqlar. Əgər onlara yetişsəm Ad qövmünün qətli kimi onları qətlə yetirəcəm”.[98]

Ümmətimdən bir tayfa hədisinin məfhumu

Bütün rəvayətlər Peyğəmbərin (s) “la təzalu” və “la yəzalu” sözləri ilə başlayır. Bu fel hərəkətin davam etməsinə dəlalət edir. Yəni həmin tayfanın varlığı davam edir. Bu fikrin İbn Teymiyyədən əvvəl olmasından və zamanın ondan xali olacağından danışmayacam. Lakin nəzərə çarpan budur ki, İbn Teymiyyənin meydana çıxartdığı və bu gün də sələfilərin əsaslandıqları fikirlər təqribən üç əsr yox oldu. Həmin fikirlərin ardıcılları qalmadı. İbn Teymiyyənin və şagirdlərinin zamanından sonra, belə deyə bilərik ki, onun şagirdlərinin şagirdləri zamanında bu bu məktəbin fikirlərinə və ya ona səsləyən birinə rast gəlmirik. Ta ki, Muhəmməd bin Əbdülvəhhab meydana çıxdı və bu fikirləri yenidən diriltdi. Yəni hicrətin 800-cü ilindən 1150-ci ilinədək bu fikir olmamışdır. Halbuki hədis bu tayfanın haqq olaraq varlığını davam etdirəcəyini aşkarcasına bəyan edir.

Kimsə bizə üç əsr boyu bu tayfanın harada olması, alimləri və kitabları barədə məlumat verə bilərmi?

Əslində bu hədis imamiyyə şiələrindən bəhs edir. Onlar Rəsulullahdan (s) sonra tarix boyu Allahın kitabından və peyğəmbər sünnəsindən bəhrələnərək əldə etdikləri güclü dəlillər sayəsində haqqı təmsil etmişlər. Hədisdə həmin haqq tayfanın xar edəcəklər. Hədisdə belə deyilir: “Onları xar edən heç kim onlara zərər verə bilməyəcək”. Bu xüsusiyyət şiələrə uyğundur. Onlar Əhli-Beyt imamlarına (ə) tabe olmaqla müxtəlif məşəqqətlərə məruz qalmışlar. Onlar bütün müsəlmanlar tərəfindən tərk olunmuşlar. Sürgün, həbs və qətlə məruz qalaraq məzlumiyyət içində yaşamışlar. Əhli-Beytə bağlılığına görə nə qədər rəbbani alim canını

[98] İbn Əbu Asim, əs-Sünnə, c. 2, s. 426, hədis 910. Albani bu hədisi səhih hesab etmişdir.

qurban vermişdir! Qəribəsi budur ki, bütün bu zülmlər müsəlmanlardan olan saray şeyxlərinin dəstəyi ilə zalım hökmdarlar tərəfindən baş vermişdir.

Onlara qarşı təzyiqlər nəticəsində hüquqları tapdanmış, kitabları yandırılmış, bəzi dini ayinləri icra etmələrinə qadağalar qoyulmuşdur. Bütün bunlar inkar olunmayacaq dərəcədə məlumdur. Bu isə xar etməyin ən bariz nümunəsidir. Sələfilər və əşərilərə nisbətdə isə bunun tam əksi baş vermişdi. Daima hakimiyyət tərəfindən dəstək almış, onlar üçün hər cür şərait yaradılmışdır. Heç kimə gizli deyil ki, onlar bu günədək hökmət tərəfindən dəstək alırlar. Heç vaxt köməksiz buraxılmamış və heç vaxt zülmə məruz qalmamışlar. Xoş olsun Əhli-Beyt (ə) şiələrinə ki, hədisdə onlar belə vəsf olunurlar: "onları xar edən heç kim onlara zərər verə bilməyəcək". Həqiqətən də onlara heç bir zərər verə və öhdələrində olacaq vəzifələrini icra etmələrinə mane ola bilməmişlər.

Sələfi şübhəsi

Sələfilərdən biri bu hədisin imamiyyəyə aid olmasını inkar edərək mənə dedi: "Müasir dövrümüzdə belə, imamiyyənin izzəti, gücü və üstünlüyü yoxdur. Hətta tarixin bəzi mərhələlərində imamların səhabələri barmaq sayı qədər olmuş. Hətta bu məzhəbdə olan kişi imamiyyə məzhəbində olan bir qadın tapa bilmirdi ki, onunla evlənsin!"

Həmçinin belə dedi: "Hədisdə qedy edilən zuhur – haqq üzərində aşkar olmaq –gizli və örtük altında olmaq deyil, güclü olmaq, açkarcasına meydanda olmaq mənasındadır".

Mən ona belə cavab verdim: "Aşkar olmaq, elan etmək zuhurun göstəricilərindəndir. Şübhəsiz ki, hədisdə nəzərdə tutulan "zuhur" hər şeydən əvvəl dəlil və höccətə sahib olmaqdır. Bundan sonra şərait imkan verdiyi təqdirdə aşkar və elan etmək mərhələsi başlayır. Dəlil və höccətə sahib olmadıqdan sonra özünü göstərib zühur etməyin nə mənası var?

Həmçinin qəti şəkildə deyə bilmərik ki, hədisdə (orjinalda) qeyd edilən zuhur aşkar olma və elən etmə mənasındadır. Peyğəmbərimiz (s) bəzən dəvətini gizlətmişdir. Məgər bu onun haqq üzərində olmaması demək idi?

Eyni belə deyir: "Ümmətimdən bir dəstə haqq üzərində olacaqlar" hədisində (orjinalda) "zahirin" sözü onların dəlillərlə başqa insanlara qalib gələcəkləri mənasındadır".[99]

İmamiyyə mənsubları yaşadıqları ölkələrə görə vəziyyətləri fərqlidir. Livan şiələri heç kimdən qorxmadan sahib olduları qüdrət və azadlıq sayəsində dəvətlərini aşkarcasına elan edirlər. Hətta onların mücahid olması heç kimə gizli deyil. Başqa ölkələrdə azlıq olduqları üçün hakimiyyətin zülmü nəticəsində öz dəvətlərini elan edə bilmirlər. İran İslam Respublikasının dünyanın hegomon qüvvələrinin müstəmləkəçiliyi qarşısında zuhur etməsi də heç kimə gizli deyil.

Allah-taala buyurur**: "Bis isə istəyirdik ki, o yerdə zəif düşüb əzilənlərə mərhəmət göstərək, onları (xeyirxah işlərdə) öndə gedənlər və varislər edək"** (Qəsəs surəsi, ayə 5).

Məgər ayədə qeyd olunan zəif düşüb əzilən insanlar Allahın onlara mərhəmət göstərməsindən və onları varislər etməsindən əvvəl batil yolda idilər? Onlar zəif düşmələrinə və əzilmələrinə baxmayaraq Allahın həqiqi bəndələri deyildilərmi? Onların zəif düşmüş kimi vəsf olunması İmamiyyənin vəziyyətinə daha münasibdir. Xüsusilə hədisdə "onları xar edən heç kim onlara zərər verə bilməyəcək" deyilir. Bu xüsusiyyət sələfilərə uyğun gəlmir. Muhəmməd bin Əbdülvəhhabın meydana çıxdığı vaxtdan etibarən dövlətlər sələfi əqidəsinin yayılması üçün milyardlarla dollar sərf etmişlər. Bütün ölkələrdə onların aşkarcasına özlərini ifadə etmək haqları var. Tarix boyu hökmdarlar tərəfindən dəstəkləndikləri halda hədisdə qeyd edilən "xar olmaq" sifəti onlara şamil olurmu? Kim

[99] Umdətul-qair, c. 25, s. 141.

onları xar etmişdir? Bu kimi suallar hədisin onlara aid olmasını qeyri-mümkün edir.

Bundan əlavə, məgər sələfilər həmişə hər yerdə ən üstün olublar? Şübhəsiz ki, sünnilik zəiflik mərhələlərini də yaşamışdır. Məsələn, Buveyhilərin, Həmdanilərin, Fatimilərin, Monqol-tatarların hücumu, Səfəvilərin hakimiyyəti dövrlərində onlarda zəiflik mərhələlərini yaşamışlar. Osmanlı dövlətinin tənəzzülündən sonra güc və üstünlük əhli-sünnənin deyil, ingilislər, fransızlar, italiyanlar, amerikalılar kimi küfr əhlinin olmuşdur. Bəs hanı əhli sünnənin haqqla üstün olmaları? Halbuki hədisdə Allahın əmri gələnədək onların üstünlüyünün davam edəcəyi vurğulanır! Onların üstünlükləri yalnız konfranslar və seminarlar təşkil etməkdən ibarətdir? Halbuki iki milyon yəhudi bir milyard yarımdan çox müsəlmanı öz təsiri altında saxlayır. Bütün bunlar isə sələfilərin yəhudilərə mütiliklə xidmət etmələrinin sayəsində baş verir. Hətta imperialist qüvvələrin onlara tam hakim olaraq onlar hiss etmədən onları yönləndirdiklərini desək belə, mübaliğə etmiş olmarıq. Onlar küfr əhlinin əlində kuklaya çevriliblər. Müstəqil surətdə heç bir güc və qüvvətləri yoxdur. Bəs hanı iddia olunan üstünlük? Deməli, bu hədisin onlara yaxından və ya uzaqdan heç bir aidiyyatı yoxdur. Onların siyasi üstünlüyü qərbin icazə verdiyi miqdardan artıq deyil!

Dördüncü hədis. "Allahın kitabı və sünnəm".

Bu hədisin zəif olmasına baxmayaraq ona əsaslanaraq dəlil gətirməkdə israrlı olanlar var. Halbuki onlar mütavatir yolla nəql olunan "Allahın kitabı və itrətim (Əhli-Beytim)" hədisinə göz yumurlar. Bu hədis barədə müfəssəl araşdırma aparaq.

Hədisin mətni

Rəsulullahın (s) belə buyurduğu nəql olunur: "Sizin aranızda iki şey qoyuram. Onlardan yapışdıqca heç vaxt yolunuzu azmazsınız; Allahın kitabı və sünnəm".[100]

Bu hədisə əsasən dəlil gətirənlər:

1. Əbdülğəni Muqəddəsi Hənbəli (vəfat tarixi 700 h.), "əs-Sifat".

2. Şatibi, "əl-İtisam".

3. Doktor Ədnan Əli Rza Nəhvi, "Qəbəsətun minəl-kitabi vəs-sunnə", "Minhəcul-mumin beynəl-ilmi vət-tətbiq".

Bunlar və başqaları öz dəvətləri üçün bu hədisi əsas dəlillərdən hesab etmişlər.

Birinci qeyd:

Rəvayətlərdə qeyd olunanlara əsasən Peyğəmbər (s) bu hədisi Vida həccində söyləmişdir. Qeyd etmək lazımdır ki, həmin vaxt Peyğəmbərlə (s) birlikdə yüz mindən artıq insan olmuşdur. Bununla yanaşı bu hədis İbn Abbasdan və Əbu Hüreyrədən nəql etmişlər.

Quranın və sünnənin vəsiyyət olunması – hədisin səhih olacağı təqdirdə – ümmətin zəlalətdən qorunması məqsədi daşıyır. Bu, olduqca əhəmiyyətli bir məsələdir. Bəs nə üçün bu qədər əhəmiyyətli vəsiyyəti yüz min insandan yalnız iki nəfər nəql etmişdir?

- Altı səhih kitabın müəllifi, başda Buxari və Müslim olmaqla yanaşı bu hədisi nəql etməmişlər. Baxmayaraq ki, Buxari Səhihində ayrıca "Kitab və sünnəyə etimad etmək" babı qeyd etmişdir. Buna baxmayraq yuxarıdakı hədisi qeyd etməmişdir. Halbuki bu hədis həmin baba münasib olan hədisdir. Qəribədir ki, Buxari öz səhihini yüz minlərlə hədisdən seçmişdir. Bəs nə üçün bu əhəmiyyətli hədisi qeyd etməmişdir?!

---

[100] İmam Malik, əl-Muvatta, c. 2, s. 899.

- Sələfiliyin imamı Əhməd bin Hənbəl hədislərə tabe olmağa dəvət edən ilk şəxs olmuşdur. Müsnədində altıyüz min hədis qeyd etməsinə baxmayraq bu hədisi nəql etməmişdir!

İbn Teymiyyə, İbn Qəyyim və Muhəmməd bin Əbdülvəhhab kimi sələfi imamları bu hədisi qeyd etməmişlər. Bu hədis onların əqidələrini dəstəklədiyinə baxmayaraq onu qeyd etməmələri ona etimad etmədiklərinə dəlalət edir.

Bu hədis necə səhih ola bilər ki, Peyğəmbərin (s) sünnəsi hələ yazılmamış və Müslimin hədisində olduğu kimi sünnənin yazılmasına qadağa qoyulmuşdur?[101]

Səhabə olmayanlar Peyğəmbər sünnəsini hardan əldə edəcəklərdi? Yalnız səhabəyə müraciət etməli idilər? Halbuki bu, mümkün deyildi. Onlar əbədi yaşamayacaqlar. Həmçinin insanları səhabələrə müraciət etməyi tapşırmaq sünnənin aradan getməsi demək idi. Çünki Peyğəmbər (s) bilirdi ki, səhabələridə hər vaxt, xüsusilə də döyüş meydanında ölümə məruz qalırlar. Belə olan halda sünnəsini onlara necə həvalə edə bilərdi? Onların arasında yalnız Allahın tanıdığı münafiqlərin olmasını bildiyi halda necə ola bilər ki, sünnəni onlara həvalə etsin?!

Məlumdur ki, Rəsulullah (s) müsəlmanların ondan sonra yollarını azmamaları üçün onlara vəsiyyət yazmaq məqsədilə kağız və qələm istədikdə Ömər buna mane oldu. O, "Allahın kitabı bizə yetər" deyərək bu işin qarşısını almışdı. Bu hədis cümə axşamı rüsvayçılığı ilə tanınır.[102]

Əgər hədis səhihdirsə nə üçün Ömər "sünnəm" tövsiyəsini xatırlamamışdır? Şübhəsiz ki, Ömər sünnə fikrinə müxalif çıxan ilk şəxs olmuşdur.

---

[101] Səhih Müslim, kitabuz-zohdi vər-rifaq, bab əshabul-uxdud...

[102] Bax; Səhih Buxari, kitabul-mərəzi vət-tibb, bab qovlul-məriz qumu ənni; Səhih Müslim, kitabul-vəsiyyəti. Bab tərkil-vəsiyyə.

Əgər hədisin səhihliyini fərz etsək bəs nə üçün xəlifələr Peyğəmbərdən (s) hədis nəql etməyi qadağan etmişlər, hədis nəql edənləri cəzalandırmışlar və yazılmış hədisləri yandırmışlar? Peyğəmbər (s) ümmətin yolunu azmaması üçün sünnəsini qoyub getdiyi halda necə ola bilər ki, xəlifələr sünnəni gizlətmiş və onu nəql etməyi qadağan etmişlər? Əgər hədis səhih olarsa, deməli, ilk xəlifələr insanları sünnədən məhrum etməklə Peyğəmbərə (s) müxalif çıxmış ilk şəxlərdirlər!

Kitab və sünnədən yapışmaq ümmətin azğınlıqdan qorunması üçün yetərli deyil. İslam firqələrin əksəriyyəti Quran və sünnəyə əməl etdiyini iddia edir. Bununla yanaşı onlar ixtilafda və zəlalətdədirlər.

Qeyd edilən hədisə yönəlmiş bu iradlar onun etibardan düşməsi üçün yetərlidir.

Hədisin sənədi

Bu hədis İmam Malikin əl-Muvatta[103] kitabında və İbn Hişamın sirəsində qeyd edilmişdir.[104]

Hakim bu hədisi aşağıdakı sənədlə qeyd etmişdir: Əbu Bəkr Əhməd bin İshaq Fəqihdən, o da Abbas bin Fəzl Əsfatidən, o da İsmail bin Əbu Uveysdən, o da İsmail bin Muhəmməd bin Fəzl Şəranidən, o da babasından, o da İbn Əbu Uveysdən, o da atasından, o da Sovr bin Deyləmidən, o da İkrimədən, o da İbn Abbasdan belə nəql edir: "Rəsulullah (s) Vida həccində insanlara xütbə söyləyərək belə buyurdu: "Ey insanlar, mən sizin aranızda elə bir şey qoyub gedirəm ki, ondan yapışsanız heç vaxt yolunuzu azmazsınız: Allahın kitabı və peyğəmbərinin sünnəsi".[105]

---

[103] əl-Muvatta, kitabul-qədər, bab ən-nəhyu ənil-qovli bil-qədər.

[104] Sirətu İbn Hişam, c. 4, s. 251.

[105] əl-Mustədrək aləs-səhiheyn, c. 1, s. 93.

Bu hədisin sənədində İbn Əbu Uveys var. Onun tərcümeyi-halını yazanlar belə demişlər:

Nəsai deyir: "Zəifdir".

Darqutni deyir: "Onun səhih hədis nəql etdiyini qəbul etmirəm".

İbn Udəy deyir: "Əhməd bin Yəhya belə deyir: "İbn Muinin belə dediyini eşitdim: "O və atası hədis oğurlayırdılar".

Dulabi belə demişdir: "Nəzər bin Sələmə Mərvəzinin belə dediyini eşitmişəm: "Yalançıdır. Malikdən İbn Vəhəbin məsələlərini (ondan soruşduğu suallara cavabları) nəql edirdi".

Əqili deyir: "Usəma Dəqqaq Bəsri mənə belə nəql etmişdir: "Yəhya bin Muinin belə dediyini eşitdim: "İsmail bin Əbu Uveys iki qara qəpiyə dəyməz".[106]

İbn Həcər deyir: "Laləkani belə demişdir: "Nəsai onun əleyhinə o qədər söz demişdir ki, bu onun tərk olunmasına gətirib çıxartmışdır. Bəlkə də başqalarına məlum olmayan bir şey ona məlum olmuşdur. Bunların hamısının sözləri onun zəif olması anlamındadır. İbn Udəy deyir: "Onun dayısından elə qəribə hədislər nəql edilmişdir ki, heç kim həmin hədisləri nəzərə almır".

İbn Həzm əl-Muhəlla kitabında belə deyir: "Əbulfəth Əzdi belə demişdir: "Seyf bin Muhəmməd bizə belə nəql etmişdir ki, İbn Əbu Uveys hədis qondarırdı".[107]

Buxari və Müslim İbn Əbu Uveysin nəql etdiyi hədisə əsasən dəlil gətirmişlər. Lakin bu, heç də onun nəql etdiyi bu hədisin səhih olması demək deyil. İbn Həcər deyir: "İki şeyxə (Buxari və Müslim) gəlincə, belə güman edilməməlidir ki, ondan hədis nəql etmişlər. Onlar yalnız onunla

---

[106] Mizanul-itidal, c. 1, s. 222, 223.

[107] Təhzibut-təhzib, c. 1, s. 271 ,272.

birlikdə başqa etibarlı ravilərin də nəql etdiyi səhih hədisləri qeyd etmişlər”.[108]

Hakim hədislər barədə güzəştə getməsinə baxmayaraq bu hədisi səhih hesab etməmişdir. Lakin bununla yanaşı həmin hədisə dəstək üçün başqa sənədlə də qeyd etmişdir. Həmin sənəd belədir: Əbu Bəkr bin İshaq Fəqih, Muhəmməd bin İsa bin Səkən Vasitidən, o da Davud bin Əmr Zəbbidən, o da Saleh bin Musa Təlhidən, o da Əbdüləziz bin Rəfidən, o da Əbu Salehdən, o da Əbu Hüreyrədən...

Bu sənəddə isə Saleh bin Musa Təlhi var. Onun barəsində hədis və rical alimlərinin dediklərini aşağıda qeyd edirik:

İbn Həcər deyir: “İbn Muin belə demişdir: “O, bir şey deyil”. Həmçinin deyir: “Saleh və İshaq Musanın övladlarıdır. Bir şey deyillər. Onların hədisləri yazılmaz”.

Haşim bin Muin deyir: “Etibarlı deyil”.

Covzcani deyir: “Həsən olmasına baxmayaraq hədisi zəifdir”.

İbn Əbu Hatəm atasından belə nəql edir: “Hədisi zəifdir. Tanınmayan hədislər nəql edir. Tanınmayan hədisləri etibarlı ravilərdən nəql etmişdir”.

Buxari deyir: “Suheyl bin Əbu Salehdan tanınmayan hədis nəql etmişdir”.

Nəsai deyir: “Hədisi yazılmaz. Zəifdir”. Həmçinin demişdir: “Hədisi tərk olunar”.

Əbu Nəim deyir: “Hədisi tərk olunar. Tanınmayan hədislər nəql edir”.[109]

Zəhəbi deyir: “Kufəlidir. Zəifdir”.[110]

---

[108] Həmin mənbə, c. 1, s. 273.

[109] Təhzibut-təhzib, c. 4, s. 354, 355.

[110] Mizanul-itidal, c. 2, s. 301, 302.

Bu hədisi Beyhəqi və İbn Həzm hər iki sənədlə nəql etmişdir. Birinci sənəddə İbn Əbu Uveys, ikinci sənəddə isə Saleh bin Musa Təlhi var. Onların barəsində deyilən sözləri qeyd etdik.[111]

İbn Əbdülbirr bu hədisi Saleh bin Musa Təlhinin olduğu sənədlə nəql etmişdir.[112]

İbn Əbdülbirr Malikin sənədsiz nəql etdiyi rəvayəti Kuseyr bin Abdullah bin Əmr bin Ovfun atasından, onun da babasından nəql etdiyi hədislərlə birləşdirmişdi.[113]

İbn Muin onun barəsində "O, bir şey deyil" demişdir.

Şafei və Əbu Davud belə demişlər: "Yalanın sütunlarındandır. Əhməd onun hədisini etibardan salmışdır".

Darqutni deyir: "Tərk olunar".

Əbu Hatəm deyir: "Sabit deyil".

Nəsai deyir: "Etibarlı deyil".

Mutrif bin Abdullah Mədəni deyir: "Onu görmüşəm. Çoxlu düşmənləri vardı. Bizim səhabələrimizdən heç kim ondan nəql etməmişdir".

İbn Hibban deyir: "O, atasından və babasından qondarma hədis nəql etmişdir".

İbn Udəy deyir: "Nəql etdiyinin əksəriyyətinə diqqət edilməz".[114]

İbn Həcər onun barəsində belə deyir: "Yeddi alim tərəfindən zəifdir. Onlardan bəziləri ona yalançılıq nisbət vermişlər".[115]

Əbu Talib Əhməddən belə nəql edir: "Nəql etdiyi hədis tanınmır. Bir şey deyil".

---

[111] əs-Sünənul-kubra, c. 10, s. 114; əl-İhkam, c. 6, s. 243.

[112] ət-Təmhid, c. 24, s. 332.

[113] Həmin mənbə, c. 24, s. 331.

[114] Mizanul-itidal, c. 3, s. 406, 407.

[115] Təqribut-təhzib, c. 2, s. 132.

Abdullah bin Əhməd deyir: "Atam Müsnəd kitabında Kuseyr bin Abdullahın hədisini etibardan salmışdır".

Əbu Xeysəmə belə deyir: "Əhməd mənə dedi: "Ondan bir şey nəql etmə".

İbn Əbu Hatəm deyir: "Əbu Zurədən onun barəsində soruşduqda belə dedi: "Hədisi zəifdir, güclü deyil".

Əbu Nəim deyir: "Əli bin Mədini onun zəif hesab etmişdir".

İbn Səd deyir: "Az hədis nəql etmişdir. Zəif hesab olunur".[116]

Qeyd olunan hədisi Əbu Bəkr Şafei "əl-Ğeylaniyyət"[117] kitabında, Əbulqasim Laləkani "Şərhu usuli etiqadi əhlis-sunnə"[118] kitabında nəql etmişlər. Hər ikisinin sənədində Saleh bin Musa Təlhi var.[119]

Xətib Bağdadi bu hədisi Seyf bin Ömərin olduğu sənədlə nəql etmişdir. O isə zindiqdir. Onun hədisinə etimad edilməz. Həmçinin Saleh bin Musa Təlhinin olduğu başqa sənədlə də nəql etmişdir.[120]

Bu hədisin sənədləri və raviləri qeyd etdiyimiz kimidir. Sonradan alimlər bu hədisi kitablarında qeyd etmişlər. Məsələn, Bəğəvi "Misbahus-sunnə"[121] kitabında və İbn Əsir "Camiul-usul min əhadisir-rəsul" kitabında bu hədisi Malikin əl-Muvatta[122] kitabına istinad edərək qeyd etmişlər. Xətib Təbrizi "Mişkatul-məsabih"[123] kitabında, Siyuti "əl-Camius-səğir"[124] kitabında, Muttəqi "Kənzul-ummal" kitabında əl-Mustədrək[125] kitabına istinad edərək bu hədisi nəql etmişlər.

---

[116] Təhzibut-təhzib, c. 8, s. 377, 378.

[117] əl-Ğəylaniyyat, c. 1, s. 510.

[118] Şərhu usuli etiqadi əhlis-sunnə, c. 1, s. 76.

[119] əl-Fəqih vəl-mutəfəqqih, c. 1, s. 306.

[120] Həmin mənbə, c. 2, s. 239.

[121] Həmin mənbə, c. 1, s. 277.

[122] Həmin mənbə, c. 1, s. 53.

[123] Həmin mənbə, s. 505.

[124] Həmin mənbə, c. 1, s. 173.

Hədisi zəif hesab edənlər

1. Əhməd bin Səd Həmdun. O belə deyir: "Hədisin sənədi zəifdir. Sənəddə Saleh bin Musa Təlhi var".[126]

2. Həlmi Kamil Əsəd. əl-Ğəylaniyyat kitabına haşiyədə belə deyir: "Sənədi olduqca zəifdir".[127]

3. Şeyx Muhəmməd Əmin, "Multəqa əhlil-hədis".

4. Şeyx Hatəm Şərif, "İslam əl-yəm" internet portalı. "Qeyd olunan hədisi İmam Malik əl-Muvatta kitabında sənədi olmadan eşitdiyinə əsasən nəql etmişdir. Hədisin sıra sayı 2618. Bəzi elm əhli başqa səhih olmayan nəqllərlə hədisi birləşdirmək istəmişlər. Lakin həmin hədislərin sənədində hədisi gücləndirəcək heç bir səbəb yoxdur".

5. Həsən Səqqaf bu hədisin qondarma olduğunu demişdir.[128]

Doktor Əbdülkərim bin Abdullah Xuzeyr "əl-Hədisiz-zəif və hukmul-ihticac bihi" kitabında "Allahın kitabı və sünnəm" hədisini nəql etmişdir.[129] Sonra isə mursəl (sənədində ravi silsiləsi tam olmayan) hədisləri dəlil gətir. Halbuki o belə deyir: "Zəif hədislə mütləq surətdə dəlil gətirilməz". Şübhəsiz ki, sünnə İslam şəriətinin əsas mənbələrindəndir. Lakin Quran və sünnə məhz ikisi nicat yoludur?! Peyğəmbər (s) ümmət üçün başqa bir şey qoyub getməyibmi?

Bu rəyin zəif olduğunu bəyan etdik. "Allahın kitabı və sünnəm" hədisini səhih hesab edənlər üçün belə deyirik: Əgər hədisin səhihliyini fərz etsək bu hədislə "Allahın kitabı və itrətim" hədisi arasında ortaq nöqtəyə gələ bilərik. Deməli, Peyğəmbər (s) bizə Quran, sünnə və Əhli-

---

[125] Şərhu usuli etiqad əhlis-sunnə, s. 8.

[126] Təxricu Əhməd bin Həmdun, c. 1, s. 173.

[127] əl-Ğəylaniyyat, c. 1, s. 510.

[128] Səhih sifəti salətin-nəbi, s. 289.

[129] Həmin mənbə, s. 246.

Beyti qoyub getmişdir. Nəticədə sünnə Əhli-Beyt imamlarında olandır. Bu isə imamiyyənin etiqadıdır.

Şeyx Doktor Rəcəb Deyb belə deyir: "Müsəlmanların Allahın kitabına və peyğəmbərinin (s) sünnəsinə və Əhli-Beytinə tabe olmaları aşkarcasına əmr olunmuşdur".[130]

Bir rəvayətdə nəql olunur ki, Peyğəmbər (s) Əliyə (ə) belə dedi: "Sən mənim qardaşım və varisimsən". (Əli) dedi: "Səndən nə miras aparacam, ey Allahın peyğəmbəri?" (Peyğəmbər) buyurdu: "Məndən öncəki peyğəmbərlərin irs apardıqlarını". (Əli) dedi: "Səndən öncə peyğəmbərlər nə miras aparmışlar?" (Peyğəmbər) buyurdu: "Allahın kitabını və peyğəmbərlərinin sünnəsini".[131]

Musnədi Zeyd bin Əlidə belə nəql olunur: "Ey insanlar, mən sizin aranızda Allahın kitabını, sünnəmi və Əhli-Beytimi qoyub gedirəm".[132]

İbn Həcər Heysəmi deyir: "Allahın kitabı və sünnəm rəvayətində məqsəd yalnız Allahın kitabını qeyd edən hədislərdəki məqsədlə eynidir. Sünnə (Quranı) izah edəndir. Buna görə də Quranın qeyd edilməsi sünnəni əvəzləyir. Nəticə budur ki, Allahın kitabına, sünnəyə və Əhli-Beytdən bu ikisini bilənlərə tabe olmaq təkid edilir. Bütün bunlardan belə nəticə çıxır ki, bu üçü qiyamət qopanadək davam edəcəklər".[133]

Əgər "Allahın kitabı və sünnəm" hədisinin doğru olduğunu fərz etsək, bu hədisdə nəzərdə tutulan məna Əhli-Beyt imamlarına tabe olmaqdır. Çünki "Allahın kitabı və itrətim Əhli-Beytim" hədisi tabe olunması vacib sünnədəndir.

---

[130] Şeyx Əmin bin Saleh, "Fiqhil-al beynə dəval-ihmal və tuhmətul-intihal" kitabının müqəddiməsi, s. 7.

[131] Əhməd bin Hənbəl, "Fəzailus-səhabə, c. 2, s. 666.

[132] Müsnədi Zeyd bin Əli, c. 4, s. 440.

[133] əs-Səvaiqul-muhriqə, c. 2, s. 439.

Ola bilsin ki, bəziləri yuxarıdakı hədisin imamiyyə kitablarında da qeyd olunması ilə irad tuta bilərlər. Lakin həmin hədisin sənədini də nəzərdən keçirdikdə bu irad öz əhəmiyyətin itirir. Çünki hədisin sənədindəki ravilər şiə məzhəbinə mənsub olmayan şəxslərdir. Həmçinin başqa məzhəbə mənsub olanlar öz mənbələrində qeyd olunan hədisi təshih etmək üçün şiə kitablarına əsaslanmaları doğru deyil. Əgər şiə məzhəbində bu növ hədislərlə necə davranmağın gərəkdiyi prinsiplərə əsaslanaraq hədisi tədqiq etmək istəsələr, imamiyyə məzhəbinin prinsiplərinə əsasən hədisin sənədi nöqsanlıdır. Bu isə hədisin etibardan düşməsi üçün yetərlidir.

Şeyx Səduq belə nəql edir: "Muhəmməd bin Ömər Bağdadi Muhəmməd bin Hüseyndən bin Həfs Xəsəmidən, o da Muhəmməd bin Ubeyddən, o da Saleh bin Musa, o da Əbdüləziz bin Rəfidən, o da Əbu Salehdən, o da Əbu Hüreyrədən belə nəql edir: "Rəsulullah (s) belə buyurdu: "Mən sizin aranızda elə iki şey qoyub gedirəm ki, əgər onlardan yapışsanız heç vaxt yolunuzu azmayacaqsınız. Allahın kitabı və sünnəm. Həqiqətən də onlar hovuz başında mənə çatandək bir-birindən ayrılmayacaqlar".[134]

Əli Əkbər Ğəfari bu hədis barəsində belə deyir: "Əbu Hüreyrədən bu rəvayət bu mətnlə burada (bu kitabda) nəql olunması məqama münasib deyil. Yalnız məqsəd Əbu Hüreyrənin hədisin mətnini təhrif etməsi və ya müəllifin eşitdiyi hər bir şeyi qeyd etməsi ola bilər".

Muhəmməd Bariq Bəhbudi belə deyir: "Bu hədis qondaran yalançı Əbu Hüreyrənin təhriflərindəndir. Çoxlu sayda rəvayətlərdə "itrətim" deyildiyi məlumdur. Səqleyn hədisi heç bir şübhə olmayan mütəvatir hədislərdəndir".[135]

Muhəmməd Reyşəhir deyir: "Kitab və sünnəyə əməl etmək barədə Rəsulullahdan (s) belə nəql olunmuşdur: "Sizin aranızda iki şey qoyub

---

[134] Kəmalud-din və təmamun-nemə, s. 235.

[135] Biharul-ənvar, c. 23, s. 132.

gedirəm; Allahın kitabı və sünnəm. Onlar hovuz başında mənə çatanadək bir-birindən ayrılmayacaqlar", həmçinin, "Mən sizin aranızda elə iki şey qoyub gedirəm ki, heç vaxt yolunuzu azmayacaqsınız. Allahın kitabı və sünnəm. Onlar hovuz başında mənə çatandək bir-birindən ayrılmayacaqlar". Bu kimi rəvayətlərin sənədinin heç bir etibarı yoxdur. Belə başa düşülür ki, bu kimi rəvayətlər mütəvatir və səhihliyində hamının müttəfiq olduğu səqəleyn hədisi müqabilində uydurulmuşdur".[136]

Seyid Əbdülhüseyn Şərəfəddin belə deyir: "Bəzi rəvayətlər səhihliyində icma edilmiş səqəleyn hədisində qeyd olunan itrət məfhumuna müxalifdir. Məsələn, Saleh bin Musa bin Abdullah bin İshaq bin Təlhə bin Ubeydullah Qurəşi Təmimi Təlhinin Əbu Hüreyrəyə istinadən Rəsulullahdan (s) nəql etdiyi hədis kimi: "Mən sizin aranızda iki şey qoyub gedirəm. Onlardan sonra heç vaxt yolunuzu azmayacaqsınız. Allahın kitabı və sünnəm. Onlar hovuz başında mənə çatandək bir-birindən ayrılmayacaqlar". Mən deyirəm: "Hədisin məzmunu haqdır. Lakin Peyğəmbərin (s) bu hədisi "sünnəm" sözü ilə deməsi batildir. Rəvayətin (uydurulmasının) məqsədi azdırmaqdır".[137]

Beşinci hədis: "Məndən sonra Əbu Bəkr və Ömərə iqtida edin".

Tirmizi Sovrinin hədislərindən belə nəql edir: Əbdülməlik bin Umeyr Hilal Movla Ribi bin Xiraşdan, o da Ribidən, o da Huzeyfədən belə nəql edir: "Rəsulullah (s) buyurdu: "Məndən sonra Əbu Bəkr və Ömərə iqtida edin".[138]

---

[136] Mizanul-hikmə, c. 2, s. 1370.

[137] İləl-mucməul-aləmi bi Diməşq, s. 114, 115.

[138] Sünəni Tirmizi, c. 5, s. 271.

Bu hədisə əsasən dəlil gətirənlər

İbn Teymiyyə: O, kitablarında bir neçə dəfə bu hədisə əsasən dəlil gətirmişdir.[139]

İbn Əbulizz Hənəfi "Şərhil-əqidətit-tahaviyyə" kitabında.[140]

İbn Qəyyim, "İlamul-muqiin ən Rəbbil-aləmin" kitabında.[141]

Qeyd olunanlardan əlavə bu hədisə əsasən çoxları dəlil gətirmişlər.

Hədisin sənədinin müzakirəsi

Tirmizinin nəql etdiyi bu rəvayətin sənədində Əbdülməlik bin Umeyr var. Əhməd bin Hənbəlin Müsnədində[142] qeyd olunan rəvayətin sənədində də bu şəxsin adı çəkilir. Hakim bu hədisi beş yolla nəql etmişdir.[143] Təbərani "əl-Mucəmul-əvsət" kitabında üç yolla nəql etmişdir.[144] Həmçinin İbn Macə[145], Beyhəqi[146] və İbn Əbdülbirr[147] bu hədisi nəql etmişdir. Bütün rəvayətlərin sənədlərində Əbdülməlik bin Umeyrin adı qeyd edilir.

İbn Həcər onun barəsində belə deyir: "Əhməd Əbdülməlikin hədisi tərəddüdlüdür və çox az nəql olunmuşdur. Onun beş yüzə qədər hədisini bilirəm. Onların çoxunda səhvə yol vermişdir". İshaq bin Mənsur deyir: "Əhməd onu olduqca zəif hesab edirdi". Saleh bin Əhməd atasından belə nəql edir: "Səmmak ondan nəql olunan bir hədisi doğru hesab etmişdir. Çünki hədis hafizləri onun barəsində ixtilaf etmişlər". İshaq bin Mənsur

---

[139] Məcmuətul-fətava, c. 4, s. 399.

[140] Şərhul-əqidətit-tahaviyyə, s. 534.

[141] İlamul-muqiin ən Rəbbil-aləmin, c. 4, s. 140.

[142] Müsnədi Əhməd, c. 4, s. 140.

[143] əl-Mustədrək, c. 3, s. 75.

[144] əl-Mucəmul-əvsət, c. 4, s. 140; c. 5, s. 344; c. 4, s. 76.

[145] Sünəni İbn Macə, c. 1, s. 117.

[146] Beyhəqi, əs-Sünənul-kubra, c. 5, s. 212.

[147] İbn Əbdülbirr, əl-İstiab, c. 3, s. 970.

İbn Məinin belə dediyini nəql edir: “Hədisləri qarışdırır”. İcli deyir: “Ona Qibtiyyənin oğlu deyilir. O, Kufədə idi. Onun hədisi düzgündür. Yüzdən artıq hədis nəql etmişdir. Ölmədən əvvəl hafizəsi pozulmuşdur”. İbn Əbu Hatəm belə deyir: “Saleh bin Əhməd Əli bin Mədinidən bizə belə nəql edir: “İbn Məhdinin belə dediyini eşitdim: “Sovri Əbdülməlikin hafizəsinə heyran qalırdı. Saleh deyir ki, mən atamdan soruşdum: “O, Əbdülməlik bin Umeyrdir?” (Atam) “Bəli” deyə cavab verdi”. İbn Əbu Hatəm deyir: “Bu məsələni atamdan soruşdum. Belə dedi: “Bu səhvdir. O, Əbdülməlik bin Əbu Süleymandır. Əbdülməlik bin Umeyr hədis hifz etməklə vəsf olunmayıb”.[148]

Zəhəbi Mizanul-itidal kitabında onun barəsində hədis alimlərinin dediyi sözlər qeyd etmişdir. Əbu Hatəm deyir: “Hədis hafizi deyil. Hafizəsi dəyişmişdir”. Əhməd deyir: “Zəifdir. Hədisləri qarışdırırdı”. İbn Muin deyir: “Hədisləri qarışdırır”. İbn Xiraş deyir: “Şöbə onun hədis nəql etdiyi hədislərlə razılaşmırdı”.[149]

Həmçinin Tirmizinin nəql etdiyi hədisin sənədində Hilal Movla Ribi var. O da məchuldur. Zəhəbi onun barəsində belə deyib: “Ondan yalnız Əbdülməlik bin Umeyr nəql etmişdir”.[150]

Hilal bir çox hədislərin sənədində nəql olunmuşdur. O məchul olduğu üçün barəsində danışmağa lüzum yoxdur.

Hakim deyir: “Bu hədisin doğru olması üçün başqa bir səhih sənədlə Abdullah bin Məsuddan nəql olunan hədisə rast gəldik. Əbu Bəkr bin İshaqdan, o da Abdullah bin Əhməd bin Hənbəldən, o da İbrahim bin İsmail bin Yəhya bin Sələmə bin Kuheyldən, o da atasından, o da

---

[148] Təhzibut-təhzib, c. 6, s. 365, 366.

[149] Mizanul-itidal, c. 2, s. 660.

[150] Mizanul-itidal, c. 4, s. 317.

babasından, o da Əbu Zəradan, o da Abdullah bin Məsuddan belə nəql edir: "Rəsulullah (s) belə buyurdu:..."[151]

Hakim hədislər xüsusunda güzəştə gedən idi. Hətta bu hədisi səhih hesab etsə də hədisin sənədində Yəhya bin Sələmə bin Kuheyl var. Bu şəxs Təbəranini nəql etdiyi rəvayətin sənədində də qeyd edilmişdir.[152]

İbn Həcər onun tərcümeyi-halı barədə deyir: "Sovri İbn Muinin onun barəsində belə dediyini nəql edir: "Hədisi zəifdir". Məzər bin Muhəmməd İbn Muinin onun barəsində belə dediyini nəql edir: "Bir şey deyil". Əbu Hatəm deyir: "Nəql etdiyi hədislər tanınmır. Güclü deyil". Buxari deyir: "Onun nəql etdiyi hədislərdə məqbul olmayan şeylər var". Tirmizi deyir: "Hədisdə zəifdir". Nəsai deyir: "Etibarlı deyil". İbn Hibban oğlunun ondan nəql etdiyi hədislərdə qəbul olunmayan şeylər olduğunu demişdir. Hicri 179-cu ildə vəfat etmişdir. İbn Muin deyir: "172-ci ildə vəfat etmişdir". Mən deyirəm: "İbn Hibban onu həmçinin zəif ravilərin sırasında qeyd etmiş onun barəsində demişdir: "Hədisi olduqca məqbul deyil. Onun hədisi ilə dəlil gətirilməz". Nəsai deyir: "Nəql etdiyi hədis tərk olunar". İbn Numeyr deyir: "Hədisi yazılan şəxslərdən deyil". Darqutni deyir: "Hədisi tərk olunar". Həmçinin onun zəif olduğunu demişdir. İcli deyir: "Hədisi zəifdir. Şiəlikdə həddi aşırdı". İbn Səd deyir: "Olduqca zəifdir". Buxari "əl-Əvsət" kitabına əsasən demişdir: "Nəql etdiyi hədis tanınmır". Yaqub bin Sufyan onu "kimlərdən rəvayət nəql olunması bəyənlimir" babında qeyd etmişdir. Səhabələrimizin onu zəif hesab etdiklərini eşitmişəm. Aciri Əbu Davudun belə dediyini nəql edir: "Bir şey deyil".[153]

Hakimin nəql etdiyi rəvayətdə həmçinin İsmail bin Yəhya bin Sələmə var. Onun nəql etdiyi hədis tərk olunar.[154]

---

[151] əl-Mustədrək aləs-səhiheyn, c. 3, s. 75, 76.

[152] əl-Mucəmul-kəbir, c. 9, s. 72.

[153] Təhzibut-təhzib, c. 11, s. 197.

[154] Təqribut-təhzib, c. 1, s. 100.

Həmçinin həmin rəvayətin sənədində İbrahim bin İsmail var. O da zəifdir.[155]

İbn Əsakir bu hədisi aşağıdakı sənədlə nəql etmişdir: "Əbu Şəkər Muhəmməd bin Əbu Tahir Əhməd bin Əbu Nəsr Abdullah bin Hüseyn Əbu Əmr bin Mundədən, o da Əhməd bin Səd Bağdadidən, o da Muhəmməd bin Əbdüləziz bin Rəbiə Kilabidən, o da Əhməd bin Ruşd bin Xeysəmdən, o da Həmid bin Əbdürrəhmandan, o da Həsən bin Salehdən, o da Firas bin Yəhyadan, o da Şəbidən, o da Əlqəmə bin Qeysdən, o da Abdullah bin Məsuddan belə nəql edir..."[156]

Bu sənəddə Əhməd bin Ruşd bin Xeysəm var. Zəhəbi "əl-Muğni fiz-zuəfa"[157] kitabında onun adını qeyd edərək belə demişdir: "Əhməd bin Ruşd Hilali Səid bin Xeysəmdən Bəni Abbas barədə batil hədis nəql etmişdir. (Hədisin sənədində) İbn Xeysəmin olmasına görə hədisin batil olmasına hökm edilmişdir".

Zeyləi onun barəsində belə deyir: "O, ittiham edilmişdir. Onun batil hədisləri var".[158]

Qeyd etdiklərimiz bu hədisin ən məşhur sənədləridir. Bu hədisi bir neçə alim zəif hesab etmişdir. İbn Həzm də bu hədisi zəif hesab edərək belə demişdir: "Əgər biz də yalan hədisi qəbul etsəydik "Məndən sonra Əbu Bəkr və Ömərə iqtida edin" hədisi ilə dəlil gətirərdik. (Əbu Muhəmməd deyir) "Lakin bu doğru deyil. Allah bizi səhih olmayan hədislə dəlil gətirməkdən uzaq tutsun".[159]

Əbu Hatəm də bu hədisin nöqsanlı olduğunu demişdir.[160]

---

[155] Həmin mənbə, c. 1, s. 53.

[156] Tarixi mədinəti Diməşq, c. 30, s. 227, 228.

[157] əl-Muğni fiz-zuəfa, c. 1, s. 66.

[158] Nəsbur-rayə li əhadisil-hidayə, c. 1, s. 348.

[159] əl-Fəslu fil-miləl vəl-əhva vən-nihəl, c. 4, s. 108.

[160] Munavi, "Feyzul-qədir", c. 2, s. 56.

Şeyxulislam Əhməd bin Yəhya Hərəvi "Məndən sonra Əbu Bəkr və Ömərə iqtida edin" hədisinin batil omasını demişdir.[161]

Sələfi alim Muqbil Hadi Vidai deyir: "Tirmizi Sünən kitabının c. 10, səh. 147-də belə nəql etmişdir: "Həsən bin Səbbah Bəzzar Sufyan bin Uyeynədən, o da Zaidədən, Əbdülməlik bin Umeyrdən, o da Ribidən – o, Xiraşın oğludur – o da Huzeyfədən belə nəql edir: "Rəsulullah (s) buyurdu: "Məndən sonra iki nəfər – Əbu Bəkr və Ömərə iqtida edin". Bu hədis həsəndir. Sonra Tirmizi bu hədisin nöqsanlı olduğunu demişdir. Çünki Əbdülməlik bin Umeyr Ribidən hədis eşitməmişdir. O, yalnız Ribinin azad etdiyi qul Hilaldan hədis eşitmişdir. Əbu Əbdürrəhman deyir: "Ribinin azad etdiyi qul Hilal məchuldur. Ondan yalnız Əbdülməlik bin Umeyr nəql etmişdir". Onu etibarlı hesab etməmişdir. Munavi "Feyzul-qədir" kitabında əlavə olaraq belə demişdir: "İbn Həcər Ribi bin Xiraşın Huzeyfədən hədis eşitməməsini əsas gətirərək hədisə nöqsan tutmuşdur". Abdullah bin Məsudun hədisi və Ənəsin hədisi bu hədisin doğruluğuna şahiddir deyilməsinə gəlincə, bu doğru deyil. Çünki bu hədislərin sənədləri nöqsanlıdır. Hər iki hədis olduqca zəifdir. Allah ən doğrusunu bilir".[162]

Sələfi tədqiqatçı Həssan bin Əbdülmənnan belə deyir: "Hədisdə "Məndən sonra iki nəfərə - Əbu Bəkr və Ömərə iqtida edin" hədisi səhih deyil. Bu rəvayətlərdə olduqca çoxlu nöqsanlar var. Bəzzar və İbn Həzm bu hədisi zəif hesab etmişlər".[163]

Əgər bu hədisin səhihliyini fərz etsək, "məndən sonra iki şeydə Əbu Bəkər və Ömərə iqtida edin" mənasında olmalıdır. Burada Peyğəmbərdən sonra olan iki şey Allahın kitabı və Əhli-Beytidir. Necə ki, məşhur hədisdə belə deyilir. Yəni hədisin (orjinalında qeyd olunan "billəzeyn" sözünün

---

[161] əd-Durun-nəzid, s. 97.

[162] Əhadisin muəllətun zahiruha əs-sihhə, s. 120.

[163] Hivar mə şeyx Albani, s. 146.

nəsb halında oxunamsına əsasən) mənası məndən sonra iki şeydə - Allahın kitabı və Əhli-Beytim barədə Əbu Bəkr və Ömərə iqtida edin olacaqdır.[164]

Səhabələrin bir çox məsələlərdə Əbu Bəkr və Ömərə müxalif olmaları hədis və siyər kitablarında qeyd edilmişdir. Hətta bir qadın Ömərin səhfini düzəltmiş və Ömər səhvə yol verdiyini etiraf etmişdir. Nə Əbu Bəkr, nə də Ömər heç vaxt insanlara deməyiblər ki, sizə əmr olunub ki, bizə iqtida edəsiniz. Əgər belə bir hədis olsaydı Səqifədə "rəhbərlər Qureyşdəndir" deyərək deyil, bu hədisə əsaslanaraq dəlil gətirərdilər. Çünki bu hədisin məzmunu onların məqsədlərinin həyata keçməsi üçün daha güclü dəlil idi. Məgər Əbu Bəkr və Ömərə iqtida etmək nicata çatmaq üçün yetərlidirmi? Əşərilər iki şeyxə (Əbu Bəkr və Ömərə) tabe olduqlarını iddia edirlər. Sələfilər də bunu iddia edirlər. Lakin hər iki tərəf bir-birini zəlalətdə ittiham edirlər. Buna əsasən də onların ikisinə tabe olmaq ixtilafın aradan getməsi və nicata çatmaq üçün yetərli deyil. Onların da öləcəyi bir halda onlara necə iqtida etmək olar? Əgər onlar ikisi bir məsələdə ixtilaf etsələr hansına iqtida etməliyik? Onların səhv edə biləcəyi təqdirdə Peyğəmbər (s) mütləq surətdə onlara tabe olmağı əmr edirdi? Yoxsa bu hədis xüsusi bir məqam üçün deyilmiş və sonradan müəyyən bir məzhəbin xeyirinə ümumiləşdirilmişdir?

Bütün bu suallar bu hədisin Peyğəmbər (s) tərəfindən deyilməsi barədə şübhə doğrur.

Həmçinin İbn Əbdülbirrdən nəql etdiyim kimi Buxari və Müslimin bu hədisi nəql etməməsi onun zəif olması üçün yetərlidir.

Altıncı hədis: "Mənim və xəlifələrin sünnəsinə əməl edin".

İrbad bin Sariyə belə nəql edir: "Rəsulullah (s) gözlərdən yaş axıdan və qəlbləri qorxuya salan bəlağətli bir moizə etdi. Bir nəfər dedi: "Ya

[164] Şəhid Nurullah Tustəri, əs-Səvarimul-muhriqə, s. 100, 101.

Rəsulullah, sanki bu vidalaşan şəxsin öyüd-nəsihətidir. Bizə nə tapşırırsan?" (Peyğəmbər) buyurdu: "Sizə Allahdan qorxmağı, dinləyib itaət etməyi tövsiyə edirəm. Sizlərdən kim məndən sonra yaşayarsa çoxlu ixtilafların baş verəcəyini görəcək. Mənim və hidayət olunmuş raşidi xəlifələrin sünnəsinə əməl edin. Bu iki şeydən dişlərinizlə yapışın".[165]

Bu hədisin əhli-sünnə və sələfilərin nəzərində olduqca çox əhəmiyyəti var. Belə ki, bu hədisə fiqhi hökmlər, üsuli qaydalar və etiqadi məsələlər əsaslanır.

Bu hədisə əsasən dəlil gətirənlər

1. İbn Teymiyyə belə deyir: "Əhli sünnə və cəmaənin yolundan biri də Rəsulullaha batini və zahiri tabeçilik, mühacir və ənsardan olan ilk qabaqcıllara tabeçilik və Rəsulullahın (s) vəsiyyətinə əməl etməkdir. Belə ki, (Peyğəmbər) buyurmuşdur: "Mənim və raşidi xəlifələrin sünnələrinə əməl edin".[166]

2. İmam Sabuni, "Əqidətus-sələf və əshabil-hədis" səh. 128.

3. Muhəmməd bin Nəsr Mərvəzi. Onun bu hədisə əsasən dəlil gətirməsini Mövsim Nəfii "İmam Muhəmməd bin Nəsr Mərvəzinin sələfi əqidəsinin bəyan edilməsində səyi və onu müdafiə etməsi" adlı kitabında qeyd etmişdir.[167]

4. Muhəmməd bin Əbdülvəhhab, "Usulul-iman" kitabı.[168]

5. Səudiyyə krallığının fətva komitəsi: Komitə üzvləri demişlər: "Rəsulullah (s) çoxlu ixtilafların baş verəcəyini, insanların müxtəlif yollara və əqidələrə ayrılacağını, bidətlərin və dəyişikliklərin olacağını

---

[165] Sünən Əbu Davud, c. 12, s. 393, hədis 4443.

[166] Məcmuətul-fətava, c. 3, s. 103; c. 3, s. 250; c. 4, s. 244; c. 20, s. 170; Minhacus-sunnə, c. 4, s. 164; c. 7, s. 503.

[167] Adı çəkilən kitab, c. 2, s. 628.

[168] Usulul-iman, c. 2, s. 628.

xəbər vermişdir. Buna görə də müsəlmanlara Allahın kitabından və özünün sünnəsindən dişləri ilə yapışmağı əmr etmişdir.[169]

Qeyd olunanlardan başqa çoxları bu hədisə əsasən dəlil gətirmişlər.

Dəlilin üslubu

İbn Qəyyim deyir: "(Peyğəmbər) öz sünnəsini xəlifələrinin sünnəsi ilə birgə tutmuşdur. Öz sünnəsinə tabe olmağı əmr etdiyi kimi xəlifələrin də sünnəsinə əməl etməyi əmr etmiş, hətta bu məsələdə təkid edərək dişlərinizlə ondan yapışın deyə əmr etmişdir. Bu isə onların Peyğəmbər (s) tərəfindən öncədən olmayan məsələlərdə onların ümmət üçün verdikləri fətvaları və təqdim etdikləri sünnələri ehtiva edir. Əks təqdirdə isə (Peyğəmbər tərəfindən hökm verilibsə) həmin məsələdə onun (Peyğəmbərin) sünnəsinə əməl olunmalıdır. Həmçinin bu, onların hamısının və ya əksəriyyətinin, yaxud da bəzilərinin verdikləri fətvaları ehtiva edir. Çünki (Peyğəmbər) raşidi xəlifələrin sünnəsi demişdir. Məlumdur ki, səhabələrin hər biri eyni anda xəlifə olaraq sünnə formalaşdırmayıblar. Deməli, onların hər birinin öz zamanında təqdim etyidi sünnə raşidi xəlifələrin sünnəsindəndir".[170]

Sələfi alim Əhməd Səlam buhədisi qeyd etdikdən sonra belə deyir: "Bu, ixtilaf və firqələrə bölünmə baş verdiyi vaxt Peyğəmbərin (s) ümmətə əmr etdiyi metoddur. Onun və raşidi xəlifələrin sünnəsinə əməl etmək".[171]

İlk baxış

Bu hədisi Peyğəmbərin (s) ömrünün son vaxtlarında sübh namazından sonra dediyi nəql olunur. Həmçinin hədisdə "sanki vidalaşan şəxs kimi

---

[169] Elmi Araşdırmalar və Fətva komitəsinin fətvaları, c. 2, s. 200, 201.

[170] İlamul-muqiin, c. 4, s. 140.

[171] Ma ənə əleyhi və əshabi, s. 58.

öyüd-nəsihət verirsən” deyilməsindən bunu başa düşmək olar. Peyğəmbər (s) insanlara elə öyüd-nəsihət vermişdir ki, gözlərdən yaş axmış və qəlblər titrəmişdir. Deməli, bu öyüd-nəsihət unudulmamalı idi. Bu öyüd-nəsihət nəql olunaraq islam ümmətinə çatdırılmalı idi. Xüsusilə də, Peyğəmbərin (s) ömrünün sonunda onun arxasında minlərlə insanın namaz qılmasını demək mümkündür. Lakin buna baxmayaraq bu hədisi yalnız İrbad bin Sariyə nəql etmişdir. Ondan başqa heç kim bu hədisi bizə nəql etməmişdir. Bu isə qeyd olunan rəvayətin Peyğəmbərə (s) nisbət verilməsinin doğru olması barədə bizdə şübhə doğurur. Əks təqdirdə bu hədis xəlifələrə, İbn Abbasa, İbn Ömərə və başqa ravilərə gizli qala bilməzdi. Əgər bu hədis səhih olsaydı on minlərlə hədisləri əzbər bilən Buxari və Müslimə bu hədis gizli qala bilməzdi!

İki əsas ravi

Bu hədis bir neçə sənədlə nəql olunmuşdur. Bütün hədislər İrbad bin Sariyəyə qayıdır və Əbdürrəhman bin Əmr Suləmi də ondan nəql etmişdir.

İrbadın tərcümeyi-halı

O, Bəni Suleym tayfasındandır. Suffə əhlindən olan səhabədir. Sonradan Hıms şəhərində yaşamışdır. Xəlifə bin Xəyyat deyir: “İbn Zubeyr fitnəsində ölmüşdür”. Əbu Mushər deyir: “Ondan bir il sonra yetmiş beşinci ildə vəfat etmişdir”. Mizzi deyir: “Onun ölümü çox əvvəl olmuşdur”.[172]

İrbad İslam dinini qəbul edən dördüncü şəxs olduğunu iddia edirdi. İbn Həcər deyir: “Əmr bin Əbəsə və İrbad bin Sariyə hər ikisi “Mən

[172] Təhzibul-kamal, c. 19, s. 554 əl-İsabə, c. 4, s. 398, 399; Usudul-ğabə, c. 4, s. 19, 20; Siyəru əlamin-nubəla, c. 3, s. 422.

İslamın dördüncüsüyəm” deyirdi. Onların hansının digərindən əvvəl olduğu bilinmir”.[173]

İrbadın iddiası batildir. Tarix müəllifləri onun ilk çağlarda İslamı qəbul etməsini qeyd etməmişlər. İbn İshaq belə deyir: “Rəsulullaha (s) ilk tabe olan şəxs zövcəsi Xədicə bint Xuveylid olmuşdur. Sonra isə kişilərdən ona iman gətirən Əli olmuşdur. Həmin vaxt onun on yaşı vardı. Sonra Zeyd bin Harisə, sonra ƏbuBəkr Siddiq olmuşdur... Mənə çatan xəbərə görə onun – Əbu Bəkrin – vasitəsilə Zubeyr bin Avvam, Osman bin Əfvan, Təlhə bin Ubeydullah, Səd bin Əbu Vəqqas, Əbdürrəhman bin Ovf... islamı qəbul etmişlər. Bu səkkiz nəfər İslamı ilk qəbul edənlərdir. Namaz qılmışlar, Rəsulullahı (s) təsdiqləmişlər, Allah-taala tərəfindən gətirdiyi dinə iman gətirmişlər”.[174]

İrbadın İslamın dördüncüsü olmasını deməsi onun başqa sözləri barədə də bizdə şübhə yaradır!

Əbdürrəhman bin Əmr Suləminin tərcümeyi-halı

Əbdürrəhman bin Əmr Suləmi İrbaddan hədis nəql edən bu ravi hədisin bütün nəql olunma sənədlərində var. Onun tərcümeyi-halına nəzər saldıqda heç kimin onu etibarlı hesab etdiyinə rast gəlmirik.

Onun barədə ilk məlumatları İbn Səd yazmışdır. İbn Səd deyir: “Əbdürrəhman bin Əmr Suləmi hicri yüz onuncu ildə Hişam bin Əbdülməlikin xəlifəliyi dövründə vəfat etmişdir.[175]

Sonra isə Buxari Tarixul-kəbir kitabında ondan bəhs edərək belə demişdir: “Əbdürrəhman bin Əmr Suləmi İrbad bin Sariyədən, Xalid bin

---

[173] əl-İsabə, c. 4, s. 399; Tarixi Diməşq, c. 40, s. 185.

[174] Sirətu İbn İshaq, Doktor Suheyl Zəkarın tədqiqi ilə, c. 2, s. 120, 121. Bu mətnin məzmununu Zəhəbi Tarixul-islam kitabında c. 1, s. 138, İbn Kəsir tarixində c. 3. S. 39 və başqaları qeyd etmişlər. İrbadın adı İslamı ilk qəbul edənlərin adlarının sırasında olmamışdır.

[175] ət-Təbəqatul-kubra, c. 7, s. 325.

Mədan və Dəmrə bin Həbib Şamidən hədis nəql etmişdir. Ondan isə Əla bin Hilal hədis nəql etmişdir.[176]

İbn Hibban "əs-Siqat" kitabında onun adını çəkmiş və Buxarinin qeyd etdiklərindən artıq bir şey yazmamışdır.[177]

Əbu Hatəmin "əl-Cərhu vət-tədil", İclinin "əs-Siqat", Darqutninin "Zikru əsmait-tabein" kimi əvvəlki alimlərin kitablarına nəzər saldıqda Suləmi barədə heç bir şeyə rast gəlmirik.

Qeyd olunanlar onun barəsində əvvəlki alimlərin dedikləridir. İbn Həcər deyir: "Hədis kitablarında onun moizə barəsində bir hədisi var. Həmin hədisi Tirmizi səhih hesab etmişdir".[178]

Sonda Əbdürrəhman bin Əmr Suləmi məchul olması, hədis əhlinin ən görkəmli alimlərindən sayılan Qəttan Fasinin onun nəql etdiyi hədisi səhih hesab etməməsini deməklə kifayətlənirik.[179]

Hədis elmində görkəmli alimlərdən biri Şöbə bin Həccac belə deyirdi: "Bu hədisin Rəsulullah (s) tərəfindən deyilməsinin səhih olması mənim üçün atamdan, övladımdan və bütün insanlardan daha sevimlidir".[180]

Bəzi müasir alimlər bu rəydədirlər. Onlardan biri də sələfi tədqiqatçı Həssan bin Əbdülmənnandır. O, Şeyx Albani ilə dialoq adlı kitabında İrbad

---

[176] Tarixul-kəbir, c. 5, s. 312.

[177] əs-Siqat, c. 5, s. 111.

[178] Təhzibut-təhzib, c. 6, s. 216.

[179] Qəttan Fasi, "əl-Vəhm vəl-iham", c. 2, s. 35. Siyuti bu alimin tərcümeyi-halı barədə yazır: "İbn Qəttan. Hədis hifizi və əllamə. Məzhəbin qazisi. Əbəlhəsən Əli bin Muhəmməd bin Əbdülməlik bin Yahya bin İbrahim Himyəri Kəttami Fasi. Hədis elmində ən bilikli şəxslərdən idi. Hədis ravilərinin adlarını ən yaxşı əzbər bilən idi. Hədis əzbər bilməsi və hafizəsinin gözəl olması ilə tanınmışdır. "əl-Vəhm vəl-iham" adlı kitab yazmışdır. Hicri 628-ci il rəbiəl-əvvəl ayında vəfat etmişdir. Təbaqatul-huffaz s. 498.

[180] Hakim əl-Mustədrək kitabında bu sözləri ondan nəql etmişdir. c. 1, s. 97.

bin Sariyənin hədisi barədə danışmış və sələfi tədqiqatçı Muhəmməd Əminin rəyi ilə razılaşmışdır.

Hədisin sənədlərinə bir baxış

Tirmizin həql etdiyi hədisin sənədləri

Bu hədisin iki sənədi var. Hər iki hədis Əbdürrəhman bin Əmr Suləminin İrbad bin Sariyədən nəql etməsi ilə tamamlanır. Tirmizi bu iki sənədi səhih hesab etmişdir.

Birinci sənəd: Əli bin Həcər Bəqiyyə bin Vəliddən, o da Buheyr bin Səiddən, o da Xalid bin Mədandan, o da Əbdürrəhman bin Əmr Suləmidən, o da İrbad bin Sariyədən nəql edir...”

İkinci sənəd: Həsən bin Əli Xəllal nəql edir ki, bir neçə nəfər belə xəbər vermişdir: Əbu Asim Sovr bin Yeziddən, o da Xalid bin Mədandan, o da Əbdürrəhman bin Əmr Suləmidən, o da İrbad bin Sariyədən nəql edir...[181]

Əbu Davudun nəql etdiyi sənəd

Bu hədisin sənədi yenə iki raviyə qayıdır. Əhməd bin Hənbəl Vəlid bin Müslimdən, o da Sovr bin Yeziddən, o da Xalid bin Mədandan, o da Əbdürrəhman bin Əmr Suləmi və Hicr bin Hicrdən, onlar da İrbad bin Sariyədən nəql edirlər...”[182]

İbn Macənin nəql etdiyi hədisin sənədi

İbn Macənin iki sənədlə nəql etdiyi hədisdə Əbdürrəhman bin Əmr Suləminin adı qeyd edilmişdir.

---

[181] Sünəni Tirmizi, kitabul-ilmi, bab ma caə fil-əxzi bis-sünnə və ictinabil-bidə.

[182] Sünəni Əbu Davud, kitabus-sünnə, bab fi luzumis-sunnə, c. 2, s. 393.

Birinci sənəd: Abdullah bin Əhməd bin Bəşir bin Zəkvan Diməşqi, Vəlid bin Müslimdən, o da Abdullah bin Əladan (İbn Zubr), o da Yəhya bin Əbulməttadan belə nəql edir: İrbad bin Sariyənin belə dediyini eşitdim...”

İkinci sənəd: İsmail bin Bəşir bin Mənsur və İshaq bin İbrahim Səvvaq Əbdürrəhman bin Məhdidən, o da Müaviyə bin Salehdan, o da Dəmrə bin Həbibdən, o da Əbdürrəhman bin Əmr Suləmidən belə nəql edir: İrbad bin Sariyənin belə dediyini eşitdim...”[183]

Daraminin nəql etdiyi hədisin sənədi

Suləminin adı Daraminin sünnənində bir dəfə, yalnız bu hədisin sənədində qeyd edilmişdir. Hədisin sənədi belədir: Əbu Asim Sovr bin Yeziddən, o da Xalid bin Mədandan, o da Əbdürrəhman bin Əmr Suləmidən, o da İrbad bin Sariyədən belə nəql edir...”[184]

Əhməd bin Hənbəlin nəql etdiyi hədisin sənədləri

Süləminin adı Əhməd bin Hənbəlin nəql etdiyi üç sənəddə qeyd edilmişdir.

Birinci sənəd: Abdullah atasından, o da Əbdürrəhman bin Məhdidən, Müaviyə bin Salehdən, Dəmrə bin Həbibdən, o da Əbdürrəhman bin Əmr Suləmidən, o da İrbad bin Sariyədən belə eşitdiyini nəql edir...

İkinci sənəd: Abdullah atasından, o da Zəhhak bin Muxəlləddən, o da Sovrdan, o da Xalid bin Mədandan, o da Əbdürrəhman bin Əmr Suləmidən, o da İrbad bin Sariyədən belə nəql edir...

---

[183] Sünəni İbn Macə, əl-muqəddimə, bab ittiba sunnətil-xuləfair-raşidinəl-məhdiyyin, c. 1, s. 16.

[184] Sünəni Darami, c. 1, s. 45.

Üçüncü sənəd: Abdullah atasından, o da Vəlid bin Müslimdən, o da Sovr bin Yeziddən, o da Xalid bin Mədandan, o da Əbdürrəhman bin Əmr Suləmi və Hicr bin Hicrdən, onlar da İrbad bin Sariyədən nəql edirlər...[185]

Hakimin nəql etdiyi hədisin sənədləri

Hakim bu hədisi iki sənədlə nəql etmişdir:

Birinci sənəd: Əbulabbas Muhəmməd bin Yaqubdan, o da Abbas bin Muhəmməd Dovridən, o da Əbu Asimdən, o da Sovr bin Yeziddən, o da Xalid bin Mədandan, o da Əbdürrəhman bin Əmr Suləmidən, o da İrbad bin Sariyədən belə nəql edir...

İkinci sənəd: Əbu Abdullah Hüseyn bin Həsən bin Əyyub Əbu Hatəm Muhəmməd bin İdris Hənzəlidən, o da Abdullah bin Yusif Tənisidən, o da Leys bin Yezid bin Haddan, o da Muhəmməd bin İbrahimdən, o da Xalid bin Mədandan, o da Əbdürrəhman bin Əmrdən, o da İrbad bin Sariyədən belə nəql edir.[186]

Təbəranin nəql etdiyi hədisin sənədləri.

Təbərani bu hədisin bir neçə sənədlə nəql etmişdir. Bütün sənədlərdə Əbdürrəhman bin Əmr Suləminin adı qeyd edilmişdir.

Birinci sənəd: Əbu Müslim Kəşşi Əbu Asimdən, o da Sovr bin Yeziddən, o da Xalid bin Mədandan, o da Əbdürrəhman bin Əmrdə Suləmidən, o da İrbad bin Sariyədən belə nəql edir...

İkinci sənəd: Musa bin Munzir Himsidən, o da Həyat bin Şureyhdən, o da İbrahim bin Muhəmməd bin Urqul-Himsidən o da, Əmr bin Osmandan, o da Bəqiyyə bin Buheyrdən bin Səddən, o da Xalid bin Mədandan, o da Əbdürrəhman bin Əmr Suləmidən, o da İrbad bin Sariyədən belə nəql edir...

---

[185] Müsnədi Əhməd, c. 4, s. 126,127.

[186] əl-Mustədrək aləs-səhiheyn, c. 1, s. 95, 96.

Üçüncü sənəd: Əbu Yəzid Qəratisi Əsəd bin Musadan, o da Bikr bin Səhldən və Abdullah bin Salehdən, onlar da Müaviyə bin Salehdən, o da Dəmrə bin Həbibdən, o da Əbdürrəhman bin Əmr Suləmidən, o da İrbad bin Sariyədən belə eşitdiyini nəql edir...

Dördüncü sənəd: Əmr bin İshaq bin İbrahim bin Əla Himsi babası İbrahim bin Əla və Muhəmməd bin İbrahimdən, onlar da Bəqiyyə bin Vəliddən, o da Süleyman bin Suleymdən, o da Yəhya bin Cabirdən, o da Əbdürrəhman bin Əmr Süləmidən, o da İrbad bin Sariyədən belə nəql edir...

Beşinci sənəd: Musəb bin İbrahim bin Həmzə Zubeyri atasından, o da Əbdüləziz bin Əbu Hazimdən, o da Yezid bin Haddan, o da Muhəmməd bin İbrahimdən, o da Xalid bin Mədandan, o da əmisindən, o da İrbad bin Sariyədən belə nəql edir...

Altıncı sənəd: Əbu Əbdülməlik Əhməd bin İbrahim Qurəşi İbrahim bin Abdullah bin Əla bin Zurdan, o da atasından, o da Yəhya bin Əbulmutadan, o da İrbad bin Sariyə Suləmidən belə nəql edir...

Yeddinci sənəd: Əbu Zurə Əbdürrəhman bin Əmrdən, o da Əbu Vabinədən, o da İsmail bin Əyyaşdan, o da Ərtə bin Munzirdən, o da Muhasir bin Həbibdən, o da İrbad bin Sariyədən belə nəql edir...

Səkkizinci sənəd: Əhməd bin Muhəmməd bin Yəhyad bin Həmzə Diməşqidən, o da Həyat bin Şureyh Himsidən, o da Bəqiyyə bin Buheyr bin Səddən, o da Xalid bin Mədandan, o da Əbdürrəhman bin Bilaldan, o da İrbad bin Sariyədən belə nəql edir...[187]

Bu hədisi İbn Əbu Asimin Ərbaddan müxtəlif sənədlərlə nəql edənlərdən biri də İbn Əbdülbirr olmuşdur.[188]

İrbadın hədislərini nəql edən ən məşhur hədis alimləri bunlardır. Hədisin sənədinin məchul raviyə çatarsa onun çoxlu sayda nəql

---

[187] Lə-Mucəmul-kəbir, hədislər 618 dən 624-ə dək.

[188] Camiu bəyanil-ilmi, c. 2, s. 1163, 1168; əs-Sunnə, s. 29, 30.

olunmasının elmi baxımdan heç bir əhəmiyyəti yoxdur. Bu hədisi Tirmizi və Hakim səhih hesab etmiş, İbn Hibban isə Süləmini etibarlı ravi saymışdır. Onların rəylərini aşğıda bəyan edirik:

İbn Hibbanın Suləmini etibarlı hesab etməsi

Elm əhli arasında məlumdur ki, İbn Hibban həddindən artıq güzəştə gedirdi. Buna əsasən də onun etibarlı hesab etməsi nəzərə alınmır.

İmam Səxavi deyir: "İbn Hibban güzəştə getməkdə Hakimə bərabərdir. Bu isə onun qeyd etdiyi hədislərə də nəzər salmağı tələb edir. Çünki o, yalnız ədalətli şəxslərdən nəql etmir, hətta ola bilsin ki, məchul ravilərdən də hədis qeyd etmişdir. Xüsusilə də, onun rəyinə əsasən həsən hədis səhih hədis sırasındadır".[189]

Zəhəbi deyir: "İbn Hibban ola bilər etibarlı raviyə nöqsan tutmuşdur. Sanki o, başından çıxanları bilmir".[190]

Zəhəbi Muhəmməd bin Fəzl Səddusi Arimin tərcümeyi-halında belə delə deyir: "Darqutni deyir: "Ömrünün sonunda dəyişmişdir. Hafizəsi itdikdən sonra onun tanınmamış hədis nəql etməsi görsənməmişdir. O, etibarlıdır". Mən – Zəhəbi – deyirəm: "Bu, Nəsaidən sonra misli görünməyən əsrin hədis hafizinin sözüdür. Bu söz hara, Arim barəsində insanların dəyərini azaldan biganə İbn Hibbanın sözü hara?"[191]

İbn Həcər İbn Hibbanın sözlərinə əlavə olaraq deyir: "İbn Hibbanın rəyi budur: "Bir şəxsin məchulluğu olmazsa onun nöqsanı üzə çıxanadək ədalətli hesab olunur. Çox qəribə rəydir. Əksəriyyət isə bu rəyin əksinədir. İbn Hibbanın "əs-Siqat" adlı qələmə aldığı kitabında üslubu belə idi".[192]

---

[189] Fəthul-muğis, c. 1, s. 35.

[190] Mizanul-itidal, c. 1, s. 441.

[191] Həmin mənbə, c. 6, s. 298.

[192] Lisanul-mizan, c. 1, s. 208.

İbn Hibban Fəzəin tərcümeyi-halında belə deyir: “Qadisiyyə döyüşündə iştirak etmişdir. Muqənnədən rəvayət nəql etmişdir. Deyilənə görə Muqənnə səhabə olmuşdur. Mən Fəzə və Muqənnəi, onların hansı məntəqədən olmalarını bilmirəm. Onların atalarını da tanımıram. Onları nəql etdiklərinə etimad etmək üçün deyil, məlumat üçün adlarını qeyd edirəm”.[193]

Şeyx Albani “Səhih məvaridiz-zəman” kitabının müqəddiməsində deyilən sözlərə belə əlavə etmişdir: “Bu, olduqca çox əhəmiyyətli sözdür. Özü tərəfindən – bundan güclü şahidlik yoxdur – “əs-Siqat” kitabının etibarlı ravilərə məxsus olmamasına dəlildir. Lakin o, bizə bildirir ki, bunların adlarını yalnız məlumat üçün qeyd etmişdir. Onların adlarını nəql etdikləri dəlil olan etibarlı ravilər olaraq qeyd etməmişdir”.[194]

Həmçinin deyir: “İbn Hibban etibarlı ravilər xüsusunda güzəştə gedən idi. O, bir çox məchulları etibarlı hesab etməmişdir. Hətta özünün dediyi kimi özünün və atasının kim olduğunu bilmədiyi şəxsləri belə!”[195]

İbn Əbdülhadi deyir: “Buna diqqət etmək lazımdır. Bilmək lazımdır ki, İbn Hibbanın bu kitabda sadəcə adını qeyd etdiyi şəxsi etibarlı hesab etməsi ən aşağı dərəcədə etibarlı hesab etməkdir”.[196]

Qeyd edilənlərdən sonra İbn Hibbanın Suləmini etibarlı hesab etməsinə etimad etmək olmaz.

Tirmizinin hədisi səhih hesab etməsi

Tirmizinin hədisi səhih hesab etməsi Suləminin etibarlı hesab olunması deməkdir. Lakin bu etibarlılıq Tirmizi tərəfindən məqbul deyil.

---

[193] əs-Siqat, c. 7, s. 326.

[194] Səhih məvariduz-zəman, c. 1, s. 91.

[195] Silsilətul-əhadisis-səhihə, c. 1, s. 80.

[196] əs-Sarim, s. 103, 105.

Zəhəbninin də qeyd etdiyi kimi alimlər Tirmizinin təshihinə etibar etmirlər.

Tirmizi "Müsəlmanlar arasında sülh caizdir" hədisini nəql etmişdir. Baxmayarq ki, Kuseyr bin Abdullah həmin hədisin sənədində var. Onun zəif olması məsələsində isə icma edilmişdir. Zəhəbi onun barəsində deyir: "Buna əsasən də alimlər Tirmizinin təshihinə etimad etmirlər".[197]

Zəhəbi həmçinin belə deyir: "Tirmizinin hədisi həsən hesab etməsinə aldanmaq olmaz. Araşdırdıqda onların çoxunun zəif olduğu məlum olur. İbn Qəyyim deyir: "Tirmizi başqalarının təshih etmədiyi hədisləri səhih hesab etmişdir. Hətta başqasının zəif hesab etdiyi və ya inkar etdiyi hədisi səhih hesab etmişdir".[198]

Şeyx Albani deyir: "Tirmizinin Kuseyr bin Abdullahın hədisini həsən hesab etməsi onun məlum güzəştindən irəli gəlir".[199]

Həmçinin belə deyir: "Lakin bu hədisin müqabilində müəllifin güclü hesab etdiyi başqa hədislər də var. Mənim nəzərimdə həmin hədislərin sənədləri zəifdir və onların zəifliyini tamamlayan bir şey yoxdur. Hətta bəziləri qondarmadır".[200]

Həmçinin Albani Zəhəbinin yuxarıda qeyd edilən sözlərini tənqid edənlərə cavab olaraq belə demişdir: "Tirmizinin güzəştə getməsi məlumdur. Bunun inkarı haqqa qarşı təkəbbürlükdür. Bu məsələ alimlərin arasında məşhurdur. Onun hədislərini bir-bir araşdırdım. Həmin hədislərdən minə qədər hədis zəifdir. Yəni nəql etdiyi bütün hədislərin beşdə biri. Həmin hədislərdən başqa dəlillə güclü hesab etdiyim bir hədis yoxdur".[201]

---

[197] Zəhəbi, Mizanul-itidal, c. 5, s. 493.

[198] əl-Furusiyyə, s. 243.

[199] Muhəmməd Nasir Albani, "Təmamun-nemət", s. 391.

[200] Zəifu sünəni Tirmizi, əl-muqəddimə s. 16.

[201] əs-Silsilətuz-zəifə, c. 3, s. 30.

Həmçinin o, Tirmizinin məchul bir ravini etibarlı hesab etməsinə əhəmiyyət vermir. Əmr bin Əlqəmə bin Vəqqas Leysi barədə belə demişdir: "Əmr Tirmizi onu (nəql etdiyi hədisi) səhih hesab etsə də məchulların sırasındadır".

Əhməd Ğamiri Tirmizinin nəql etdiyi və həsən hesab etdiyi hədisini qeyd etdikdən sonra belə deyir: "Çox qəribədir. Bu hədisin qondarma olması aşkar, batil olması bədihi olduğu halda Tirmizi onu həsən hesab etmişdir".[202]

Hakimin təshihi

Hakim bu hədisi qeyd etmiş və belə demişdir: "Əbulabbas Muhəmməd bin Yaqub Abbas bin Muhəmməd Duridən, o da Əbu Asimdən, o da Sovr bin Yeziddən, o da Xalid bin Məadindən, o da Əbdürrəhman bin Əmr Suləmidən, o da İrbad bin Sariyədən belə nəql edir: "Rəsulullah (s) bizimlə birliksə sübh namzın qıldı. Sonra bizə üz tutaraq elə moizə etdi ki, qəlblər titrədi, gözlərdən yaş axdı. Biz dedik: "Ya Rəsulullah, sanki bu, vidalaşan şəxsin moizəsidir! Bizə tövsiyə et!" (Peyğəmbər) buyurdu: "Sizə Allahdan qorxmağı, hətta həbəşli bir qulu sizə hakim etsələrdə dinləyib itaət etməyi tövsiyə edirəm. Sizlərdən kim məndən sonra yaşayarsa çoxlu ixtilafların baş verəcəyini görəcək. Mənim və hidayət olunmuş raşid xəlifələrin sünnəsinə əməl edin. Bu iki şeydən dişlərinizlə yapışın. Mə badə bidətlərə yaxın durasınız! Hər bir bidət zəlalətdədir". Hakim bu hədisi qeyd etdikdən sonra belə deyir: "Bu səhih hədisdir və heç bir nöqsanı yoxdur. Buxari Əbdürrəhman bin Əmr və Sovr bin Yezidin nəqlinə etimad etmişdir..." Başqa bir rəvayət barəsində isə belə demişdir: "Bu sənəd onların (Buxari və Müslimin) şərtinə əsasən səhihdir. Bu hədisin hər hansı nöqsanına rast gəlməmişəm".[203]

---

[202] Cəunətul-əttar, c. 1, s. 16.

[203] əl-Mustədrək, c. 1, s. 95, 98.

Hakim səhvə yol vermişdir. Bəlkə də ömrünün sonlarına yaxın qəflətə düşmüşdür. O, belə zənn edirdi ki, Suləmi Buxarinin etimad etdiyi ravilərdəndir. Əbdürrəhman bin Əmr Suləmi ilə Əbdürrəhman bin Əmr bin Səhl Mədəni Ənsari arasında səhv etmişdir. İbn Qeysəraninin Səhih Buxari və Səhih Müslimin raviləri barədə yazdığı əsərdə onun adı qeyd edilməmişdir. İbn Rəcəb Hənbəli – sanki bu hədisi səhih hesab etmir – Hakimə cavab verərək belə demişdir: "Məsələ onun güman etdiyi kimi deyil. Bu hədis Buxari və Müslimin şərtlərinə uyğun deyil. Onlar nə Əbdürrəhman bin Əmr Suləmidən, nə də Hicr Kilaidən hədis yazmamışlar. O, (Suləmi) elm və rəvayət nəql etməkdə məşhur deyildi".[204]

Hakimin raviləri etibarlı hesab etməsi hədis əhlinin nəzərində müzakirə obyekti olmuşdur.

İbn Teymiyyə deyir: "Elm əhlinə Hakimin təshih babında (hədisləri səhih hesab etmək məsələsində) güzəştə getdiyi və yüngül yanaşdığı məlumdur. Hətta o, Tirmizinin təshihindən də aşağı səviyyədə təshih edirdi".[205]

Zəhəbi "cərh və tədil elmində sözlərinə etimad edilən şəxslər"[206] babında belə deyir: "Hakim Tirmizi kimi güzəştə gedənlərdən idi".[207]

Ola bilsin ki, bəziləri yuxarıdakı üç nəfərin Suləmini etibarlı hesab etməsi onun etibarlı olması üçün yetərli olmasını desinlər. Bu isə elmi baxımdan dəqiq olmazdı. Çünki hədis əhlinin nəzərində kimisə etibarlı hesab etmək məsələsində onlara etimad olunmur. Onlar bu məsələdə güzəştə getməklə tanınmışlar. Buna görə də onların ravini etibarlı hesab

---

[204] Camiul-ulumi vəl-hikəm, s. 257.

[205] əl-Fətaval-kubra, c. 1, s. 97.

[206] Cərh və tədil elmi hədis elminin bir qoludur. Burada ravilərin nəql etdikləri hədislərin məqbul və ya qeyri-məqbul olması baxımından onların xüsusiyyətləri araşdırılır və müəyyən şərtlər əsasında ravilər etibarlı və ya yalançı hesab olunur.

[207] Adı çəkilən kitab, s. 172.

etmələri araşdırılmalıdır ki, səhvə yol verərək zəif və məchul hədisi səhih hesab etməyək. Burada ravini etibarlı hesab edənlərin say çoxluğu deyil, onların rəylərinin doğru olması və reallığı əks etdirməsi əsasdır.

Hakim Əbdürrəhman bin Əmrin İrbad bin Sariyədən nəql etdiyi rəvayətin Şam əhlinin imamlarından üç etibarlı şəxs tərəfindən dəstəkləndiyini deyir. Onlar aşağıdakılardır: Hicr bin Hicr Kilai, Yəhya bin Əbulmuta Qurəşi, Məbəd bin Abdullah bin Hişam Qurəşi.

Hicr bin Hicr Kilai

İbn Rəcəb Hənbəli Suləmi və Hicr bin Hicr barəsində deyir: "O, elm və rəvayətdə məşhur olanlardan deyil".[208]

Hicr bin Hicrə gəlincə, o, məchuldur. İbn Hibban və Hakimdən başqa heç kim onu etibarlı hesab etməmişdir. Onların hər ikisi isə güzəştə gedən idilər. İbn Qəttan deyir: "Hicr bin Hicr. Bu şəxs tanınmır".[209]

İbn Həcər deyir: "Əbu Davud əmirin itaəti barədə ondan bir hədis nəql etmişdir".[210]

Deməli, o məchuldur və məchul birindən rəvayət nəql edir.

Yəhya bin Əbulmuta Qurəşi

Yəhya İrbadla qarşılaşmamışdır ki, hətta ondan hədis eşitsin. Zəhəbi deyir: "Duheym onun İrbadla qarşılaşmasını mümkünsüz hesab etmişdir. Ola bilər ki, onun adından mürsəl olaraq (aradakı ravinin adını qeyd etmədən) nəql etmişdir. Bu kimi hallar şamlılarda çox baş verirdi. Qarşılaşmadıqları şəxslərdən rəvayətlər nəql edirlər".[211]

---

[208] Camiul-ulumi vəl-hikəm, c. 1, s. 257.

[209] əl-Vəhm vəl-iham, c. 2,s. 35.

[210] Təhzibut-təhzib, c. 2, s. 188.

[211] Mizanul-itidal, 4. S. 410.

Hədis hafizi İbn Rəcəb deyir: "Buxari tarix kitabında (c. 8, səh. 306) belə deyir: "Yəhya bin Əbulmuta bu rəvayətə əsasən İrbaddan hədis eşitmişdir. Lakin Şam əhlindən olan hədis hafizləri bunu inkar etmişlər və belə demişlər: "Yəhya bin Əbulmuta İrbaddan hədis eşitməmiş və onunla qarşılaşmamışdır. Bu rəvayət səhvdir". Bunu deyənlərdən biri də Əbu Zurə Diməşqi olmuşdur. O, bunu Duheymdən nəql etmişdir. Onlar öz şeyxlərini başqalarından daha yaxşı tanıyırlar. (Çünki onların hamısı Şamdandır). Buxari – Allah ona rəhmət eləsin – tarix kitabında Şam əhlinin xəbərləri barədə səhvlərə yol vermişdir".[212]

Əbu Zurə Diməşqi deyir: "Əbdürrəhman bin İbrahimə (Duheym) Yəhya bin Əbulmutanı yaxın zamanda olması və Abdullah bin Əbuləla bin Zubrun onun İrbad bin Sariyədən hədis eşitdiyini nəql etməsinə təəccüb etdiyimi dedim. O, belə dedi: "Mən bunu ən çox inkar edən şəxsəm".[213]

Buxari Şam əhlindən olan ravilər barədə səhvə yol vermişdir. Buna əsasən də onun bu sözünə etimad etmək olmaz. Əbulabbas bin Uqdə belə deyir: "Muhəmməd bin İsmailin (Buxarinin) Şam əhli barədə səhv etdiyini demək olar. Çünki onların kitablarını götürüb oradan oxumuşdur. Ola bilər orada kimsə bir yerdə künyəsi, başqa bir yerdə isə adı ilə qeyd edilmişdir. O da onların iki ayrı şəxs olduğunu güman etmişdir".[214]

Zəhəbi Xalid bin Ləclac Amirinin tərcümeyi-halında deyir: "Buxari onun Ömərdən hədis eşitdiyini deyir. Buxari Şam ravilərdən xəbərdar deyil. Bu onun zənnidir".[215]

Həmçinin Qasim Əbu Əbdürrəhman Diməşqinin tərcümeyi-halı barədə deyir: "Buxarin onun Əlidən və İbn Məsuddan hədis eşitdiyini deyir. Bu, səhvdir".[216]

---

[212] Camiul-ulumi vəl-hikəm, c. 1, s. 259.

[213] Tarixu Əbu Zurə, c. 1, s. 605.

[214] Tarixi Bağdad, c. 13, s. 102.

[215] Tarixul-İslam, c. 7, s. 355.

Məbəd bin Abdullah bin Hişam Qurəşiyə gəlincə, onun nəql etdiyi hədisin başqası tərəfindən də nəql olunması nəzərə alınmır. Hakim dediyi kimi "Onun yolu ilə nəql olunan hədis bu kitabın şərtlərindən olmadığı üçün onu tərk etdim".

Muhasir bin Həbibin rəvayəti

Muhasir bin Həbib bu hədisi İrbaddan eşitdiyini iddia edir. Təbərani onun İrbaddan nəql etdiyi hədisi qeyd etmişdir.[217]

Diqqət etmək lazımdır ki, Muhasir hicri 128-ci ildə vəfat etmişdir. İrbad isə ondan əvvəl vəfat etmişdir. Deyilənə görə hicri 75-ci ildə vəfat etmişdir. Buna əsasən də Muhasirin İrbaddan hədis eşitməsi mümkün deyil. Hətta İbn Hibban Muhasiri hansı təbəqədən hesab etməsində tərəddüt etmişdir. Gah onu tabeinlərin təbəqəsindən, gah da tabeinlərin ardıcıllarının təbəqəsindən hesab etmişdir. Xalid bin Mədan Himsi hicri 103-cü ildə vəfat etmişdir. Hədisi tabeinlərdən olan Suləmidən nəql edir. Baxmayaraq ki, İrbad həmin vaxt Hıms şəhərində yaşayırdı. Həmçinin Yəhya bin Cabir Tai və Muhasirin qardaşı Dəmrə bin Həbib bu hədisi Suləmidən nəql etmişlər. Nə üçün birbaşa İrbaddan nəql etməmişlər? Halbuki onlar eyni şəhərdə yaşayırdılar. O, Muhasirdən yaşca daha böyük və hədis rəvayət etməkdə ondan daha uyğun olan şəxs idi.

Şamlı ravilərdə mürsəl rəvayət nəql etmək yayılmış bir hal idi. Ola bilər ki, Muhasir bu hədisi qardaşından və ya Əbdürrəhman Suləmidən eşitmiş, lakin birbaşa İrbada istinad etmişdir. Necə ki, şamlıların adəti belə idi.

Zəhəbi deyir: "Bu kimi hallar şamlılarda çox baş verirdi. Qarşılaşmadıqları şəxslərdən rəvayətlər nəql edirlər".[218]

---

[216] Həmin mənbə, c. 7, s. 450.

[217] əl-Mucəmul-kəbir, c. 18, s. 623.

[218] Mizanul-itidal, 4. S. 410.

Həmçinin deyir: "Əbu Səlamın, Şəhr bin Huşəbin, Şureyh bin Ubeyd bin Əbu Çalikin rəvayətləri mürsəldir və (sənəd baxımından) yarımçıqdır. Bu kimi hallar şamlıların nəql etdikləri hədislərdə çoxdur".[219]

Hədisin özündən

Raşidi xəlifələr termini nə Peyğəmbərin (s) sağ olduğu zamanda, nə də xəlifələrin hakimiyyəti dövründə mövcud deyildi. Bu terminin həmin zamanda insanlar arasında məlum olması barədə heç bir tarixi sənəd yoxdur. Yalnız İrbad bin Sariyənin nəql etdiyi hədisdə qeyd edilmişdir. O isə bu hədisi yalnız Şamda nəql etmişdir. Ravilərin hamısının şamlı olması bunu göstərir. Bu hədis Osmanın dövründə ona qarşı ayağa qalxmış üsyançıları susdurmaq üçün çox münasib idi. Bu hədisi əsas gətirərək özünün hakimiyyətinin şəri olmasını şüar edə bilərdi. Yaxud İrbad bu hədisi həmin zamanda söyləyərək insanları fitnəyə düşməkdən qoruyardı. Nə üçün İrbad bu hədisi gizlətmişdir? Necə ola bilərdi ki, bu hədisi ondan başqa heç kim eşitməmişdir?

Nəzər diqqəti çəkən məsələlərdən bir də budur ki, səhabə hədisdə qeyd edilən raşidi xəlifələrin kimliyi barədə Peyğəmbərdən heç bir şey soruşmamışlar. Həmçinin ilk dörd xəlifə belə bir ləqəbi iddia etməmişdir!

İbn Teymiyyə deyir: "Əbu Bəkr, Ömər, Osman və Əli – Allah onlardan razı olsun – raşidi xəlifələr və hidayət olunmuş imamlardırlar. Peyğəmbər (s) onların barəsində belə buyurmuşdur: "Mənim və raşidi xəlifələrin sünnəsinə əməl edin".[220]

Hətta hədisin səhihliyini fərz etsək belə Peyğəmbərin (s) bu sözü deməklə üç xəlifəni və Əli (ə)-ı nəzərdə tutmasına dair heç bir dəlil yoxdur. Hətta Əli (ə) hicri üçüncü əsrədək xəlifələrdən hesab olunmurdu. İlk dəfə onu Əhməd bin Hənbəl xəlifələrdən hesab etmişdir. Buna əsasən

---

[219] Tarixul-İslam, c. 4, s. 391.

[220] Məcmuətul-fətava, c. 4, s. 292.

də bu hədisə ilk dəfə müxalif çıxanlar elə səhabələrin özləri olmuşlar. Çünki Osmana qarşı üsyan edib onun sünnəsinə əməl etməmişlər. Həmçinin Peyğəmbərin Əli (ə)-ın sünnəsinə əməl etməyi əmr etdiyi halda ona qarşı müharibə etmişlər. Qeyd etdiyimiz kimi İbn Teymiyyə Əli (ə)-ı raşidi xəlifələrdən hesab etmişdir. Buna baxmayaraq o özü Əli (ə)-ın sünnəsinə etiraz etmiş, dişləri ilə onun sünnəsindən yapışmamışdır. İbn Teymiyyə Minhacus-sünnə kitabında belə deyir: "Minlərlə müsəlmanların qanlarının tökülməsi kimi böyük günah görməmişəm. Bunların qətlə yetirilməsi nəticəsində müsəlmanlar nə dünyaları, nə də dinləri xüsusunda bir xeyir əldə etməmişlər. Əksinə xeyir əvvəlkindən daha çox azalmış və şərr olduğundan daha çox artmışdır". O, bu sözləri ilə Əli (ə)-ı nəzərdə tuturdu!

Həmçinin deyir: "Əli Müaviyədən daha çox haqqa layiq olmasına baxmayaraq əgər döyüşməsəydi daha yaxşı və daha xeyirli olardı".[221]

Həmçinin deyir: "Burada Əliyə tutulan iradların inkarı üçün gətirilən üzr Osmanın haqlı olması üçün daha münasib və güclüdür. Əli hakimiyyət üçün vuruşmuşdur. Bu səbəbə görə çoxlu insanlar qətlə yetirilmişdir. Onun hakimiyyəti dövründə kafirlərə qarşı müharibə baş verməmiş, kafirlərin ölkələri fəth olunmamış və müsəlmanlar daha çox xeyir əldə etməmişlər".

İbn Teymiyyənin Əli vuruşmasaydı daha yaxşı olardı və ya o, hakimiyyət üçün vuruşmuşdur sözləri Əlinin sünnəsinə tabe olmağı əmr edən Rəsulullahın (s) əmrinə qarşı çıxmaqdır. Onun bu sözləri Əlini raşidi xəlifələrdən hesab etməsində şəkk və şübhə etdiyinə dəlalət edir. Əks təqdirdə bu hədisin məzmununa əsasən Peyğəmbərin raşidi xəlifələrin sünnəsinə əməl etməyi əmr etməsi və dişləri ilə ondan yapışmasını tapşırması hökmünə etiraz etməzdi!

---

[221] Minhacus-sunnə, c. 2, s. 204.

Hədisdəki raşidi xəlifələr sözünün təfisiri və xəlifələrin adları tarixi gerçəklikdən götürülmüşdür. Peyğəmbərin şəri baxımdan həqiqi xəlifələrini tanımaq üçün onların xüsusiyyətləri və nişanələrindən bəhs edən peyğəmbər hədislərinə müraciət etmək lazımdır. Peyğəmbər (s) bir neçə yerdə xəlifələrinin sayının 12 olacağını təyin etmişdir.

Cabir bin Səmurədən belə nəql olunur: "Atamla birlikdə Peyğəmbərin (s) yanına gəldik. (Peyğəmbərin) belə dediyini eşitdim: "Bu iş (dünya) tamam olmamış on iki xəlifə gəlib gedəcək". Sonra bir söz dedi, lakin mən eşitmədim. Atama "Nə dedi? –deyə soruşdum. (Atam) "Hamısı Qureyşdəndir" söylədiyini dedi".[222]

Cabir bin Səmurədən belə nəql olunur: "Rəsulullahın (s) belə buyurduğunu eşitdim: "On iki xəlifə olanadək İslam izzətli qalacaq".[223]

İrbadın hədisində isə Peyğəmbərin (s) "raşidi xəlifələr" dediyi nəql olunur. Bu səhih hədisdə isə Peyğəmbərin on iki xəlifədən bəhs etdiyi qeyd olunur. Hədisdə onlar tərifənir. Çünki onların hakimiyyəti zamanında İslam izzətli olacaq. Şübhəsiz ki, Peyğəmbərin (s) sözləri bir-birini izah edir. Belə olan təqdirdə nə üçün raşidi xəlifələri on iki xəlifə hesab etmirik? Bu hədis qeyd olunan bu məqamda olduqca böyük əhəmiyyət daşıyır. Bu hədisdə xəlifələrin sayları təyin edilmişdir.

Bundan başqa məsələni daha aydınlaşdıran bir hədis də var. Həmin hədisdə Peyğəmbər (s) xəlifələrinin xüsusiyyətlərini bəyan etmişdir.

İbn Abbasdan belə nəql olnur: "Əli bin Əbu Talibin (ə) belə dediyini eşitdim: "Bir gün Rəsulullah (s) bizim yanımıza gəlib dedi: "İlahi, xəlifələrimə rəhm et!" Biz dedik: "Ya Rəsulullah, sənin xəlifələrin

[222] Səhih Müslim, kitabul-imarə, bab ən-nas tubbəun li qureyş vəl-xilafə, c. 6, s. 3.

[223] Səhih Müslim, kitabul-imarə, bab ən-nas tubbəun li qureyş vəl-xilafə, c. 6, s. 3.

kimlərdir?" (Peyğəmbər) buyurdu: "Mənim hədislərimi və sünnəmi nəql edənlər və insanlara öyrədənlər".[224]

Peyğəmbərin (s) xəlifələri onun hədislərini nəql edirlər, birinci xəlifənin etdiyi kimi hədisləri toplayıb yandırmırlar. Peyğəmbərin (s) xəlifələri onun sünnəsini insanlara öyrədirlər, ikinci xəlifənin etdiyi kimi sünnədən danışanları qırmancla vurmurlar! Məgər bu xüsusiyyətlər üç xəlifədə mövcud idimi?!

Ola bilər ki, burada xəlifələr Peyğəmbərin ümmətindən olan hədis hafizləridirlər. Lakin bu rəy qəbul olunmur və bunun heç bir dəlili yoxdur. İbn Teymiyyə belə deyir: "Bizim aramızda əmr sahibləri Rəslullahın xəlifələridirlər... Peyğəmbərin belə dediyi nəql olunmuşdur: "Çox istəyərdim ki, xəlifələrimi görəm!" (Səhabələr) dedilər: "Xəlifələrin kimlərdir?" (Peyğəmbər) dedi: "O kəslər ki, sünnəmi dirçəldib insanlara öyrədirlər". Onlar məhz Peyğəmbərdən sonra əmr sahibləridir. Onlar əmirlər və alimlərdirlər. İmam Əhməd və onun kimi başqa sələflər, onlara tabe olanlar bu mənada təfsir etmişlər. Bu məna aşkardır. Bu məqamdan başqa yerlərdə də bu mənanı qeyd etmişik".[225]

Bu hədisi Buxari və Müslim qeyd etməmişdir. Bu isə İbn Əbdülbirrin dediyi kimi hədisin zəifliyinə dəlalət edir. O, belə deyir: "Nə Buxari, nə də Müslim bin Həccac bu barədə bir hədis də qeyd etməmişlər. Bu isə hədisin zəifliyi üçün yetərlidir".[226]

İmam Əli (ə) şura hədisəsində Əbu Bəkr və Ömərin siyrəsinə əməl etməyi qəbul etməmişdir. Əgər Əbu Bəkr və Ömər Peyğəmbərin (s) nəzərdə tutduğu xəlifələrdən olsaydı Əli (ə) onların sünnəsinə əməl

---

[224] Bax; Təbərani, "əl-Mucəmul-əvsat", c. 6, s. 395; İbn Əbdülbirr, "Camiu bəyanil-ilmi", c. 1, s. 46; Şeyx Səduq, "əl-Əmali", s. 247; Şeyx Səduq, "Uyunu əxbari ər-Riza", c. 2, s. 40.

[225] Məcməul-fətava, c. 19, s. 117.

[226] ət-Təmhid, c. 10, s. 278.

etməkdən imtina etməzdi. Əlinin (ə) sünnəsi birinci və ikinci xəlifənin sünnəsinə əməl etməmək idi. Belə olan halda bu sünnəyə əməl etməli və dişlərlə ondan bərk yapışmaq lazımdır?!

Xəlifələrin ixtilaf etmələri müsəlmanlar arasında məşhurdur. Belə olduğu halda Peyğəmbər (s) insanları müxtəlif sünnələrə tabe olmağı necə tövsiyə edə bilərdi?

İbn Həzm deyir: "Peyğəmbərdən (s) sonra raşidi xəlifələrin böyük ixtilaf etmələrinə rast gəlirik. Bu hədisdə üç fərziyədən biri nəzərdə tutulmalıdır. Bu fərziyələrin dördüncüsü yoxdur. Ya onların ixtilaf etdikləri hər bir şeyi qəbul etməliyik. Bu isə mümkün deyil və bunun heç bir yolu yoxdur. Burada bir şey və onun ziddi var. Əbu Bəkr və Aişənin sözünə əsasən qardaşlara deyil, babaya irs verilməyin doğru olduğunu heç kim deyə bilməz. Yaxud Ömərin sözünə görə üçdə birini babaya, qalanını isə qardaşlara miras verə bilməz. Yaxud Əlinin rəyinə görə mirasın altıda birini babaya, qalanı isə qardaşlara verə bilməz. Onların ixtilaf etdikləri bütün məsələlər belədir. Bu yol batildir. Çünki insanların buna əməl etməsi mümkün deyil. İkinci fərziyə budur ki, onlardan hər hansının rəyini götürmək bizim üçün icazəlidir. Bu isə İslamdan çıxmaqdır. Çünki Allahın dini bizim seçimimizdən asılı olur. Nəticədə bizdən hər birimiz istədiyini haram edəcək, istədiyini isə halal edəcək. Yəni bizdən biri başqasının halal etdiyini haram edəcək. Allah-taalanın **"Bu gün dininizi sizin üçün kamil etdim..."**[227], **"Bunlar Allahın hədləridir (hökmləridir). Onlardan kənara çıxmayın"**[228], **"Bir-birinizlə çəkişməyin..."**[229] ayələri bu yolun batil olmasını üzə çıxarır. Həmçinin həmin günü haram olan bir şeyin qiyamətədək haram olmasını, vacib olan bir şeyin qiyamətədək vacib olmasını, həmin gün halal olan hər

[227] Maidə, 3

[228] Bəqərə, 229

[229] Ənfal, 46

bir şeyin qiyamətədək halal olmasını gərəkdirir. Həmçinin bu fərziyyə doğru olsaydı onlardan birinin sözünə əməl etdikdə başqasının sözünü tərk etmiş olardıq. Bunun olması labüddür. Bu halda isə onların sünnəsinə tabe olmuruq. Qeyd olunan hədisin əksi baş verəcək. Onlar istəsələr də, istəməsələr də belə olacaq.

Əgər bu iki fərziyyə batil olursa yalnız üçüncü fərziyyə qalır. Onların icma etdikləri şeylərə əməl etmək. Bu yalnız başqa səhabələrin də onlarla (xəlifələrlə) icma etdikləri məsələlərə aiddir. Bu halda onlara tabe olmaq Peyğəmbərin (s) sünnələrinə əməl etmək və ona etiqad bəsləmək öz əksini tapır.

Həmçinin Rəsulullahın (s) raşidi xəlifələrin sünnələrinə əməl etməyi əmr etməsi iki fərziyyədən birini zəruri edir: Ya Peyğəmbər (s) onlara özünün sünnəsindən fərqli sünnə yaratmağa icazə vermişdir. Heç bir müsəlman bunu demir. Kim bunu caiz bilərsə küfr etmiş və dindən çıxmışdır. Onun malı və qanı halaldır. Çünki din bütövlükdə vacib və ya qeyri vacib, halal və ya haramdan ibarətdir. Dində bu bölgüdən başqa bir bölgü yoxdur. Kim raşidi xəlifələrin Rəsulullahın (s) sünnəsindən fərqli sünnə yaratdığını caiz bilərsə, onun zamanında vəfat edənədək halal olan bir şeyi haram etmələrini mübah bilmişdir. Yaxud Rəsulullahın (s) haram etdiyi bir şeyi halal etdiklərini mübah bilmişdir. Yaxud Rəsulullahın (s) vacib etmədiyi bir fərz əməli vacib etmələrini və ya Rəsulullahın (s) vacib etdiyi bir fərzi vəfat edənədək ləğv etmədiyi halda ləğv etməyi onlara mübah bilmişdir. Bütün bu fərziyələrdən hər hansı birini kim mübah bilərsə heç bir xilaf olmadan ümmətin icmasına əsasən o, kafir və müşrikdir. Müvəffəqiyyət yalnız Allahdandır! Allaha həmd olsun ki, bu fərziyə də batildir. Yaxud belə fərz oluna bilər ki, Peyğəmbər (s) öz sünnəsinə tabe olmaqda onlara iqtida etməyi əmr etmişdir. Biz belə

deyirik. Bu hədis qeyd etdiyimiz sonuncu fərziyədən başqa bir fərziyə üçün məqbul deyil”.[230]

İbn Həzmin sözlərindən hədisin mənası belə aydın olur ki, burada xəlifələrin icma etdiklərinə əməl etmək və Peyğəmbərin sünnəsində onlara iqtida etmək lazımdır. Hədisin səhihliyi fərz olunsa belə, bu hədis sələfi məktəbinin əqidəsini dəstəkləmir. Onların Peyğəmbər (s) sünnəsinə iqtida etmələrində tabe olmaq sözünə gəlincə, bu sözün heç bir anlamı yoxdur. Çünki onların sünnələrinə ehtiyac olmadan da birbaşa Peyğəmbərin sünnəsinə iqtida etmək olar!

Əgər xəlifələr Peyğəmbərin (s) sünnəsinə doğrudan da əməl etsəydilər və Peyğəmbər sünnənin insanlara çatdırılması üçün onlara tabe olmağı əmr etsəydilər onlara tabe olmaq mümkün olardı. Lakin onlar bir çox məsələlərdə sünnəyə müxalif hərəkət etmişlər. Tarixi hadisələr onların bir çox sünnədən xəbərsiz olduqlarını əks etdirir. Məsələn, Əbu Bəkr nənənin irs apardığını bilmirdi. Ömər qadının ərinin diyəsindən irs aparmağı və zərdüştlərin cizyə vermələri hökmünü bilmirdi. Osman əri vəfat etmiş qadının ərinin evində iddə müddətini gözləməyi bilmirdi.[231]

İbn Teymiyyənin dediyi kimi ola bilərdi ki, səhih sünnə onlara çatmamış və (sünnənin) əksinə əməl etmişlər.[232]

Lakin ən təəccüblüsü budur ki, onların bildikləri Peyğəmbər sünnəsində ixtilaf salmaları ilə yanaşı onlara necə tabe ola bilərik?!

Məsələn, Peyğəmbər sünnəsinə əsasən evli zinakar şəxs daş-qalaq olunmalıdır. Lakin Əbu Bəkr Malik bin Nuveyrənin zövcəsilə zina edən Xalid bin Vəlidi daş-qalaq etməmişdir. Hətta Xalidin zina etməsi sübuta

---

[230] əl-İhkam, c. 6, s. 805, 806.

[231] Bu və bu kimi nümunələri İbn Teymiyyə Məcmuətul-fətava kitabında qeyd etmişdir. c. 19, s. 130, 132.

[232] Həmin mənbə.

yetmədiyini fərz etsək belə xəlifə Xalidi zinada ittiham edən və dörd şahid gətirə bilməyən Ömərə böhtan həddi (cəzası) vurmalı idi.[233]

Ömər bilərəkdən Peyğəmbərin sünnəsinə müxalif çıxmışdır. O, ramazan ayının müstəhəb namazları barədə peyğəmbər sünnəsini dəyişərək həmin namazların camaat şəklində qılınmasını əmr etmiş və bunu bidət adlandırmışdır.[234] Peyğəmbər (s) sünnəsinin əksinə olaraq üç talağı bir talaq hesab etmişdir.[235]

Osman Peyğəmbərin (s) Mədinədən qovduğu Həkəm bin Ası geri qaytarmışdır. Peyğəmbər onu Mədinədən kənara sürgün etmişdir. Osman Əbu Bəkr və Ömərin xəlifəliyi dövründə onun qayıtmasını istəsə də onlar razı olmamışdılar. Osman hakimiyətə gəldikdə onu geri qaytardı.[236]

Necə ola bilər ki, Peyğəmbər (s) bizə onlara tabe olmağı əmr etsin, halbuki onlar bilərəkdən peyğəmbər sünnəsinə qarşı çıxmışlar?!

Səhabələr Əbu Bəkr və Ömərin siyərsinin tabe olunmasının vacibliyini gərəkdirən bir məziyyətə sahib olduğunu düşünmürdülər. Məsələn, Əli (ə) İrbadın nəql etdiyi hədisə əsasən sünnəsinə tabe olunması vacib olan bir şəxs olduğu halda Osmana qarşı çıxmışdır. Rəvayətdə nəql olunur ki, Osmanın həcc mutasını[237] qadağan etdiyi xəbəri Əliyə çatdıqda həcc və ümrə üçün təlbiyə zikri etdi və belə dedi: "İnsanlardan birinin sözünə əsasən Rəsulullahın sünnəsini tərk etmərəm".[238]

---

[233] Rakibtus-səfinə kitabımıza müraciət et. Bu məsələ orada müfəssəl izah edilmişdir.

[234] Səhih Buxari, kitabus-salətit-təravih, bab fəzl mə qamə ramazan.

[235] Səhih Müslim, kitabut-talaq, babu talaqus-səlas.

[236] Bax; Siyəru əlamin-nubəla, c. 2, s. 107; əl-İstiab, c. 1, s. 358.

[237] Təmättu həccində ümrə əməlini tamamlayıb ehramdan çıxdıqdan sonra qadağalar tamamilə aradan qalxır və zilhiccə ayının 8-i yenidən ehram bağlanır. Burada ümrə ilə həcc əmälləri arasında qadağaların aradan qaldırılması həcc mutası adlanır.

[238] Fətava İbn Baz, c. 1, s. 222.

Abdullah bin Ömər bəzi sünnələr barədə onunla mübahisə edən şəxsə belə demişdir: "Bizə Ömərə tabe olmaq əmr olunmuşdur, yoxsa sünnəyə?"[239]

Biz hal-hazırda böyük ixtilaf yaşayırıq. Xəlifələrin sünnəsinə tabe olmaq bizi bu ixtilaflardan necə qurtara bilər?! Biz onların sünnəsinə necə tabe olmalıyıq?! Onlara tabe olaraq yazılmış sünnəni yandırmalı, iki şeyxin (Əbu Bəkr və Ömərin) etdiyi kimi Peyğəmbərdən hədis nəql etməyi qadağan etməliyikmi?! Halbuki Allah-taalanın buyurduğu kimi din kamilləşmişdir: **"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim".** (Maidə surəsi, ayə 3). Din kamil olduğu halda xəlifələrin sünnəsinin dinə əlavə edilməsinin mənası nədir?

Bu hədisin ravisi – İrbad – özü xəlifələr hədisinə əməl etməmiş, xəlifələrin dördüncüsünü dəstəkləməmiş və onun sünnəsinə tabe olmamışdır. Onun Şamda məskunlaşmasından başa düşülür ki, o, Müaviyənin yanında olmuş və onun barəsində qondarma hədis nəql etmişdir. O, iddia edirdi ki, Peyğəmbərdən belə dediyini eşitmişdir: "Allah Müaviyəyə Kitabı və hesabı öyrətmişdir".[240]

İrbadın hədisinin səhih olmasını fərz etsək də bu hədis ümumidir və hər bir dəstə özü üçün dəlil olaraq iddia edə bilər. Bu hədis imamiyyə məzhəbinin prinsipinə daha yaxındır. "İmamlar on iki nəfərdir" və "İlahi, xəlifələrimə rəhm et!" hədisləri də bu hədisi dəstəkləyir.

---

[239] Həmin mənbə, c. 1, s. 430.

[240] Müsnədi Əhməd, c. 4, s. 127.

Yeddinci hədis: "Səhabələrimi söyməyin".

Əbu Səid Xidrinin belə dediyi nəql edilir: "Peyğəmbər (s) buyurub: "Səhabələrimi söyməyin. Əgər sizlərdən biri Ühüd dağı miqdarında qızıl sədəqə versə onlardan biri və ya yarısı qədər etməz".[241]

Bu hədisə əsasən dəlil gətirənlər.

1. İbn Teymiyyə.[242]
2. Elmi Araşdırmalar və Fətva Komitəsi.[243]
3. Abdullah bin Muhəmməd Ğəniman, "Şərhul-əqidəti-vasitiyyə".[244]
4. Muhəmməd bin Saleh Useymin, "Şərhul-əqidətis-səfariniyyə".[245]

Bunlar və qeyriləri bu hədisə əsasən dəlil gətirmişlər.

Hədisə nöqsan gətirən cəhət Peyğəmbərin (s) "Səhabələrimi söyməyin" sözləridir. Məgər Peyğəmbər (s) bu sözü qeyri müsəlmanlara deyirdi? Müsəlman olmayanlar İslam dinini qəbul etməyənədək Peyğəmbərin (s) əmirlərinə və qadağalarına mükəlləf olmadıqları halda bu necə məntiqi sayıla bilərdi? Necə ola bilər ki, Peyğəmbər (s) öz səhabələrinə "Səhabələrimi söyməyin!" deyir?

Biz söyməyi və təhqiramiz sözlər deməyi dəstəkləmirik. Lakin hədisin bu səpkidə olması bir neçə sual doğurur. Aydın olur ki, hədisi qondaran şəxs qeyd etdiyimiz məsələlərə diqqət etməmişdir. "Səhabələrim ulduzlar kimidir" hədisinə yönəlmiş bütün iradlar bu hədisə də yönəlir.

Əgər bu hədisin müəyyən bir hadisə xüsusunda deyilməsi, yəni Əbdürrəhman bin Ovf və Xalid bin Vəlid arasında mübahisə yarandığı

---

[241] Səhih Buxari, c. 4, s. 195; Səhih Müslim, c. 7, s. 188 və başqa mənbələrdə qeyd edilmişdir.

[242] əl-Fətaval-kubra, c. 3, s. 447; Məcmuətul-fətava, c. 3, s. 405.

[243] Əhməd Əbdürrəzzaq Duveyş, Elmi Araşdırmalar və Fətvalar Komitəsinin fətvaları, c. 12, s. 319.

[244] Şərhul-əqidətil-vasitiyyə, c. 28, s. 2.

[245] Şərhul-əqidətis-səfariniyyə, s. 143.

vaxt deyilməsinə işarə edərlərsə biz də belə deyərik: Bu, Xalid bin Vəlidi səhabələrdən kənarlaşdırmağı tələb edir. Çünki bu xitab ona yönəlmişdir. Bunu isə heç kim qəbul etmir.

"Əgər sizlərdən biri Ühüd dağı miqdarında qızıl sədəqə versə onlardan biri və ya yarısı qədər etməz" sözləri necə doğru ola bilər? Halbuki başqa dini mətnlər bu sözə aşkarcasına müxalifdir.

Allah-taala buyurur: **"Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir)"** (Hucurat surəsi, ayə 13).

Ölçü təqvadır. Görəsən öz həvayi nəfsindən danışmayan Rəsulullah (s) Allahın kitabına qarşı çıxarmı?

Əhməd Əbu Cümənin hədisində belə nəql edir: "Rəsulullahla (s) birlikdə nahar etdik. Əbu Ubeydə bin Cərrah da bizimlə idi. (Übeydə) dedi: "Ya Rəsulullah, bizdən xeyirli biri varmı? Biz sənlə birlikdə islamı qəbul etdik və sənlə birlikdə cihad etdik". (Peyğəmbər) buyurdu: "Bəli! Sizdən sonra olacaq məni görmədən mənə iman gətirən insanlar".[246]

Əgər səhabədən daha xeyirli insanlar varsa, şübhəsiz ki, onların Allah yanında mükafatları daha böyükdür!

Səhih Müslim kitabında Əbu Hüreyrədən belə nəql olunur: "Rəsulullah (s) qəbristanlığa gəlib dedi: "Salam olsun sizə! Mömin insanların yurdu. Biz də Allahın izni ilə sizə qovuşacağıq. Çox istərdim ki, qardaşlarımızı görərdik". (Səhabələr) dedilər: "Ya Rəsulullah, məgər biz sənin qardaşların deyilik?" (Peyğəmbər) buyurdu: "Siz mənim səhabələrimsiniz. Bizim qardaşlarımız isə hələ dünyaya gəlməyiblər".[247]

Bu hədisə əsasən Rəsulullah (s) qardaşlarını görməyi arzulayır. Bu sözü mütləq mənada deyərək onu görmədən doğru iman gətirənlərə şamil etmişdir. Şübhəsiz ki, qardaşlıq səhabəlikdən daha üstündür!

---

[246] Müsnədi Əhməd, c. 4, s. 106

[247] Səhih Müslim, c. 1, s. 150, 151.

Qeyd etmək lazımdır ki, hər hansı bir insanı söyməyi qadağan etmək onun fəzilətinə və ya ona tabe olmağın vacibliyinə dəlalət etmir. Əks təqdirdə kafirlərə tabe olmaq və onların üstün olduğunu demək gərəkir. Çünki Allah-taala buyurur: **"Allahdan başqalarına tapınanları söyməyin. Yoxsa onlar da (Allaha qarşı hörmət və ehtiram) bilmədikləri üzündən Allahı düşməncəsinə söyərlər..."** (Ənam surəsi, ayə 108).

Əməllərin puç olması

Araşdırmamızın mövzusu ilə əlaqəli olan məsələlərdən biri də əməllərin puç olmasıdır. Fərz edək ki, Peyğəmbər (s) səhabələri barədə bu sözü demişdir. Biz belə bir sual soruşuruq: Onların əməllərinin puç olması mümkündür, yoxsa Allah-tərəfindən onlar xüsusi qoruma altındadırlar?!

Diqqət etmək lazımdır ki, Qurani-Kərim bütün müsəlmanlara xitab edir və Peyğəmbərin müasirləri olan nəsil bir çox ayələrdə nəzərdə tutulmuşdur. Onlar isə səhabələrdir. Bir çox ayələrdə əməllərin puç olmasına işarə edilmişdir. Həmin ayələrin birində Allah-taala buyurur: **"...İmanı dananın bütün işləri boşa çıxar və o, axirətdə zərər çəkənlərdən olar!"** (Maidə surəsi, ayə 5).

Allah-taala peyğəmbərlər barədə xəbərdarlıq edərək belə buyurur: **"...Əgər onlar (Allaha) şərik qoşsaydılar, etdikləri əməllər puça çıxardı"** (Ənam surəsi, ayə 88).

Allah-taala Rəsulullah (s) barəsində belə buyurur: **"(Ya Rəsulum!) Sənə və səndən əvvəlkilərə (keçmiş peyğəmbərlərə) belə vəhy olunmuşdur: "Əgər (Allaha) şərik qoşsan, bütün əməlin puça çıxacaq və mütləq ziyan çəkənlərdən olacaqsan!"** (Zümər surəsi, ayə 65). Haşa ki, Peyğəmbər (s) şirk edər! Bəlkə də Peyğəmbər barədə əməllərin puç olması xəbərdarlığı başqalarının öz əmelləri ilə qürurlanmaması üçündür.

Allah-taala buyurur: **“Ey iman gətirənlər! (Sözləriniz, iş və hərəkətlərinizdə) Allahdan və Peyğəmbərindən önə keçməyin. Allahdan qorxun. Həqiqətən, Allah (hər şeyi) eşidəndir, (hər şeyi) biləndir! Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən artıq qaldırmayın və bir-birinizlə ucadan danışdığınız kimi onunla ucadan danışmayın! Yoxsa, özünüz də bilmədən, əməlləriniz puç olar”** (Hücurat surəsi, ayə 1, 2).

Bu ayələr qeyd olunan məsələni tamamilə aydınlaşdırır. Burada səhabələrə bəzi ədəb qaydaları öyrədilir. Ayədə səhabələr Allahdan və Peyğəmbərdən önə keçməmək, səslərini Peyğəmbərin səsindən yüksək qaldırmamaq əmr olunur. Çünki bu kimi hərəkətlər onların əməllərinin puç olması ilə nəticələnə bilər. Hətta həmin əməllər Ühüd dağı ağırlığında və ya ondan daha ağır olsa belə! Bu iki ayədə heç kim istisna olunmayıb. Qeyd etmək lazımdır ki, birinci ayə Əbu Bəkr və Ömər barədə nazil olmuşdur. İbn Əbu Muleykə nəql edir ki, Abdullah bin Zubeyr onlara belə xəbər vermişdir: “Bəni Təmim tafasından bir dəstə adam Peyğəmbərlə (s) görüşməyə gəlmişdi. Əbu Bəkr dedi: “Qəqa bin Məbəd bin Zurarənin işidir”. Ömər dedi: “Əksinə Əqrə bin Habisin işidir”. Əbu Bəkr dedi: “Sən yalnız mənə müxalif olmaq istəyirsən”. Ömər dedi: “Mən sənə müxalif olmaq istəmirəm”. Onlar bir-birilə mübahisə etdilər. Hətta səsləri yüksəldi. Nəticədə bu ayə nazil oldu: **“Ey iman gətirənlər! (Sözləriniz, iş və hərəkətlərinizdə) Allahdan və Peyğəmbərindən önə keçməyin...”**[248]

Buna əsasən də bu ilahi qanun bütün səhabələrə şamildir. Onların əməllərinin puç olması mümkündür.

İbn Teymiyyə deyir: “Əgər pis əməllər bütün yaxşı əmələri aradan aparmırsa, öz mislində yaxşı əmələri puç edirmi? Küfr olmayan günah nəticəsində bəzi yaxşı əməllər puç olurmu? Bu barədə sünnəyə mənsub

[248] Səhih Buxari, c. 5, s. 116 (babu vəfdu təmim).

olanların iki rəyi var. Bəziləri bunu inkar edir. Bəziləri isə dini mətnlərdə qeyd olunduğu kimi bu məsələni təsdiqləyir. Allah-taala buyurur: **"Ey iman gətirənlər! Sədəqələrinizi malını riyakarlıqla (özünü xalqa göstərmək üçün) sərf edən, Allaha və axirət gününə inanmayan şəxs kimi, minnət qoymaq və əziyyət verməklə puça çıxarmayın..."** (Bəqərə surəsi, ayə 264). Aydə qeyd olunan bu pis əməlin sədəqəni puç etdiyinə dəlalət var. Nümunə olaraq da riyakar şəxs qeyd edilmişdir... Allah-taala buyurur: **"Ey iman gətirənlər! Allaha itaət edin, Peyğəmbərə itaət edin və əməllərinizi puça çıxartmayın!"** (Muhəmməd surəsi, ayə 33). Həsən deyir: "Yəni günahlarla əməllərinizi puça çıxartmayın". Ətadan belə nəql olunur: "Şirk və nifaqla əməllərinizi puça çıxartmayın". İbn Sanib belə deyir: "Riya, şöhrətlə əməllərinizi puça çıxartmayın". Muqatil belə deyir: "Minnətlə əməllərinizi puça çıxartmayın. Çünki bəziləri İslamı qəbul etmələri ilə minnət qoyurdular". Həsəndən nəql edilənə əsasən asi olmaq və böyük günahlar əməlləri puç edir".[249]

Buxari öz səhihində kitabul-iman bölümündə "möminin hiss etmədən əməllərinin puça çıxmasından qorxması" adlı bab yazmışdır. Həmçinin Müslim də "möminin əməllərinin puça çıxmasından qorxması" adlı bab qeyd etmişdir.

Aşağıda bəzi səhabələrin əməllərinin puç ola biləcəyinə dəlalət edən bəzi hədisləri qeyd edirik:

Peyğəmbər (s) buyurub: "Kim əsr namazını tərk edərsə əməli puç olar".[250]

Cundəb belə nəql edir: "Rəsulullah (s) buyurdu: "Bir nəfər "Allaha and olsun ki, Allah filankəsi bağışlamayacaq" dedi. Allah-taala belə buyurdu:

---

[249] Məcmuətul-fətava, c. 1, s. 638, 639.

[250] Səhih Buxari, c. 1, s. 138.

“Kimdi o kəs ki, mənə and içir ki, filankəsi bağışlamayacam. Mən filankəsi bağışladım. Sənin isə əməlini puç etdim”.[251]

Aişə ilk səhabələrin əməllərin puç olmasını düşünürdü. Əbu İshaqdan belə nəql olunur: “Bir qadın və Zeyd bin Ərqəmin övladının anası Aişənin yanın gəldi. Zeydin övladının anası ona dedi: “Mən nisyə olaraq Zeydə səkkiz yüzə (dirhəmə) qul satdım. (Sonra) nağd olaraq ondan altı yüzə (dirhəmə) həmin qulu aldım”. Aişə dedi: “Zeydə de ki, tövbə etməsən Rəsulullahla birlikdə etdiyin cihadı puç eləmisən. Sən ən pis alış-veriş etmisən”.[252]

İbn Əbu Hatəm Əbu Cəfərdən, o da Rəbi bin Ənəsdən, o da Əbulaliyədən belə nəql edir: “Rəsulullahın səhabələri belə düşünürdülər ki, ixlaslı olduqdan sonra günah zərər verə bilməz. Həmçinin şirklə yanaşı saleh əməlin faydası olmaz. Ta ki, Allah-taala bu ayəni nazil etdi: **“Ey iman gətirənlər! Allaha itaət edin, Peyğəmbərə itaət edin və əməllərinizi puça çıxartmayın!”**[253] Bundan sonra əməllərin böyük günahlar nəticəsində puç olacağından qorxdular”.[254]

Həsəndən **“Əməllərinizi puça çıxartmayın”** ayəsinin mənası barədə belə nəql olunur: “Böyük günahlarla əməllərinizi puça çıxartmayın”. Qətadədən bu ayə barəsində belə nəql olunur: “Sizlərdən kim pis əməllə saleh əməlini puç etməməyi bacarar?”.[255]

İbn Rəcəb Hənbəli belə deyir: “Əməllərin böyük günahlarla puç olması barədə hədislər sələfdən çox nəql edilmişdir. Onların hamısını qeyd etmək uzun olar. Hətta Huzeyfə belə demişdir: “İffətli qadına böhtan atmaq yüz ilin əməlini puç edər”. Bu hədisi Bəzzar birbaşa ondan nəql

[251] Səhih Müslim, c. 8, s. 36.

[252] Beyhəqi, əs-Sünənul-kubra, c. 5, s. 330; Məcmuətul-fətava, c. 1, s. 638, 639.

[253] Muhəmməd, 33

[254] İbn Əbu Hatəmin təfsiri, c. 10, s. 3299.

[255] Fəthul-bari fi şərhi səhihi Buxari, c. 1, s. 183-də İbn Rəcəb Hənbəlidən nəql edilmişdir.

etmişdir. Əta belə demişdir: “İnsan qəzəblənərkən elə bir söz deyə bilər ki, altmış və ya yetmiş illik əməlini puç edər”. İmam Əhməd Fəzl bin Ziyadın hədisi barədə belə demişdir: “İnanmırsınızmı sizdən biri elə baxışla baxa bilər ki, əməli puç olar”.[256]

İbn Qəyyim deyir: “Əmələlləri puç və batil edən səbəblər saya biləcəyindən daha çoxdur. Məsələ əməl etmək deyil, əməli onu batil edən amillərdən qorumaqdır”.[257]

Deməli, səhabələr də başqa insanlar kimidirlər. Hovuz hədisləri onların bir qisminin cəhənnəm oduna vasil olacaqlarını əks etdirir. Bütün bunlar onların əməllərinin puç olmasına dəlalət edir.

Allah-taala Allahdan və Rəsulullahdan önə keçməyi, Rəsulullahın səsindən artıq səs qaldırmağı əməlin puç olmasının səbəblərindən qərar vermişdir. Belə olduğu halda bəs görəsən Peyğəmbərlə kobud danışan, onu sayaqlamaqla ittiham edən şəxsin vəziyyəti necədir?

Sonda belə nəticəyə gəlirik ki, bu hədis sələfi məktəbinin əqidə prinsiplərini dəstəkləmir. Bu hədisi hamı üçün ümumiləşdirmək olmaz. İbn Həcər Əsqəlani deyir: “Hədisdə “Sizlərdən kim” deyilməsi sözündən belə başa düşülür ki, səhabələrim sözü bütün səhabələr deyil, xüsusi səhabələrə işarədir.[258] Onlar, şübhəsiz ki, möminlərdir. Əli bin Əbu Talibi (ə) sevməklə tanınırlar”.[259]

---

[256] Fəthul-bari şərhi səhihil-Buxari, c. 1, s. 200.

[257] əl-Vabilus-seyyib minəl-kəlimit-teyyib, s. 10.

[258] İbn Həcər, Fəthul-bari fi şərhi səhih Buxari, c. 7, s. 27.

[259] Çünki İmam Əli (ə) münafiqlə mömini bir-birindən ayırd edən şəxsdir. O həzrət buyurur: “Həqiqətən də Peyğəmbər (s) mənə belə buyurmuşdur: Məni yalnız mömin sevər və mənə yalnız münafiq nifrət edər”. Səhih Müslim, kitabu fəzailis-səhabə, bab min fəzaili Əli bin Əbu Talib.

Səkkizinci hədis: Hatibin hədisi: "Nə istəyirsiniz edin, artıq sizi bağışlamışam".

Buxari Ubeydullah bin Əbu Rafedən belə nəql edir: "Əlinin (ə) belə dediyini eşitdim: "Rəsulullah məni, Zubeyri və Miqdadı çağırıb dedi: "Xax baxçasına gedin. Orda bir cariyə (kəniz) var. Onda bir məktub var. Həmin məktubu alıb gəlin". Atlarımızı çaparaq yola düşdük. Hətta gəlib həmin baxçaya çatdıq. Birdən cariyə ilə rastlaşdıq. Ona məktubu bizə ver dedik. O: "Məndə heç bir məktub yoxdur" dedi. Ona dedik: "Ya məktubu çıxaracaqsan, ya da libasını çıxaracağıq". Bundan sonra o hörüklərinin arasından məktubu çıxartdı. Məktubu Rəsulullaha (s) gətirib verdik. Həmin məktub Hatib bin Əbu Bəltəədən Məkkə əhlindən olan bəzi müşriklərə yazılmışdı. Rəsulullahın (s) bəzi əmrləri barədə onlara xəbər verirdi. Rəsulullah (s) dedi: "Bu nədir, ey Hatib?" (Hatib) dedi: "Ya Rəsulullah, məni ittiham etməyə tələsmə. Mən Qureyşə bitişik biriyəm, onlardan deyiləm. (Hatib Qureyş qəbiləsi ilə müttəfiq idi. Onların arasında yaşayırdı) Sənin yanındakı mühacirlərin Məkkədə ailələrini və var-dövlətlərini qoruyacaq qohumları var. Mənim onların arasında qohumlarım olmadığı üçün istədim ki, onlarla münasibət yaradım ki, ailəmi qorusunlar. Bunu müsəlman olduqdan sonra küfr, dindən çıxmaq və küfrü bəyənmək məqsədilə etməmişəm". Bundan sonra Rəsulullah (s) "O, sizə doğru deyir" dedi. Ömər dedi: "Ya Rəsulullah, icazə ver bu münafiqin boynunu vurum". (Peyğəmbər) dedi: "O, Bədr döyüşündə iştirak edib. Nə bilirsən, bəlkə də Allah Bədr əhlinə nəzər salaraq onlara "İstədiyinizi edin, artıq sizi bağışlamışam" demişdir".[260]

İmam Əli (ə) belə nəql edir: "Rəsulullah məni, Zubeyri və Miqdadı çağırıb dedi: "Xax baxçasına gedin. Orda bir cariyə (kəniz) var. Onda bir məktub var. Həmin məktubu alıb gəlin". Atlarımızı çaparaq yola düşdük. Birdən qadın ilə rastlaşdıq. Ona məktubu bizə ver dedik. O: "Məndə heç

[260] Səhih Buxari, c. 4, s. 19.

bir məktub yoxdur" dedi. Ona dedik: "Ya məktubu verəcəksən, ya da libasını çıxaracaqsan". Bundan sonra o hörüklərinin arasından məktubu çıxartdı. Məktubu Rəsulullaha (s) gətirib verdik. Həmin məktub Hatib bin Əbu Bəltəədən Məkkə əhlindən olan bəzi müşriklərə yazılmışdı. Rəsulullahın (s) bəzi əmrləri barədə onlara xəbər verirdi. Rəsulullah (s) dedi: "Bu nədir, ey Hatib?" (Hatib) dedi: "Ya Rəsulullah, məni ittiham etməyə tələsmə. Mən Qureyşə bitişik biriyəm, onlardan deyiləm. – Sufyan deyir: "Onlardan deyildi. Onlarla müttəfiq idi" – Sənin yanındakı mühacirlərin ailələrini qoruyacaq qohumları var. Mənim onların arasında qohumlarım olmadığı üçün istədim ki, onlarla münasibət yaradım ki, ailəmi qorusunlar. Bunu müsəlman olduqdan sonra küfr, dindən çıxmaq və küfrü bəyənmək məqsədilə etməmişəm". Bundan sonra Rəsulullah (s) "O, sizə doğru deyir" dedi. Ömər dedi: "Ya Rəsulullah, icazə ver bu münafiqin boynunu vurum". (Peyğəmbər) dedi: "O, Bədr döyüşündə iştirak edib. Nə bilirsən, bəlkə də Allah Bədr əhlinə nəzər salaraq onlara "İstədiyinizi edin, artıq sizi bağışlamışam" demişdir". Bundan sonra Allah-taala bu ayəni nazil etdi: **"Ey iman gətirənlər! Nə mənim düşmənimi, nə də özünüzün düşmənini dost (vəli) tutun!.."**.[261]

Bu hədisə əsasən dəlil gətirənlər

1. İbn Teymiyyə, "əl-Fətaval-kubra.[262]

2. İbn Qəyyim, "İlamul-muqiin".[263]

3. Muhəmməd bin Əbdülvəhhab, "ər-Rəddu alər-rafizə".[264]

4. Uləmau Nəcd, əl-Əlamu fid-durəris-səniyyə fil-əcvibətun-nəcdiyyə".[265]

---

[261] Səhih Müslim, c. 7, s. 168.

[262] əl-Fətaval-kubra, c. 3, s. 451; Məcmuətur-rəsail vəl-məsail, c. 5, s. 201.

[263] İlamul-muqiin, c. 4, s. 124.

[264] ər-Rəddu alər-rafizə, s. 18.

Sələfilər Hatibin hədisinə əsasən Bədr döyüşünün iştirakçılarının ədalətinə dəlil gətirilər. Allah-taala onların keçmiş və gələcək günahlarını bağışlamışdır. Buna əsasən kim onlara tabe olarsa axirətdə nicata çatanlardan olacaq. Bu hədis indiyədək səhabələrin nöqsanız olmaları üçün etimad edilən əsas dəlillərdən hesab olunur. Həmçinin bu hədis fiqhi araşdırmalarda casusluq və onun hökmləri məsələsində əsas mənbələrdən hesab olunur.

Dünya sınaq yurdudur

Rəsulullaha nisbət verilən "Nə bilirsən, bəlkə də Allah-taala Bədr əhlinə nəzər salaraq belə demişdir: İstədiyiniz edin, artıq sizi bağışlamışam" sözü Qurani-Kərim və sünnədə qeyd olunan bütün meyarlara müxalifdir. Bu sözə əsasən Bədr döyüşünün iştirakçılarından dünyəvi hökmlər götürülmüşdür. Bu mətni oxuyan hər kəs yəhudi və xristianların adından Allah-taalanın buyurduğu bu ayəni xatırlayır: **"Yəhudilər və xaçpərəstlər dedilər: "Biz Allahın oğulları və sevimliləriyik". (Onlara) de: "Bəs onda Allah nə üçün günahlarınıza görə sizə əzab verir?" Xeyr, siz də Onun yaratdığı bir bəşərsiniz. (Allah) istədiyini bağışlar, istədiyinə əzab verər. Göylərin, yerin və onların arasında olan hər bir şeyin ixtiyarı Allahın əlindədir və axır dönüş də Onun hüzurunadır!"** (Maidə surəsi, ayə 18).

Allah-taala dünyanı yaratmış və onu sınaq, imtahan yurdu qərar vermişdir. Bu imtahanlar sayəsində insan güclü və zəif nöqtələrini tanıyır. İnsanlardan bəziləri səbr və şükr edir, qalib gəlir. Elə insanlar da var ki, özünə hakim ola bilmir, üsyan və küfr edir. Sonda ziyan içində qalır. Allah-taala buyurur: **"Əlif, Lam, Mim! İnsanlar (möminlər) yalnız: "İman gətirdik!" – demələrilə onlardan əl çəkilib imtahan olunmayacaqlarınımı sanırlar?"** (Ənkəbut surəsi, ayə 1, 2). Bu ayənin

---

[265] Uləmau Nəcd, əl-Əlamu fid-durəris-səniyyə fil-əcvibətin-nəcdiyyə, c. 1, s. 474.

təfsirində İbn Əbu Hatəm belə deyir: "Peyğəmbər (s) bəzi insanlara bəzi əmrlər vermişdi. Belə güman etdilər ki, bu məsələni gizlədə biləcəklər. Allah yolunda əziyyətə düşdükdə onlardan bəziləri dindən çıxdılar".[266]

İslama dəvətin ilk çağlarında dindən çıxanlar səhabələr idi. İbn Abbas "**İnsanlar (möminlər) yalnız: "İman gətirdik!" – demələrilə onlardan əl çəkilib imtahan olunmayacaqlarınımı sanırlar?"** ayəsinin təfsiri barədə belə deyir: "Peyğəmbər (s) özündən sonra olanlar və ya Allahın istədiyi şəxslərə bir iş tapşırdı. Biz Peyğəmbərin məsləki və yolundaydıq. Allah həmin şəxslərə bəla göndərir. Onlardan kim olduğu kimi mətin qalarsa, o doğru insandır. Kim dəyişərsə o, yalançıdır".

Allah-taala başqa bir ayədə buyurur: **"(Ey möminlər!) Sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlməmiş behiştə daxil olacağınızımı güman edirsiniz? Onları (şiddətli) fəlakət və sıxıntı elə bürümüş, elə sarsılmışdılar ki, hətta Peyğəmbər və iman gətirənlər birlikdə: "Allahın köməyi nə vaxt gələcək?" – demişdilər. Bilin ki, Allahın köməyi (sizə) yaxındır!"** (Bəqərə surəsi, ayə 214).

İbn Əbu Hatəm deyir: "Peyğəmbərin (s) səhabələri deyirdilər: "Allah yolunda əziyyət çəkənlər, çətinliklərdə və sıxıntılarda səbr edənlər, fəlakətlərə şükr edənlərin başlarına gələnlər bizim də başımıza gəldi. Allah onlar üçün sıxıntı, məşəqqət, xeyir, şərr, əmin-amanlıq, qorxu, arxayınlıq və səbat hökm etmişdir. Bunlardan sonra Allah onların içindən doğru və yalançı olanları çıxartdı. Sonra döyüş bitdi və onlar əmin-amanlıqla məclislərində əyləşdilər. Sonra dedi: "Peyğəmbər (s) ömrünün sonuna yaxın idi. Onlar (səhabələr) üçün dünyaya bağlanacaqlarından qorxurdu. Bilirdi ki, onlar dünyaya meyl edəcəklər və dünya öz xəzinlərinin qapılarını onların üzünə açacaqdır. Beləcə dünya onlara tərəf gələrək onları aldadacaq. Buna görə də onlara xəbər verdi ki, onlardan

[266] İbn Əbu Hatəmin təfsiri, c. 9, s. 3030, 3031.

xüsusilə, zülm edənlər bu bəlayə düçar olacaqlar. Əgər belə etsələr nöqsan və dönüklük içində olacaqlar”.[267]

Allah-taala ədalətlidir və bəndələri arasında heç bir fərq qoymaz. Saleh əməl və gözəl aqibət insanın aqibətini təyin edir. Sabuni belə deyir: “İnsanın ölərkən xöşbəxtliyi və bədbəxtliyinin onun aqibətindən asılı olmasının dəlillərindən biri də Buxari və başqalarının Səhl bin Səddən nəql etdiyi bu hədisdir. Peyğəmbər (s) buyurub: “Əməllər aqibətləri ilə dəyərləndirilir”.[268]

Hatibin hədisinə nəzər saldıqda aşağıdakı məsələlər nəzərə çarpır:

Birinci: Ömər Hatibi münafiqlikdə ittiham etdi və onu qətlə yetirmək istəyirdi. Peyğəmbər (s) onun sözlərinə etiraz etmədi. Məlumdur ki, sələfilərin iddia etdikləri kimi Peyğəmbər yalnız təbliğ işlərində məsumdur. O, xətaya yol verir və səhabələr onun səhvini düzəldirdilər. Quran onların rəyinə əsasən nazil olmuşdur. Bəs nə üçün Peyğəmbərin bu sözü də həmin səhvlərdən deyil?! Xüsusilə də Peyğəmbər “bəlkə də” sözünü istifadə etmişdir. Nazil olan vəhy deyildi. Ömər cümə axşamı rəzalətində olduğu kimi bu rəyində də ictihad etmişdir. Bəs nə üçün cümə axşamı rəzalətində olduğu kimi burada onun sözü əsas götürülmədi?!

İkinci: Peyğəmbərə nisbət verilən bu söz Allahın onları bağışlamasını dəlil gətirərək başqalarını günah etməyə həvəsləndirmirmi?

İbn Həcər deyir: “Onlar sahib olduqları əzəmətli hallarına görə əvvəlki günahlarının silinməsi məqamına seçilmişlər. Həmçinin gləcəkdə baş verə biləcək günahlarının Allah-taalanın bağışlamasına layiq olmuşlar.

---

[267] Təfsiri İbn Əbu Hatəm, c. 9, s. 3030, 3031.

[268] Əqidətus-sələf və əshabil-hədis, s. 125. Buxarinin qeyd etdiyi hədis, kitabur-riqaq, babul-əmali bil-xəvatim.

Yəni bu döyüşdən sonra etdiyiniz hər bir əməl sizin üçün bağışlanmışdır”.[269]

Üçüncü: Hatibin günahı casusluq idi. Bu böyük xəyanətdir. Bu xəyanət Peyğəmbərin və onun yanındakıların həyatını təhlükə altına atırdı. Nə üçün Peyğəmbər buna göz yummuş və onu əbədi bağışlanmaqla mükafatlandırmışdır? Onun Bədr döyüşünün iştirakçısı olması onu cəzadan azad edirmi? Bəs nə üçün Peyğəmbər (s) zövcəsini zinada ittiham edən Bədr döyüşçülərinin bəzilərinə hədd cəzası vermişdir? Bu məsələyə görə Peyğəmbər (s) Məstəh bin Əsasə və Həssan bin Sabitə hədd cəzası vermişdir. Onların hər ikisi Bədr döyüşünün iştirakçısı olmuşdur.[270]

Məgər Peyğəmbər (s) – haşa ki, belə edər – ikili yanaşırdı bu məsələyə? Əgər Allah-taala Bədr döyüşçülərinin keçmiş və gələcək günahlarını bağışlayıbsa, nə üçün onları günahlarına görə cəzalandırır? Tarix buna şahiddir.

Hədis hafizi İbn Həcər bu məsələyə bəraət qazandırmağa səy etmiş, lakin bunun heç bir faydası yoxdur. İbn Həcər deyir:“Aişəyə – Allah ondan razı olsun – böhtan atdığı üçün Məstəhə hədd cəzası verilməsinə görə bu məsələyə irad tutmuşlar. Qeyd etdiyimiz kimi o, Bədr əhlindən idi. Onun etdiyi böyük günah bağışlanmamış Hatib isə Bədr əhlindən olduğu üçün bağışlanmışdır. Bunun cavabı isə Bədr döyüşündə iştirak edənlərin fəziləti barədə dediklərimizdir. Bədr əhlinin yalnız hədd cəzası olmayan günahları bağışlanır”.[271]

Lakin hədisin məzmunu mütləqdir. Burada hədd cəzasını istisna edən heç bir şey yoxdur. Əgər bu sözün Peyğəmbər (s) tərəfindən deyilməsi doğru olarsa Aişəyə böhtan atanlar qırmanclanmaqdan xilas olmaq üçün

---

[269] Fəthul-bari, c. 7, s. 237.

[270] İbn Həcər, “Fəthul-bari”, c. 13, s. 285; İbn Əbdülbirr, əl-İstiab, c. 4, s. 1472.

[271] Fəthul-bari, c. 12, s. 276.

bu sözü əsas tutardılar. Onlar "Biz Bədr iştirakçılarıyıq. Allah bizə nəzər salaraq bizi bağışlamışdır. Hatibi əfv etdiyin kimi bizi də əfv et" deyərdilər. Necə ola bilər ki, Allah onları bağışladığı halda Peyğəmbər (s) onları cəzalandırmışdır?

Nəvəvi deyir: "Nə bilirsən, bəlkə də Allah Bədr əhlinə nəzər salaraq onlara "İstədiyinizi edin, artıq sizi bağışlamışam" demişdir" hədisi barədə alimlər onların qiyamət günü bağışlanacaqlarını demişlər.[272]

İbn Həcər deyir: "Alimlər qeyd olunan müjdənin hədd cəzaları kimi dünya hökmlərinə deyil, axirət hökmlərinə aid olmasında müttəfiqdirlər".[273]

Bu məna necə doğru ola bilər, halbuki Peyğəmbər Hatibin dünya ilə bağlı cəzasını bağışlamış və istədiyi şeyi etmək imkanı vermişdir?

Dördüncü: Müslim bu rəvayəti nəql etdikdən sonra bu ayənin nazil olduğunu qeyd edir: **"Ey iman gətirənlər! Nə mənim düşmənimi, nə də özünüzün düşmənini dost (vəli) tutun!.."**. Bu isə Peyğəmbərin hədisdə qeyd olunan sözlərilə ziddiyyət yaradır. Peyğəmbər onlara demişdir: "Nə bilirsən, bəlkə də Allah Bədr əhlinə nəzər salaraq onlara "İstədiyinizi edin, artıq sizi bağışlamışam" demişdir". Yəni onlar hansı əməli etsələr də Hatib kimi bağışlanacaqlar. Halbuki Qurani-Kərim müsəlmanlara düşmənlərlə dostluq etməyi qadağan edir. Peyğəmbər onlara hər bir şeyi etmək imkanını verdiyi halda Quran onun hökmünə müxalif çıxır!

Hatibin hədisinin Quranla ziddiyyət yaratması

Aişə Qurani-Kərimə müxalif olan hədisləri qəbul etmirdi. O, Əbu Hüreyrənin "Zinadan doğulan üç şərdən biridir" sözünə etiraz edərək belə demişdir: "Allah-taala buyurur: **"Heç bir günahkar başqasının**

---

[272] Şərhi Səhih Müslim, c. 16, s. 56, 57.

[273] Fəthul-bari, c. 7, s. 238.

günahını daşımaz...”[274] Həmçinin “Meyit onun ailəsinin göz yaşlarına görə əzab çəkir” sözünə qarşı çıxaraq belə demişdir: “Allah-taala buyurur: **“Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər (bir işə mükəlləf edər)...”**[275]

Bəziləri istisna olmaqla alimlərin hamısı bu yolla hərəkət etmişlər. İbn Həcər deyir: “Bu dəlilə əsasən alimlərdən bəziləri it keçdikdə namazı kəsmək lazımdır deyən hədisi inkar etmişlər. Çünki bu hədis Quranın **“Heç bir günahkar başqasının günahını daşımaz...”.**[276] ayəsinə müxalifdir. Necə ki, Şafei də bunu qeyd etmişdir”.[277]

İbn Həcər Aişənin hədisi barədə belə demişdir: “Bu hədisdə sünnə ilə Quranın tutuşdurulmasının caiz olması qeyd edilir”.[278]

Həmçinin Həfsə peyğəmbər hədisini Qurani-Kərimlə müqayisə edərdi.[279] Peyğəmbər Qurandan danışar, onu izah edər və ona müxalif çıxmaz. Allah-taala buyurur: **“... Sənə də Quranı nazil etdik ki, insanlara onlara göndəriləni (hökmləri, halal-haramı) izah edəsən və bəlkə, onlar da düşünüb dərk edələr!”**[280]

Bu hədisin Qurani-Kərimə zidd olmasının dəlilləri

Birinci dəlil:

Allah-taala Peyğəmbərin (s) zövcəsinə böhtan atanlar üçün Quranda böyük əzab vədi vermişdir. Nəvəvinin də dediyi kimi Məstəh də onlardan biri idi. Bəs iddia olunan bağışlanma hardadır? Məgər Peyğəmbərin “Nə

---

[274] Fatir, 18

[275] Bəqərə, 286

[276] Fatir, 18

[277] Fəthul-bari, c. 4, s. 100.

[278] Fəthul-bari, c. 1, s. 172.

[279] Səhih Müslim, kitabul-fəzail, babun min fəzaili Əbi Musa.

[280] Nəhl, 44

bilirsən, bəlkə də Allah Bədr əhlinə nəzər salmış...” sözləri Allaha gizli qalmışdımı?!

Allah-taala buyurur: **“Həqiqətən, (Aişə barəsində) yalan xəbər gətirənlər öz içərinizdə olan bir zümrədir (münafiqlərdir). Onu (o xəbəri) pis bir şey zənn etməyin. O, bəlkə də, sizin üçün xeyirlidir. O zümrədən olan hər bir şəxsin qazandığı günahın cəzası var. Onlardan günahın böyüyünü öz üstünə götürəni (Abdulah ibn Ubeyyi) isə (qiyamət günü) çox böyük (şiddətli) bir əzab gözləyir!”**[281]

Deməli, ifk əhli (böhtan atanlar) üçün böyük əzab var. İbn Kəsir deyir: **“...O zümrədən olan hər bir şəxsin qazandığı günahın cəzası var...”** ayəsinin təfsirində belə deyir: “Hər kim bu məsələdə danışıb möminlərin anası Aişəyə böhtan atmışdırsa onun üçün böyük əzab var. **“...Onlardan günahın böyüyünü öz üstünə götürəni...”** deyilənə görə bu işə başçılıq edən və ya bu dedi-qoduları toplayıb yayan şəxs nəzərdə tutulur. Onun **“...çox böyük (şiddətli) bir əzab gözləyir”.** Çoxlarının rəyinə əsasən həmin şəxs Abdullah bin Ubəy bin Səlul – Allah ona lənət eləsin – olmuşdur... Mucahid və bir çoxları bunu qeyd etmişdir. Deyilənə görə isə həmin şəxs Həssan bin Sabit olmuşdur. Bu qəribə rəydir”.[282]

Allah-taala buyurur: **“Əgər Allahın dünyada və axirətdə sizə neməti və mərhəməti olmasaydı, o yalan sözünüzə görə sizə şiddətli bir əzab toxunardı”.**[283]

Bu xitab həmin zamandakı islam cəmiyyətinə aiddir. Burada Bədr əhlindən olan və ya başqası arasında heç bir fərq yoxdur. Pisliyi yaymaq istəyənlərin dünya və axirətdə şiddətli əzabları olacaq. Bu isə Hatibin barəsində olan qondarma hədisi batil edir. Bu ayənin ardınca Allah-taala

---

[281] Nur, 11

[282] Təfsiri İbn Kəsir, c. 3, s. 283.

[283] Nur, 14

bir daha təkid edərək belə buyurur: **“Möminlər arasında (onları nüfuzdan, hörmətdən salmaq məqsədilə) pis söz yaymaq istəyənləri dünyada və axirətdə şiddətli bir əzab gözləyir. (Hamının əməlini, yayılan şayiələrin, atılan böhtanların doğru olub-olmadığını) ancaq Allah bilir, siz bilməzsiniz!”**[284]

İkinci dəlil:

İfk hadisəsi baş verdikdə nazil olan ayələrin birində buyurulur: “Aranızda olan fəzilət və sərvət sahibləri qohum-əqrəbaya, miskinlərə və Allah yolunda hicrət edənlərə (heç bir şey) verməyəcəklərinə and içməsinlər. (Onları) əfv edib, (cəzalandırmaqdan) vaz keçsinlər! Məgər siz (bu yaxşılıq müqabilində) Allahın sizi (günahlarınızı) bağışlamağını istəmirsiniz? Allah (bəndələrini) bağışlayandır, rəhm edəndir!”[285] Əbu Bəkr dedi: “Bəli, Allaha and olsun ki, mən Allahın məni bağşlamasını diləyirəm”. Sonra Məstəhin yanına gəlib ona əvvəlcədən xərclədiyi pulları verdi”.[286]

Əgər ayə Məstəhin xərclərini yenidən ödəməsi üçün məhz Əbu Bəkrin barəsində nazil olmuşdursa, bəs nə üçün onun barəsində “Məgər siz Allahın sizi bağışlamağını istəmirsiniz?” Məgər Əbu Bəkr Bədr əhlinin arasında bağışlananlardan deyildimi? Burada yenidən bağışlanmağın mənası nədir? Bu ziddiyyəti sağlam ağıl və səhih sünnə qəbul etməz!

Üçüncü dəlil:

Allah-taala buyurur: ***“(Düşməni aldatmaq məqsədilə yalandan özünüzü qaçan kimi göstərib) təkrar döyüş üçün bir tərəfə çəkilən və ya (kömək məqsədilə müsəlmanlardan ibarət) başqa bir dəstəyə***

---

[284] Nur, 19

[285] Nur, 21

[286] Səhih Buxari, c. 6, s. 9.

qoşulan istisna edilməklə, kim belə bir gündə düşmənə arxa çevirib qaçarsa, sözsüz ki, Allahın qəzəbinə uğramış olar. Onun məskəni Cəhənnəmdir. Ora nə pis dönüş yeridir".[287]

Bu mübarək ayə döyüş meydanından qaçanları Allahın qəzəbinə tuş gələcəkləri barədə xəbərdarlıq edir. Onun sonunun cəhənəm odu olacağını vurğulayır. Burada istər Bədr əhlindən olsun, istərəsə də olmasın, heç bir səhabə istisna edilməmişdir. Zəhhak deyir: "Bu Allah-taala tərəfindən Muhəmmədin (s) səhabələrinə bir xəbərdarlıqdır ki, döyüş meydanından qaçmasınlar".[288]

Hətta Təbərinin təfsirində qeyd edildiyi kimi bu ayənin Bədr əhli barəsində nazil olması deyilmişdir.[289]

Təbəri Yezid bin Əbu Həbibdən belə nəql edir: "Allah-taala Bədr günü qaçanlara cəhənnəm odunu vacib etmişdir".[290]

Əgər Allah-taala elmi ilə Bədr əhlinə nəzər salıb onların günahlarını bağışlayacağını vəd etsəydi döyüş meydanından qaçacaqları təqdirdə onları cəhənnəm odu ilə təhdid etməzdi. Həmçinin bu ayənin hökmü davam etməkdədir. Bədr iştirakçılarından çoxları Ühüd, Xeybər və Hüneyn kimi bir çox döyüşlərdə fərarilik etmişlər. Ömər – o Bədr əhlindəndir – Xeybər döyüşündən qaçmışdır.[291] O, həmçinin, başqa səhabələr Hüneyn döyüşündən qaçmışdılar.[292]

Dördüncü dəlil:

Allah-taala buyurur: ***"(Ühüd müharibəsində) iki ordu qarşılaşdığı gün sizdən üz döndərənləri Şeytan, məhz etdikləri bəzi əməllərlə***

---

[287] Ənfal, 16

[288] Təfsiri Təbəri, c. 9, s. 265.

[289] Təfsiri Təbəri, c. 9, s. 267.

[290] Həmin mənbə, c. 9, s. 268.

[291] Msünədi Əhməd, c. 6, s. 141.

[292] Səhih Buxari, c. 5, s. 101.

(Peyğəmbərin əmrinə asi olmaqla) yoldan çıxmağa (büdrəməyə) məcbur etdi. (Tövbə etdikdən sonra) Allah artıq onları bağışladı. Həqiqətən, Allah bağışlayandır, həlimdir!"[293]

Bu ayə Ühüd döyüşündən qaçan səhabələr barəsində bəhs edir. Həmin səhabələrdən biri də Osman bin Əffan olmuşdur.[294]

Osman Bədr əhlindən olduğu üçün onların iddiasına əsasən Allah onu əfv etmiş və bağışlamışdır. İbn Ömər Osmanı müdafiə edərək belə deyir: "Onun Ühüd döyüşündən qaçmasına gəlincə, şəhadət verirəm ki, Allah onu əfv etmiş və onu bağışlamışdır".[295]

Tahavinin "Muşkilul-asar" kitabında İbn Ömərdən belə nəql olunur: "Osmana gəlincə, iki ordu üz-üzə dayandığı gün böyük günah etdi. Allah-taala onu əfv etdi".[296]

Həmçinin Əqəbə bin Osman Ühüd döyüşündən qaçmışdı. Baxmayaraq ki, o da Bədr döyüşçülərindən olmuşdur.[297]

Əgər Allah-taala Bədr əhlinə nəzər salaraq – Osman və Əqəbə də onlardandır – onların keçmiş və gələcək günahlarını bağışlamışsa, bəs nə üçün yenidən onları bağışlayır.

Beşinci dəlil:

Allah-taala buyurur: ***"(Quba məscidinə və müsəlmanlara) zərər vurmaq, küfr etmək, möminlər arasına təfriqə salmaq məqsədilə, əvvəllər Allaha və Onun Peyğəmbərinə qarşı müharibə edən kimsədən (gəlib onlara rəhbərlik edəcəyi təqdirdə) göz-qulaq olmaq üçün məscid düzəldən və: "Biz (bununla) yaxşılıqdan başqa bir şey***

---

[293] Ali-İmran, 155

[294] Səhih Buxari, kitabu fəzailis-səhabə, bab mənaqibi Osman bin Əffan.

[295] Həmin mənbə.

[296] Muşkilul-asar, s. 1436.

[297] İbn Həcər, əl-İsabə, c. 4, s. 432.

istəmədik", - deyə and içənlərin (münafiqlərin) , həqiqətən, yalançı olmaları barədə Allah Özü şahidlik edəcək!"[298]

"Elə isə (məscid) binasını Allah qorxusu və rizası üzərində quran kəs daha yaxşıdır, yoxsa uçulmaqda olan bir yerin(uçurumun) kənarında qurub onunla birlikdə cəhənnəm oduna yuvarlanan kəs?! Allah zalım tayfanı doğru yola yönəltməz!"[299]

Allah-taala müsəlmanlara zərər vurmaq məqsədilə məscid inşa edənlərin cəhənnəm oduna vasil olacaqlarını bəyan edir. Bədr döyüşünün bəzi iştirakçıları bu məscidin inşa olunmasında iştirak etmişlər. Bu hadisə Bədr əhlinin bağışlanması barədə olan hədisin yalan olmasına dəlalət edir.

Həmin məscidin inşasında Mutəb bin Quşeyr və Sələbə bin Hatib iştirak etmişlər.[300] Onların hər ikisi Bədr döyüşünün iştirakçılarından olmuşdur. İbn Hişam siyər kitabında etdibar etdiyi şəxslərdən belə nəql edir: "Mutəb bin Quşeyr, Hatibin övladları Sələbə və Haris Bəni Ümməyyə bin Zeyd tayfasındadırlar. Onlar Bədr əhlindəndirlər. Onlar münafiqlərdən deyillər. Elm əhlindən etibar etdiklərimdən biri mənə belə demişdir: "İbn İshaq Bəni Ümməyyə bin Zeyd tayfasından olan Suləbə və Harisi Bədr əhlindən hesab etmişdir".[301]

Sələbə bin Hatib barədə bu ayələr nazil olmuşdur: **"Onlardan bəzisi də Allahla belə əhd etmişdir: "Əgər Allah bizə Öz nemətindən (mal-dövlət) bəxş etsə, biz mütləq sədəqə (həmin malın zəkatını) verəcək və sözsüz ki, əməlisalehlərdən olacağıq". (Allah) Öz nemətindən onlara (istədiklərini) ehsan buyurduqda xəsislik etdilər və (əhdə**

---

[298] Tövbə, 107

[299] Tövbə, 109

[300] Bax; Təfsiri Təbəri, c. 11, s. 32; Təfsiri İbn Kəsir, c. 2, s. 403; əl-Məğazi, c. 2, s. 1045, 1046.

[301] Sirətu İbn Hişam, c. 2, s. 366.

vəfa etməyib itaətdən də) üz döndərdilər. Onlar elə zatən dönükdürlər! (Allaha) verdikləri vədə xilaf çıxdıqlarına, yalan danışdıqlarına görə Allah da onların ürəyinə qarşılaşacaqları günə (qiyamət gününə) qədər (davam edəcək) nifaq saldı”.[302]

İbn Həcər deyir: “Bu ayələrin Sələbə barəsində nazil olması məşhurdur”.[303]

Bəzilərinin Sələbəyə bəraət qazandırmalarına baxmayaraq İbn Teymiyyə bu ayələrin onun barəsində nazil olmasını təkid edərək belə demişdir: “Həmçinin Sələbə Rəsulullahdan tələb etmişdir ki, onun çoxlu var-dövlətinin olmasını dua etsin. Peyğəmbər (s) isə dəfələrlə onu bu işdən çəkindirmişdir. İsrar etdikdən sonra onun üçün dua etmişdir. Bu isə dünya və axirətdə onun bədbəxtliyinin səbəbi oldu”.[304]

Allah-taala Bədr əhlinə nəzər salmasına baxmayaraq Sələbini bağışlamamışdır. Əksinə onun münafiqliyini və axirətdə əzaba düçar olacağını bəyan etdi: **“(Ya Rəsulum!) Əlbəttə, münafiqlərin yeri Cəhənnəmin ən aşağı təbəqəsindədir. Sən heç vaxt onlara yardım edən tapmazsan!”**[305]

Əgər hədisdə qeyd edilən bağışlanma axirətə məxsus olsaydı Allah-taala belə buyurmazdı: **“(Allaha) verdikləri vədə xilaf çıxdıqlarına, yalan danışdıqlarına görə Allah da onların ürəyinə qarşılaşacaqları günə (qiyamət gününə) qədər (davam edəcək) nifaq saldı”** (Tövbə surəsi, ayə 77).

Müsəlmanlara zərər vermək məqsədilə məscid inşa edənlər barəsində belə buyurmazdı**: “...yoxsa uçulmaqda olan bir yerin(uçurumun)**

---

[302] Tövbə, 75-77

[303] Fəthul-bari, c. 3, s. 263: İbn Əbdülbirr, əl-İstiab, c. 1, s. 211; Təfsiri Təbəri, c. 6 ,s. 130; Təfsiri İbn Kəsir, c. 2, s. 388.

[304] İqtizau əs-siratil-mustəqim, c. 2, s. 213.

[305] Nisa, 145

kənarında qurub onunla birlikdə cəhənnəm oduna yuvarlanan kəs...” (Tövbə surəsi, ayə 109).

Altıncı dəlil:

Allah-taala buyurur: ***“(Bədəvilərdən və Mədinə əhalisindən) döyüşə getməyənlərin bir qisminin də işi Allaha qalıb. Allah ya onlara əzab verəcək, ya da tövbələrini qəbul edəcək. Allah (hər şeyi) biləndir, hikmət sahibidir!”***[306]

İbn Kəsir təfsirində belə deyir: “İbn Abbas, Mucahid, İkrimə, Zəhhak və başqaları belə deyir: “Üç nəfər Mərarə bin Rəbi, Kəb bin Malik və Hilal bin Uməyyə. Onlar Təbuk döyüşündən yayındılar”.[307]

Bu üç nəfərdən ikisi Bədr döyüşündə iştirak edənlərdən idi. Həmin şəxslər Mərarə bin Rəbi Ənsari və Hilal bin Uməyyə Ənsari idi.[308]

İbn Həcər deyir: “Mərarə bin Rəbi Ənsari ... Məşhur səhabədir. Bədr döyüşündə iştirak etmişdir. Buxari və Müslim səhih kitablarında Kəb bin Malikin tövbə əhvalatı barədə nəql etdikləri hədisə əsasən o, tövbə edən üç nəfərdən biri idi”.[309]

İbn Əbdülbirr belə deyir: “Hilal bin Uməyyə Ənsari Vaqifi. Bəni Vaqif tayfasındandır. Bədr döyüşündə iştirak etmişdir. Təbuk döyüşündən yayınan üç nəfərdən biri olmuşdur”.[310]

Bədr döyüşünün iştirakçısı olan bu iki nəfər bu ayənin şamil olduğu şəxslərdəndirlər: **“...Allah ya onlara əzab verəcək, ya da tövbələrini qəbul edəcək...”** Burada əzab iki seçimdən biridir. Əgər onlar nə etsələr belə Allah-taala onları bağışlamışdırsa ayədə əzab qeyd edilməzdi!

---

[306] Tövbə, 106

[307] Təfsiri İbn Kəsir, c. 2, s. 401; Təfsiri Təbəri, c. 11, s. 30.

[308] Səhih Buxari, kitabul-məğazi, bab qissəti ğəzvəti bədr, c.5, s. 13.

[309] əl-İsabə, c. 6, s. 52.

[310] əl-İstiab, c. 4, s. 1542.

Bu ayə ilə bağlı olan başqa bir ayədə belə buyurulur: **"Həmçinin (Təbuk döyüşündən) geri qalmış üç nəfərin də (tövbələrini qəbul etdi). Belə ki, dünya onlara dar olmuş, ürəkləri (qəm-qüssədən) təngə gəlib sıxılmışdı. Onlar Allahdan (Allahın əzabından) yalnız Onun Özünə sığınmağın mümkün olduğunu başa düşdülər. Şübhəsiz ki, Allah tövbələri qəbul edəndir, rəhmlidir!"**[311]

Bu ayə döyüşdən yayınan üç nəfər barəsində nazil olmuşdur. Həmin şəxslərdən Mərarə və Hilal Bədr döyüşünün iştirakçılarından olmuşlar. Ayədə Allah-taala onların tövbələrini qəbul etməsini xatırladır. Məgər Allah-taala – bu sözdən Allaha sığınırıq – Bədr əhlinə "Nə istəyirisiniz edin, artıq sizi bağışladım" deyərkən zarafat edirdi?! Allah-təala "sizin keçmiş və gələcək günahlarınızı bağışladım" dediyi insanların necə ola bilər ki, tövbə etmələrini istəsin?!

İbn Qəyyim onların cəzası ilə Hatibin hədisi arasında ortaq məxrəc tapmaq üçün bu iki şəxsin Bədr əhlindən olmasını inkar etmək məcburiyyətində qalmışdır. İbn Həcər deyir: "İbn Qəyyim "əgər bu iki şəxs Bədr əhlindən olsaydılar tərk olunmazdılar, əksinə Hatib bin Əbu Bəltə kimi bağışlanardılar" deyərək dəlil gətirmişdir".[312] Quran ayəsini onunla ziddiyyət yaradan hədisdən üstün tutmaq daha doğru deyilmi?!

Yeddinci dəlil:

Allah-taala buyurur: ***"(Münafiqlərin) bir qismi də günahlarını etiraf etdi. Onlar (əvvəl etdikləri) yaxşı bir əməllə (sonradan etdikləri) pis bir əməli bir-birinə qarışdırmışlar. Ola bilsin ki, Allah onların tövbələrini qəbul etsin. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!"***[313]

---

[311] Tövbə, 118

[312] Fəthul-bari, c. 7, s. 241.

[313] Tövbə, 102

İbn Əbdülbirr deyir: "Bu ayə Əbu Lubabə – Rufaə bin Əbdulmunzir – və onunla birlikdə olan yeddi, səkkiz və ya doqquz nəfər barəsində nazil olmuşdur. Onlar Təbuk döyüşündən yayınmışdılar. Sonra etdikləri əmələ görə peşman olub tövbə edərək özlərini zəncirlə bağladılar".[314]

Əbu Lubabənin Bədr əhlindən olması qeyd edilmişdir. İbn Əbdülbirr deyir: "Rufaə bin Əbdulmunzir... Əbu Lubabə Ənsari. Bəni Əmr bin Ovf bin Malik bin Ovs qəbiləsindəndir. Əqəbə beyətində, Bədrdə və başqa məqamlarda iştirak etmişdir".[315]

Deməli, Hatibin hədisi Əbu Lubabəyə də şamildir. Belə olan halda onun günahını etiraf etməsinin mənası nədir? Allahın onun tövbəsini qəbul etməsinin mənası nədir? Məgər Allah onun keçmiş və gələcək günahlarını bağışlamamışdırmı? Allahın kəlamı doğrudur, yoxsa ravilərin Peyğəmbərə nisbət verdikləri bu söz? Əgər biz bu hədisi qəbul ediriksə aşkar Quran ayələri ilə təzad yaratmaması üçün onu yozmalıyıq.

Səkkizinci dəlil:

Allah-taala buyurur: ***"Ey iman gətirənlər! Sizə nə oldu ki, "Allah yolunda döyüşə çıxın!" – deyildikdə yerə yapışıb qaldınız. Yoxsa axirətdən vaz keçib dünya həyatına razı oldunuz? Halbuki dünya malı axirət yanında (axirətlə müqayisədə) yalnız cüzi bir şeydir! Əgər (sizə əmr olunan bu döyüşə) çıxmasanız, Allah sizə şiddətli bir əzab verər və sizi başqa bir tayfa ilə əvəz edər (yerinizə başqa bir tayfa gətirər). Siz isə Ona (döyüşə çıxmamağınızla Allaha və Peyğəmbərinə) heç bir zərər verə bilməzsiniz. Allah hər şeyə qadirdir!"[316]***

Allah-taala iman gətirənlərə – Bədr əhli də onlardandır – xitab edərək döyüşdən yayınanları şiddətli əzabla təhdid edir. Bu ayənin xüsusi

---

[314] əl-İstiab, c. 4, s. 1741; Həmçinin, İbn Həcər, əl-İsabə c. 1, s. 294.

[315] İbn Əbdülbirr, əl-İstiab, c. 2, s. 500.

[316] Tövbə, 38, 38

münasibət üçün nazil olduğunu deyə bilərlər. Lakin Hakim Nəcdə bin Nəfidən belə nəql edir: İbn Abbasdan – Allah ondan razı olsun – bu ayə barəsində soruşdum. Belə cavab verdi: **"...Əgər (sizə əmr olunan bu döyüşə) çıxmasanız, Allah sizə şiddətli bir əzab verər..."** Rəsulullah (s) ərəbləri döyüşə çıxmağa səslədi. Onlar bu çağrışa biganə yanaşdılar. Yağış yağmadı və bu onların əzabı oldu!"[317]

Həmçinin burada ayə ümumi mənadadır, xüsusi səbəbə dəlalət etmir. Buna əsasən də ayə ümumiliyində qalır və şübhəsiz ki, Hatibin hədisi ilə ziddiyyət yaradır.

Doqquzuncu dəlil:

Allah-taala buyurur: ***"Sizdən təkcə zalımlara toxunmayacaq (pis əməllərin müqabilində hamıya üz verə biləcək) bəladan qorxun. Bilin ki, Allah (Onun əmrlərini pozanlara) şiddətli əzab verəndir! (Ey mühacirlər!) Xatırlayın ki, bir zaman siz yer üzündə (Məkkədə) az idiniz; zəif (aciz) sayılırdınız, (buna görə də) adamların (kafirlərin) sizi ələ keçirməsindən qorxurdunuz. (Belə bir vaxtda Allah) sizə (Mədinədə) sığınacaq verdi, (Bədrdə) sizə köməklik göstərib müdafiə etdi və təmiz (halal qənimətlərdən) ruzi verdi ki, bəlkə, şükür edəsiniz!"[318]***

Təfsir alimlərinin əksəriyyətinin rəyinə əsasən bu ayə Bədr döyüşünün iştirakçıları barədə nazil omuşdur. Təbərinin təfsirində **"Sizdən təkcə zalımlara toxunmayacaq (pis əməllərin müqabilində hamıya üz verə biləcək) bəladan qorxun..."** ayəsi barədə Həsəndən belə nəql olunur: "Bu ayə Əli, Osman, Təlhə və Zubeyr barəsində nazil olmuşdur".

---

[317] əl-Mustədrək, c. 2, s. 104. Hakim bu hədisi səhih hesab etmişdir. Təfsir Təbəri, c. 10, s. 174.

[318] Ənfal, 25-26

Təbəri Məmərdən belə nəql edir: **“Sizdən təkcə zalımlara toxunmayacaq (pis əməllərin müqabilində hamıya üz verə biləcək) bəladan qorxun...”** ayəsi barədə Qutadə belə nəql etmişdir: “Zubeyr bin Avvam belə deyir: “Ayə nazil oldu. Bizə toxunacağını düşünmürdük. Sonra isə bəla məhz bizə toxundu”.

İbn İsbəhan belə nəql edir: “Zubeyr bin Avvamın belə dediyini eşitdim: “Bir müddət bu ayəni oxudum. Bunun bizə aid olduğunu düşünmürdüm. Halbuki burada biz nəzərdə tutulmuşduq. **“Sizdən təkcə zalımlara toxunmayacaq (pis əməllərin müqabilində hamıya üz verə biləcək) bəladan qorxun...”**

Suddi belə nəql edir: **“Sizdən təkcə zalımlara toxunmayacaq (pis əməllərin müqabilində hamıya üz verə biləcək) bəladan qorxun...”** ayəsi xüsusilə Bədr əhli barəsində nazil olmuşdur. Cəməl günü onlar fitnəyə məruz qaldılar və bir-birilə döyüşdülər.[319]

Zubeyr bin Avvam belə deyir: “Bu ayə nazil olduqda biz Rəsulullahın (s) yanında birlik içində idik. **“Sizdən təkcə zalımlara toxunmayacaq (pis əməllərin müqabilində hamıya üz verə biləcək) bəladan qorxun...”** Bu nə fitnədir ki, biz onun baş verməsini hiss etmirik deyirdik. Sonra bu fitnə baş verdi”.[320]

Bu ayə Bədr əhindən olan bəzi səhabələr barəsində nazil olmuşdur. Təbəri belə deyir: **“Bilin ki, Allah (Onun əmrlərini pozanlara) şiddətli əzab verəndir!”** ayəsinə gəlincə, Allah-taala tərəfindən bir xəbərdarlıq və **“...bəladan qorxun...”** deyərək öncədən xəbərdar etdiyi fitnəyə düşən şəxslər üçün bir təhdiddir. (Allah) belə buyurur: “Ey möminlər, özünə

[319] Camiul-bəyan, c. 9, s. 288; İbn Həcər heç bir irad bildirmədən bu ayənin təfsirini Təbəridən nəql etmişdir. Fəthul-bari, c. 13, s. 3; Təfsiri İbn Əbu Hatəm Razi, c. 5, s. 1683.

[320] Heysəmi, “Məcməuz-zəvaid” kitabında belə deyir: “Əhməd iki sənədlə bu rəvayəti nəql etmişdir. Həmin rəvayətlərdən birinin sənədindəki ravilər səhih hədis ravileridir; c. 7, s. 27; Müsnədi Əhməd, c. 1. S. 167.

zülm etməklə fitnəyə düşən və (Allahın) əmrinə müxalif çıxan və bununla da günah edən kəs üçün Allahın əzabı şiddətlidir”.[321]

Bu ayədə Təlhə və Zubeyr kimi Bədr əhlindən fitnəyə düşəcək şəxslər üçün şiddətli əzab vədəsinin olduğu ilə rastlaşırıq. Bununla yanaşı “İstədiyinizi edin, artıq sizi bağışladım” sözünün onlara heç bir faydası olmamışdır.

Onuncu dəlil:

Allah-taala buyurur: ***“İman gətirənlər isə deyəcəklər: “Sizinlə birlikdə olacaqları barədə Allaha (yalandan) möhkəm andlar içən kəslər bunlarmıdır?” Onların (bütün) əməlləri puça çıxdı və (axirətdə) zərərçəkənlərdən oldular”.***[322]

İbn Kəsir deyir: “Müfəssirlər (təfsir alimləri) bu ayənin nazil olmasının səbəbi barədə ixtilaf etmişlər. Suddin bu ayənin iki nəfər barəsində nazil olduğunu demişdir. Ühüd döyüşündən sonra onlardan biri digərinə belə demişdir: “Mən o yəhudinin yanına gedəcəm ki, mənə sığınacaq versin. Onunla birlikdə yəhudi olacam. Əgrə bir şey baş versə və ya bir hadisə olsa bunun mənə faydası olacaqdır”. O biri isə ona belə demişdir: “Mən isə Şamda filan xristianın yanına gedəcəm, ona sığınacam və onunla birlikdə xristian olacam”. Bundan sonra Allah-taala bu ayəni nazil etdi: **“Ey iman gətirənlər! Yəhudi və xaçpərəstləri (özünüzə) dost tutmayın!..”**[323]

İkrimə deyir: “Bu ayə Peyğəmbər (s) Əbu Lubəbə bin Əbdulmunziri Bəni Qureyzə tayfasına göndərdikdə onun barəsində nazil olmuşdur. (Yəhudilər) Peyğəmbərin onlara nə edəcəyini soruşdular. O isə əli ilə

---

[321] Camiul-bəyan, c. 9, s. 289.

[322] Maidə, 53

[323] Maidə, 51

boğazına işarə etdi. Yəni boynunuzu vuracaq". İbn Cərir bu rəvayəti nəql etmişdir.[324]

Əgər bu ayə İbn Kəsirin qeyd etdiyi kimi Bədr əhlindən olan Əbu Lubabə barəsində nazil olması doğrudursa, bu, Hatibin hədisinin səhih olmaması deməkdir. Çünki barəsində bu ayə nazil olan şəxsin əməlləri puç olmuş və ziyana düşənlərdəndir.

Hatibin hədisi sünnəyə ziddir

Birinci dəlil:

Hişam atasından, o da Aişədən belə nəql edir: "Rəsulullah (s) onlara (səhabələrə) bir iş tapşırdı. Onlara güclərindən artıq bir işi əmr etdi. (Səhabələr) dedilər: "Ya Rəsulullah, biz sənin kimi deyilik. Allah sənin keçmiş və gələcək günahlarını bağışlamışdır". (Peyğəmbər) qəzəbləndi. Hətta onun qəzəbləndiyi çöhrəsindən görsəndi".[325]

Bu hədisdə səhabələr etiraf edirlər ki, onlar Peyğəmbər kimi deyillər. Allah Peyğəmbərin keçmiş və gələcək günahlarını bağışlamışdır. Bu, onlar tərəfindən bir etirafdır ki, Allah onların keçmiş və gələcək günahlarını bağışlamamışdır".

İkinci dəlil:

Abdullahdan belə nəql olunur: "Ya Rəsulullah, cahiliyyət dönəmində etdiyimizə görə cəzalanacayıqmı?" (Peyğəmbər) dedi: "İslama gəldikdən sonra yaxşılıq edən kəs cahiliyyətdə etdiklərinə görə cəzalanmaz. İslama

[324] Təfsiri İbn Kəsir, c. 2, s. 71.

[325] Səhih Buxari, c. 1, s. 10.

gəldikdən sonra pislik edən kəs əvvəlkinə və sonrakına görə cəzalanar”.[326]

Abdullah bin Məsud Hatibin hədisinin şamil olduğu Bədr döyüşünün iştirakçılarından idi. Bununla yanaşı qeyd olunan sualı Peyğəmbərdən (s) soruşduqda ona belə cavab vermişdir: “İslama gəldikdən sonra pislik edən kəs əvvəlkinə və sonrakına görə cəzalanar”. Peyğəmbər ona “Allah səni bağışlamışdır və sən heç bir günaha görə cəzalanmayacaqsan” deməmişdir. Hatibin hədisi Abdullah bin Məsudun zehnində olsaydı Peyğəmbərdən belə bir sual soruşmazdı!

Üçüncü dəlil:

Malik əl-Muvatta kitabında Ömər bin Ubeydullahın azad etdiyi quldan belə nəql edir: “Onun eşitdiyinə görə Rəsulullah (s) Ühüd şəhidlərinə belə demişdir: “Bunlara şahidlik edəcəm”. Əbu Bəkr Siddiq dedi: “Ya Rəsulullah, biz onların qardaşları deyilikmi?” Rəsulullah (s) buyurdu: “Bəli! Lakin məndən sonra nə edəcəyinizi bilmirəm”. Əbu Bəkr ağladı. Sonra yenə ağladı və belə dedi: “Biz səndən sonra yaşayacağıq?”[327]

Hədisin mənası aşkardır. Bu hadisə Ühüddə olmuşdur. Əgər Rəsulullah (s) “Bəlkə də Allah Bədr əhlinə nəzər salmış...” hədisini demiş olsaydı Əbu Bəkr üçün də şahidlik edərdi. Çünki o da Bədrdə iştirak edənlərdən idi. Əgər həqiqətən də qeyd olunan hədis səhih olsaydı Əbu Bəkr ağlamaz və həmin hədislə dəlil gətirərdi!

---

[326] Səhih Müslim, c. 1, s. 77, 78; Səhih Buxari, c. 8, s. 49. Nəvəvi deyir: “Burada adı qeyd edilən Abdullah İbn Məsuddur”. Şərhi Səhih Müslim, c. 2, s. 136.

[327] əl-Muvatta, c. 2, s. 426, kitabul-cihad, bab əş-şuhəda fi səbilillah. İbn Əbdülbirr bu hədis barəsində belə deyir: “Bütün ravilərdə mürsəl (sənədi natamam) nəql olunmuşdur. Lakin mənasının səhih olmasının çox səbəbləri var. Fuad Əbdülbaqi bunu qeyd etmişdir.

Dördüncü dəlil:

Zuhri belə deyir: "Əbu İdris Aizullah bin Abdullah mənə xəbər verdi ki, Ubadə bin Samit Bədr döyüşündə iştirak etmişdir. O, Əqəbə gecəsi (Mədinədən gələn) nümayəndələrin biri idi. Rəsulullah (s) yanında səhabələrindən bir dəstə olarkən belə buyurdu: "Mənə beyət edin ki, Allaha heç bir şey şərik qoşmayacaqsınız, oğurluq etməyəcəksiniz, zina etməyəcəksiniz, övladlarınızı qətlə yetirməyəcəksiniz, müxtəlif böhtanlar uydurub insanlara böhtanlar atmayacaqsınız və yaxşı işlərdə itaətsizlik etməyəcəksiniz. Sizlərdən kim beyətinə vafalı olarsa onun mükafatı Allahdadır. Kim bu işlərdən birini edərsə, bu dünyada cəzalanar və bu onun üçün kəffarədir. Kim bu işlərdən birini edərsə, Allah onun günahını örtərsə, onun müqəddəratı Allahın əlindədir. İstər bağışlayar, istərsə də cəzalandırar".[328]

Hədisdə "Kim bu işlərdən birini edərsə bu dünyada cəzalanar" sözlər səhabəyə deyilmişdir. Onlar arasında Übadə bin Samit kimi Bədr əhlindən olanlar da var. Əgər Allah onu bağışlayıbsa, bəs nə üçün cəzalanır? Həmçinin hədisdə "Kim bu işlərdən birini edərsə, Allah onun günahını örtərsə, onun müqəddəratı Allahın əlindədir. İstər bağışlayar, istərsə də cəzalandırar" deyilməsi Hatibin hədisinə aşkarcasına ziddir.

Beşinci dəlil:

Ənəsdən belə nəql olunur: "Rəsulullah (s) buyurub: "Heç kəsin sonunun nə ilə bitəcəyini görməyincə onun etdiyi əməllərə təəccüblənməyin. Ola bilsin ki, bir bəndə ömrünün bir hissəsini və ya müddətini saleh əməl yerinə yetirər. Əgər həmin əməli davam etdiyi halda ölərsə Cənnətə girər. Amma (bir də görürsən ki,) dəyişilərək pis işlər edir. Həmçinin bəndə ömrünün bir hissəsini pis əməllərlə keçirir. Əgər həmin əmələri davam etdiyi halda ölərsə Cəhənnəmə vasil olar.

[328] Səhih Buxari, c. 1, s. 10.

Amma sonradan o dəyişilərək saleh əməl edir. Allah bir bəndəsinin xeyrini istəyərsə onu işlədər". (Səhabələr) dedilər: "Necə işlədər, ya Rəsulullah!" (Peyğəmbər) buyurdu: "Onu saleh əməl yerinə yetirməyə müvəffəq edər, sonra canını alar".[329]

Burada Peyğəmbər (s) Bədr əhlindən olan Ənəslə– baxmayaraq ki, onu yaşı az idi – yanaşı səhabələrinin diqqətini aqibətin yaxşı olmasına çəkir. İnsanın aqibəti onun Cənnətdə və ya Cəhənnəmdə olacağını təyin edir. Əgər Ənəs və onunla birlikdə olan səhabələr Hatibin hədisini bilsəydilər Rəsulullaha xatırladardılar. Lakin orada olanlar Peyğəmbərin sözlərinə təslim olub heç bir söz deməmişlər.

Altıncı dəlil:

Əbu Səid Xidri belə nəql edir: "Rəsulullah (s) tez-tez belə deyərdi: "Ey qəlbləri çevirən, qəlbimi Öz dinində sabit elə". Səhabələri və ailəsi ona dedi: "Ya Rəsulullah, sənə və gətirdiyinə iman gətirdikdən sonra bizim üçün qorxursanmı?" (Peyğəmbər) buyurdu: "Həqiqətən də qəlblər Allahın əlindədir. İstədiyi kimi çevirər".[330]

Bu hədisin məzmunu hər bir insaflı insan üçün aşkardır.

Yeddinci dəlil:

Əbu Səid Xidri belə nəql edir: "Rəsulullah (s) belə buyurdu: "Canım əlində olana and olsun ki, itaətsizlik edən və ya əhilləşməmiş dəvə kimi Allaha qarşı çıxan şəxsdən başqa hamınız cənnətə girəcəksiniz". Dedilər: "Ya Rəsulullah, kim itaətsizlik edərsə Cənnətə girərmi?" (Peyğəmbər)

---

[329] Müsnədi Əhməd, c. 3, s. 120. Heysəmi Məcməuz-zəvaid kitabında belə deyir: "Bu hədisi Əhməd, Əbu Yəla, Bəzzar, Təbərani nəql etmişdir. Hədisin raviləri səhih hədis raviləridir", c. 7, 211.

[330] Müsnədi Əhməd, c. 3, s. 257.

buyurdu: “Kim mənə itaət edərsə Cənnətə girər. Kim mənə asi olarsa cəhənnəmə vasil olar”.

Burada Peyğəmbər bütün səhabələr barəsində söhbət edir. Onların Bədr, Rizvan beyəti və başqaları da olmaq hamısının Cənnətə girəcəyini buyurur. Lakin itaətsizlik edəndən başqa. Sonra da bu sözü “Kim mənə asi olarsa Cəhənnəmə vasil olar!” deyərək izah edir. Allahın şəriəti və ədalətinə uyğun olan doğru miqyas məhz budur.[331]

Səkkizinci dəlil:

İbn Şihabdan belə nəql olunur: “Xaricə bin Zeyd bin Sabit mənə belə nəql etmişdir ki, Umm Əla və Ənsardan olan bir qadın Peyğəmbərə (s) beyət etmişdir. Həmin qadın ona demişdir ki, püşk ataraq mühacirləri bölüşdürdülər. Osman bin Məzun bizim payımıza düşdü. Onu evimizə apardıq. Vəfat etdiyi xəstəliyə tutuldu. Vəfat etdikdə qüsl verildi və libası ilə kəfənləndi. Rəsulullah (s) gəldikdə belə dedim: “Ey Əbu Saib, Allah sənə rəhmət eləsin. Mən şahidəm ki, Allah səni hörmətli etmişdir”. Peyğəmbər (s) mənə dedi: “Nə bilirsən ki, Allah onu hörmətli edib?”. Mən dedim: “Atam anam sənə qurban olsun. Ya Rəsulullah! Bəs Allah kimi hörmətli edər?” (Peyğəmbər (s) buyurdu: “Ona gəlincə (Osman bin Məzunu nəzərdə tutur), artıq yəqin (ölüm) ona yetmişdir. Mən Allahdan onun üçün xeyir diləyirəm. Allaha and olsun ki, mən Rəsulullah olduğum halda mənə nə olacağını bilmirəm”. (Qadın) dedi: “Allaha and olsun ki, bundan sonra heç kimi tərifləmədim”.[332]

---

[331] Heysəmi, “Məcməuz-zəvaid”, c. 10, s. 70, 71. Heysəmi deyir: “Təbərani “əl-Mucəmul-əvsat” kitabında bu hədisi nəql etmişdir. Hədisin raviləri səhih hədis raviləridir”.

[332] Səhih Buxari, c. 2, s. 71.

Bu səhabə Bədr döyüşündə iştirak edənlərdən idi.[333] Peyğəmbər onun Cənnətdə olacağına şahidlik etməmiş və anasına cavab olaraq belə demişdir: "Mən Allahdan onun üçün xeyir diləyirəm. Allaha and olsun ki, mən Rəsulullah olduğum halda mənə nə olacağını bilmirəm". Bu sözlərdə Peyğəmbərin Allahdan dilədiyinin olacağını qətiləşdirəcək bir işarə də yoxdur. Həfsədən nəql olunan rəvayət də bu mənanı təkid edir. Həfsə belə nəql edir: Peyğəmbər (s) buyurdu: "Mən Bədr və Hüdeybiyyədə iştirak edənlərdən heç kimin Allah-taalanın izni ilə Cəhənnəmə girməməsini diləyirəm".[334]

Doqquzuncu dəlil:

Abdullah belə nəql edir: "Rəsulullah (s) belə buyurdu: "Qəlbində bir misqal xardal dənəsi qədər imanı olan şəxs Cəhənnəmə girməyəcək. Qəlbində bir misqal dənəsi qədər təkəbbürlük olan şəxs Cənnətə daxil olmaz".[335]

Bu hədis hər zamanda və hər bir məkanda olan bütün müsəlmanlara şamildir. Bu hədisi Bədr döyüşünün iştirakçısı Abdullah bin Məsud eşitmiş və rəvayət etmişdir. Bu hədisdə təkəbbürlüyün hər hansı bir insanın Cənnətə girəcəyinə mane olması bildirilir.

Onuncu dəlil:

Məaz belə nəql edir: "Rəsulullah (s) mənə on tövsiyə edərək dedi: "Qətlə yetirilsən də, yandırılsan da Allaha şərik qoşma. Valideyinlərin səni ailəndən və var-dövlətindən imtina etməyi əmr etsələr də onların üzünə ağ olma. Bilərəkdən hər hansı vacib namazı tərk etmə. Həqiqətən də, kim bilərəkdən vacib bir namazı tərk edərsə Allah onu Öz öhdəsində

---

[333] əl-İsabə, c. 4, s. 381.

[334] Sünəni İbn Macə, c. 2, s. 1431; Müsnədi Əhməd, c. 6, s. 285.

[335] Səhih Müslim, c. 1, s. 65.

kənarlaşdırar (onu rəhmətindən məhrum edər). Heç vaxt şərab içmə. Həqiqətən də şərab bütün pisliklərin başıdır. Mə badə günaha yaxın durasan! Həqiqətən də günah Allahın qəzəbinə səbəb olar. Bütün insanlar (silahdaşların) həlak olsa da, mə badə döyüş meydanından qaçasan!”[336]

Albani bu hədis barəsində belə deyir: “Xülasə rəy budur ki, hədis qeyd olunan sənədlər və başqa səhabələrdən də nəql olunmasına görə şübhəsiz ki, səhihdir.[337]

Məaz Bədr döyüşünün iştirakçılarından idi. Hətta o, vacib namazı tərk etsəydi, Allah onu rəhmətindən məhrum edərdi. Əgər günah etsəydi Allahın qəzəbinə düçar olardı. Hətta bir və ya iki ayədə Allah ondan razı olduğunu bildirsə belə! Hətta o, Bədr, Rizvan beyəti və Hüdeybiyyə sülhündə iştirak etsə belə!

On birinci dəlil:

Buxari Urvə bin Zubeyrdən belə nəql edir: “Musəvvər bin Muxrimə ona xəbər vermişdir ki, Əmr bin Ovf – o, Bəni Amir bin Luəyin müttəfiqi idi. Peyğəmbərlə (s) birlikdə Bədr döyüşündə iştirak etmişdir – ona belə nəql edib: “Rəsulullah (s) Əbu Ubeydə bin Cərrahı cizyə toplamaq üçün Bəhreynə göndərdi. Rəsulullah (s) Bəhreyn əhalisi ilə sülh bağlamışdır. Əla bin Həzrəmini onlara əmir təyin etmişdi. Əbu Ubeydə Bəhreyndən mal gətirdi. Ənsar Əbu Ubeydənin gəlişini eşitdilər. Sübh namazında Peyğəmbərin ətrafına toplandılar. Peyğəmbər (s) namazı bitirdikdən sonra onun qabağına gəldilər. Peyğəmbər (s) onları gördükdə əvvəlcə təbəssüm etdi. Sonra belə dedi: “Güman edirəm ki, Əbu Ubeydənin gəlişini eşitmisiniz?” (Onlar) dedilər: “Bəli, Ya Rəsulullah”. (Peyğəmbər)

---

[336] Müsnədi Əhməd, c. 5, s. 238. Hakim “əl-Mustədrək” kitabında bu hədisə yaxın hədis nəql etmişdir. Lakin həmin hədisdə Məaz yerinə bir şəxs qeyd edilmişdir. Bax; əl-Mustədrək, c. 4, s. 41.

[337] Albani, “İrvaul-ğəlil”, c. 7, s. 91.

dedi: “Sevinin və sizi sevindirən şeyləri arzulayın. Allaha and olsun ki, sizin fəqirliyə düçar olacağınızdan qorxmuram. Lakin qorxuram ki, dünya sizdən öncəkilərə bəxş olunduğu kimi sizə də bəxş oluna, onlar dünya uğrunda rəqabət apardıqları kimi siz də rəqabət aparasınız və (dünya) onları həlak etdiyi kimi sizi də həlak edə!”[338]

Bu hədisdə Bədr iştirakçısı Əmr bin Ovf olmaqla yanaşı ənsara xitab olunur. İbn Həcər deyir: “Bu qorxunun səbəbi dünyanın onlar üçün fəth olunacağı və onların var-dövlət baxımından zəngin olacaqlarından qaynaqlandığı ehtimal olunur”.[339]

İbn Teymiyyə deyir: “Ayaqları altına sərilmiş dünyanı onları həlak edən səbəb hesab etmişdir. Bu isə dünyanı sevdikdə, onun üçün həris olduqda və onun uğrunda yarışdıqda olur”.[340]

Dünya uğrunda rəqabət aparmaq əvvəlki ümmətlərin həlak olmasına səbəb olduğu kimi bu ümmətin də həlak olmağına səbəb olacaqdır. Peyğəmbərin (s) “Sizdən əvvəlkilərin sünnələrini (qayda-qanunlarını) qarşı-qarış, dirsək-dirsək izləyəcəksiniz. Hətta onlar kərtənkələ yuvasına giriblərsə, siz də girəcəksiniz”. Biz dedik: “Kimi nəzərdə tutursan, ya Rəsulullah? Yəhudilər və xristianları?” (Peyğəmbər) dedi: “Bəs kimi?”[341] hədisi bu sözü təsdiqləyir.

Burada xitab səhabələrə aiddir. Hədisin (orjinalında) təkid ədatlarından istifadə edilmişdir. Bu isə xəbər verilən hadisinənin baş verəcəyini təkidləşdirir!

---

[338] Səhih Buxari, c. 2, s. 18, 19; Səhih Müslim, kitabuz-zuhdi vər-rəqaiq, c. 8, s. 212.

[339] Fəthul-bari, c. 11, s. 208.

[340] Məcmuətul-fətava, c. 15, s. 284.

[341] Səhih Buxari, c. 4, s. 144; Səhih Müslim, kitabul-ilmi, bab ittiba sünənil-yəhud vən-nəsara.

On ikinci dəlil:

Əbu Hüreyrə Peyğəmbərdən (s) belə nəql edir: "Siz elə zamandasınız ki, sizdən kimsə ona əmr olunanın onda birini tərk etsə, həlak olar. Sonra elə bir zaman gələcək ki, sizlərdən biri əmr olunanın onda birinə əməl edərsə nicat tapar".[342]

Mubarəkfuri "Tuhfətul-əhvəzi bi şərhi camiut-Tirmizi"[343] kitabında belə deyir: "(Peyğəmbərin) "siz", ey səhabələr, "elə zamanda olacaqsınız ki" həmin zaman əmin-amanlıq və İslamın izzəti ilə vəsf olunur. Sonra "sizdən kim əmr olunanın onda birini tərk edərsə" sözü yaxşı işlərə əmr etmək və pis əməllərdən çəkindirmək mənasındadır. Əgər kim əmr olunanın onda birini tərk edərsə həlak olar. Çünki din izzətli olduğu və dinin yardımçılarının çoxluğu dövründə əmr olunanı tərk etmək bağışlanmaz təqsirdir. Sonra elə bir zaman gələcək ki, həmin zamanda İslam zəifləyəcək, zülm artacaq, fisq ümumiləşəcək və dinin yardımçılarının sayı azalacaq. Həmin dövrdə kim əmr olunanın onda birinə əməl edərsə nicat tapar. Çünki həmin dövrdə insanların imkanı daxilində olan iş budur. "Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər (bir işə mükəlləf edər)..."[344]

Bu hədisdə "siz elə bir zamandasınız ki, sizdən kim əmr olunanın onda birini tərk edərsə" sözü bütün səhabələrə aiddir. Burada heç bir səhabə istisna edilməmişdir. Hədisin dəlalət etdiyi məna aşkardır.

---

[342] Sünəni Tirmizi, c. 4, s. 530, hədis 2268. Albani əvvəlcə bu hədisi zəif hesab etmiş, sonra isə fikrindən dönərək səhih hesab etmişdir. Əbulhəsən Şeyx deyir: "Əbu Hüreyrədən nəql olunan bu hədis zəifdir". əs-Silsilətuz-zəifə 684.

Sonra isə bu hədisi səhih hesab etmişdir. əs-Silsilətus-səhihə, 2510". Bax; Əbulhəsən Şeyx, "Təracui əllamə Albani", c. 1, s. 113.

[343] Tuhfətul-əhvazi, c. 6, s. 450.

[344] Bəqərə, 286

On üçüncü dəlil:

Ummu Sələmə belə nəql edir: "Əbdürrəhman bin Ovf onun yanına gəlib belə demişdir: "Anacan, var-dövlətimin çoxluğunun məni həlak edəcəyindən qorxuram. Mən Qureyş içində var-dövləti ən çox olan şəxsəm". (Ummu Sələmə) dedi: "Oğlum, sədəqə ver. Mən Rəsulullahın (s) belə dediyini eşitmişəm: "Səhabələrimdən elələri var ki, ondan ayrıldıqdan sonra bir daha məni görməyəcək". (Əbdürrəhman) onun yanında ayrıldıqda Ömərlə qarşılaşdı və bu söhbəti ona xəbər verdi. Ömər onun (Ummu Sələminin) yanına gəlib dedi: "Səni Allaha and verirəm düzünü de! Mən onlardanammı?" Ummu Sələmə dedi: "Yox! Səndən sonra heç kimə bəraət qazandırmayacağam".[345] (Yəni səndən başqa kim bu barədə soruşsa ona bu barədə cavab verməyəcəm).

Bu hədisdə görürük ki, Əbdürrəhman bin Ovf və Ömər bin Xəttab – onların hər ikisi Bədr döyüşündə iştirak etmişlər – Hatibin hədisi barədə heç bir şey bilmirdilər. Bəlkə də bu hədisi eşitdikləri təqdirdə hədisdən gələcəkdə ediləcək günahların bağışlanacağı mənasını başa düşməmişlər. Əbdürrəhman bin Ovf həlak olacağından qorxurdu. Halbuki iddi edilən hədisdə Peyğəmbərin (s) "istədiyinizi edin" buyurduğu söylənilir. Həmin hədisə əsasən ona əbədi əmin-amanlıq vəd olunmuşdur. Qəribəsi burasıdır ki, bu söz Ömər Hatibi qətlə yetirmək istədikdə onun qarşısında deyilmişdi. Bununla yanaşı o, bu hədisi unutmuşdur. Əbdürrəhmanın ona dediyi sözdən sonra Ummu Sələmənin yanına qaçaraq cəhənnəm oduna vasil olacaq səhabələrdən olub olmaması barədə soruşmuşdur.

Hətta Ummu Sələmə də bu hədisi bilmirdi. Əgər eşitsəydi Əbdürrəhman bin Ovfa istədiyini et. Allah səni bağışlamışdı deməsi daha uyğun olardı. Lakin Ummu Sələmə Rəsulullahın (s) "Səhabələrimdən elələri var ki, ondan ayrıldıqdan sonra bir daha məni görməyəcək" dediyini söyləyərək onu daha da qorxutmuşdur.

---

[345] Müsnədi Əhməd, c. 6, s. 290: Silsilətul-əhadis-səhihə, c. 6,s. 1202, hədis 2982.

On dördüncü dəlil:

Buxari Səl bin Səd Saididən belə nəql edir: Peyğəmbər (s) müşriklərlə vuruşan bir şəxsə baxdı – həmin şəxs müsəlmanlar içərisində ən zəngin adam idi – və belə dedi: "Kim cəhənnəm əhlindən olan birinə baxmaq istəyirsə bu şəxsə baxsın". Bir nəfər onun arxasınca gələrək onu yaraladı. O, (dözə bilməyərək) ölmək istədi. Qılıncının ucunu döşləri arasına qoyaraq özünü qılıncın üstünə atdı. Qılınc onun kürəyindən çıxdı. Peyğəmbər (s) dedi: "Bəndə insanların düşüncəsinə görə cənnət əhlinin əməlin edər, lakin o cəhənnəm əhlindəndir. Həmçinin insanların düşüncəsinə görə cəhənnəm əhlinin əməlin edər, lakin o cənnət əhlindəndir. Əməllər aqibəti ilə ölçülər".[346]

Hatibin hədisi tarixə ziddir

Əgər biz hədisin məzmununu əsas götürsək İbn Udeys Bələvi barəsində nə deməliyik. O, Bədr əhlindən olmasına baxmayaraq Osmanın qətlində iştirak etmişdir. Allah onu bağışlayıbmı?

Həmçinin Suveyd bin Məxşi Tai müsəlmanlarla birlikdə Bədr döyüşündə iştirak etmişdir. Lakin sonradan dindən çıxmışdır. Görəsən Allah onu da bağışlayıb Cənnətdə məskunlaşdırıb?!

Biz Bədr iştirakçılarından olan hər hansı bir səhabənin bu hədisə əsasən dəlil gətirdiyinə və ya onu qeyd etdiyinə rast gəlmirik. Hətta bəzi səhabələr aqibətinin pis olacağından qorxur, dini dəyişdirdiyini etiraf edirdi. Əgər hədis qeyd olunan mənada olsaydı onlarda arxayınlıq yaradardı.

Huzeyfədən belə nəql olunur: "Öməri bir cənazəyə (namaz qılmaq üçün) çağırdılar. Cənazə üçün çıxdı və ya cənazə namazı qılmaq istəyirdi. Onu saxlayıb dedim: "Otur, ey möminlərin əmiri. Bu onlardandır". Yəni münafiqlərdəndir. (Ömər) dedi: "səni Allaha and verirəm. Mən də

[346] Səhih Buxari, kitabur-riqaq, babul-əmalu bil-xəvatim, c. 7, s. 188.

onlardanam?!" (Huzeyfə) dedi: "Yox! Amma bu barədə bir daha heç kimə heç nə deməyəcəm".[347]

Əgər Peyğəmbər Allah-taalanın Bədr döyüşçülərinin əvvəlki və keçmiş günahları bağışlamasını xəbər vermişdirsə, bəs nə üçün Ömər Huzeyfədən özünün münafiq olması barədə soruşur?!

Başqa bir hədisdə Musəvvər bin Muxrimədən belə nəql olunur: "Ömər yaralandıqda ağrıyırdı. İbn Abbas ona təsəlli vermək üçün belə dedi: "Ey möminlərin əmiri, əgər bu iş olarsa (sən bir şey olarsa), sən Rəsulullahla (s) birlikdə olmusan... (Ömər) dedi: "Rəsulullahın (s) səhabəsi olmağımı və onun razı qalmasını xatırlatmağına gəlincə, bu, Allah-taala tərəfindən mən bir lütf idi. Əbu Bəkrə yoldaş olmağımı və onun razı qalmasını xatırlatmağına gəlincə, bu da mənim üçün Allah-taalanın bir lütfü idi. Gördüyün bu ağrı acılarım sənin və sənin yanındakılar üçündür. Allaha and olsun ki, yer üzünü doldurub daşacaq qədər qızılım olsaydı Allahın əzabını görməmək üçün onun hamısını fidyə verərdim".[348]

Məgər keçmiş və gələcək günahları bağışlanmış şəxsin vəziyyəti belə olarmı? Şübhəsiz ki, Ömər Peyğəmbərə nisbət verilən bu hədisi eşitmədiyi üçün belə demişdir. Yaxud Allahın günahları bağışlaması sözündən yalnız keçmiş günahların bağışlanmasını anlamışdır!

Bədr iştirakçılarının bəzilərinə hədd cəzasının verilməsi

Bədr döyüşünün iştirakçılarından bəzilərinə hədd cəzasının verilməsi bu hədisin mənasaın aşkarcasına ziddir. Kim hədisdə axirətdə günahların bağışlanması mənasının nəzərdə tutulduğunu deyirsə heç bir dəlilə əsaslanmır. Bundan başqa Rəsulullah (s) İfk əhlinə hədd cəzası vermişdir. Allah Rəsulu (s) Nəimanı qırmaclamışdır. Əqəbə bin Hərəs belə nəql edir:

---

[347] Heysəmi Məcməuz-zəvaid kitabında c. 3, s. 42-də deyir: "Bəzzar bu hədisi nəql etmişdir. Hədisin raviləri etibarlıdırlar".

[348] Səhih Buxari, c. 4, s. 201.

“Peyğəmbər (s) Nəiman və ya İbn Nəimanı gətirdi. O sərxoş idi. Bu peyğəmbərə pis təsir elədi. Evdə olan hər kəsə onu vurmağı əmr etdi. Başmaqlarlarla, çubuqlarla onu vurmağa başladılar. Mən də onu vuranların arasında idim”.[349]

Zəhəbi deyir: “Əyyub Saxtiyani belə demişdir: “Bədr iştirakçılarından ondan – Qudəma bin Məzun – başqa birinin araq içməyə görə hədd cəzası verildiyinə rast gəlməmişəm”. Mən deyirəm: “Əlbəttə var. Zarafatcıl Nəiman bin Əmr Ənsari Nəccari (də şəraba görə hədd cəzası almışdır)”.[350]

Ömər Qudamə bin Məzunu cəzalandırmışdır. O, Bədr iştirakçısı idi. Şərab içdiyinə görə Ömər ona hədd cəzası vermişdir.[351]

İbn Mədini bu hədisi inkar edir

Əli bin Mədini – Buxarinin şeyxi – Bədr əhlinin cənnətlə müjdələnməsini inkar edirdi. O, Hatibin hədisini inkar edir və onu səhih hesab etmirdi.

İbn Əbdülbirr Əbu Cəfər Əqilidən belə nəql edir: “Muhəmməd bin İtab bin Mərbə belə nəql edir: “Əhməd bin Hənbəlin yanında idim. Əli bin Mədini miniyinin üstündə onun yanına gəldi. Şəhadət (Bədr əhlinin Cənnətə girməsinə şahidlik) barədə mübahisə etdilər. Səsləri yüksəldi. Hətta onların arasında dava olacağından qorxdum. Əhməd şəhadəti qəbul edir, Əli isə onu rədd edirdi. Əli getmək istəyəndə Əhməd ayağa qalxıb onun miniyindən tutdu. Əhmədin həmin məclisdə belə dediyini eşitdim: “Muhəmmədin (s) səhabələri arasında baş verən mübahisələrə qarışmarıq. Onların məsələsi Allaha həvalə olunmuşdur. Bunun dəlili isə Hatibin hədisidir”.[352]

---

[349] Səhih Buxari, c. 8, s. 13, 14.

[350] Siyəru əlamin-nubəla, c. 1, s. 162.

[351] Həmin mənbə, c. 1, s. 161.

[352] Camiu bəyanil-ilmi və fəzlih, c. 2, s. 107.

Həmçinin belə nəql edir: "Əhməd bin Hənbəl Bədr və Hüdeybiyyədə iştirak edənlərin Cənnətdə olacaqları rəyində idi... Əli bin Mədini isə bunu rədd edirdi və bu barədə heç bir hədisi səhih hesab etmirdi".[353]

İbn Covzi hədisi təfsir edir

İbn Covzi deyir: "Bilmək lazımdır ki, hədisin mənası belədir: "Sizin əvvəlki əməllərniz nə olursa olsun, onları sizə bağışladım. Amma olacaq günahların bağışlanmasını isə hədis özündə ehtiva etmir. Məgər belə düşünürsən ki, Bədr əhlindən olan biri – haşa onlar belə bir iş tutar – şirk edərsə –çünki onlar məsum deyillər –, buna görə cəzalanmayacaqlar? Beləcə də digər günahlar![354]

Kəşful-muşkil kitabında isə belə deyir: "(Peyğəmbərin) "Nə istəyirsiniz edin" sözü gələcəkdə edilən günah mənasında deyil. Burada keçmiş zaman nəzərdə tutulur. Nəzərdə tutuluna məna budur: sizin hansı günah əməliniz varsa hamısı sizin üçün bağışlanmışdır. Buna iki şey dəlalət edir: onlardan biri budur: Əgər gələcək zaman üçün olsaydı "sə əğfiri" feli ilə deyilərdi. İkinci: Günahların mütləq olmasıdır. Bunun isə heç bir əsası yoxdur. Həmçinin sonradan səhabələrin cəzadan qorxması bunu izah edir".[355]

Bizə məlum oldu ki, bu hədis səhih deyil. Əgər bu hədisin doğrudan da Peyğəmbər (s) tərəfindən deyildiyini fərz etsək, Quran ayələrinin və başqa hədislərin vasitəsilə başa düşməliyik. Sonda Allah-taalanın bütün möminlərə xitab edərək buyurduğu ayəni qeyd edirik: **"İman gətirib yaxşı işlər görənlərin (əvvəlki) günahlarının üstünü örtər və onlara (dünyada) etdikləri əməllərdən daha gözəl (on qat artıq) mükafat**

---

[353] Həmin mənbə, c. 1, s. 161.

[354] Seydul-xatir, c. 1, s. 396.

[355] Kəşful-muşkil, c. 1, s. 142.

verərik. (Və ya: gördükləri ən yaxşı əməllərə görə onları mükafatlandırarıq)”.[356]

Hatibin hədisi ilə əlaqəli olan hədislər

“Səhabələrim ulduzlar kimidir. Hansına iqtida etsəniz hidayət taparsınız”.

Bu hədis olduqca məşhurdur. Bəziləri bu hədisi araşdırmadan Peyğəmbərə (s) nisbət vermişdir. Bu hədis sələfilərin nəzərində belə, səhih hesab olunmur. İbn Teymiyyə deyir: “Hədis imamları “Səhabələrim ulduzlar kimidir” hədisini zəif hesab etmişlər. Bu hədis höccət deyil”.[357]

Albani bu hədisin qondarma olduğunu demişdir. İbn Əbdülbirr bu hədisin sənədi barədə belə deyir: “Bu sənədə əsasən hədis höccət deyil”. İbn Həzm deyir: “Bu rəvayət hökmdən düşmüşdür”. Əhməd deyir: “Bu hədis səhih deyil”.[358] Albani bu hədis barəsində həmçinin belə demişdir: “Bu hədis batildir”.[359]

İbn Həzm deyir: “Aydın oldu ki, bu rəvayət əslən səhih deyil. Şübhəsiz ki, bu rəvayət yalandır”.[360]

Şovkani deyir: “Bu hədis sabit olmayan hədislərdəndir”.[361]

Hədisin mətni onun qondarma olduğuna dəlalət edir. Necə ola bilər ki, Peyğəmbər (s) səhabələrinə “Səhabələrim ulduzlar kimidir, hansına iqtida etsəniz hidayət taparsınız” deyib səhabələrinə iqtida etməyi əmr etsin?! Məgər xitab səhabələrə aid deyildi?!

---

[356] Ənkəbut, 7

[357] Zəhəbi, “əl-Muntəqa, s. 551.

[358] İbn Qudamə, “əl-Muntəxəb; c. 1, s. 199, hədis 2; Silsilətul-əhadis-zəifə, c. 1, s. 78, 79.

[359] Şərhul-əqidətit-tahaviyyə, s. 530.

[360] əl-İhkam, c. 6, s. 244.

[361] İrşadul-fuhul, 243.

Səhabələrim barədə Allah haqqını qoruyun!

Əhməd bin Hənbəl Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: "Səhabələrim barədə Allahın haqqını qoruyun! Səhabələrim barədə Allahın haqqını qoruyun! Məndən sonra səhabələrimi hədəfə çevirməyin. Kim onları sevərsə məni sevməklə onları sevmiş, kim onlara nifrət etmişsə mənə nifrət etməklə onlara nifrət etmişdir. Kim onlara əziyyət edərsə mənə əziyyət vermişdi. Kim mənə əziyyət edərsə Allah-taala əziyyət etmişdir. Kim Allaha əziyyət edərsə (Allah) yaxında onu cəzalandırar".[362]

Albani bu hədisi qeyd etmiş və onun zəif olduğunu demişdir. Bu hədis aşağıdakı mənbələrdə qeyd edilmişdir:

Buxari Tarix kitabı, c, səh. 131 və 389; Sünəni Tirmizi, səh. 3861; İbn Hibban, səh. 2284; Müsnədi Əhməd, c. 4, səh. 57; c. 5, səh. 54, 55; əl-Fəzail, c. 1, səh. 47; Abdullah bin Əhməd, "əz-Zəvaid", c. 1, səh. 48; İbn Əbu Asim, "əs-Sünnə", c. 2, səh. 479; Əbu Nəim, "əl-Hilyə", c. 8, səh. 287; əl-Əqili, c. 2, səh. 282; İbn Udəy, c. 4, səh. 168; Beyhəqi, "Şuəbul-iman", c. 2, səh. 191; Xətib Bağdadi, "Tarixi Bağdad", c. 9, səh. 123.

Bütün bu hədislər Səd bin İbrahimin yolu ilə nəql olunmuşdur. İbrahim bin Səd Ubeydə bin Əbu Raitədən, o da Əbdürrəhman bin Ziyaddan, o da Abdullah bin Muğfildən belə nəql edir: "Rəsulullah (s) buyurdu: ".... hədis".

Tirmizi deyir: "Həsən və qərib hədisdir". Bu hədisin yalnız bu yolla nəql olunduğuna rast gəlmişik". Mən deyirəm: "Onun həsən deməsi bəzi nüsxələrdə qeyd edilməmişdir. Necə ki, ustad Dias bu hədis barəsində belə demişdir. Bu hədisin Tirmizidə sabit olması mənə görə düşünülməlidir. Xüsusilə də, bu hədis ravilərin birinin vəziyyəti ilə ziddiyyət yaradır. Bu barədə danışacağıq. Bəziləri bunu Tirmiziyə nisbət

[362] Müsnədi Əhməd bin Hənbəl, c. 5, s. 54, 55.

vermişlər. İraqi “Təxricul-ihya” kitabında (c. 3, səh. 93), ondan öncə hədis hafizi Mizzi “ət-Tuhfə” kitabında qeyd etmişlər. Heç biri onun bu hədisi həsən adlandırdığını deməmişlər. Həmçinin “ət-Təhzib” kitabında Əbdürrəhman bin Ziyadın tərcümeyi-halı barədə danışılarkən belə deyilmişdir. Siyuti “əl-Camiul-kəbir”, ondan öncə İbn Kəsir təfsir kitabında Əhzab surəsinin təfsirində bu məsələdə onlara tabe olmuşlar. Lakin mən Tirmizinin kitabını daha yaxşı bilən, onların hamısından əvvəl olmuş birinin Tirmizinin hədisi həsən hesab etməsi barədə dediyinə rast gəlmişəm. Həmin şəxs hədis hafizi Bəğəvidir. Onun kitabının bəzi qədim əlyazmalarında belə qeyd edilmişdir. “Əgər bu doğru olarsa, bu onun (hədislərin dəyərləndirilməsi məsələsində) güzəştə getməsindən irəli gəlmişdir”. Bəğəvinin şeyxi Buxari bu hədis barəsində belə demişdir: “Bu hədis müzakirə olunmalıdır”. Mən deyirəm: Bəlkə də bunun səbəbi – Allah doğrusunu bilir – Əbdürrəhman bin Ziyada görədir. Çünki Əbdürrəhman bin Ziyaddan İbn Əbu Raitə vasitəsilə bu rəvayətdən başqa rəvayətin nəql olunması məlum deyil. Buna əsasən də Zəhəbi “əl-Mizan” kitabında belə deyir: “Tanınmır. Buxari “bu hədis müzakirə olunmalıdır” demişdir. Hafiz “əl-Lisan” kitabında bunu təsdiqləmişdir. Lakin onun adı barədə ixtilaf olduğunu demişdir. O, ət-Təhzib kitabını təfsir edənlərdəndir. Əbdürrəhman bin Ziyadın tərcümeyi-halında İbn Muinin belə dediyi nəql olunur: “Mən onu tanımıram”. İşarə olunan ixtilafa gəlincə, yuxarıda qeyd olunan mənbələri araşdırdım və aşağıdakı dörd ada rast gəldim:

1. Abdullah bin Əbdürrəhman. Bu ad daha çoxdur. 2. Əbdürrəhman bin Əbu Ziyad. 3. Əbdürrəhman bin Ziyad. 4. Əbdürrəhman bin Abdullah. Mən deyirəm: Bu ixtilaf hədis hafizlərinin bu şəxsin tanınmaması demələrini bir daha təkid edir. Birinci adla İbn Udəyin “əl-Kamil” kitabında qeyd edilmişdir. Lakin o, camaatdan fərqlidir. O, hədisi Abdullah bin Əbdürrəhman bin Yəli Taifinin tərcümeyi-halı altında qeyd

edilmişdir. Sonra isə Buxarinin Əbdürrəhman bin Abdullah barədə şübhə var sözlərini qeyd etmişdir. İbn Udəy belə etməklə bu hədisin Taifinin hədisi olmasına işarə etmişdir. Onun bununla heç bir əlaqəsi yoxdur. Qeyd olunan nəql olunma yollarına Həmzə bin Rəşid Bahili müxalif olmuşdur. Belə demişdir: İbrahim bin Səd Ubeydə bin Əbu Raitədən, o da Ömər bin Bişrdən, o da Ənəs bin Malikdən və ya Ənəs bin Malikdən nəql edənlərdən (İbrahim şəkk etmişdir), o da Peyğəmbərdən (s) nəql etmişdir. Əqili də (c. 2, səh. 273) bu hədisi qeyd etmişdir. Mən deyirəm: Bu rəvayət nadirdir və tanınmır. Buradakı Həmzə etibarlı ravilərə müxalif olması ilə yanaşı rical kitablarında onun tərcümeyi-halına rast gəlmədim. Sonra Əqili belə demişdir: "Bu babda qeyd olunan ləfzdən fərqli olaraq başqa yolla sənədi yaxşı olan hədislər var". Mən deyirəm: Sanki hədisin tanınmadığına işarə edir. Bu hədis bu şübhəyə layiqdir.[363]

Səhabələrim ümmətim üçün əmin-amanlıqdır...

Müslim Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: "Ulduzlar səma üçün əmin-amanlıqdır. Əgər ulduzlar səmadan gedərsə, səma təhdid etdiyi (bəla) ilə gələr. Mən səhabələrim üçün əmin-amanlığam. Mən getdikdən sonra səhabələrimə vəd olunan (bəlalar) gələr. Səhabələrim isə ümmətim üçün əmin-amanlıqdır. Səhabələrim getdikdə ümmətimə vəd olunan (bəlalar) gələr".[364]

Nəvəvi deyir: "(Hədisin orjinalında qeyd olunan) "əl-əmənətu" sözü əmin-amanlıq mənasındadır. Hədisin mənası belədir ki, ulduzlar səmada olduqca səma da davam edəcək. Əgər ulduzlar sönərsə, qiyamət günü parçalanıb səpələnərsə səma məhv olub parçalanaraq aradan gedər. Peyğəmbərin (s) "Mən səhabələrim üçün əmin-amanlığam. Mən getdikdən sonra səhabələrimə vəd olunan (bəlalar) gələr" deməsi

[363] Silsilətul-əhadis əz-zəifə, c. 6, s. 445.

[364] Səhih Müslim, c. 7, s. 183.

fitnələr, müharibələr və ərəblərdən bəzilərinin dindən çıxması, qəlblərin ixtilaflı olması kimi öncədən aşkarcasına xəbərdarlıq edilən və baş verən məsələlər anlamındadır. (Peyğəmbərin) "Səhabələrim isə ümmətim üçün əmin-amanlıqdır. Səhabələrim getdikdə ümmətimə vəd olunan (bəlalar) gələr" sözlərində bidətlərin aşkar olması, dində dəyişikliklərin və fitnələrin baş verməsi, Şeytanın buynuzunun çıxması, bizanslıların və başqalarının müsəlmanlara qarşı vuruşması, Məkkə, Mədinə və başqa şəhərlərin hörmətinin aradan getməsi nəzərdə tutulmuşdur. Bütün bunlar hamısı Peyğəmbərin (s) möcüzələrindəndir".[365]

Peyğəmbərin (s) səhabələri üçün əmin-amanlıq olması doğrudur. Lakin səhabələr ümmət üçün necə əmin-amanlıq ola bilər? Səhabələrin insanlar üçün əmin-amanlıq ola bilərlər ki, onlar özləri çaşqınlığa düşmüş, fitnəyə məruz qalmış, bir-birilə vuruşmuş və onların dövründə günahsız qanlar axıdılmışdır".

İbn Hişam deyir: "Elm əhlindən olan Əbu Ubeydə və başqaları mənə nəql etmişlər ki, Rəsulullah (s) vəfat etdikdə Məkkə əhlinin əksəriyyəti İslamdan dönmək istədilər".[366]

Dində baş vermiş fitnələrin və dəyişikliklərin çoxu səhabələrin dövründə meydana çıxmış, əlamətləri davam etmiş və indiyədək onların öz aralarındakı ixtilafların və Peyğəmbərə müxalif olmalarının odunda yanırıq. Məsələn bir nümunəyə nəzər salaq. İlk xəlifələr sünnənin yazılmasına qarşı çıxıb sünnəni nəql etməyi qadağan etmişlər. Onların bu əməlləri sayəsində ümmətin başına çox bəlalar gəldi.

İbn Tufi Hənbəli deyir: "Bil ki, alimlərin arasında baş verən ixtilafların səbəbləri rəvayətlərin və hədislərin təzadlı olmasıdır. Bəzi insanlar iddia edirlər ki, bunun səbəbi Ömər bin Xəttab olmuşdur. Çünki səhabələr sünnənin yazılması barədə ondan icazə istəmişlər, lakin onlara bu işi

---

[365] Şərhi Səhih Müslim, c. 16, s. 83.

[366] əl-Bidayə vən-nihayə, c. 5, s. 300.

qadağan edərək belə demişdir: “Quranla yanaşı başqa şey yazmaram”. Halbuki Peyğəmbərin (s) belə dediyini bilirdi: “Vida xütbəsini Əbu Şah üçün yazın”, “Elmi yazmaqla qoruyub saxlayın”. Əgər səhabələrin Peyğəmbərdən (s) nəql olunanları yazmasına imkan versəydi sünnə öz qaydasında olardı. Hər bir hədisdə Ümmətlə Peyğəmbər (s) arasında rəvayəti nəql edən səhabədən başqa heç kim olmazdı. Çünki həmin yazılı hədislər Buxari və Müslimin mütəvatir nəql etdikləri hədislər kimi mütəvatir yolla bizə gəlib çatardı”.[367]

Qeyd olunan hədisə əsasən Peyğəmbər (s) özünü və səhabələrin əmin-amanlığın mənbəyi olduğunu qərar vermişdir. Bu isə sonrakı nəsillərin dində çaşqınlığa düşməsi, parçalanması və bir-birilə vuruşan məzhəblərin meydana çıxması ilə nəticələndi!

Məgər ilahi rəhmət ulduzların əmin-amanlıq əlaməti olaraq qalması kimi ümmətin varlığı davam etdiyi qədər əsrlər boyu əmin-amanlığın olmasını tələb etmirmi?! Səmanın ulduzlarının aradan getməsi zülmətin çökməsi deməkdir. Həmçinin yer üzünün ulduzlarının, yəni Peyğəmbər və ondan sonra səhabələrin aradan getməsi yer üzünün zülməti olmalıdır. Bu isə bizim hədisin səhih olmasında şübhə etməyimiz üçün yetərli səbəbdir. Əgər səhabələr ümmət üçün əmin-amanlıq olsaydılar ümmət parçalanmaz, bir-birini təkfir etməz və zəlalətdə bir-birini ittiham etməzdilər. Əşərilər, maturidilər bir cəhətdən, sələfilər isə başqa bir cəhətdən səhabələrə qayıtmaqda və onlara bağlanmaqda müştərəkdirlər. Onların səhabələrə baxışları, onları ədalətli hesab etmələri və onlardan rəvayət nəql etmələri baxımından üslubları eynidir. Bununla yanaşı bir-birini zəlalətdə və azğınlıqda ittiham etmişlər. Hətta onlar arasında

[367] İbn Rəcəb Hənbəli, “Təbəqatul-hənabilə, s. 366.

vəziyyət o həddə çatmışdır ki, bəzən bir-birini təkfir də etmişlər. Bəs nə üçün səhabələrə tabe olmaq onlar üçün əmin-amanlıq olmadı?![368]

Məgər sələfilər Peyğəmbərin (s) və səhabələrin getdiyi yolla getdiklərini iddia etmirlərmi? Məgər əşərilər və maturidilər Peyğəmbərin (s) və səhabələrin yolu ilə getdiklərini iddia etmirlərmi? Bəs nə üçün onların hər biri məhz özünün nicata çatan firqə hesab edib başqasını zəlalətdə ittiham edir?!

Məgər şiələr Peyğəmbərin (s) və İmam Əli (ə) başda olmaqla seçilmiş səhabələrin yolu ilə getdiklərini iddia etmirlərmi?!

Şübhəsiz ki, hədisin mətni təhrif olunmuşdur. İslam mənbələrində əmin-amanlıq hədisinin səhih mətni nəql olunmuşdur. Məhz həmin mətn səqəleynə - Quran və Əhli-Beytə tabe olmaq barədə olan peyğəmbər vəsiyyətilə tamamilə üst-üstə düşür.

Hakim Nişapuri səhih hesab etdiyi bir hədisi nəql edərək deyir: Muhəmməd bin Munkədir Cabirdən – Allah ondan razı olsun – o da Rəsulullahdan (s) **"Həqiqətən o qiyamət elmi üçün bir nişanədir"**[369] ayəsinin təfsiri barədə belə buyurduğunu nəql edir: "Ulduzlar səma əhli üçün əmin-amanlıqdır. Əgər ulduzlar aradan gedərsə vəd olunanlar baş verər. Mən də var olduqca səhabələrim üçün əmin-amanlığam. Mən də gedərəmsə onlara vəd olunanlar başlarına gələr. Əhli-Beytim ümmətim üçün əmin-amanlıqdır. Əhli-Beytim gedərsə onlara vəd olunanlar başlarına gələr".[370]

Həmçinin Hakimin səhih hesab etdiyi bir hədisdə deyilir: Muhəmməd bin Munkədir atasından belə nəql edir: "Peyğəmbər (s) buyurub:

---

[368] Burada şiə firqələri də Əhli-Beytə bağlanmaları ilə yanaşı bir-birilə ixtilafdadırlar deyilməsi doğru deyil. Çünki bu firqələr Əhli-Beyt imamlarına qayıtmaqda bir-birilə fərqlənirlər. Əhli-sünnə məktəbləri isə bütün səhabələrin ədaləti olması və onlara tabe olmaq msələsində müttəfiqdir.

[369] Zuxruf, 61

[370] əl-Mustədrək aləs-səhiheyn, c. 3, s. 457.

“Ulduzlar səma əhlin üçün əmin-amanlıqdır. Əgər ulduzlar sönərsə səmada vəd olunanlar baş verəcək. Mən də səhabələrim üçün əmin-amanlığam. Mən də vəfat etdikdə vəd olunanlar səhabələrimin başına gələcək. Əhli-Beytim ümmətim üçün əmin-amanlıqdır. Əhli-Beytim gedərsə vəd olunanlar ümmətimin başına gələcək”.

Əli (ə) belə nəql edir: “Rəsulullah (s) buyurub: “Ulduzlar səma əhli üçün əmin-amanlıqdır. Ulduzlar aradan gedərsə səma əhli də aradan gedər. Əhli-Beytim yer əhli üçün əmin-amanlıqdır. Əhli-Beytim aradan gedərsə yer əhli aradan gedər”.[371]

İbn Abbas – Allah onların hər ikisindən razı olsun – belə nəql edir: “Rəsulullah (s) belə buyurdu: “Ulduzlar yer əhlinin yollarını azmaqdan qorunmaları üçün əmin-amanlıqdır. Əhli-Beytim ümmətimin ixtilafdan qorunmaları üçün əmin-amanlıqdır. Ərəblərdən bir qəbilə onlara qarşı çıxarsa ixtilafa düşər və İblisin dəstəsindən olarlar”.[372]

Munavi bu hədisin şərhində deyir: “Onları ulduza bənzətmişdir. Ulduzların vasitəsilə yol tapılır. Həmçinin onlara iqtida edilməlidir. Həlakdan yalnız onlarla qorunmaq olar. Həkim (filosof) Tirmizi deyir: “Burada Əhli-Beytim sözü özündən sonra onun yolu ilə gedənlərdir. Onlar siddiqlər və abdallardır”.[373]

İmam Muqbuli deyir: “Həmçinin Əhməd bu hədisi qeyd etmişdir: “Ulduzlar yer əhli üçün azmaqdan qorunmaları üçün əmin-amanlıqdır. Əhli-Beytim ümmətimin ixtilafdan qorunmaları üçün əmin-amanlıqdır. Ərəblərdən bir qəbilə onlara qarşı çıxarsa ixtilafa düşər və İblisin

---

[371] Əhməd bin Hənbəl, Fəzailus-səhabə, c. 2, s. 671.

[372] əl-Mustədrək, c. 3, s. 149; c. 4, s. 75.

[373] Feyzul-qədir şərhil-camius-səğir, c. 6, s. 386.

dəstəsindən olarlar”. Sonra belə deyir: “Bu dəlil ümmətin icması dəlilindən qat-qat güclüdür”.[374]

Hədisin təhrif edilmiş mətnini – səhihliyini fərz etsək belə – bütün səhabələr şamil edə bilmərik. Onların arasında elələri olacaq ki, qiyamət günü Peyğəmbərin hovuzunun yanından qovulacaqlar.

Buxari Əbu Vaildən belə nəql edir: Abdullah Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: “Mən sizdən öncə hovuz başında olacam. Sizlərdən bəzilərini mənim yanıma gətirəcəklər. Onları yanıma almaq istədikdə məndən uzaq düşəcəklər. Mən deyəcəm: “Ya Rəbbi, səhabələrim! Səhabələrim!” (Rəbbim) belə deyəcək: “Səndən sonra nə etdiklərini bilmirsən”.[375]

Bax ümmət üçün əmin-amanlıq olan bu səhabələr cəhənnəm oduna vasil olacaqlar!!!

---

[374] Əmir Sənani, “İcabətus-saili şərhi buğyətil-əməl”, c. 1, s. 155, 156. Bu hədisi qeyd etdikdən sonra heç bir etiraz bildirməmişdir. Bu isə onun hədisinin məzmununu ilə razılaşdığına dəlalət edir.

[375] Buxari, kitabul-fitən, c. 8, s. 87.

İkinci fəsil: Hovuz hədisi

Hovuz hədisi onlarla səhabələrin nəql etdiyi mütəvatir hədisdir. İbn Əbdülbirr deyir: "Peyğəmbərin (s) hovuzu barədə hədislər mütəvatirdir, səhihdir, sabitdir və çoxdur. Müsəlman alimlərindən bir dəstənin nəzərinə əsasən hovuz hədisinə iman gətirmək vacibdir. Bəzi alimlərin nəzərində isə bunu təsdiqləmək lazımdır".[376]

Bu hədisin sələfilərin etimad etdikləri dəlillərlə sıx bağlılığı var. Xüsusilə də, bu hədis mütəvatir həddədir. Qeyd etdiyimiz hədislər isə ahad (mütəvatir həddinə çatmayan) hədislərdir. Buna əsasən də bu hədis araşdırdığımız bütün dəlilləri alt-üst edir. Burada bəzi səhabələrin dindən çıxdıqları və ya Peyğəmbərdən sonra dində dəyişiklik etdikləri üçün hovuz kənarından qovulmaları barədə nəql edilmiş hədisləri qeyd edəcəyik. Sonra isə həmin rəvayətlərə oxşar məzmunda başqa yollarla nəql olunmuş hədisləri qeyd edəcəyik. Sonda əldə edəcəyimiz nəticə, yəni sələfilərin təqdim etdikləri dəlillərin batil olması oxucu üçün yetərli olacaqdır.

Hədisin mətni

Ümətim! Ümmətim!

Hovuz hədisi müxtəlif mətnlərlə nəql olunmuşdur. Həmin mətnlərin birində "Ümmətim! Ümmətim!" deyilir. Əhməd bin Hənbəl Aişənin belə dediyini nəql edir: "Rəsulullahın (s) belə buyurduğunu eşitdim: "Mən hovuz başında olacam. Sizlərdən orada mənim yanıma kimin gələcəyini gözləyəcəm. Bəzi insanlar məndən uzaqlaşdırılacaqlar. Mən deyəcəm:

[376] ət-Təmhid, c. 2, s. 391.

“Ümmətim! Ümmətim!”. Mənə belə deyiləcək: “Səndən sonra nə etdiklərini bilmirsən! Onlar boyunları arxaya baxaraq qalacaqlar”.[377]

Bu mətndə “ümmət” sözü olduğu üçün bizim araşdırmamızdan kənardır.

Sizdən bəzi şəxslər

Buxari Əbu Vaildən belə nəql edir: Abdullah Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: “Mən sizdən öncə hovuz başında olacam. Sizlərdən bəzilərini mənim yanıma gətirəcəklər. Onları yanıma almaq istədikdə məndən uzaq düşəcəklər. Mən deyəcəm: “Ya Rəbbi, səhabələrim! Səhabələrim!” (Rəbbim) belə deyəcək: “Səndən sonra nə etdiklərini bilmirsən”.[378]

Səhabələrimdən bəzi şəxslər...

İbn Abbasdan Peyğəmbərin (s) belə buyurduğu nəql olunur: “Siz (qiyamət günü) ayaqyalın, lüt və sünnətsiz gələcəksiniz”. Sonra bu ayəni oxudu: ***“(O gün insanları) ilk dəfə (yoxdan) yaratdığımız kimi qaytarıb (dirildib) əvvəlki halına salarıq. Biz yerinə yetirməli olduğumuz vədi mütləq yerinə yetirəcəyik. (Biz qiyamət günü sizi dirildib lüt-üryan, anadangəlmə vəziyyətdə məhşərə gətirməyi vəd etmişdik. Biz onu mütləq edəcəyik)”***[379] Qiyamət günü libas geydiriləcək ilk şəxs İbrahim olacaq. Səhabələrimdən bəzi şəxsləri sol tərəfə aparacaqlar. Mən deyəcəm: “Səhabələrim! Səhabələrim!” Mənə deyiləcək: “Sən onlardan ayrıldığın gündən bu yana onlar (dindən) çıxaraq geri (cahiliyyətə) dönmüşlər”. Mən saleh bəndənin dediyi kimi ***“... Nə qədər ki, onların arasında idim, onlara şahid mən idim (onları belə nalayiq hərəkətlər***

---

[377] Müsnədi Əhməd,c. 41, s. 388

[378] Buxari, kitabul-fitən, c. 8, s. 87

[379] Ənbiya, 104

etməyə qoymurdum). Sən məni (göyə qaldırıb dərgahına) qəbul etdikdən sonra onlara nəzarətçi Özün oldun. Yalnız Sən hər şeyə şahidsən! Əgər onlara əzab versən, şübhə yoxdur ki, onlar Sənin qullarındır. Əgər onları bağışlasan, yenə şübhə yoxdur ki, Sən yenilməz qüvvət sahibi, hikmət sahibisən"[380] sözlərini deyəcəm.[381]

Mənə səhabə olanlardan...

Peyğəmbər (s) buyurdu: "Mənimlə səhabə olanlardan bəzilərini mənim yanıma gətirəcəklər. Onları gördükdə mənə səslənəcəklər. Sonra məndən kənarlaşdırılacaqlar. Mən deyəcəm: "Ey Rəbbim, səhabələrim! Səhabələrim!" Mənə belə deyiləcək: "Onların səndən sonra nə etdiklərini bilmirsən".[382]

Sizdən bir dəstə

Əbu Hüreyrə Rəsulullahın (s) belə buyurduğunu nəql edir: "Ümmətim hovuz başında mənim yanıma gələcək. Biri başqasının dəvəsini öz dəvəsinə qarışmaması üçün qovduğu kimi mən də hovuzdan insanları uzaqlaşdıracam. (Ümmətimdən olanlar) "Ey Allahın peyğəmbəri, bizi tanıyırsanmı?" deyəcəklər. Mən deyəcəm: "Bəli. Sizin elə simanız var ki, başqasında belə sima yoxdur. Dəstəmaz nəticəsində üzünüz parlaq olaraq yanıma gələcəksiniz. Sizlərdən bir dəstə məndən kənarlaşdırılacaqlar. Mən deyəcəm: "Ya Rəbbi, bunlar mənim səhabələrimdir!" bir mələk mənə deyəcək: "Sədən sonra nə etdiklərini bilirsənmi?"[383]

---

[380] Maidə, 117

[381] Səhih Buxari, c. 4, s. 110

[382] Səhih Müslim, c. 7, s. 70-71

[383] Səhih Müslim, c. 1, s. 150

Elə ki, onları tanıdım...

Buxari Əbu Hüreyrədən Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: "Mən ayaq üstə olduğum vaxt onları tanıdıqda onlarla mənim aramdan bir nəfər çıxacaq və onlara "Ardımca gəlin!" deyəcək. Mən deyəcəm: "Onlar nə ediblər?" (Həmin adam) deyəcək: "Onlar səndən sonra geri (cahiliyyətə) dönmüşlər". Sonra bir dəstə gələcək. Elə ki, onları tanıyacam onlarla mənim ardımdan bir kişi çıxıb deyəcək: "Ardımca gəlin!" Mən deyəcəm: "Hara?" (Həmin adam) deyəcək: "Allaha and olsun ki, cəhənnəm oduna". Mən deyəcəm: "Onlar nə ediblər?"(Həmin adam) deyəcək: "Onlar səndən sonra dindən çıxaraq geri (cahiliyyətə) dönmüşlər". Onlardan sahibsiz dəvə qədər az adam qalacaq".[384]

Müslim Abdullahdan belə nəql edir: "Rəsulullah (s) buyurub: "Mən sizdən öncə hovuz başında olacam. Bəzi insanlara görə mübahisə edəcəm və məğlub olacam. Sonra deyəcəm: "Ya Rəbbi, səhabələrim! Səhabələrim!" Belə deyiləcək: "Onların səndən sonra nə etdiklərini bilmirsən".[385]

Səhl bin Səd Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: "Mən sizdən əvvəl Hovuz başına çatacam. Kim mənim yanıma gələrsə o sudan içəcək. Kim o sudan içəcəksə heç vaxt suzamaz. Mənim yanıma elə insanlar gətiriləcək ki, onları tanıyacam və onlar da məni tanıyacaq. Sonra onlarla mənim aramda maneə yaradılacaq". Əbu Naim deyir: "Noman bin Əbu Əyyaş məni eşitdi və belə soruşdu: "Səhldən belə eşitdin?" Mən dedim: "Bəli". O dedi: "Əbu Səid Xidrinin belə dediyini və bu sözləri də əlavə etdiyini eşitdim: "Mən deyəcəm: "Onlar məndəndir!" Mənə deyiləcək: "Səndən sonra onların nə etdiklərini bilmirsən". Mən də: "Məndən sonra yolunu dəyişdirənlər uzaq olsunlar! Uzaq olsunlar!"[386]

---

[384] Buxari, Kitabur-riqaq, babun fil-hovz

[385] Səhih Müslim, kitabul-fəzail, bab isbat hozun-nəbi (s) və sifatuhu, c. 7, s. 68

[386] Səhih Buxari, c. 7, s. 207-208

Ey insanlar... sizi dəstə-dəstə gətirərlər...

Abdullah bin Rafe belə nəql edir: "Umm Sələmə saçlarını daradarkən Peyğəmbərin (s) mənbərdən belə dediyini eşitmişdir: "Ey insanlar". Ummu Sələmə saçını darayan cariyəyə : "Saçlarımı topla" demişdir. Cariyədə ona: "Fəda olum sənə! Sadəcə "ey insanlar" dedi. Ummu Sələmə dedi: "Vay olsun sənə! Məgər biz də insanlardan deyilikmi?" Cariyə onun saçını topladı. Ummu Sələmə otağından (Peyğəmbərin) sözlərinə qulaq asmağa başladı. Peyğəmbər (s) buyurdu: "Ey insanlar, mən hovuz başında olduqda sizi dəstə-dəstə gətirəcəklər. Sonra siz yollara ayrılacaqsınız. Mən sizi səsləyəcəm: "Bu yolla gəlin". Məndən sonra bir carçı car çəkərək deyəcək: "Onlar səndən sonra dini dəyişdirmişlər". Mən deyəcəm: "Uzaq olsunlar! Uzaq olsunlar!"[387]

Bəzi insanlar iman gətirdikdən sonra dindən çıxacaqlar

İbn Kəsir tarix kitabında (c. 6, səh. 232) belə deyir: "Beyhəqi Əbu Dərdanın belə dediyini nəql edir: "Mən: "Ya Rəsulullah, sənin "bəzi insanlar iman gətirdikdən sonra dindən çıxacaqlar" dediyini eşitmişəm. (Peyğəmbər) buyurdu: "Bəli. Sən onlardan deyilsən".[388]

Bəzi insanları gətirəcəklər...

İbn Abbas belə nəql edir: "Rəsulullahın (s) belə buyurduğunu eşitdim: "Mən sizdən öncə hovuz başında olacam. Kim ora gəlib çıxarsa nicata çatacaq. Bəzi insanlar gətiriləcək və sol tərəfə aparılacaqlar. Mən deyəcəm: "Ya Rəbbi!" Mənə belə deyiləcək: "Səndən sonra dindən çıxaraq geriyə dönmüşlər".[389]

---

[387] Müsnədi Əhməd, c. 3, s. 18; Sünəni İbn Macə, kitabuz-zuhd, babi zikril-hauz, c. 2, s. 1439, hədis 4306

[388] Dəlailun-nubuvvə, c. 6, s. 403; Müsnədi Əhməd, c. 1, s. 257

[389] Müsnədi Əhməd bin Hənbəl, c. 44, s. 257

Mən filankəs oğlu filankəsəm

Həmzə bin Əbu Səid Xidri atasının belə dediyini nəql edir: "Peyğəmbərin (s) mənbərdən belə dediyini eşitdim: "Rəsulullah (s) rəhmi (qohumluğu) qövmünə fayda verməyəcək deyənlər nə düşünürlər? Şübhəsiz ki, Allaha and olsun mənim rəhmim dünya və axirətdə davamlı olacaq. Ey insanlar, mən sizdən öncə hovuz başında olacam. Siz gəldikdə bir nəfər deyəcək: "Ya Rəsulullah, mən filankəs oğlu filankəsəm". Onun qardaşı deyəcək: "Mən filankəs oğlu filankəsəm". (Peyğəmbər) onlara deyəcək: "Nəsəbinizə gəlincə, bildim. Lakin siz məndən sonra dində dəyişiklik etmisiniz və geri dönmüsünüz".[390]

Səhabələrimdən məni görməyənlər olacaq...

Ummu Sələmənin belə dediyi nəql olunur: "Əbdürrəhman bin Ovf onun yanına gəlib belə demişdir: "Anacan, var-dövlətimin çoxluğunun məni həlak edəcəyindən qorxuram. Mən Qureyş içində var-dövləti ən çox olan şəxsəm". (Ummu Sələmə) dedi: "Oğlum, sədəqə ver. Mən Rəsulullahın (s) belə dediyini eşitmişəm: "Səhabələrimdən elələri var ki, ondan ayrıldıqdan sonra bir daha məni görməyəcək". (Əbdürrəhman) onun yanından ayrıldıqda Ömərlə qarşılaşdı və bu söhbəti ona xəbər verdi. Ömər onun (Ummu Sələminin) yanına gəlib dedi: "Səni Allaha and verirəm düzünü de! Mən onlardanammı?" Ummu Sələmə dedi: "Yox! Səndən sonra heç kimə bəraət qazandırmayacağam".[391] (Yəni səndən başqa kim bu barədə soruşsa ona bu barədə cavab verməyəcəm).

Qurtubi "Səhabələrimdən bir dəstə hovuz başına gələcəklər... onlar dindən çıxaraq geriyə dönmüşlər" hədisini qeyd etdikdən sonra belə demişdir: "Bu mənada hədislər çoxdur. Kim Allahın razı olmadığı və

---

[390] Müsnədi Əhməd, c. 3, s. 18; Heysəmi, Məcməuz-zəvaid, c. 10, s. 324. Əbu Yəla bu hədisi nəql etmişdir. Hədisin raviləri səhih hədis raviləridir.

[391] Müsnədi Əhməd, c. 6, s. 290: Silsilətul-əhadis-səhihə, c. 6,s. 1202, hədis 2982.

Allahın izn vermədiyi tərzdə dini dəyişdirərsə, yenilik edərsə və bidət yaradarsa o, üzü qaralmış halda hovuz başından qovulanlardan olacaq.[392]

Hədisin şərhçiləri

Hədis alimləri və başqaları cəhənnəmə sürüklənən bu şəxslərin münafiqlər, mürtədlər və böyük günah edən şəxslər olduğunu demişlər. Heç bir dəlil olmadan, hədisin məzmununun dəlalətindən uzaq və hədisdə nəzərtə tutulan mənanın bəyanı üçün etimad edilməsi vacib olan əlamətlər olmadan bu fikri irəli sürmüşlər.

İbn Həcər deyir: "Farbəri belə deyir: "Əbu Abdullah Buxari Qubeysənin belə dediyini nəql edir: "Onlar Əbu Bəkrin zamanında dindən çıxanlar və Əbu Bəkrin onlarla vuruşduğu şəxslərdir. Onlar qətlə yetirilib kafir olaraq öldülər..." Xəttabi deyir: "Səhabələrdən heç kim dindən çıxmamışdır. Yalnız dində heç bir yardımı olmayan bədəvi ərəblərin vəfasız qövmləri dindən çıxmışdır. Bu məşhur səhabələrə nöqsan gətirməz..." İbn Tin deyir: "Onların münafiqlərdən və ya böyük günah edən şəxslərdən olması ehtimal olunur. Deyilənə görə onlar qorxu və tamah üzündən İslamı qəbul edən bədəvi ərəblərin vəfasız qövmlərindən olmuşlar..." Nəvəvi deyir: "Onların münafiqlər və mürtədlər olduqları deyilmişdir... Onların müsəlman olaraq ölən böyük günah və bidət edənlər olmaları da deyilmişdir..." İyyaz, Baci və başqaları Peyğəmbərdən (s) sonra onların dindən çıxmaları rəvayətini nəql edən Qubeysənin dediyinə meyl etmişlər... Peyğəmbərin (s) zamanındakı münafiqlərin də onlardan olması mümkündür".[393]

Bu hədisdə nəzərdə tutulanların münafiqlər və mürtədlər olmasını deyənlər çoxdur. Onlardan bəzilərinin adlarını qeyd edirik: Siyuti, "əd-

---

[392] Təfsiri Qurtubi, c. 4, s. 168.

[393] Fəthul-Bari, c. 11, s. 333, 334.

Diybac alə Müslim”[394], “Səfərul-həvali fi şərhil-əqidəti-tahaviyyə”[395]. Həmçinin sələfilərin çoxu bu rəydədir.

Hədisin həqiqəti

Hədisi təfsir edən alimlər səhabələrə baxışları məsələsindən qaynaqlanan duyğularına əsasən bu sözləri demişlər. Onların hamısının səhabələrə baxışları əvvəlcədən müəyyən edilmiş bir qaydaya əsaslanır. Nəvəvi deyir: “Sünnə və haqq məzhəbinin rəyi budur ki, onlara – səhabələrə – hüsni-zənn edilməli, onların arasında baş vermiş mübahisələr barədə susmaq və onların bir-biri ilə vuruşmalarını icitihad etmələri ilə izah etmək lazımdır.[396]

Zəhəbi deyir: “Həmçinin qərara alınmışdır ki, onların arasında baş verən münaqişələrin və savaşların çoxu barədə danışılmasın. (Allah hamısından razı olsun). İndiyədək bu barədə divanlarda, kitablarda və yazılarda rast gəlinir... Bu kimi məsələləri üstündən keçmək, gizlətmək, hətta məhv etmək lazımdır ki, qəlblər saflaşsın, səhabələrin sevgisi və onlardan razılıq yaransın. Bunu ümumi insanlardan və bəzi alimlərdən gizlətmək vacibdir”.[397]

Yuxarıda qeyd etdiyimiz hədislərdə oxuyuruq ki, Peyğəmbər (s) səhabələrindən bəzi dəstələrin cəhənnəm oduna sürükləndiyinə işarə edir. Hədisi daha doğru anlamaq üçün hədisin mətninin sözlərini diqqətlə araşdırmalıyıq. Hədislər bir-birini izah edir. Həmçinin bu hədislərin doğruluğuna dəlil olacaq Peyğəmbərin (s) və səhabələrin sözlərini də araşdırmaq lazımdır. Peyğəmbər (s) həmin hədislərdə aşağıdakı sözlərdən istifadə etmişdir:

---

[394] əd-Diybac alə Müslim, c. 2, s. 33, 34

[395] Səfərul-həvali fi şərhil-əqidəti-tahaviyyə, s. 171.

[396] Şərhun-Nəvəvi alə Səhihi Müslim, c. 18, s. 219, 220.

[397] Siyəru əlamin-nubəla, c. 10, s. 92, 93.

“Sizlərdən bəzi insanları mənim yanıma gətirəcəklər”. Burada xitab Peyğəmbərin (s) yanındakı səhabələrə yönəlmişdir. Hədisi nəql edən İbn Məsud da onların arasında olmuşdur. Onların bəziləri Peyğəmbərdən (s) sonra dində dəyişiklik etdikləri üçün aqibətləri cəhənnəm odu olacaqdır.

“Bəzi qövmlər üçün mübahisə edəcəm və məğlub olacam. Sonra deyəcəm: “Ya Rəbbi, səhabələrim!” Burada qövmlər sözü işlədilmişdir. Bu isə onların sayının çox olmasına dəlalət edir. Sonra onların səhabə olduğuna işarə edilir.

“Bəzi qövmlər iman gətirdikdən sonra dindən çıxacaqlar”. Burada da qövmlər sözü qeyd edilmişdir. Şübhəsiz ki, qövmlər sözü çoxluğa dəlalət edir.

“Səndən sonra geri dönməkdə davam etmişlər”, “Səndən sonra dindən çıxaraq geri dönmüşlər”. Hədisdəki bu ifadə Peyğəmbərdən sonra haqdan dönməyin davamlı olmasına dəlalət edir. Dindən dönməyin davamlı olması Əbu Bəkrin zamanında dindən çıxan mürtədlərin nəzərdə tutulması ilə uyğun gəlmir. Onların bir qismi qətlə yetirildi, bir qismi isə tövbə etdi.

“Səhabələrimdən bəzi insanlar”, Onlardan ayrıldığım vaxtdan dindən çıxaraq geriyə dönmüşlər”.

“Mənimlə səhabə olanlardan” ifadəsi onların çoxluğuna və Peyğəmbərin (s) yanında olmalarına dəlalət edir. Bədəvi ərəblərdən olan mürtədlər Peyğəmbəri çox az müddət görmüşlər. Bəziləri Peyğəmbərin yanına nümayəndələrlə Mədinəyə gəlmiş, bəziləri də Vida həccində Peyğəmbəri görmüşdür. Onların Rəsulullahla yoldaşlıq etmələri, onun səhabələrindən olmasını demək olmaz.

“Onlardan ayrıldığım vaxtdan etibarən”. Bu söz Peyğəmbərin onlardan ayrıldığı zamandan etibarən dindən çıxmalarına dəlalət edir!

“Mən filankəs oğlu filankəsəm” və ya “Elə ki, onları tanıdım” Peyğəmbərin onları öncədən yaxşı tanıdığına dəlalət edir. Peyğəmbər

onlara belə deyəcək: "Nəsəbə gəlincə, tanıdım. Lakin siz məndən sora dəyişdirdiniz və dindən çıxaraq geri döndünüz".

"Sizlərdən bəzi insanlar".Buxari bu hədisi **"Sizdən təkcə zalımlara toxunmayacaq (pis əməllərin müqabilində hamıya üz verə biləcək) bəladan qorxun..."**[398] ayəsinin barəsində deyilən hədislər bölümündə qeyd etmişdir. Bu isə hədisin qeyd olunan ayəni təfsir etməsi deməkdir. Bu ayədə bədəvi ərəblərə və gələn qəbilə nümayəndələrinə deyil, Peyğəmbərin (s) yanında olan səhabələrə xitab olunur. Hətta bu ayənin Bədr əhli barəsində nazil olduğu deyilmişdir.[399]

Zubeyr bin Avvam belə deyir: "Bu ayə nazil olduqda biz Rəsulullahın (s) yanında birlik içində idik. **"Sizdən təkcə zalımlara toxunmayacaq (pis əməllərin müqabilində hamıya üz verə biləcək) bəladan qorxun..."** "Bu nə fitnədir ki, biz onun baş verməsini hiss etmirik?" deyirdik. Sonra bu fitnə baş verdi".[400]

Buxarinin bu ayə üçün bir ünvan təyin etməsi və dindən çıxmaq barədə olan hədisi ayənin təfisiri kimi qeyd etməsi hovuz hədisinin barələrində bu ayənin nazil olduğu şəxslərdən bəhs etdiyinə dəlalət edir.

Hədisdə böyük günah edən şəxslərin nəzərdə tutulması

Hədisdə böyük günah edən şəxslərin nəzərdə tutulmasını demək doğru deyil. Çünki burada səhabələr xitab olunur. Hədis onların hovuzdan kənarlaşdırılmasının səbəbini Peyğəmbərdən (s) sonra dindən çıxmaları, etdikləri dəyişikliklər və bidətlər olduğunu qeyd edir. Əgər bu izah doğru

---

[398] Ənfal, 25

[399] Camiul-bəyan, c. 9, s. 288. İbn Həcər bu ayənin təfsirini heç bir irad bildirmədən Təbəridən nəql etmişdir: Fəthul-bari, c. 13, s. 3; Təfsiri İbn Əbu Hatəm Razi, c. 5, s. 1682.

[400] Heysəmi, "Məcməuz-zəvaid" kitabında belə deyir: "Əhməd iki sənədlə bu rəvayəti nəql etmişdir. Həmin rəvayətlərdən birinin sənədindəki ravilər səhih hədis ravileridir; c. 7, s. 27; Müsnədi Əhməd, c. 1. S. 167.

olsaydı Peyğəmbərə "onlar dindən çıxmışlar" deyil, "onlar böyük günahlar etmişlər" deyilərdi.

Ənəs bin Malikin Rəsulullahdan (s) nəql etdiyi hədis bu təfsirin doğru olmadığına dəlalət edir. Həmin hədisdə Peyğəmbər (s) buyurur: "Şəfaətim ümmətimdən böyük günahlar edən şəxslər üçündür".[401]

İbn Teymiyyə deyir: "Həmçinin ondan (Peyğəmbərdən) şəfaət hədisləri mütəvatir nəql olunmuşdur. Məsələn, səhih hədisdə belə buyurduğu nəql olunur: "Şəfaətim ümmətimdən böyük günahlar edən şəxslər üçündür".[402]

Peyğəmbər (s) onların barəsində "Uzaq olsunlar! Uzaq olsunlar!" demişdir. Əgər onlar böyük günah edən şəxslər olsaydılar şəfaət hədisinə əsasən onlara şəfaət edərdi. Yoxsa Peyğəmbər (s) – haşa ki, belə edər – onlara şəfaət etməkdə simiclik etmişdir?!

Hədisdə münafiqlərin nəzərdə tutulması

Münafiq mürtəd (dindən çıxmış) ola bilməz. Çünki münafiq, ümumiyyətlə, iman gətirməmişdir. Buna əsasən də hədis ona şamil deyil. Hətta burada münafiqlərin nəzərdə tutulduğunu desək, bəs onlar kimlərdir? Peyğəmbərdən sonra hansı yeniliklər etmişlər? Tarixdə onların belə fəaliyyətləri barədə heç bir şey qeyd edilməmişdir. Baxmayaraq ki, Hüzeyfə belə bəyan etmişdir: "Münafiqlər bu gün Peyğəmbərin (s) zamanında olduqlarından daha şərdirlər. O dövrdə gizli idilər, bu gün isə aşkardırlar".

Həmçinin onun belə dediyi nəql olunur: "Münafiq yalnız Peyğəmbərin (s) zamanında idi. Bu gün isə imandan sonra küfrdür".[403]

---

[401] Müsnədi Əhməd, c. 3, s. 213.

[402] Məcmuətul-fətava, c. 7. S. 500.

[403] Səhih Buxari, c. 8, s. 100.

Tarix kitablarında münafiqlərin Peyğəmbərdən (s) sonra yerinə yetirdikləri fəaliyyətlər barədə bir şey deyilməməsinin səbəbi nədir? Şübhəsiz ki, onlar Peyğəmbərin (s) vəfatından sonra daha güclü olmuşlar. Çünki onların planlarını üzə çıxardan vəhy artıq kəsilmişdir.

Hovuz hədisinin bəzi mətnlərində "qövmlər", "dəstələr" sözləri var. Bu isə onların saylarının çoxluğuna dəlalət edir. Bəzi mənbələrə əsasən isə münafiqlərin sayı az idi.

Səhih Müslimdə Peyğəmbərin (s) belə buyurduğu nəql olunur: "Səhabələrim içərisində on iki münafiq var. Onlardan səkkizi dəvə iynənin dəliyindən keçməyincə Cənnətə daxil olmayacaqlar".[404]

Məgər Peyğəmbər (s) cəhənnəmə sürüklənən qövmlər dedikdə bu səkkiz nəfəri nəzərdə tuturdu?!

Həmçinin bu hədis "bəzi qövmlər iman gətirdikdən sonra dindən çıxacaqlar" sözləri ilə nəql olunmuşdur. Burada "iman gətirdikdən sonra" sözü hədisdə münafiqlərin və dindən çıxmış bədəvi ərəblərin nəzərdə tutulduğunu deyənlərin rəyinə cavabdır. Çünki münafiq imanı dadmamışdır. Bədəvi qəbilələrindən olan mürtədlər mömin deyillər: **"(Qənimət əldə etmək iştahası ilə islama daxil olan) bədəvi ərəblər: "Biz iman gətirdik!" – dedilər. (Ya Peyğəmbər! Onlara) de: "Siz (qəlbən) iman gətirmədiniz! Ancaq: "Biz islamı (müəyyən şəxsi məqsəd, mənfəət naminə) qəbul etdik!" – deyin. Hələ iman sizin qəlblərinizə daxil olmamışdır..."**[405]

Hədisdə aşkarcasına iman gətirmiş qövmlərin dindən çıxmasından bəhs edilir!

---

[404] Səhih Müslim, c. 8, s. 122.

[405] Hucurat, 14

Hədisdə (Əbu Bəkrin xəlifəliyi zamanındakı) mürtədlərin nəzərdə tutulması

Mürtədlərin çoxu Peyğəmbərin (s) zamanında dindən çıxmışdılar. İbn Hişam Bəni Hənifə qövmü və onların başçıları Müseyləmə barəsində belə deyir: "Sonra onlar Rəsulullahın (s) yanından çıxıb verdiyi bəxşişlə onun yanına gəldilər. Yəmaməyə çatdıqda Allahın düşməni dindən çıxdı, peyğəmbərlik iddia etdi və onları aldatdı. Onlara belə dedi: "Mən bu məsələdə onunla şərik oldum... onlara şərab içməyi, zina etməyi halal etdi. Namazın vacibliyini onlardan götürdü. Bununla yanaşı Rəsulullahın (s) peyğəmbər olmasına şəhadət gətirirdi. Hənifə tayfası onunla bu məsələdə müttəfiq oldu".[406]

Əsvəd Ənəsi və onun qövmünə gəlincə, onlar da Peyğəmbərin həyatında dindən çıxmışdılar. Peyğəmbər onların üzərinə qoşun göndərdi. Əsvəd Ənəsi qətlə yetirildi.[407]

Buxari Həmmamdan Əbu Hüreyrənin belə eşitdiyini nəql edir: "Rəsulullah (s) buyurub: "Mən yuxuda olduqda yerin bütün xəzinələri mənə verildi. Mənim ovuclarıma qızıldan iki qolbağı qoyuldu. Bu mənə ağır gəldi. Mənə vəhy olundu ki, onları üfürüm. Onları üfürdüm və yoxa çıxdılar. Bu yuxunu yalançlar mənasında yozdum. Səna və Yəmamədən olan iki yalançının ortasındayam".[408]

Mürtəd olanlardan biri də Tuleyhə Əsədi olmuşdur. O, Peyğəmbər sağ ikən dindən çıxmışdır. İbn Kəsir deyir: "Tuleyhə Əsədi Peyğəmbər (s) sağ ikən dindən çıxmışdır".[409]

İbn Əsakir belə deyir: "Tuleyhə Peyğəmbərin (s) zamanında dindən çıxdı və peyğəmbərlik iddiası etdi. Peyğəmbər (s) Zirar bin Əzvəri Bəni

---

[406] Sirətu İbn Hişam, c. 4, s. 999.

[407] əl-İsabə, c. 1, s. 635.

[408] Səhih Buxari, c. 5 ,s. 119.

[409] əl-Bidayə vən-nihayə, c. 6, s. 350.

Əsəddən olan nümayəndələrinin yanına göndərdi. Ona işləri öz öhdəsinə almağı əmr etdi. Dindən çıxan hər bir (tayfaya) yeni şəxs göndərdi".[410]

Peyğəmbər (s) onun barəsində məlumatı vardı. İbn Həcər Uveyf bin Vərqaninin tərcümeyi-halı barədə belə deyir: "Peyğəmbər (s) Tuleyhə Əsədinin xəbərini eşitdikdə onunla savşamaq üçün onu göndərdi".[411]

Deyilənə görə o, tövbə etmişdir. İbn Həcər deyir: "Tuleyhə tövbə etdi və müsəlman olaraq öldü. Bunun Ömərin xəlifəliyi dövründə olması daha doğrudur".[412]

Necə ola bilər ki, Peyğəmbər (s) onların dindən çıxmasını hovuz başında olduqda bilməsin. Halbuki sağ ikən onların qətlə yetirilməsi üçün bəzi insanları vəzifələndirmişdi və onların aqibətindən xəbərdar idi.

Səccaha gəlincə, İbn Həcər onun tərcümeyi-halı barədə belə deyir: "Səccah bint Haris Təmimə Riddədə peyğəmbərlik iddia etmişdi. Bəzi qövmlər ona tabe olmuşdular. Sonra o, Müseyləmə ilə sülh bağladı və onunla evləndi. Müseyləmə qətlə yetirildikdən sonra isə İslama dönmüşdür. Müaviyənin xəlifəliyi dövrünə kimi yaşamışdır".[413]

İbn Həcər deyir: "Nəql olunur ki, Səccah da tövbə etmişdir. Hədis nəql edənlərə görə onların xəbərləri məşhurdur".[414]

Bu hədisi Xalid bin Vəlid tərəfindən qətlə yetirilən Malik bin Nuveyrənin qövmü barəsində olmasını demək olmaz. Çünki onlar dindən çıxmamış və zəkatı inkar etməmişdilər. Yalnız müəyyən səbəb görə zəkatı verməyi saxlamışlar. Onların müsəlman olmalarına çoxları şahidlik etmişlər.

---

[410] Tarixi mədinəti Diməşq, c. 25, s. 156.

[411] əl-İsabə, c. 8, s. 619.

[412] Fəthul-Bari, c. 6, s. 454, 455.

[413] əl-İsabə, c. 8, s. 198.

[414] Fəthul-bari, c. 6, s. 455.

Təbəri deyir: “Malikin müsəlman olmasına şahidlik edənlərdən biri də Əbu Qutəda olmuşdur. O, bu hadisədən sonra bir daha Xalid bin Vəlidlə döyüşdə iştirak etməmək üçün Allahla əhd bağlamışdır. O, nəql edirdi ki, onlara hücum etdikdə gecənin qaranlığında onları yaxaladılar. Onlar da silahlarına sarıldılar. (Əbu Qutəda) deyir: “Biz dedik: “Biz müsəlmanlarıq”. Onlar da “Biz də müsəlmanlarıq” dedilər. Biz dedik: “Bəs nə üçün özünüzlə silah götürmüsünüz?” Onlar silahlarını yerə qoydular. Biz namaz qıldıq. Onlar da namaz qıldılar”. Sonra deyir: “Sonra Xalid gəlib Malikin və onun yoldaşlarının boyunlarını vurdu”.[415]

Kənzul-ummal kitabında belə nəql olunur: “Xalid bin Vəlid Malik bin Nuveyrənin mürtəd olması barədə ona xəbər çatdığını iddia etmişdir. Malik isə bunu inkar etmişdir. Malik demişdir: “Mən İslamdayam. Dində heç bir şeyi dəyişdirməmişəm və yenilik etməmişəm”. Əbu Qutəda və Abdullah bin Ömər onun sözünə şahidlik etmişlər. Xalid Zirar bin Əzvər Əsədiyə onun boynunu vurmağı əmr etmişdir. Sonra Xalid onun zövcəsi Ummu Təmimi ələ keçirərək onunla evləndi”.[416]

İbn Həcər deyir: “Xalid Malikin arvadını gördü. O, olduqca gözəl idi. Bundan sonra Malik arvadına dedi: “Sən məni qətlə yetirdin!”[417]

Vaqidi deyir: “Sonra Xalid onun boynunu vurdu. Deyilənə görə Xalid Malikin arvadı ilə evləndi və onunla yaxınlıq etdi. Elm əhli bu məsələdə icma etmişdir”.[418]

İbn Əsir deyir: “Onun mürtəd olmamasına dəlillərdən biri də Ömərin Xalidə dediyi bu sözdür: “Müsəlman bir kişini qətlə yetirdin”. Əbu Qutadə onların azan verib namaz qılmalarına şahidlik etmişdir. Əbu Bəkr əsirləri

---

[415] Tarixi Təbəri, c. 2, s. 502; əl-Kamil fit-tarix, c. 2, s. 359.

[416] Kənzul-ummal, c. 3, s. 132.

[417] əl-İsabə, c. 1, s. 337; Zəhəbi, “Tarixul-İslam”, 634.

[418] Kitabur-rəddə və nəbzətun min futuhil-iraq, s. 58, 60. Muhəmməd Həmidullahın tərtibi ilə.

geri qaytarmış və Malkin qan bahasını beytul-maldan ödəmişdir. Bütün bunlar onun müsəlman olmasına dəlalət edir. Allah ona rəhmət eləsin".[419]

İbn Əbdülbirr Malikdən belə nəql edir: "Onun barəsində ixtilaf etmişlər. O, dindən çıxdığı halda qətlə yetirilmişdir, yoxsa müsəlman olduğu halda? Mən – doğrusunu Allah bilir – onun qətlinin xəta olduğunu düşünürəm".[420]

Əbdürrəhman bin Ovf belə nəql edir: "Allaha and olsun ki, Xalid qövmü qətlə yetirdi. Xalid dedi: "Mən onları sənin atan Ovf bin Əbdu Ovf üçün qətlə yetirdim. Əbdürrəhman ona dedi: "Sən onu mənim atama görə deyil, əmin Fakihə bin Muğirə üçün qətlə yetirdin".[421]

İbn Covzi Hənbəli belə nəql edir: "Əbu Qutəda Ənsari Xalid barəsində belə demişdir: "Mənim sözümü rədd etdi. Qənimətlərə susamış bədəvi ərəblərin şahidliyini qəbul etdi".[422]

Malikin müsəlman olmasına şəhadət verənlərdən biri də Əbu Bəkrdir. O, Xalidin xəta etdiyini demişdir.[423]

Onun müsəlman olmasına Ömər də şahidlik etmişdir. Ömər Xalidlə rastlaşdıqda ona belə demişdir: "Müsəlman bir kişini qətlə yetirdin və onun arvadını ələ keçirdin. Allaha and olsun ki, səni daşlarla vuracam".[424]

Malik özünün barəsində dedikləri, Əbu Qutəda Ənsari, Abdullah bin Ömər, Əbdürrəhman bin Ovf, Ömər bin Xəttab və Əbu Bəkrin şahidliyinə əsasən onun müsəlman olması sübuta yetmişdir. Həmçinin Vaqidi, İbn Əbdülbirr, İbn Əsir, İbn Kəsir, Qovşəci və başqaları da onun müsəlman olmasına şahidlik etmişlər.

---

[419] Usudul-ğabə, c. 4, s. 295-296

[420] əl-İstiab, c. 3, s. 1362

[421] Tarixu Yaqubi, c .2, s. 61

[422] əl-Muntəzəm, c. 4, s. 79

[423] İbn Xəlkan, Vəfiyyatul-əyan və ənbau əbnauz-zaman, c. 6, s. 15

[424] Tarixi Təbəri, c. 2, s. 504

Mürtəd olanlardan hamısı İslama dönmüşdür. Necə ola bilər ki, hovuz hədisində mürtəd olanlar nəzərdə tutulsun?!

İbn Həcər İbn Həzmdən nəql edərək belə deyir: "Tuleyhə İslama döndü. Həmçinin Səccah İslama döndü. Mürtəd olanların əksəriyyəti İslama döndülər. Bir il keçməmiş hamısı İslam dininə döndülər. Allaha həmd olsun![425]

Hədisin doğru təfsiri

Qurani-Kərimdə dindən çıxmaq barədə işarələr

Allah-taala buyurur: ***"Muhəmməd ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib-getmişlər. Əgər o, ölsə və ya öldürülsə, siz gerimi dönəcəksiniz? (Dininizdən dönəcək və ya döyüşdən qaçacaqsınız?) Halbuki geri dönən şəxs Allaha heç bir zərər yetirməz. Lakin Allah şükür edənlərə mükafat verər".[426]***

Təbəri deyir: "Ayədəki **"gerimi dönəcəksiniz"** mənası belədir: Allahın Muhəmmədlə göndərdiyi dininizdən çıxacaqsınız, Allaha iman gətirdikdən, Muhəmmədin sizi dəvət etdiyi dinin doğruluğu sizə aşkar olduqdan, Rəbbi tərəfindən gətirdiyinin həqiqəti bəyan olduqdan sonra kafir olaraq döndünüz. **"Halbuki geri dönən şəxs"** sözlər sizlərdən kim dinindən dönərsə, iman gətirdikdən sonra kafir olaraq dönməniz mənasındadır..."[427]

İbn Kəsir təfsirində belə deyir: "Ühüd döyüşü günü müsəlmanlar məğlub olduqda və qətlə yetirildikdə Şeytan car çəkərək dedi: "Agah olun ki, Muhəmməd qətlə yetirildi!" Bu söz müsəlmanların çoxlarının

---

[425] Fəthul-bari, c. 12, s. 244. Mubarəkfuri bunu "Mirqatul-məfatih şərhu mişkatul-məsabih" kitabı s. 550-də qeyd etmişdir. İbn Həcər və İbn Həzmlə razılaşmışdır.

[426] Ali-İmran, 144

[427] Camiul-bəyan, c. 4, s. 147.

qəlblərinə düşdü. Rəsulullahın (s) qətlə yetirildiyini düşündülər. Nəticədə döyüşdən soyudular, zəiflədilər və yayındılar. Bundan sonra Allah-taala bu ayəni nazil etdi: **"Muhəmməd ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib-getmişlər..."** Bundan sonra Allah-taala zəiflik və məğlubiyyət duyğusu olanlar barədə bu ayəni nazil etdi: **"Biz İsrail oğullarından əhd almış, onlara peyğəmbərlər göndərmişdik. Hər dəfə bir peyğəmbər onlara ürəklərinə yatmayan bir hökm gətirdikdə (həmin peyğəmbərlərin) bir qismini yalançı hesab edər, bir qismini də öldürərdilər", yəni geri döndünüz"**[428].

Qurtubi deyir: "Yəni (Peyğəmbər) ölsə və ya qətlə yetirilsə siz dindən çıxıb cahiliyyətə dönəcəksiniz? Ayədə **"... siz gerimi dönəcəksiniz?"** deyilməsi iman gətirdikdən sonra küfrə dönməniz mənasındadır. Qutadə və başqası belə demişdir: "Deyilənə görə burada geri dönməkdən məqsəd məğlub olmaq mənasındadır. Burada məcazi deyil, həqiqi mənadadır. Deyilənə görə isə mürtəd olmasanızda mürtədlər kimi etdiniz mənasındadır".[429]

Ayədəki sual soruşmaq mənasında deyil, inkar mənasındadır. Məlumat öyrənmək mənasında olması mümkün deyil. Çünki bu, Allah-taalaya cəhalət nisbət vermək anlamındadır. Allah-taala onları danlayır və onların bu hərəkətlərini inkar edir. **"Əgər o, ölsə və ya öldürülsə, siz gerimi dönəcəksiniz?"** ayəsində deyildiyi kimi bu növ sual formaları var. Xüsusilə burada (orjinalda) "inqaləbtum" feli keçmiş zaman formasındadır. Bu ayə aşağıdakı ayənin misalındadır: **"Hər dəfə sizə ürəyinizə yatmayan bir şey (əmr, buyuruq) gətirən peyğəmbərə təkəbbür göstərmirdinizmi? Məhz buna görə də onların bir qismini təkzib etdiniz, bir qismini isə öldürdünüz (Zəkəriyya və ya Yəhya**

---

[428] Təfsiri İbn Kəsir, c. 1, s. 418.

[429] Təfsiri Qurtubi, c. 4, s. 226.

kimi)”[430] Həmçinin ayənin sonunda **“...Lakin Allah şükür edənlərə mükafat verər”**[431] buyurulması mürtəd olmayan başqa dəstənin də olduğuna dəlalət edir. Ayədə şükr edənlər deyilməsi onların sayının az olmasına işarə edir. Allah-taala buyurur: **“Bəndələrimdən (nemətlərimə) şükür edəni azdır!”**[432]

Burada dindən çıxma məsələsini Peyğəmbərin (s) bu sözləri də vurğulayır: “Sizdən əvvəlkilərin sünnələrini (qayda-qanunlarını) qarış-qarış, dirsək-dirsək izləyəcəksiniz. Hətta onlar kərtənkələ yuvasına giriblərsə, siz də girəcəksiniz”. Biz dedik: “Kimi nəzərdə tutursan, ya Rəsulullah? Yəhudilər və xristianları?” (Peyğəmbər) dedi: “Bəs kimi?”[433]

İbn Həcər deyir: “Hədisdə qeyd olunan qarış, dirsək, yuvaya daxil olmaq sözləri şəriətin qadağan etdiyi hər bir işdə onlara iqtida etməyi ifadə edir.[434]

Bədrəddin Eyni deyir: “Sizdən əvvəlkilərin yolunu qarış-qarış, dirsək-dirsək izləyəcəksiniz. Bu, küfrdə deyil, günah və şəriətə müxalif əməllərdə onlara tabe olmaq anlamındadır. Həmçinin “hətta kərtənkələ yuvasına girsələr...” deyilməsi də bu anlamdadır... Kərtənkələ yuvasına bənzətmə xüsusi anlamdadır. Çünki kərtənkələ yuvası olduqca dar və pis olur. Onların yollarını o dərəcədə gedəcəklər və onlara o qədər tabe olacaqlar ki, hətta bu pis dar yuvaya girsələr belə, onların ardınca həmin yuvaya girəcəklər. Səhabələrin “Ya Rəsulullah, yəhudilər və xristianlar?” -deyə soruşduqda və Peyğəmbərin də “Bəs kimi?” deyə buyurmuşdur. Burada

---

[430] Bəqərə, 87

[431] Ali-İmran, 144

[432] Səbə, 13

[433] Səhih Buxari, c. 4, s. 144; Səhih Müslim, kitabul-ilmi, bab ittiba sünənil-yəhud vən-nəsara.

[434] Fəthul-bari, c. 13, s. 255.

inkar məqsədilə sualdır. Yəni onlardan başqaları nəzərdə tutulmamışdır”.[435]

Əvvəlki ümmətlər peyğəmbərləri öldükdə onların sünnələrini tərk edir, dəyişdirir və əvvəlki etiqadlarına qayıdırdılar. Səhabələr tərəfindən əvvəlki ümmətlərdəki kimi dəyişikliklər və bidətlər olmamasını demək – Allaha sığınırıq bu sözdən – Peyğəmbərin (s) “Sizdən əvvəlkilərin sünnələrini (qayda-qanunlarını) qarış-qarış, dirsək-dirsək izləyəcəksiniz...” sözlərinin təkzibi deməkdir.

Hakim İbn Abbasdan belə nəql etmişdir: “Əli hələ Rəsulullah (s) sağ olarkən Allah-taalanın **“Əgər o, ölsə və ya öldürülsə, siz gerimi dönəcəksiniz?”** buyurduğu ayə barəsində belə deyirdi: “Allaha and olsun ki, Allah bizi hidayət etdikdən sonra biz geri dönmərik. Əgər ölərsə və ya öldürülərsə ölənədək onun vuruşduğu uğruna mən də vuruşacam. Mən onun qardaşı, əmisi oğlu, elminin varisiyəm. Məndən ona daha layiq olan biri varmı?!”[436]

Dindən çıxmanın nişanələri

Səhabələrin dindən çıxma halları hələ hicrətdən əvvəl Məkkədə baş vermişdir. Təbəri təfsirində ***“... (Ya Rəsulum!) İndi yönəldiyin qibləni (Kəbəni) yalnız Peyğəmbərə tabe olanlarla ondan üz çevirənləri bir-birindən ayırd etmək üçün (qiblə) təyin etdik...”***[437] ayəsinin barəsində belə deyir: “Hətta Rəsulullaha (s) tabe olub İslamı qəbul edənlərdən bəzi şəxslər dindən çıxmışdır. Buna görə münafiqlərdən çoxu öz içindəki nifaqı üzə çıxartdılar. Onlar dedilər: “Nə olub Muhəmmədə! Gah bizi bu tərəfə, gah da başqa tərəfə yönəldir? Müsəlmanlar Beytulmüqəddəsə

---

[435] Umdətul-qari şərhi səhihi Buxari, c. 16, s. 43, 44.

[436] əl-Mustədrək, c. 3, s. 126; Məcməuz-zəvaid, c. 9, s. 134; əl-Mucəmul-kəbir, c. 1, s. 107. Bu hədisin raviləri səhih hədis raviləridir.

[437] Bəqərə, 142

tərəf namaz qılan vəfat etmiş müsəlman qardaşları barədə belə dedilər: "Bizim də, onların da əməlləri batil oldu".[438]

İbn Cureyc deyir: "Ətaya dedim: "Yalnız Peyğəmbərə tabe olanlarla ondan üz çevirənləri bir-birindən ayırd etmək üçün (qiblə) təyin etdik". Əta dedi: "Onları sınağa çəkmişdir ki, kimin onun əmrinə tabe olduğu bilinsin". İbn Cureyc deyir: "Eşitdiyimə görə müsəlman olmuş bəzi şəxslər dindən çıxmış və belə demişlər: "Gah bu tərəfə, gah da o tərəfə".[439]

Təbəri Həsəndən **"(İsra gecəsi) sənə göstərdiyimiz mənzərəni və Quranda lənətlənmiş (Cəhənnəmdəki zəqqum adlı) ağacı insanlar (Məkkə əhli) üçün yalnız bir imtahan etdik (görək sənin sözünə inanacaqlar, ya yox)"**[440] ayəsi barədə belə dediyini nəql edir. Gecə Peyğəmbəri Beytulmüqəddəsə aparmışlar. Orada namaz qılmış. Allah ona bəzi ayələrini göstərmişdir. Sonra isə Məkkədə sübh etmişdir. Məkkə əhlinə xəbər vermişdir ki, gecə ikən Beytulmüqəddəsə aparılmışdır. Onlar: "Ya Muhəmməd! Necə ola bilər ki, gecə orda olmusan, sabah isə bizim yanımızdasan? Bizə deyirsən ki, Beytulmüqəddəsdən gəlmisən?" Onlar bu məsələyə çox təəccüb etdilər. Hətta bəziləri İslamdan çıxdı".[441]

Qutadə **"(İsra gecəsi) sənə göstərdiyimiz mənzərəni və Quranda lənətlənmiş (Cəhənnəmdəki zəqqum adlı) ağacı insanlar (Məkkə əhli) üçün yalnız bir imtahan etdik (görək sənin sözünə inanacaqlar, ya yox)"**[442] ayəsi belə demişdir: "Allah-taala Beytulmüqəddəsə gedən yolda ona ayələr və ibrətlər göstərmişdir. Bizə xəbər verilmişdir ki, Rəsulullah (s) bu səfərdə gördüklərini danışdıqda bəzi insanlar İslamdan çıxdılar. Bu səfəri inkar etdilər və onu (peyğəmbəri) təkzib etdilər. Bu

---

[438] Təfsiri Təbəri, c. 2, s. 17, 18.

[439] Həmin mənbə, c. 2, s. 19; Şovkani,"Fəthul-qədir", c. 1, s. 152.

[440] İsra, 60

[441] Təfsiri Təbəri, c. 15, s. 138.

[442] İsra, 60

məsələyə təəccüblənərək: “Sən bir gecədə iki aylıq bir yolu qət etmisən?!” dedilər”.[443]

İbn Kəsir təfsirində deyir: “Qeyd etdik ki, bəzi insanlar haqq yolda olduqları halda dinlərindən döndülər”.[444]

İbn Hişamın sirəsində belə qeyd edilir: “Peyğəmbərin isra gecəsindən sonra insanların əksəriyyəti dedilər: “Allaha and olsun ki, bu aşkar bir məsələdir. Karvan Məkkədən Şama bir aya gedir və bir aya qayıdır. Muhəmməd bu yolu bir gecədə gedib Məkkəyə qayıdır?!” Müsəlman olmuş çoxlu insanlar dindən çıxdılar!”[445]

İbn Əbu Hatəm təfsirində **“İnsanlar (möminlər) yalnız: “İman gətirdik!” – demələrilə onlardan əl çəkilib imtahan olunmayacaqlarınımı sanırlar?”**[446] ayəsi barədə Rəbi bin Ənəsdən belə nəql edir: “Peyğəmbər (s) bəzi insanlara əmr etmişdi. Onlar belə güman edirdilər ki, bu məsələ gizli qalacaq. Allah yolunda əziyyətə düşən kimi bəzi qövmlər dindən çıxdılar”.[447]

İbn Quteybə deyir: Allahın bu ayəsi **“(İsra gecəsi) sənə göstərdiyimiz mənzərəni və Quranda lənətlənmiş (Cəhənnəmdəki zəqqum adlı) ağacı insanlar (Məkkə əhli) üçün yalnız bir imtahan etdik (görək sənin sözünə inanacaqlar, ya yox)”**[448] yəni İsra gecəsi ona göstərilənlər nəzərdə tutulur. Bu barədə xəbər verdikdə bəziləri dindən çıxdılar”.[449]

Təbəri Ühüd döyüşü barədə belə yazır: “Bəni Haris bin Əbdu Mənat bin Kənanədən olan İbn Quteybə Harisi daş ataraq Rəsulullahın burnunu və dişini sındırdı, üzünü yaraladı. Nəticədə (Peyğəmbər) yerə yıxıldı.

---

[443] Təfsiri Təbəri, c. 15, s. 139.

[444] Təfsiri İbn Kəsir, c. 3, s. 52.

[445] Sirətu İbn Hişam, c. 2, s. 270; Təfsiri Qurtubi, c. 10, s. 285.

[446] Ənkəbut, 2

[447] Təfsiri İbn Əbu Hatəm, c. 9, s. 3030, 3031.

[448] İsra, 60

[449] Təvilu muxtələfil-hədis, s. 202.

Səhabələr ondan ayrıldılar. Bəziləri Mədinəyə qayıtdı. Bəziləri isə dağın başına çıxaraq qayanın üstündə dayandılar. İnsanlar arasında şaiyə yayıldı ki, Rəsulullah (s) qətlə yetirildi. Qayanın üzərində olan bəzi səhabələr dedilər: "Kaş Abdullah bin Ubəyə xəbər göndərə biləcək bir qasidimiz olardı. Əbu Süfyandan bizim üçün əfv istəyərdi. Ey camaat, Muhəmməd qətlə yetirildi! Qövmünüz gəlib sizi qətlə yetirməmiş siz gedin öz qövmünüzün yanına".[450]

Zəif ruhiyyəli insanların vəziyyəti həmişə belə olur. Belə insanlarda tez bir zamanda ruh düşkünlüyü və sarsıntı yaranır. Bu cür insanlar Abdullah bin Ubəylə əlaqə yaratmaq istəyirdilər ki, onlarla Əbu Süfyan arasında vasitəçilik etsin. Bu kimi insanlar Rəsulullah (s) vəfat edənədək olmuşdur. Rəsulullahın (s) vəfat xəbəri Məkkəyə çatdıqda – Peyğəmbərin oradakı valisi Utab bin Useyd bin Əbulas bin Uməyyə idi – Utab qaçıb gizləndi. Məkkə lərzəyə gəldi. Az qaldı ki, Məkkə əhli dindən çıxsınlar.[451]

İbn Kəsir deyir: "İbn Hişam belə nəql edir: "Əbu Ubeydə və elm əhlindən olan başqaları mənə belə xəbər vermişlər: "Rəsulullah (s) vəfat etdikdə Məkkə əhlinin əksəriyyəti İslamdan çıxmaq barədə düşünüb bunu etmək istəyirdilər".[452]

Qeyd olunanlardan aydın olur ki, dindən çıxmaq məsələsi səhabələr üçün asan bir məsələ idi. Belə anlaşılır ki, onların imanı daha çox emosiyaya bağlı idi. Hər hansı bir fırtınada yerindən laxlayırdı. Peyğəmbərlik nunrunun aradan getməsindən sonra kimlərinsə dindən çıxaraq cahiliyyətə qayıtmasına, dində olmayan bir şeyi dinə əlavə etməsinə heç də təəccüb etmirəm. Necə ki, Peyğəmbərin (s) sözlərində bu məsələ öz əksini tapmışdır.

---

[450] Tarixi Təbəri, c. 2, s. 520.

[451] İbn Əsir, "əl-Kamil fit-tarix", c. 2, s. 324: Əbulfida, "əl-Muxtəsər fi əxbaril-bəşər", s. 152.

[452] əl-Bidayə vən-Nihayə, c. 5, s. 300.

Peyğəmbərin (s) sağlığında dindən çıxanlar

1. Əbu Bəkr bin Şuub Leysi. Onun adı Şəddad idi. Həmçinin onun adının Əsvəd və ya Şəddad bin Əsvəd olması da deyilir. Müsəlman olduqdan sonra dindən çıxmışdır.[453]

2. Ukeydər bin Əbdülməlik bin Əbdülcin. Deyilənə görə İslamı qəbul etdikdən sonra dindən çıxaraq xristianlığa keçmişdir.[454]

3. Bəşir bin Haris bin Əmr bin Harisə Ənsari Zafri. Münafiq idi. Ühüd döyüşündə iştirak etmişdir.[455]

4. Cundəb bin Suləmi Mudləci. Bəni Suqdan idi. Əbu Bəkrin zamanında dindən çıxanlardan idi.[456]

5. Xumeysa bin Həkəm Suləmi. Vaqidi onun dindən çıxanlardan olmasını qeyd etmişdir.[457]

6. Rəbiə bin Ubəyyə bin Xələf.

7. Rəccal. Bəni Hənifə nümayəndələri ilə Peyğəmbərin (s) yanına gəlmişdir. Onlar on nəfərdən çox idilər. Lakin o dindən çıxmış və kafir olaraq qətlə yetirilmişdir.[458]

8. Səd bin Əbu Sərh. Dindən çıxmış və Məkkə müşriklərinə qoşulmuşdur.[459]

9. Suveyd bin Məxşi Tai. Əbu Ömər deyir: "Əbu Məşər onun Bədr döyüşündə iştirak edənlərin sırasında qeyd etmişdir. Onun dindən çıxması deyilir.[460]

---

[453] əl-İsabə, c. 7, s. 38.

[454] Tarixi mədinəti Diməşq, c. 9, s. 198.

[455] əl-İsabə, c. 1, s. 428.

[456] Həmin mənbə, c. 1, s. 639.

[457] Həmin mənbə, c. 2, s. 290.

[458] Həmin mənbə, c. 2, s. 446.

[459] Tarixi mədinəti Diməşq, c. 4, s. 333.

[460] əl-İsabə, c. 3, s. 190.

10. Şureyq. Əxnəsin atası.[461]

11. Abdullan bin Ənis. İslam dinindən çıxaraq Məkkəyə qaçmışdır.[462]

12. Abdullah bin Hənzəl. Kəbənin örtüyünə yapışdığı halda qətlə yetirilmişdir.[463]

13. Əbhələ bin Kəb Əsvəd. O, İslam dinindən çıxan ilk şəxs olmuş, peyğəmbərlik iddia etmiş və Rəsulullahın (s) zamanında qətlə yetirilmişdir.[464]

14. Ubeydullah bin Cəhş. İslam dinini qəbul etmiş və müsəlmanlarla birlikdə Həbəşistana hicrət etmişdi. Sonra dindən çıxaraq xristian olmuş və orada vəfat etmişdir.[465]

15. Təmə bin Ubeyriq Ənsari. O, Ovs qəbiləsinin Bəni Saqar tayfasından idi. İslam dinindən çıxaraq Məkkə müşriklərinə qoşulmuşdur.[466]

16. Qeys bin Mətatiyə.[467]

17. Abdullah bin Surya. Ona İbn Sur İsraili də deyirdilər. Onun müsəlman olduqdan sonra dindən çıxdığı deyilmişdir.[468]

18. Abdullah bin Nəvahə. İslam dinini qəbul etmiş sonra isə dindən çıxmışdır. Abdulla bin Məsud onun tövbə etməsini tələb etmişdir. Tövbə etmədiyi üçün küfr və dindən çıxma səbəbinə görə onu qətlə yetirmişdir.[469]

---

[461] əl-İsabə, c. 3, s. 319.

[462] Təfsiri İbn Əbu Hatəm, c. 8, s. 2484.

[463] əl-İsabə, c. 1, s. 159.

[464] İbn Məkula,"İkmalul-kamal", c. 2, s. 543.

[465] İbn Səd,"ət-Təbaqatul-kubra", c. 8, s. 218.

[466] Təfsiri Muqatil bin Süleyman, c. 1, s. 180.

[467] Tarixi mədinəti Diməşq, c. 21, s. 407.

[468] əl-İsabə, c. 4, s. 115.

[469] Həmin mənbə, c. 5, s. 165.

19. Nəbhan. Onun hansı qəbiləyə mənsub olması qeyd edilməmişdir. Üç dəfə dindən çıxmışdır.[470]

20. Əşəs bin Qeys. Dindən çıxmış sonra İslama qayıtmışdır.

Dindən çıxmağın mənası

Hədis hafizi İbn Həcər dindən çıxmaq məfhumunun izahı barədə İmam Beyzavidən belə nəql edir: "Onların mürtəd olması birmənalı olaraq İslam dinindən çıxması mənasında deyil. Əksinə bu, ehtimal olunur. Ola bilər ki, burada doğru yoldan çıxan və saleh əməlləri pis əməllərlə əvəz edən üsyankar möminlər nəzərdə tutulsun.[471]

İbn Covzi Xəttabidən nəql edərək belə deyir: "İrtidad sözünün mənası dindən çıxmaq deyil. Bu, bəzi vacib haqları yerinə yetirməkdə ləngimək və qüsura yol vermək mənasındadır".[472]

Bəzi imamiyyə alimləri öz kitablarında irtidad və mürtədlik hədislərini səhabələrin İslamdan çıxmaması mənasında təfsir etmişlər. Buna əsasən də qeyd olunan hədisi bədəvi ərəblərdən olan mürtədlər mənasında yozmaq olmaz. Çünki onlar həqiqətən də İslamdan çıxmışdılar! Amma hovuz hədisində qeyd olunan mürtədlərə gəlincə, onların dindən çıxması məcazi mənadadır. Şeyx Muhəmməd Həsən Müzəffər deyir: "İrtidad sözünün iki mənası var: Həqiqi məna; bütün müsəlmanların nəzərində iki şəhadət kimi əsas əqidə prinsiplərinə müxalif olmaq və ya şiə məzhəbinin nəzərində imaməti inkar etməklə dindən çıxmaq. Məcazi məna; Dinin bəzi əhəmiyyətli hökmlərinə qarşı çıxmaq".[473]

---

[470] Həmin mənbə, c. 6, s. 330.

[471] Fəthul-bari, c. 11, s. 334.

[472] Kəşful-muşkil min hədisi əs-səhiheyn, c. 2, s. 356, 357.

[473] Dəlailus-sidqi li nəhcil-haqq, c. 5, s. 80.

Qurani-Kərimdə dində dəyişiklik edilməsinə işarə

Allah-taala buyurur: ***"Möminlər içərilərində elələri də var ki, Allaha etdikləri əhdə sadiq olarlar. Onlardan kimisi (bu yolda) şəhid olmuş, kimisi də (şəhid olmasını) gözləyir. Onlar (verdikləri sözü) əsla dəyişməzlər".***[474]

Bu ayədə Allah-taala bəzi möminlərin əhdə sadiq qalmalarına işarə edir. Həmin möminlər iki dəstədir. Bəziləri Peyğəmbər (s) sağ ikən ölmüş və ya şəhid olmuşdur. Bəziləri isə gözləyirlər. Məhz onlar əhdlərini əsla dəyişməzlər.

Təfsir alimləri sonuncu cümləni belə təfsir etmişlər: "Münafiqlər kimi əhdlərini dəyişməmişlər".[475]

İbn Kəsir deyir: "yəni Allahın əhdini dəyişməmişlər, pozmamışlar və başqası ilə əvəz etməmişlər".[476]

Deməli, ayə əhd-peymanını dəyişməyən möminlərə işarə edir. Burada onların bəzi olması saylarının az olması deməkdir. Aşağıdakı ayə də bu mənaya dəlalət edir: **"İblisin onlar haqqındakı zənni düz çıxdı. (İçərilərindən) bir dəstə mömin istisna olmaqla, hamısı ona uydu".**[477]

Cabir bin Abdullah Ənsari – Allah ondan razı olsun – Peyğəmbər səhabələrinin əhdi dəyişmələrinə və əvəz etmələrinə şahidlik etmişdir. O, yalnız bir nəfəri istisna etmişdir!

Hakim Yusif bin Məhrandan belə nəql edir: "Cabir bin Abdullahla – Allah onlardan razı olsun – birlikdə idik. Cabir dedi: "Əgər Muhəmmədin (s) səhabələrindən əhdi dəyişməyən və pozmayan birini görmək

---

474 Əhzab, 23

475 Təfisir İbn Əbu Hatəm, c. 9, s. 3125; Təfsiri Təbəri, c. 21, s. 178.

476 Təfsiri İbn Kəsir, c. 3, s. 483.

477 Səba, 20

istəyirsinizsə Abdullah bin Ömərə baxın. Ondan başqa aramızda elə biri yoxdur ki, əhd-peymanı dəyişməsin”.[478]

Peyğəmbərin (s) xəbərdarlıqları

Əbu Hüreyrə Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: “Ey səhabələr, siz rəhbərlik üçün hərislik edəcəksiniz. Qiyamət günü isə buna peşman olacaqsınız”.[479]

Əgər qiyamət günü peşmançılıq olacaqsa, şübhəsiz ki, bu peşman olan şəxsin cəhənnəm oduna daxil olmasına səbəb olacaqdır. Nəzər diqqəti çəkən bu məqamdır ki, Peyğəmbər (s) Əbu Hüreyrə olmaqla bütün səhabələrinə xitab etmişdir.

Səhih Buxaridə Üsamədən belə nəql olunur: “Peyğəmbər Mədinənin qalalarından birinin başına çıxıb belə dedi: “Mən gördüklərimi siz də görürsünüzmü? Mən sizin evlərinizin arasında fitnələrin yerini yağmurun düşdüyü yerləri kimi görürəm”.[480]

Nəvəvi bu hədisin şərhində deyir: “Yağış damcılarının düşdüyü yerlərə bənzədilmə çoxluq və ümumilik baxımındandır. Yəni fitnələr çox olacaq və heç bir tayfa istisna olmadan bütün insanlara şamil olacaqdır. Bu, Cəməl, Siffin, Hurrə, Osmanın qətli, Hüseynin (Allah onlardan razı olsun) qətli kimi baş vermiş başqa müharibələrə işarədir”.[481]

Buxari Əqəbə bin Amirin belə dediyini nəql edir: “Peyğəmbər (s) bir Ühüd əhlinə cənazə namazı qılıb məbərə çıxdı və dedi: “Mən sizdən öncə gedəcəm. Mən sizə şahidəm. Allaha and olsun ki, mən indi hovuzuma baxıram. Yerin xəzinələrinin açarları və ya yerin açarları mənə

---

[478] əl-Mustədrək, c. 3, s. 560.

[479] Səhih Buxari, c. 8, s. 106.

[480] Səhih Buxari, c. 2, s. 222; Səhih Müslim, kitabul-fitən, bab nuzulul-fitən..., hədis 2885.

[481] Şərhi Səhih Müslim, c. 18, s. 7, 8.

verilmişdir. Allaha and olsun ki, məndən sonra şirk edəcəyinizdən qorxmuram. Lakin dünya uğrunda rəqabət aparacağınızdan qorxuram”.[482]

Buxari Hilal bin Əbu Məymunədən, o da Əta bin Yəzardan nəql edir ki, Əta Əbu Səid Xidrinin Peyğəmbərdən (s) belə nəql etdiyini eşitmişdir: “Bir gün Peyğəmbər (s) mənbərdə əyləşdi. Biz də onun ətrafında oturduq. (Peyğəmbər) buyurdu: “Məndən sonra sizin üçün qorxduğum şeylərdən biri də sizə bəxş olunacaq dünyanın bər-bəzəyidir”.[483]

Səhih Müslimdə Urvə bin Zubeyrdən belə nəql olunur: “Musəvvər bin Muxrimə ona xəbər vermişdir ki, Əmr bin Ovf – o, Bəni Amir bin Luəyin müttəfiqi idi. Peyğəmbərlə (s) birlikdə Bədr döyüşündə iştirak etmişdir – ona belə nəql edib: “Rəsulullah (s) Əbu Ubeydə bin Cərrahı cizyə toplamaq üçün Bəhreynə göndərdi. Rəsulullah (s) Bəhreyn əhalisi ilə sülh bağlamışdır. Əla bin Həzrəmini onlara əmir təyin etmişdi. Əbu Ubeydə Bəhreyndən mal gətirdi. Ənsar Əbu Ubeydənin gəlişini eşitdi. Sübh namazına Peyğəmbərin ətrafına toplandılar. Peyğəmbər (s) namazı bitirdikdən sonra onun qabağına gəldilər. Peyğəmbər (s) onları gördükdə əvvəlcə təbəssüm etdi. Sonra belə dedi: “Güman edirəm ki, Əbu Ubeydənin gəlişini eşitmisiniz?” (Onlar) dedilər: “Bəli, Ya Rəsulullah”. (Peyğəmbər) dedi: “Sevinin və sizi sevindirən şeyləri arzulayın. Allaha and olsun ki, sizin fəqirliyə düçar olacağınızdan qorxmuram. Lakin qorxuram ki, dünya sizdən öncəkilərə bəxş olunduğu kimi sizə də bəxş oluna, onlar dünya uğrunda rəqabət apardıqları kimi siz də rəqabət aparasınız və (dünya) onları həlak etdiyi kimi sizi də həlak edə!”[484]

---

[482] Səhih Buxari, c. 2, s. 94; kitabul-iydeyn, babun fil-cənaiz. Səhih Müslim, kitabur-ruya, babu isbati hauzi nəbiyyina.

[483] Səhih Buxari, c. 2, s. 127.

[484] Səhih Müslim, kitabuz-zuhdi vər-rəqaiq, c. 8, s. 212.

Əhməd Müsnədində Əbu Bərzədən Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: "Sizin üçün qorxduğum şeylərdən biri qarınlarınız və fərzləriniz xüsusunda azğın şəhvətə və həvayi-nəfsinizə uymanızdır".

İbn Əbu **Hatəm "(Ey möminlər!) Sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlməmiş behiştə daxil olacağınızımı güman edirsiniz? Onları (şiddətli) fəlakət və sıxıntı elə bürümüş, elə sarsılmışdılar..."**[485] ayəsinin təfsiri barədə deyir: "Peyğəmbər (s) ömrünün sonuna yaxın idi. Onlar (səhabələr) üçün dünyaya bağlanacaqlarından qorxurdu. Bilirdi ki, onlar dünyaya meyl edəcəklər və dünya öz xəzinlərinin qapılarını onların üzünə açacaqdır. Beləcə dünya onlara tərəf gələrək onları aldadacaq. Buna görə də onlara xəbər verdi ki, onlardan xüsusilə zülm edənlər bu bəlayə düçar olacaqlar. Əgər belə etsələr nöqsan və dönüklük içində olacaqlar".[486]

Peyğəmbər (s) həqiqəti bəyan edir

Abdullah bin Əmr bin Asdan Rəsulullahın (s) belə buyurduğu nəql olunur: "İran və Bizans sizin üçün fəth olunanda siz hansı qövm olacaqsınız?" Əbdürrəhman bin Ovf dedi: "Allahın bizə əmr etdiyi kimi deyəcəyik". Rəsulullah (s) buyurdu: "Ya da ondan başqasını. Rəqabət edəcəksiniz. Sonra bir-birinizə həsəd aparacaqsınız. Sonra bir-birinizə arxa çevirəcəksiniz. Daha sonra isə bir-birinizə nifrət edəcəksiniz. Ya da bu kimi işlər edəcəksiniz. Sonra mühacirlərin miskinlərini bir-birinin üzərinə başçı edəcəksiniz".[487]

Bu hədisə əsasən Peyğəmbər (s) səhabələr arasında dünya uğrunda rəqabət, bir-birinə həsəd aparmaq, bir-birinə arxa çevirmək və nifrət

---

[485] Bəqərə, 214

[486] Təfsiri İbn Əbu Hatəm, c. 9, s. 3030, 3031.

[487] Səhih Müslim, c. 8, s. 212, 213.

etmək baş verəcək. Şübhəsiz ki, Peyğəmbərin (s) verdiyi xəbər haqdır. Hədisdə Peyğəmbərin (s) "ya da ondan başqasını" deməsi "Allahın bizə əmr etdiyi kimi deyəcəyik" sözləri müqabilindədir. "Ya da ondan başqasını" sözləri siz Allahın əmr etdiyi kimi deməyəcəksiniz mənasındadır. Qəribədir ki, Nəvəvi bu cümləni izah etmədən rəqabət, həsəd aparmaq, nifrət etmək sözlərini təfsir edir. Sonra isə hədisin sonuncu cümləsini aşkarcasına hədəfdən yayınaraq təfsir edir.[488]

Ömərin şahidliyi

İranın xümsü gətirildikdə Ömər camaatla sübh namazı qılırdı. Günəş doğandan sonra gətirilən xümsün örtüyünün açılmasını əmr etdi. Ömər yaquta, sapsarı qızıla, ağappaq gümüşə baxdıqda ağladı. Əbdürrəhman ona dedi: "Ya əmirəlmöminin, ağlamağının səbəbi nədir? Allaha and olsun ki, burada şükr etmək gərəkir". Ömər dedi: "Allaha and olsun ki, ağlamağımın səbəbi bu deyil. Allaha and olsun ki, Allah-taala bunu hansı qövmə verərsə bir-birinə həsəd aparar və bir-birinə nifrət edərlər. Bir-birinə həsəd aparsalar bir-birinə zülm edərlər".[489]

Ömər Əbdürrəhman bin Ovfdan Ummu Sələmənin nəql etdiyi "Səhabələrimdən elələri olacaq ki, mən vəfat etdikdən sonra heç vaxt məni görməyəcək" hədisini eşitdikdə onlardan olub-olmaması barədə Ummu Sələmədən soruşmuşdur. Ömərin belə etməsi hədisin mənasının ona da şamil olmasının mümkünlüyünü düşünməsindən irəli gəlirdi. Əgər "Səhabələrimdən elələri olacaq ki, mən vəfat etdikdən sonra heç vaxt məni görməyəcək" hədisinin və hovuz barədə olan hədisin digər mətnlərinin mürtədlər və ya münafiqlər barədə olmasını düşünsəydi Ummu Sələmənin yanına getməzdi. Ona "Səni Allaha and verirəm! Mən onlardanam?" deməzdi. Ömərin hədisdən anladığı məna bu hədisin yaxın

---

[488] Şərhun-Nəvəvi alə Səhih Müslim, c. 18, s. 96.

[489] əl-Bidayə vən-nihayə, c. 7 ,s. 81.

səhabələrə şamil olması deməkdir. Məlum olduğu kimi səhabənin hədisdən anladığı məna başqasının anladığı mənadan üstün tutulur. Sələfilərin nəzərində bu məsələ barədə heç bir mübahisə yoxdur.[490]

Peyğəmbərin (s) şahidliyi

Buxari Cərirdən belə nəql edir: "Peyğəmbər (s) Vida həccində mənə dedi: "İnsanları sakitləşdir". Sonra (Peyğəmbər) dedi: "Məndən sonra bir-birinizin boynunu vurub kafir olaraq dininizdən çıxmayın".[491]

Müsnədi Əhməddə İsmayılın Qeysdən belə eşitdiyi nəql edilir: "Sanabihi Əhməsinin belə dediyini eşitdim: "Rəsulullahın (s) belə buyurduğunu eşitdim: "Mən sizdən öncə hovuz başında olacam. Mən sizin say çoxluğunuzla başqa ümmətlər qarşısında fəxr edəcəm. Məndən sonra bir-birinizlə vuruşmayın".[492]

Sanki Rəsulullah (s) onların bir-birini qətlə yetirmələrini onların hovuz yanından qovulmalarının səbəbi kimi bəyan edir. O həzrət buyurur: "Mən sizdən öncə hovuz yanında olacam... məndən sonra bir-birinizi qətlə yetirməyin".

Əhməd bin Hənbəl müsnədində Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: "Mən sizdən öncə hovuz başında olacam. Sizin sayınızın çoxluğu ilə başqa ümmətlər qarşısında fəxr edəcəm. Mənim üzümü qara etməyin. Siz məni gördünüz və məndən eşitdiniz. Mənim barəmdə sizdən soruşulacaq. Kim mənim adımdan yalan danışarsa cəhənnəmdə yerini hazırlamışdır. Mən bəzi kişilər və qadınları xilas edəcəm. Başqaları da

---

[490] Bax; İbn Teymiyyə, "İqtizaus-siratil-mustəqim", c. 2, s. 183.

[491] Səhih Buxari, c. 1, s. 38; Səhih Müslim, kitabul-iman, babu təsmiyətil-əbdil-abiqi kafirən.

[492] Müsnədi Əhməd, c. 4, s. 349; Sünəni Tirmizi, c. 1, s. 5.

məndən yardım istəyəcəklər. Mən deyəcəm: "Ya Rəbbi, səhabələrim!" Mənə belə deyiləcək: "Səndən sonra nə etdiklərini bilmirsən".[493]

Hədisə diqqət etdikdə görürük ki, Peyğəmbər onun adından yalan danışmağı cəhənnəm oduna vasil olmağın səbəbi kimi dəyərləndirir. Bəzi səhabələr Peyğəmbərin (s) adından yalan danışmaqda ittiham edilmişdirlər. Onlardan biri də Əbu Hüreyrə olmuşdur. O, səhabənin onu təkzib etməsini etiraf etmişdir. Müslim Əbu Rəzindən belə nəql edir: "Əbu Hüreyrə bizim yanımıza gəldi. Əli ilə alnına vurdu və belə dedi: "Siz mənim Rəsulullahın (s) adından yalan hədis danışdığımı söyləyirsiniz. Mən bunu edirəm ki, siz hidayət olunasınız mən isə azım? Mən şəhadət verirəm ki, Rəsulullahın (s) belə dediyini eşitmişəm: "Sizlərdən birinin başmağının ipi qırılarsa onu düzəltməmiş yol yeriməsin".[494]

Peyğəmbər (s) yalnız Ühüd əhlinə şahidlik etmişdir

Malik "əl-Muvatta" kitabında Ömər bin Ubeydullahın azad etdiyi quldan belə nəql edir: "O, Rəsulullahın (s) Ühüd şəhidlərinə belə dediyi xəbərini eşitmişdir: "Bunlara şahid olacam". Əbu Bəkr Siddiq dedi: "Ya Rəsulullah, biz onların qardaşları deyilikmi?" Rəsulullah (s) buyurdu: "Bəli! Lakin məndən sonra nə edəcəyinizi bilmirəm". Əbu Bəkr ağladı. Sonra yenə ağladı və belə dedi: "Biz səndən sonra yaşayacağıq?"[495]

Bu hədisə əsasən Peyğəmbər (s) Əbu Bəkr və səhabələrin ondan sonra nə edəcəklərini bilmədiyini söyləyir. Buna görə də onlara şahidlik etməmişdir. Əgər onların dəyişiklik etməyəcəklərinə əmin olsaydı, onlar üçün də şahidlik edərdi. Əbu Bəkr ölmədən əvvəl etdiyi bəzi şeylərə görə

---

[493] Müsnədi Əhməd, c. 5, s. 412.

[494] Səhih Müslim ,c. 6, s. 153.

[495] əl-Muvatta, c. 2, s. 426, kitabul-cihad, bab əş-şuhəda fi səbilillah. İbn Əbdülbirr bu hədis barəsində belə deyir: "Bütün ravilərdə mürsəl (sənədi natamam) nəql olunmuşdur. Lakin mənasının səhih olmasının çox səbəbləri var. Fuad Əbdülbaqi bunu qeyd etmişdir.

peşman olduğunu bildirmişdir. Əbu Bəkrin ölmədən əvvəl belə dediyi nəql olunur: “Allaha and olsun ki, dünyada etdiyim yalnız üç şeyə görə və Rəsulullahdan (s) soruşmadığım üç məsələyə görə təəssüf edirəm. Etdiyim, lakin kaş etməyəydim dediyim üç şeyə gəlincə, Bəni Saidənin səqifəsi günü bu işi iki nəfərin – Ömərlə Əbu Ubeydəni nəzərdə tutur – boynuna atdım. Onlardan biri əmir, digəri isə vəzir idi. Kaş mən Fatimənin evinə hüçum etməzdim. Baxmayaraq ki, həmin evi hərb üçün bağlamışdılar. Kaş Fucaə Suləmini yandırmayaydım. Kaş onu ya qətlə yetirərdim, ya da azad edərdim”.[496]

Aişənin şahidliyi

Hakim Qeys bin Əbu Hazim belə nəql edir: “Aişə - Allah ondan razı olsun – öz-özünə danışırdı ki, Rəsulullah (s) və Əbu Bəkrlə birlikdə öz evində dəfn olunsun. Lakin o, belə dedi: “Mən Rəsulullahdan (s) sonra bir şey etdim. Məni (Peyğəmbərin) zövcələri ilə dəfn edin”. Bundan sonra onu Bəqidə dəfn etdilər”.[497]

Zəhəbi deyir: “Bir şey etdim” dedikdə Cəməl döyüşünə getməsini nəzərdə tuturdu. O, buna görə olduqca peşman olmuşdu...”[498]

Ənəsin şahidliyi

Ənəs bin Malikin belə dediyi nəql olunur: “Rəsulullah (s) Mədinəyə daxil olduğu ilk gündə hər şeyə işıq saçdı. Vəfat etdiyi gün isə hər şey

---

[496] İbn Əsakir, “Tarixi mədinəti Diməşq” c. 30, s. 418; Tarixi Təbəri, c. 2, s. 619; Murucuz-zəhəb, c. 2, s. 301; əl-Əqdul-fərid, s. 22.

[497] əl-Mustədrək, c. 4, s. 6. Hakim deyir: “Bu hədis Buxari və Müslimin şərtlərinə əsasən səhih hədisdir. Lakin onlar bu hədisi qeyd etməmişlər. Albani “Silsilətul-əhadis-səhihə” kitabında bu hədisin səhih olmasını demişdir. c. 1, s. 855.

[498] Siyəru əlamin-nubəla, c. 2, s. 193.

zülmətə büründü. Rəsulullahdan (s) əlimizi çəkib onu dəfn etdikdən sonra qəlblərimiz bizi inkar etdi”.[499]

Bu, Ənəs tərəfindən Peyğəmbər dəfn olunduqdan sonra dəyişikliyin baş verdiyinə dair bir şahidlikdir!

Ənəs bu dediyi sözü bir daha təkid edərək belə demişdir: “Peyğəmbərin (s) zamanında olan bir şeyin qaldığını bilmirəm”. Dedilər: “Namaz?” Ənəs dedi: “Namazdan itirə biləcəyinizi itirməmisinizmi?”[500]

Buxari Zuhridən belə nəql edir: Dəməşq şəhərində Ənəsin yanına gəldim. O ağlayırdı. Ona dedim: “Ağlamağının səbəbi nədir?” (Ənəs) dedi: “Dəyişilməyən yalnız namazın olduğunu bilirdim. Bu namaz da itirildi”.[501]

Müsnədi Əbməddə Ənəsdən belə nəql olunur: “Sizin aranızda bu gün Rəsulullahın (s) zamanından qalan yalnız “la ilahə iləllah” kəlməsininin qaldığını bilirəm”. Mən dedim: “Ey Əbu Həmzə, bəs namaz?” (Ənəs) dedi: “Günəş batarkən qıldıq. Məgər bu Rəsulullahın namazı idi?”[502]

Ənəs dedi: “Rəsulullahın (s) zamanında şahid olduğum elə bir şey yoxdur ki, bu gün inkar etməyim”. “Bəs namaz?” –deyə soruşdular. (Ənəs) dedi: “Siz zöhr namazını məğrib namazı ilə birlikdə qıldınız. Məgər Rəsulullah (s) belə namaz qılırdı?”[503]

Bu, bəzilərinin hovuz kənarından qovulmasının səbəbi olan İslamda bidət yaratmağın ən bariz dəlilidir!

Əbu Dərdanın şahidliyi

Buxari belə nəql edir: “Salimin belə dediyini eşitdim: “Ummu Dərdanın belə dediyini eşitdim: “Əbu Dərda yanıma gəldi. O, qəzəbli idi”. Mən

[499] Albani Səhihu və zəifu sünəni Tirmizi kitabında bu hədisi səhih hesab etmişdir, c. 8, s. 118.

[500] Səhih Buxari, kitabu məvaqitus-salət, babu təzyius-salət, c. 1, s. 134.

[501] Səhih Buxari, c. 1, s. 134.

[502] Müsnədi Əhməd, c. 3, s. 270.

[503] Fəthul-bari, c. 3, s. 229.

dedim: “Səni qəzəbləndirən nədir?” (Əbu Dərda) belə dedi: “Allaha and olsun ki, Muhəmmədin (s) ümmətində namaz qılmalarından başqa bir şey bilmirəm”.[504]

Huzeyfənin şahidliyi

Huzeyfənin belə dediyi nəql olunur: “Rəsulullahla (s) birlikdə idik. Bizə belə dedi: “Müsəlmanların sayını mənə söyləyin”. Biz dedik: “Ya Rəsulullah, bizim üçün qorxursan? Biz altı yüzdən yeddi yüzə qədərik”. (Peyğəmbər) dedi: “Siz bilmirsiniz. Bəlkə də siz fitnəyə düşdünüz”. (Huzeyfə) dedi: “Biz fitnəyə düşdük. Hətta bizdən biri namaz qılanda gizli namaz qılırdı”.[505]

Nəvəvi bu hədisin şərhində belə deyir: “Huzeyfənin “hətta bizdən biri namaz qılanda gizli namaz qılırdı”. Ola bilər ki, burada Peyğəmbərdən (s) sonra baş verən fitnələr nəzərdə tutulmuşdur. Bəziləri gizlinə çəkilib namaz qılırdı. Fitnəyə və müharibələrə qoşulmamaq üçün üzə çıxmaqdan qorxurdu.[506]

Huzeyfənin fitnəyə və müharibələrə qoşulmaqdan qorxaraq özünü ev dustağı etməsi ağıla sığmaz məsələdir. Hədisdən belə başa düşürük ki, Huzeyfə gizlində namaz qılırdı. O, namazını qorumaq istəyirdi. Onların dəyişdirdikləri namazı qılmaq istəmirdi. Məlumdur ki, Huzeyfə insanlarla birlikdə olurdu və münafiq olan birinin cənazə namazını qılmırdı. Deməli, onun namazını gizli qılmasının başqa səbəbi var.

Əbu Hüreyrənin şahidliyi

Malik deyir: “Eşitdiyimə görə Əbu Hüreyrə bu ayələri oxumuş ***“(Ya Peyğəmbər!) Allahın köməyi və zəfər (Məkkənin fəthi) gəldiyi zaman;***

---

[504] Səhih Buxari, kitabul-əzan, c. 1, s. 159, hədis 613.

[505] Səhih Müslim, c. 1, s. 91.

[506] Şəru Səhih Müslim, c. 2, s. 179, 180.

İnsanların dəstə-dəstə Allahın dininə (islama) daxil olduqlarını gördüyün zaman” [507] sonra belə demişdir: “Canım əlində olana and olsun ki, insanlar dəstə-dəstə dinə daxil olduqları kimi bu gün dəstə-dəstə dindən çıxırlar”.[508]

Əbu Hüreyrənin bu sözləri ən xeyirli əsr olan səhabələrin əsrində deyilmişdir! O, and içir ki, insanlar Allahın dinindən dəstə-dəstə çıxırlar. Dindən çıxmaq qiyamət günü hovuz kənarından qovulmağın səbəbidir. Kimdir həmin dəstələr? Onların adları nədir? Belə başa düşülür ki, onlar vaxtı ilə dəstə-dəstə dinə daxil olanlardır. Onun “insanlar dəstə-dəstə dinə daxil olduqları kimi bu gün dəstə-dəstə dindən çıxırlar” sözünün mənası budur.

Sahibsiz dəvə qədər az

Buxari Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: “(Qiyamət günü) mən görəcəm ki, tanıdığım bir dəstə insanla mənim aramdan bir şəxs çıxacaq və onlara ardımca gəlin deyəcək. Mən “Hara?” deyəcəm. (Həmin adam) deyəcək: “Allaha and olsun ki, Cəhənnəm oduna”. Mən: “Onların günahı nədir?” deyəcəm. (Həmin adam) deyəcək: “Onlar səndən sonra geriyə (cahiliyyətə) dönmüşlər”. Onlardan sahibsiz dəvə qədər (yəni az sayda) insanın xilas olacağını görəcəm”.[509]

İbn Həcər “sahibsiz dəvə qədər az” sözünün mənası barədə deyir: “Yəni hovuza yaxınlaşanlar ora çatmaqlarına az qalmış geri qaytarılacaqlar. Burada (orjinalda) qeyd olunan “həməl” sözü çobansız dəvə mənasındadır. Xəttabi deyir: “Həməl” sahibsiz, itmiş dəvələr anlamındadır. Hədisdə məna budur ki, onlardan sahibsiz dəvə kimi az

---

[507] Nəsr, 1-2

[508] Mufidul-mustəfid fi kufri tarikit-tovhid, s. 322; Muhəmməd bin Əbdülvəhhab, “əd-Durərus-səniyyə fi əcvbətin-nəcdiyyə, uləmau Nəcd əl-Əlam, c. 9, s. 439.

[509] Həmin mənbə, kitabur-riqaq, babul-havz, c. 7, s. 209.

sayda insan hovuzun yanına gələcək. Çünki sahibsiz dəvə mənasında olan "həməl" sözü az anlamındadır".

Vəhid Əbdüssəlam Bali deyir: " (Hədisin orjinalında) qeyd edilən "əl-ibilul-həməl" çobansız dəvə anlamındadır. Yəni itmiş dəvə. Burada az say nəzərdə tutulur".[510]

Bu isə cəhənnəmə vasil olanların sayının çox və xilas olanların sayının itmiş dəvələrin sayı qədər az olacağına dəlalət edir. Necə ki, Peyğəmbər (s) bu cür ifadə etmişdi. Mürtəd olanlar İslama döndülər. Münafiqlərə gəlincə, sələfin ardıcıllarının dediyi kimi sayları az idi. Hədisdə mürtədlərin və münafiqlərin nəzərdə tutulmasını israr etmək isə səhabələrin əksəriyyətinin cəhənnəmə vasil olduqları üçün mürtəd və münafiq olmaları deməkdir.

Bu hədis səhabələr barədədir. Buna dəlilimiz Peyğəmbərin (s) buyurduğu bu sözlərdir: "Onlar səndən sonra geriyə (cahiliyyətə) dönmüşlər". Ola bilər ki, bəziləri "Onlardan sahibsiz dəvə qədər (yəni az sayda) insan xilas olacaq" sözlərinin cəhənnəmə daxil olanlara aid olduğunu desinlər. Lakin bu rəy qəbul edilməzdir. Çünki əvvəlki cümlədə cəhənnəmə vasil olacaq birinci dəstə barəsində mələk və ya bir şəxs "Allaha and olsun ki, cəhənnəmə" demişdir. Həmçinin ikinci dəstə barəsində də and təkrar olunmuşdur. Hədisdə "bir dəstə" deyilir. Sonra yenə həmin hədisdə "sonra bir dəstə" deyilir. Bu hədisi "Sizi dəstə-dəstə gətirəcəklər" ifadəsini ehtiva edən başqa hədisin yanına qoysaq "onlardan sahibsiz dəvə qədər insanın xilas olacağını görəcəm" sözlərinin dəstə-dəstə məhşərə gətirilən səhabələrə aid olduğu başa düşüləcək.

Ummu Sələmənin şahidliyi

Ummu Sələmə belə nəql edir: "Əbdürrəhman bin Ovf onun yanına gəlib belə demişdir: "Anacan, var-dövlətimin çoxluğunun məni həlak

[510] Teysirul-kərimil-əliy fi vəsfi həuzin-nəbi, s. 41.

edəcəyindən qorxuram. Mən Qureyş içində var-dövləti ən çox olan şəxsəm". (Ummu Sələmə) dedi: "Oğlum, sədəqə ver. Mən Rəsulullahın (s) belə dediyini eşitmişəm: "Səhabələrimdən elələri var ki, ondan ayrıldıqdan sonra bir daha məni görməyəcək". (Əbdürrəhman) onun yanında ayrıldıqda Ömərlə qarşılaşdı və bu söhbəti ona xəbər verdi. Ömər onun (Ummu Sələminin) yanına gəlib dedi: "Səni Allaha and verirəm düzünü de! Mən onlardanammı?" Ummu Sələmə dedi: "Yox! Səndən sonra heç kimə bəraət qazandırmayacağam".[511] (Yəni səndən başqa kim bu barədə soruşsa ona bu barədə cavab verməyəcəm).

Sanki Ummu Sələmə - Allah ondan razı olsun – Əbdürrəhman bin Ovfun sədəqə verməməsini onun cəhənnəmə daxil olmasının səbəbi hesab etmiş və ona "Oğlum, sədəqə ver" demişdir. Ummu Sələmə bu hədisin Bədr döyüşünün iştirakçısı, Rizvan beyəti edən səhabə – Əbdürrəhman bin Ovfa da şamil ola biləcəyini başa düşmüşdür. Ummu Sələmə - Allah ondan razı olsun – sələfdəndir. Sələf səhabələrdən və ya Peyğəmbərin zövcələrindən olarsa onun anladığı məna başqasının anladığı mənadan üstün hesab olunur. Əbdürrəhman bin Ovf həqiqətən də, vəfat etdikdən sonra miras olaraq böyük sərvət qoyub getmişdir. İbn Səd onun vəfat etdikdə min dəvə, Nəqi vadisində otarılan üç min qoyun və yüz at qoyub getdiyini yazmışdır. O, quru torpaqlardakı əkin sahələrini iyirmi dəvə ilə su daşıtdıraraq suvarırdı. Vəfat etdikdən sonra balta ilə bölünüb parçalanacaq qədər qızılı qalmışdı. Həmin qızılları parçalayanadək insanların əlləri qabar olmuşdu. O, vəfat etdikdə dörd arvadı dul qaldı. Onlardan birinin səkkizdə bir payı səksən min idi. Mazir binti Əsbəğ səkkizdə birin dörddə bir hissəsinə sahib olmuşdur. Bu isə yüz minə bərabər idi".[512]

---

[511] Müsnədi Əhməd, c. 6, s. 290: Silsilətul-əhadis-səhihə, c. 6,s. 1202, hədis 2982.

[512] ət-Təbəqatul-kubra, c. 3, s. 136,137.

Hakimin "əl-Mustədrək" kitabında Osman bin Şəriddən belə nəql olunur: "Əbdürrəhman bin Ovf vəfat etdikdə miras olaraq min dəvə, Nəqi vadisində otarılan üç min qoyun və yüz at qoyub getmişdir. Quru yerdə əkdiyi əkini iyirmi dəvə ilə su daşıyaraq suvarırdı". [513]

Məsudi deyir: "Əbdürrəhman bin Ovf Zuhri özünə böyük ev tikmişdi. Onun tövləsində yüz at saxlanırdı. Onun min dəvəsi və on min qoyunu var. Ölümündən sonra onun mirasının səkkizdə birinin dördə bir hissəsi səksən dörd min etmişdir".[514]

Əbdürrəhman bin Ovf var-dövlətinin çoxluğunun onun həlakına səbəb olacağını düşünürdü. Bir çox səhabənin insanı dəhşətə gətirəcək və sual doğuracaq dərəcədə var-dövləti vardı. Abdullah bin Utbə nəql edir ki, Osman qətlə yetirildikdə onun xəzinədarında yüz əlli min dinar (qızıl sikkə) və bir milyon dirhəm (gümüş sikkə) vardı. Onun Qura vadisində, Hüneyndə başqa yerlərdə olan bağları yüz min dinar dəyərində idi. Özündən sonra çoxlu sayda at və dəvə qoyub getmişdir".[515]

Bərra bin Azibin şahidliyi

Buxari Əla bin Museyyibdən o da atasından belə nəql edir: "Bərra bin Aziblə - Allah ondan razı olsun – qarşılaşdım. Ona belə dedim: "Xoş sənin halına! Peyğəmbərlə (s) yoldaşlıq etmisən və ağac altında ona beyət

---

[513] əl-Mustədrək, c. 3, s. 309.

[514] Murucuz-zəhəb, c. 2, s. 333.

[515] Murucuz-zəhəb, c .1, s. 305. Osman müsəlmanların beytul-malından öz qohum-əqrabalarına çoxlu var-dövlət paylamışdı. Səid bin Asa müsəlmanların beytulmalından yüz min dirhəm pul vermişdi. Bax; Bəlazuri, "Ənsabul-əşraf", c. 2, s. 265. Əmisi oğlu Mərvan bin Həkəm bin Əbulasa Afrikanın qənimətlərinin xümsunu (beşdə birini) vermişdir. Bu isə beş yüz min dinar pul edirdi. Bax; İbn Quteybə "əl-Məarif", s. 84; Bəlazuri, "Ənsabul-əşraf", c. 5, s. 38; Əbulfida ət-Tarix, c. 1, s. 168; İbn Əbdürəbbih, "əl-Əqdul-fərid", c. 2, s. 261.

etmisən". (Bərra) dedi: "Qardaş oğlu! Sən ondan sonra nə etdiklərimizi bilmirsən!"[516]

Bu hədisdə Bərra Peyğəmbərdən (s) sonra dində dəyişiklik etmələrini etiraf edir. O, bu əməli özünə və başqalarına nisbət vermişdir. Şübhəsiz ki, bu hədis hovuz hədisini bizə ən dəqiq mənada təfsir edir!

Əyunun şahidliyi

Osman xütbə söyləyərkən Əyun bin İmrətul-Fərəzdəq belə dedi: "Ey Nəsəl, Sən (dini) dəyişmisən..."[517]

Ğəmarilərin şahidliyi

İmam Əhməd bin Muhəmməd Həsəni Ğəmari Malikdən belə nəql edir: "Muvatta kitabında yazdığım bu hədisdən başqa heç bir hədisə görə peşman olmamışam". Şafeinin belə dediyi nəql olunur: "Malikin kitabında hovuz hədisindən başqa səhabələrə nöqsan tutulacaq heç bir hədis görmədik".[518]

Şübhəsiz ki, Malikin "əl-Muvatta" kitabında yazdığı hovuz hədisinə görə peşman olması, Şafeinin "Çox istərdik ki, o bu hədisi qeyd etməzdi" deməsi hədisdə münafiqlərin və ya mürtədlərin nəzərdə tutulmasını söyləməyin və bu mənaya yozmağın doğru olmadığına aşkarcasına dəlalət edir. Bu hədisdə yalnız tanınmış səhabələr barəsində bəhs olunmuşdur. Məhz buna əsasən də Malikin peşman olması və Şafeinin bu barədə dediyi söz öz əksini tapır.

---

[516] Səhih Buxari, Kitabul-məğazi, hədis 3852.

[517] Heysəmi, "Məcməuz-zəvaid", c. 7, s. 228. Heysəmi deyir: "Bu hədisin Əbbad bin Zahirdən başqa bütün ravilər səhih hədis raviləridir. O isə etibarlıdır".

[518] Fəthul-məlikil-əli, s. 151, 152. Bu mənaya yaxın Siyutinin "Tənvirul-havalik" kitabında səh 51-də İbn Şakirin Mənaqibu Şafei kitabından müəyyən dəyişikliklərlə nəql olunmuşdur.

İmam Abdullah Ğəmari bu hədis barəsində deyir: "Ümmətimdən bəzi qövmlər hovuz kənarından qovulacaqlar" hədisinin Müaviyə və onun tərəfdarları barədə olmasını əminliklə deyirəm".[519]

Böyük tədqiqatçı Həsən Səqqaf hovuz hədisi barədə deyir: "İmamlardan və tədqiqatçı alimlərin ən böyüklərindən olan bəzilərinin rəyinə əsasən hədisdə Əli ilə vuruşan, xilafət məsələsində ona qarşı çıxan qövmün başçıları nəzərdə tutulmuşdur".[520]

Əmirləri təsdiqləmək

İbn Ömərin belə dediyi nəql olunur: "Rəsulullah (s) belə buyurub: "Sizin elə əmirləriniz olacaq ki, sizə etməyəcəyiniz işləri yerinə yetirməyi əmr edəcəklər. Kim onların yalanlarını təsdiqləyərsə, zülm etməkdə onlara yardım edərsə o məndən, mən də ondan deyiləm. O, hovuz başında mənim yanıma heç vaxt gəlməyəcək".[521]

Peyğəmbər (s) pis əməlləri əmr edən əmirləri təsdiqləməyi və onların zülmlərinə yardım etməyi onun hovuzunun yanından qovulmağın səbəbi hesab etmişdir. Bununla da həmin insanların sonu cəhənnəm odu olacaqdır. İslam tərixində bu növ əmirlərin sayı olduqca çoxdur. Peyğəmbər (s) hər hansı bir zamanda və ya axırzamanda deyil, "sizin elə əmirləriniz olacaq" demişdir. Səhabələrin və tabeinlərin dövründə sultanların və hökmdarların yanında olub onlara xidmət edən nə qədər çox insan olmuşdur!

Peyğəmbərin "Sizin elə əmirləriniz olacaq" deməsi həmin əmirlərin səhabələrin zamanında olacağına dəlalət edir. Şübhəsiz ki, onları təsdiqləyən və onlara yardım edənlər cəhənnəm əhli olacaqlar. Həmin əmirlərin taleyi onlara tabe olanların taleyindən heç də fərqli olmayacaq.

---

[519] Nihayətul-amal, s. 7, 8.

[520] Səhih şərhil-əqidətit-tahaviyyə, s. 567.

[521] Müsnədi Əhməd, c. 2, s. 95.

Peyğəmbərin (s) nəzərdə tutduğu həmin əmirlər və hökmdarlar kimlər idi? Hədisi nəql edən İbn Ömər Peyğəmbərin (s) buyurduğuna özü əməl etmişdirmi?

Müslim Nafenin belə nəql etdiyini yazır: "Abdullah bin Ömər Yezid bin Müaviyənin törətdiyi Hurrə vaqiəsi zamanı Abdullah bin Mutiin yanına gəldi. (Abdullah bin Mutii) dedi: "Əbu Əbdürrəhmana mütəkkə verin". (Abdullah bin Ömər) dedi: "Mən oturmaq üçün gəlməmişəm. Sənə Rəsulullahdan (s) eşitdiyim bir hədisi söyləmək üçün gəlmişəm. Rəsulullahın (s) belə buyurduğunu eşitdim: "Kim itaətdən əl çəkərsə qiyamət günü heç bir höccəti olmadan Allahla qarşılaşacaq. Kim öhdəsində beyət olmadan ölərsə cahiliyyət meyiti kimi ölmüşdür".[522]

İbn Covzi belə deyir: "Mədinə əhalisi Yezidi tərk edib Abdullah bin Hənzələni ənsarın əmiri təyin etmişdi. Abdullah bin Mutii isə Qureyşin əmiri idi. Məqəl bin Sinan isə muhacirlərin əmiri idi. İbn Ömərin Yezidə beyət edildikdən sonra sonra onun beyətini tərk etdiyinə rast gəlinməmişdir".[523]

İbn Ömər Yezid ordusu Mədinə şəhərinə daxil olub oranı darma-dağın etdikdə Yezidə beyət etmişdi. O, Əbdülməlik bin Mərvan kimi əməvi hakimlərinə də beyət etmişdi. Həccac ilə birlikdə namaz qılır və zəkatını ona verirdi.[524] Bu əməli ilə bu zalım hakimlərə dəstək olur və insanları onlara tərəf sövq etdirirdi.

Cabir bin Abdullah Ənsari belə nəql edir: "Peyğəmbər (s) Kəb bin Əcərəyə belə dedi: "Ey Kəb bin Əcərə, Allah səni səfehlərin əmirlərindən qorusun". (Kəb) dedi: "Səfehlərin əmirləri kimlərdir?" (Peyğəmbər) dedi: "Məndən sonra olacaq əmirlərdir. Mənim hidayətimlə hidayət tapmazlar və sünnəmlə hərəkət etməzlər. Kim onların yalanlarını təsdiqləsə və

---

[522] Səhih Müslim, kitabul-imarə, bab hukmi mən fərrəq əmrəl-muslimin, c. 6, s. 22.

[523] Kəşful-muşkil min hədisi səhiheyn, c. 2, s. 596.

[524] Albani, "İrvaul-ğəlil", c. 2, s. 303, 304.

zülmlərində onlara yardım etsə onlar məndən, mən də onlardan deyiləm. Onlar mənim hovuzumun yanına gəlməyəcəklər. Kim onların yalanlarını təsdiqləmsə, zülmlərində onlara yardım etməsə onlar məndən, mən də onlardanam. Onlar mənim hovuzumun yanına gələcəklər".[525]

Bu hədisdə də Peyğəmbər (s) əvvəlki sözünün məzmununu təkrar etmişdir: "Məndən sonra olacaq əmirlərdir. Mənim hidayətimlə hidayət tapmazlar və sünnəmlə hərəkət etməzlər".[526]

Peyğəmbər (s) Kəb bin Əcərəni bu cür əmirlərdən ehtiyatlı olmağa səsləyir. Deməli, Kəbin bu cür əmirləri görməsi labüddür. Kəb hicri 53-cü ildə vəfat etmişdir. Bəs həmin əmirlər kimlər idi?![527]

Səhabələrin Peyğəmbərdən (s) sonra etdikləri dəyişikliklər

Ya Rəsulullah, sən bilmirsən onlar səndən sonra nə etdilər?! Əvvəlki dövrün və müasir alimlərin əksəriyyəti hədisin bu hissəsinin münafiqlərin, mürtədlərin, bidətçilərin və yolunu azmış firqələrin barəsində olduğunu dediklərinə rast gəlirik. Mürtədlərə gəlincə, Peyğəmbərin sağlığında bəzilərinin mürtəd olduğunu və vəfatından sonra mürtəd olanların İslama dönüb tövbə etdiklərini bəyan etdik. Peyğəmbərin (s) "yeniliklər etdilər və ya dəyişdirdilər" sözü onların

---

[525] Hakim Nişapuri, "əl-Mustədrək aləs-səhiheyn", c. 1, s. 79.

[526] Sünəni Tirmizi, c. 3, s. 359; Sünəni Nəsai, c. 7, s. 160.

[527] əl-İsabə, c. 5, s. 448. Əbu Həyyan əl-Bəsair vəz-zəxair kitabı, c. 7, s. 151-də belə yazır: "Abdullah bin Ömər gecə vaxtı Həccacın yanına gəlmək üçün icazə alır. Həccac deyir: "Əbu Əbdürrəhmanın axmaqlıqlarından biri də budur". Abdullah bin Ömər onun yanına daxil olur. Həccacın yanına gəldikdə Həccac ona dedi: "Səni bura gətirən nədir?" (Abdullah bin Ömər) dedi: "Rəsulullahın (s) sözünü xatırladım: "Kim əsrinin və zamanının imamına beyət etmədən ölərsə cahiliyyət meyiti kimi ölmüşdür". Həccac ona dedi: "Əli bin Əbu Talibin beyətindən yayınıb Əbdülməlikə beyət edirsən? Ayaqlarımdan tut beyət et. Əllərim məşğuldur". Həccac ayaqlarnı ona tərəf uzatdı!"

müsəlman olmalarına dəlalət edir. Çünki mürtəd İslamı tərk edərək başqa əqidəyə keçir. Tarixdə mürtədlərin dində hər hansı bir şeyi dəyişmələri barədə bir şey qeyd edilməmişdir.

Həmçinin hovuz hədisində bidət əhli də nəzərdə tutulmamışdır. Çünki bu hədis səhabələrin hovuz kənarından qovulması və qovulanların cəhənnəm oduna vasil olması barədədir. Bu hədisin yolunu azmış firqələrlə heç bir əlaqəsi yoxdur. Yalnız "ümmətim, ümmətim" sözləri qeyd edilən hədisi buna şamil etmək olar. Lakin bu hədis bizim mövzumuzdan kənardır. Qeyd edilənlərdən sonra bu hədisin münafiqlərə aid olması rəyi qalır. Lakin zehnimizdə belə bir sual yaranır. Həmin münafiqlər kimlərdir? Onların adları nədir? Onlar Peyğəmbərdən sonra dində hansı dəyişikliklər etmişlər? Təbii ki, bu sualın cavabı bəzilərinə nisbətdə mübhəm və gizli qalır. Çünki bu suala cavab verən hər bir kəs böhtanlara və dindən çıxmaq kimi ittihamlara məruz qalacaq. Bu suala cavab vermək olduqca gərəklidir. Çünki bu sualı yaradan səbəb bəzilərinin cəhənnəm oduna daxil olacaqlarına səbəb olacaqdır. Bu məsələ barədə aşkar cavaba rast gəlmədiyimiz üçün bəzilərinin dində etdikləri yeniliklər barədə müəyyən nümunələr qeyd edərək bu suala cavab verməyə çalışacam. Əgər doğru cavab vermiş olsam iki mükafat, səhv etmiş olsam isə bir mükafat qazanmış olacam!

Namazda yenilik

Əhməd bin Hənbəl Müsnəd kitabında Səid bin Hərsdən belə nəql edir: "Əbu Hüreyrə xəstələnmişdi və ya başqa yerdə idi. Əbu Səid Xidri bizə (imamlıq edərək) namaz qıldırdı. Namazı başlayanda, ruku edəndə, "səmiallahu limən hamidəh" deyəndə, səcdədən başını qaldırdıqda, səcdə edəndə, iki rükət arasında ayağa qalxdıqda ucadan təkbir dedi. Hətta bu minvalla namazını tamamladı. Namazı qılıb qurtardıqdan sonra ona dedilər: "Camaat sənin namazında ixtilaf etdilər". (Əbu Səid Xidri)

mənbərə çıxıb belə dedi: “Ey insanlar, sizin namazlarınızın fərqli olması və ya olmaması mənim üçün əsas deyil. Mən Peyğəmbərin (s) belə namaz qıldığını görmüşəm”.[528]

Bu hədisdən belə başa düşürük ki, Əbu Səid Xidri camaatın namazından fərqli surətdə namaz qılmışdır. Həmin namaz Rəsulullahın namazı idi. Bu, insanların namazı dəyişmələrinə aşkarcasına dəlalət edir. Həmçinin əvvəlki səhifələrdə Ənəsin namazı dəyişmələri və itirdikləri barədə dedikləri bu hədisin məzmununu dəstəkləyir. Bu hədisə əsasən Əbu Hüreyrə dəyişdirilmiş əməvi namazı qılırdı. Əbu Səid Xidrinin gəlməsi bu məsələni sübuta yetirir. Həmçinin namazda bu dəyişilmənin bəzi əmirlər tərəfindən olması məlum olur.

İbn Həcər deyir: “Belə başa düşülür ki, burada ixtilaf namazın təkbirinin səsli və ya səssiz deyilməsi məsələsində idi. Təkbirin rukuda deyilməsi babında qeyd olunduğu kimi Bəni Üməyyədən olan Mərvan və başqaları təkbiri səssiz deyirdilər. Əbu Hüreyrə Mərvanın Mədinədə əmir olduğu dövrdə camaatla namaz qılırdı”.[529]

İbn Həcər demək istəyir ki, Əbu Hüreyrə Bəni Üməyyəyə iqtida edərək namazın təkbirini uca səslə demirdi. Lakin o, bunu aşkarcasına söyləmir. Mərvan bin Həkəm Rəsulullahın (s) barələrində danışdığı əmirlərdəndir. Yəni Peyğəmbərin hidayət ilə hidayət tapmayan və sünnəsinə əməl etməyən əmirlərdəndir. Əbu Hüreyrə həmin əmirlərə və Bəni Üməyyəyə yardım edirdi. Hədisin məzmunundan aydın olduğu kimi Əbu Hüreyrə namaz barəsində onların üslubuna əməl edirdi. Məgər belə əmirləri təsdiqləmək hovuz kənarından qovulmağın səbəbi deyilmi? Onların

---

[528] Müsnədi Əhməd, c. 3, s. 18; Hakim, “əl-Mustədrək”, c. 1, s. 224. Hakim bu hədisi səhih hesab etmişdir; Məcməuz-zəvaid, s. 103. Heysəmi belə deyir: “Əhməd bu hədisi nəql etmişdir. Hədisin raviləri səhih hədis raviləridir.

[529] Fətul-bari, c. 2, s. 251.

namaz barədə etdikləri bu əməl dində yenilik yaratmaq deyilmi? Görəsən nə qədər səhabə Mədinədə Əbu Hüreyrənin namazı kimi namaz qılırdı?

Bəzi hədislərdən belə başa düşülür ki, namazda dəyişikliyin baş verməsi əvvəlki dövrlərdə baş vermişdi. Buxari Mutrif bin Abdullahdan belə nəql edir: "Mən və İmran Hasin Əli bin Əbu Talibin (ə) arxasında namaz qıldıq. Səcdə edəndə və başını səcdədən qaldıranda təkbir deyirdi. İki rükət arasında ayağa qalxdıqda təkbir deyirdi. Namaz tamam olduqdan sonra İmran bin Hasin əlimdən tutub belə dedi: "Bu mənə Muhəmmədin (s) namazını xatırlatdı" yaxud belə dedi: "Bizim ilə Muhəmmədin (s) namazı kimi namaz qıldı".

Tahavi Əsvəd bin Yeziddən belə nəql edir: "Əbu Musa Əşəri belə dedi: "Əli – Allah ondan razı olsun – Peyğəmbərlə (s) qıldığımız namazı bizə xatırladırdı. Biz həmin namazı ya unutmuşuq, ya da bilərəkdən tərk etmişik. Hər dəfə enib qalxdıqca və səcdə etdikcə təkbir deyərdi".[530]

Deməli, namazın təkbirlərinin dəyişilməsi məsələsi İmam Əlinin (ə) həyatı zamanında baş vermişdir. Şübhəsiz ki, namaz imamları həmin vaxt siyasətin tələbinə uyğun olaraq belə bir dəyişiklik edə bilərdilər. Bəlkə də belə etmələri barədə onlara əmr verilmişdir!

İmran bin Hasinin sözü Rəsulullahın (s) qıldığı namazın unudulduğunu və İmam Əlinin (ə) həmin namazı qılması ilə xatırlatmasına dəlalət edir.

Namazda baş vermiş dəyişikliklər təkcə namazın təkbirləri məsələsində baş verməmiş, başqa məslələrə də sirayət etmişdi. Malik "əl-Muvatta" kitabında belə deyir: "Yəhya Malikdən, o da əmisi Əbu Səhl bin Malikdən, o da atasından belə nəql edir: "İnsanların etdiyi əməllərdən yalnız namaza çağırışdan başqa bir şeyin qaldığını bilmirəm".[531]

Zərqani deyir: "İnsanların etdiyi əməllərdən yalnız namaza çağırışdan başqa bir şeyin qaldığını bilmirəm" sözlərində səhabəni nəzərdə tutur.

---

[530] Şərhu məanil-asar, c. 1, s. 221.

[531] əl-Muvatta, c. 1, s. 72.

Namaza çağırış olduğu kimi qalmışdır. Onda heç bir yenilik və dəyişilmə olmamışdır. Namazda isə bunun əksinə olaraq vaxtı təxirə salınmışdır. Başqa əməllərdə də dəyişiklik baş vermişdi. O, dövrünün əksəriyyətinin əməllərini inkar etmişdir. Burada dəyişiklik əmənin özündə deyil, namazın təxiri kimi xüsusiyyətində baş verməsi mümkündür. Həmçinin insanların bildiyi halda bir çox yaxşı işlərə əmr etməyi və pis əməllərdən çəkindirməyi tərk etmələri kimi əmənin özünə də aid ola bilər".[532]

Siyuti belə deyir: "Baci belə deyir: "Səhabələri nəzərdə tutur. Namaza çağırışdan başqa deməklə bu məsələdə hər hansı dəyişiklik olmadığını demək istəyir. Namazda isə bunun əksi baş vermişdir. Namaz öz vaxtlarından təxirə salınmışdır. Başqa əməllərdə də dəyişikliklər baş vermişdir".[533]

Bəziləri dəyişilmiş namaza o qədər adət etmişdi ki, Rəsulullahın (s) qıldığı namazı bəyənmirdi. Buxari İkrimədən belə nəql edir: "Bir şəxsin məqami İbrahimdə (namaz qılarkən) hər dəfə enib qalxdıqca təkbir dediyini gördüm. Ayağa qalxanda və başını yerə qoyanda (belə edirdi). Bu barədə İbn Abbasa – Allah ondan razı olsun – dedim. Sanki o (İkrimə) bu işi bəyənmirdi. (İbn Abbas) dedi: "Anan ölsün! Məgər bu, Rəsulullahın (s) namazı deyilmi?"[534]

Araşdırma zamanı namazda baş verən dəyişikliyin Osman bin Əffanın zamanında olduğuna rast gəldim. Əhməd İmran bin Hasindən belə nəql edir: "Əli bin Əbu Talibin – Allah ondan razı olsun – arxasında namaz qıldım. Rəsulullahla (s) və iki xəlifə ilə qıldığım namazı mənə xatırlatdı. Mən onunla namaz qıldım. O, hər dəfə səcdə edəndə, hər dəfə başını rukudan qaldıranda təkbir deyirdi. Mən dedim: "Ey Əbu Nuceyd, bunu ilk

---

[532] Şərhu Zərqani alə Muvatta İmam Malik, c. 1, s. 283.

[533] Cəlaləddin Siyuti, "Tənvirul-həvalik", s. 93; Bax; İbn Əbdülbirr, "əl-İstizkar", c. 1, s. 399.

[534] Səhih Buxari, c. 1, s. 191.

kim tərk etmişdi?" (İmran bin Hasin) dedi: "Osman bin Əffan – Allah ondan razı olsun – təkbir deyəndə səsi zəif olduğu üçün (təkbir deməyi) tərk etdi".[535]

İbn Əbdülbirr deyir: "Dində dəyişiklik yaradan hər kəs hovuz kənarından qovulanlardandır".[536]

İbn Həcər məsələni daha aydınlaşdıraraq belə deyir: "Əhməd və Tahavi[537] səhih sənədlə Əbu Musa Əşəridən belə nəql edirlər: "Əli bizə Rəsulullahla (s) qıldığımız namazı xatırlatdı. Biz bu namazı ya unutmuşduq, ya da bilərəkdən tərk etmişdik". Əhməd bu hədisi başqa yolla Mutrifdən nəql etmişdir: "Biz "Ey Əbu Nuceyd! - İmran bin Hasini nəzərdə tutur. Təkbiri tərk edən ilk şəxs kim olmuşdur?" (İmran) dedi: "Osman bin Əffan. Təkbir deyəndə səsi zəif idi". Bu onun ucadan oxumağı tərk etməsi istəyindən irəli gəlirdi. Təbərani Əbu Hüreyrədən belə nəql edir: "Təkbiri ən birinci Müaviyə tərk etmişdi". Əbu Ubeyd belə nəql edir: "Ən birinci Ziyad tərk etmişdi". Bu deyilənlər əvvəlkilərlə ziddiyyət

---

[535] Müsnədi Əhməd, c. 4, s. 432.

[536] Cəlaləddin Siyuti, "Tənvirul-həvalik", s. 51. Bəzi səhabələr Rəsulullahın (s) sünnəsinə zidd olaraq namazda "bəsmələni" cəhrlə oxumağı tərk etmişlər. Qəribə burasındadır ki, Rəsulullah (s) bir gün ərzində beş dəfə müsəlmanların yanında namaz qılırdı. Bununla yanaşı səhabələr Peyğəmbərdən "bəsmələnin" qiraəti barədə dəqiq bir şey nəql etməmişlər. Peyğəmbər (s) namazda "bəsmələni" ucadan oxuyurdu, yoxsa səssiz? Kəttani "Nəzmul-mutənasir minəl-hədisil-mutəvatir" kitabı s. 88-də Tahavidən belə nəql edir: "Bəsmələni ucadan oxumağı tərk etmək barədə nəql olunan hədislər mütəvatirdir". Halbuki iyirmi bir səhabədən "bəsmələ"nin cəhrlə (ucadan) oxunması barədə hədis nəql etmişdir. Şübhəsiz ki, səhabələrin "bəsmələnin" oxunuşu barədə Peyğəmbərdən (s) dəqiq bir şey nəql etməkdə yola verdikləri qüsur onların Peyğəmbərdən sonra dinin öyrənilməsi üçün müraciət olunan mənbə ola bilməyəcəklərinə dəlalət edir.

[537] Şərhu məanil-asar, c. 1, s. 221.

yaratmır. Ziyad Müaviyəyə, Müaviyə isə Osmana etimad edərək təkbiri ucadan deməyi tərk etmişdir.[538]

Təravih namazı

Buxari Əbdürrəhman bin Əbdülqaridən belə nəql edir: "Ramazan ayının bir gecəsində Ömər bin Xəttabla məscidə gəldik. İnsanlar hərəsi bir tərəfə səpələnmişdi... Ömər dedi: "Mən belə fikirləşirəm ki, bunların hamısını bir qariyə tabe etsəm daha yaxşı olar". Sonra qərara gələrək onları Ubəy bin Kəbin arxasında namaz qılmağa cəm etdi." (Ravi) sonra belə dedi: "Sonra onunla başqa gecə məscidə gəldik. Camaat hamısı vahid qari ilə namaz qılırdılar. Ömər dedi: "Bu, ən gözəl bidətdir".[539]

Qəstəlani Ömərin sonuncu sözünü şərh edərək deyir: "Bunu bidət adlandırmışdır. Çünki Rəsulullah (s) bunu sünnə etməmişdir. Həmçinin Siddiqin vaxtında da olmamışdır..."[540]

Sənani deyir: "Bil ki, "bidət" sözünü onları (müsəlmanları) müəyyən bir məsələdə toplamaq və onu yerinə yetirmək mənasında yozulmalıdır... Ömər təravih namazını camaat halında qılınmasını təyin etmiş və bunu bidət adlandırmışdır. Ömərin bunu "gözəl bidət" adlandırmasına gəlincə, bidət bəyənilmir. Əksinə hər bir bidət zəlalətdir... Bütün deyilənlərdən bildin ki, əksəriyyətin müttəfiq olduğu təravih namazının bu üslubda qılınması bidətdir. Şübhəsiz ki, ramazan ayında ibadət etmək sünnədir... Lakin bu keyfiyyətdə və kəmiyyətdə qılınmasını sünnə etmək və bu cür qılınmasını tələb etməyi bidət adlandırırıq".[541]

---

[538] Fəthul-bari, c. 2, s. 224.

[539] Səhih Buxari, kitabu salətut-təravih, babu fəzli mən qamə ramazan.

[540] Qəstəlani, "İrşadus-sari, c. 5, s. 4.

[541] Subulus-səlam, c. 2, s. 10, 11.

Ömər ramazan ayında qılınan müstəhəb namazı camaat şəklində qıldıraraq bunu bidət adlandırmışdır. Bu əməl Rəsulullahın sünnəsinə zidd olaraq hazırki dövrümüzə qədər davam edir!

Tirmizi belə nəql edir: "Peyğəmbər (s) Bilal bin Hərəsə belə demişdir: "Bil!" (Bilal) "Nəyi bilim, ya Rəsulullah?" -deyə soruşmuşdur. (Peyğəmbər) dedi: "Bil, ey Bilal". (Bilal) "Nəyi bilim, ya Rəsulullah?" -deyə yenə soruşmuşdur. (Peyğəmbər) buyurmuşdur: "Kim məndən sonra aradan gedən sünnələrimdən birini yaşadarsa, ona əməl edən hər kəsin savabı azalmadan onun da o qədər savabı olar. Kim Allah və Rəsulunu razı salmayan zəlalət bidəti yaradarsa ona əməl edən hər kəsin günahı qədər onun da günahı var. Burada ona əməl edən heç bir kəsin günahı azalmaz".[542]

Üç boşanma

Əhməd Müsnədində İbn Abbasdan belə nəql edir: "Bəni Muttəlibin qardaşı Rəkanə bin Əbdu Yezid bir məclisdə arvadını üç dəfə boşadı. Onun üçün çox hüzünləndi. Rəsulullah (s) bu barədə ondan soruşdu: "Onun talağını necə verdin?". O dedi: "Üç dəfə boşadım". (Peyğəmbər) dedi: "Bir məclisdə?" O "Bəli" dedi. (Peyğəmbər) dedi: "Bu bir boşanmadır. Əgər istəyirsənsə onu qaytar". Bundan sonra o, arvadını qaytardı".[543]

Albani deyir: "Bu hədisin sənədini İmam Əhməd, Hakim, Zəhəbi səhih hesab etmişlər.[544]

Peyğəmbər (s) zamanında üç dəfə talaq verməyin hökmü belə idi. İslam şəriətində bu hökm tətbiq olunurdu. Lakin Ömər bir dəfəyə verilən üç talağı bain talaq etdi.[545]

---

[542] Sünəni Tirmizi, c. 5, s. 44. Tirmizi bu hədisi həsən hesab etmişdir.

[543] Müsnədi Əhməd bin Hənbəl, c. 1, s. 265.

[544] İrvaul-ğəlil, c. 7, s. 144, 145.

Müslim İbn Abbasdan belə nəql edir: "Rəsulullahın və Əbu Bəkrin dövründə, həmçinin, Ömərin xilafətinin iki ilində (bir məclisdə verilən) üç talaq bir hesab olunurdu. Ömər bin Xəttab dedi: "İnsanlar onlar üçün cəza olacaq bir əməldə tələsirlər. Onlara bu hökmü versəydik (yaxşı olardı). Sonra onlara bu hökmü verdi".[546]

Şübhəsiz ki, bu, dində bidət yaratmaqdır. Sünəni Nəsaidə Mahmud bin Ləbiddən belə nəql olunur: "Peyğəmbərə (s) bir kişinin arvadına üç talağı bir dəfəyə verdiyi xəbər verildi. Rəsulullah (s) qəzənlənərək ayağa qalxdı sonra belə dedi: "Mən onların arasında diri olduğum halda Allahın kitabı ilə oynayır?" Hətta bir nəfər ayağa durub dedi: "Ya Rəsulullah, onu öldürümmü?"[547]

Şovkani deyir: "İbn Kəsir bu hədisin sənədinin yaxşı olduğunu demişdir. Hafiz Buluğul-məram kitabında belə deyir: "Bu hədisin raviləri etibarlıdırlar".[548]

Bayram namazlarında xütbəni namazdan əvvəl etmək

Peyğəmbər (s) bayram namazını qıldıqdan sonra xütbə söyləyərdi. Şovkani deyir: "Bu babda olan hədislər dəlalət edir ki, bayram namazı xütbədən əvvəl qılınmalıdır". Qazi İyyaz deyir: "Bütün yerlərin alimlərinin və fətva imamlarının müttəfiq olduqları budur".[549]

Osman bin Əffanın xəlifəliyinin son dövrünə kimi bayram namazı qılındıqdan sonra xütbə söylənmişdir. Sonra Osman xütbəni namazdan

---

[545] Yəni bir məclisdə üç dəfə talaq verilərsə ər və arvad ayrılmalıdır. Arvad başqa kişiyə ərə gedərsə, həmin ər onu boşadıqdan və ya vəfat etdikdən, sonra həmçinin, iddə müddəti tamalandıqdan sonra əvvəlki ər ilə evlənə bilər.

[546] Səhih Müslim, c. 4, s. 184.

[547] Sünəni Nəsai, c. 6, s. 142.

[548] Neylul-əvtar, c. 3, s. 361, 363.

[549] Həmin mənbə, c. 6,s. 361, 363.

əvvəl etməyə başladı. Zərqani bayram günlərində (fitr və qurban bayramı) namazın xütbədən əvvəl qılınması barədə deyir: "Hər iki səhih kitabda İbn Abbasın belə dediyi nəql olunur: "Rəsulullah (s), Əbu Bəkr və Ömərlə bayram namazı qılmışam. Hamısı xütbədən əvvəl namaz qılırdı... İbn Munzir səhih sənədlə Həsən Bəsridən[550] belə nəql edir: "Namazdan (bayram namazından) əvvəl xütbə edən ilk şəxs Osman olmuşdur. Camaatla namaz qılıb sonra onlara xütbə söyləyirdi". Hədis hafizi İbn Həcər deyir: "İbn Munzir səhih sənədlə Həsən Bəsridən belə nəql edir: "Namazdan əvvəl xütbə söyləyən ilk şəxs Osman olmuşdur. Camaatla namaz qılıb sonra onlara xütbə söylədi". Yəni adət üzrə belə etdi. Bəzi insanların namaza yetişmədiklərini gördü. Ona görə də belə etdi. Yəni xütbəni namazdan əvvəl etdi. Bu səbəb Mərvanın əsaslandığı səbəbdən fərqlidir. Osman bu işdə camaatın namaza çatmaları üçün belə etmişdir.[551]

Əli bin Mədini Həsən Bəsrinin Osmandan hədis eşitdiyini sübuta yetirmişdir. "əl-İləl" kitabında belə deyir: "Həsən gənc olarakən Osman bin Əffandan (hədis və ya xütbə) eşitmişdir".[552]

İbn Əbdülbirr deyir: "Namazdan əvvəl kimin ilk dəfə xütbə söyləməyi barədə ixtilaf baş vermişdir. Həmin şəxsin Osman bin Əffan olduğu deyilmişdir. Doğrusu da məhz elə budur. Əbdülvaris belə nəql edir: "Qasim bin Əsbəğ Xəşənidən, o da İbn Əbu Ömərdən, o da Sufyandan, o da Yəhya bin Səiddən, o da Yusif bin Abdullah bin Salamdan belə nəql edir: "Bayram gününün namazı xütbədən əvvəl olurdu. Osman bin Əffanın dövründə insanların sayı çoxaldı. O da xütbəni namazdan əvvəl etdi. İnsanların parçalanmamasını, hamısının bir yerdə namaz qılmasını

---

[550] Şərhul-muvatta, c. 1, s. 324.

[551] Fəthul-Bari, c. 2, s. 386. İbn Həcər bu hədisi səhih hesab etmişdir; Zərqani, "Şərhul-muvatta, c. 1, s. 614.

[552] Mədini, "əl-İləl", c. 1, s. 51.

istəyirdi. Əgər desələr ki, Malik və başqaları İbn Şihabdan, o da Əbu Ubeyd movla İbn Əzhərdən belə nəql edir: Osman bin Əffanla bayramda bir yerdə oldum. Namazı qıldıqdan sonra insanlara xütbə söylədi...” Həmin şəxsə cavabımız budur ki, hər iki hədis səhihdir. Onların mənasının düz olmasının dəlillərindən biri də budur; Malikin nəql etdiyi rəvayətdə olduğu kimi Osman altı və ya yeddi il camaata bayran namazı qıldırmışdır. Sonra isə Yəhya bin Səidin hədisinə əsasən namazdan əvvəl xütbə söyləmişdir. Həmçinin səfərdə namazın qəsr qılınması hökmünü dəyişərək tamam qılmışdır. Osmanın namazdan əvvəl xütbə etməsi barədə ravayətlərdən biri də Həmmad bin Sələmənin Həmid bin Ənəsdən nəql etdiyi rəvayətdir. Həmin rəvayətdə deyilir: “Rəsulullah (s), Əbu Bəkr və Ömər bayram günü namaz qılıb sonra xütbə söyləyərdilər. Osman bəzi insanların namaz bitdikdən sonra gəldiklərini gördükdə belə dedi: “Əgər xütbə ilə onları burada saxlasaq (yaxşı olardı)”. Bundan sonra xütbə söyləyib sonra namaz qıldı. Əbdürrəzzaq İbn Uyeynədən, o da Yəhya bin Səiddən, o da Yusif bin Abdullah bin Salamdan belə nəql edir: “Namazdan əvvəl xütbəni söyləməyə başlayan ilk şəxs Osman bin Əffan olmuşdur...” İbn Nafe Malikdən belə nəql edir: “İki bayramda xütbəni namazdan əvvəl edən ilk şəxs Osman bin Əffan olmuşdur”. Malik belə deyir: “Sünnə namazın xütbədən əvvəl qılınmasıdır. Rəsulullah (s), Əbu Bəkr, Osman xəlifəliyinin ilk dövrlərində buna əməl etmişdir”.[553]

Malik bayram namazının xütbəsini namazdan əvvəl edən ilk şəxsin Osman olduğunu sübuta yetirmişdir. İbn Ruşd Ciddin “əl-Bəyan vət-təhsil” kitabında belə deyilir: “İbn Nafe Malikdən buna dəlalət edən söz nəql etmişdir. O belə demişdir: “Sünnə namazın xütbədən əvvəl qılınmasıdır. Rəsulullah (s), Əbu Bəkr və Osman xəlifəliyinin ilk dövrlərində buna əməl etmişdir”.

[553] əl-İstizkar, c. 2, s. 382, 383.

Kəşmiri “əl-Urful-şəza” kitabında Osman barəsində bu məsələnin öz təsdiqini tapdığını söyləyir: Camaat bayram namazına çatsın deyə Osmanın xütbəni namazdan əvvəl etməsi təsdiq olunmuşdur”.

Şübhəsiz ki, Osmanın etdiyi bu əməl bayram namazı məsələsində bidətdir. Bayram namazındakı bu dəyişiklik Osmana, Müaviyəyə, Mərvan bin Həkəmə nisbət verilir. Bu rəylər arasında ortaq məxrəcə gəlmək olar. Belə ki, bu işi ilk dəfə Osman etmiş, Müaviyə ona tabe olmuş və Mərvan da Müaviyəyə tabe olmuşdur. Bəzi alimlər bu rəyi söyləmişlər. Mərvan bin Həkəm Müaviyənin Mədinədəki valisi idi. Müaviyə isə həyatı boyu Osmanın ardıcıllarından olmuşdur.

Əbdülkərim Xuzeyrin “Buluğul-məram” kitabında dedikləri olduqca qəribədir. Belə ki, o deyir: “Hər bir halda bu işi Osmanın gördüyü sübuta yetərsə belə, o, raşidi xəlifədir. Ona tabe olmaq bizə əmr olunmuşdur. (Hədisdə deyilir) “mənim və məndən sonra hidayət olunmuş raşidi xəlifələrin sünnəsin əməl edin”. Bu kimi əməl bidət hesab olunmur. Çünki Peyğəmbər (s) bunu sünnə adlandırmışdır. Yalnız Peyğəmbərdən (s) nəql olunan sabit sünnə raşidi xəlifələrin sünnəsi ilə təzad yaradarsa, mərfu olan hədis (Peyğəmbərə nisbət verilən hədis) əsas götürülər. Osmanın özünə məxsus ictihadları vardı”.[554]

İbn Teymiyyə xütbənin namazdan əvvəl söylənilməsini bidət hesab edərək demişdir: “İnsanların əməli nəticəsində bidətlərin yaranmasına səbəb olan zərurətə misal olaraq xütbənin bayram namazlarından əvvəl edilməsini misal göstərmək olar. Bəzi əmirlər bunu etdikdə müsəlmanlar inkar etdilər. Çünki bu bidətdir. Bunun yaranma səbəbini deyən şəxs insanların xütbəni dinləmədən durub getmələrini, Rəsulullahın (s) zamanında isə xütbənin dinləmədən yerlərindən durmamalarını bəhanə gətirməsinə gəlincə, ona belə deyilər. Bu işin səbəbi sən özünsən. Peyğəmbər (s) xütbə söyləyərkən müsəlmanların hidayəti, dini

[554] Şərhu buluğil-məram, c. 48, s. 24.

öyrənmələri və mənfəətlərini hədəf seçirdi. Sən isə insanların dinini islah etməyi qəsd etsən də öz rəyasətini möhkəmlətməyi hədəf seçmisən. Onlara faydalı olacaq şeyləri öyrətmirsən. Sənin etdiyin bu günah başqa bir günah əməl icad etməyinə icazə vermir".[555]

İbn Teymiyyə əmirlər dedikdə Mərvan bin Həkəmi nəzərdə tuturdu. Qeyd etdiyimiz kimi alimlər bu işi ilk dəfə Osmanın etdiyini sübuta yetirmişlər.

Təəccüblüdür ki, İbn Teymiyyə Mərvan bin Həkəmə qarşı cürətli danışır, amma ondan əvvəlki xəlifələrin təravih, üç talaq kimi dində etdikləri dəyişikliklərə göz yumur... Halbuki bu məsələr onun üçün gizli deyildi. Lakin Muhəmməd (s) peyğəmbərin gətirdiyi haqqı deyə bilmir. Bax bu, ikili yanaşmadır!

Müaviyənin bayram namazı üçün azan bidətini yaratması

İbn Həcər deyir: "Bayram namazında azan vermək məsələsini ilk dəfə kimin etdiyi barədə ixtilaf var. İbn Əbu Şeybə səhih sənədlə Səid bin

---

555 İbn Teymiyyə, "İqtizaus-sirat", c. 1, s. 280. Diqqət etmək lazımdır ki, sələf ardıcılları hələ qədimdən bu günədək təvil (yozum), bəraət qazandırma kimi yollarla özlərini qoruyurlar. Sələfin etdiyi əməllərə don geyindirmək üçün hətta Quran və Peyğəmbərin sünnəsinə zidd olsa belə, bu mövzuda bəzi rəvayətlər də qondarılmışdır. Bu mövzuda ayrıca bəhs etmək lazımdır. Lakin misal olaraq qeyd edirik ki, İbn Qəyyim "Zadul-məad" kitabı c. 3, s. 406-da Ömərin muta nikahını haram etməsi barədə belə deyir: "Əgər deyilsə ki, Müslimin Səhihində nəql etdiyi rəvayəti necə izah edəcəksiniz? Cabir bin Abdullah belə nəql edir : "Rəsulullahın (s) və Ömərin zamanıında bir ovuc xurma və un müqabilində muta nikahı edirdik. Hətta Ömər Əmr bin Hureysin məsələsində bunu bizə qadağan etdi". Ömərin belə dediyi sübuta yetmişdir: "Rəsulullahın (s) zamanında olan iki mutanı mən qadağan edirəm: qadınların mutası və həcc mutası". İnsanlarn bu məsələdə iki dəstəyə ayrıldıqları deyilmişdir: bir dəstə belə deyir: "Bunu Ömər qadağan edib haram etmişdir. Rəsulullah (s) raşidi xəlifələrin sünnəsinə tabe olmağı əmr etmişdir..."

Musəyyibdən həmin şəxsin Müaviyə olamsını nəql etmişdir. Şafei də Zuhridən bu kimi bir söz nəql etmişdir”[556].

Səhabələrin İslam şəriətini dəyişmələri və öz rəylərinə əsaslanaraq ictihad etmələrinin nümunələri olduqca çoxdur. Onların etdikləri dəyişikliklər barədə bəzi nümunələr qeyd etdik. Hovuz hədisində “Sən onların səndən sonra nə etdiklərini bilmirsən” cümləsi barədə sual cavabsız olaraq qalır. Əgər biz qeyd etdiklərimiz məsələlərdə səhvə yol veririksə, bəs dində dəyişiklik etdikləri üçün cəhənnəmə vasil olan həmin şəxslər kimlərdir?![557]

Mövzuya əlavə

Əhli-Beytin müraciət olunacaq yeganə insanlar olması səmavi layihənin davamıdır.

Peyğəmbər (s) Allahın bəşəriyyət üçün istədiyi ən böyük səmavi layihəni təbliğ edib çatdırmışdı. Artıq peyğəmbərlik xətm olunmuş və ondan sonra heç bir peyğəmbər gəlməyəcək. Şübhəsiz ki, bu dinin yer üzərinin bütün sakinlərinə çatması üçün təhrifdən və nöqsandan qorunması məqsədilə lazımı icraatlar görülmüşdür. İnsan harada olmasından asılı olmayaraq Allahın yer üzərindəki xəlifəsidir. Əgər haqq axtaranlar üçün sələfiliyin əsas hesab etdiyi dini mətnlər doğru yolu izah etmək üçün yetərli deyilsə bəs Peyğəmbərin (s) bizim üçün qoyub getdiyi doğru yol hansıdır?

---

[556] Fəthul-bari, c. 2, s. 453.

[557] Mərhum Seyid Əbdülhüseyn Şərəfəddinin “ən-Nass vəl-ictihad” kitabında bu ictihadalar barədə ətraflı məlumat almaq olar. “Rakibtus-səfinə” kitabında bu barədə ətraflı söhbət etmişik. Orada da qeyd etmişik ki, doğru yol Quran və sünnəyə tabe olmaq və onlardan kənar rəy və ictihaddan çəkinməkdir. Səhabələr dəlaləti aşkar olan dini mətnlərin müqabilində ictihad edən ilk şəxslər olmuşlar.

Peyğəmbərin (s) həyatını və hədislərini obyektivliklə oxuyan hər bir insaflı şəxs onun özündən sonra Əhli-Beytinə nəzər diqqəti çəkdiyinə şahid olur. Peyğəmbərin bu əməli bir çox ayələrdə Əhli-Beyti xatırladan ayələrdən qaynaqlanırdı. Çünki Əhli-Beyt səmavi təlimlərin, eləcə də peyğəmbər təlimlərinin davamıdır. Əhli-Beyt məktəbi Quran və sünnə dəlilləri ilə zəngindir. Biz sələfi məktəbinin ən əsas hədis mətnlərini tədqiq etdikdən sonra oxucuya nəqli mütəvatir olan və çoxlu sayda şərh edilən bir hədis təqdim edirik. Lakin bu hədis dörd məzhəbin və sələfilərin ardıcıllarından olan müsəlmanların çoxu tərəfindən tərk edilmişdir. Bu hədis barədə araşdırmanı əlavə etməkdə məqsədimiz oxucunun imamiyyə və sələfilik dəlilləri arasında müqayisə etməsidir.

Səqəleyn hədisi

Səqəleyn hədisi müxtəlif mətnlərlə nəql olunmuşdur. Bütün mətnlərin hamısının mənası Əhli-Beytə tabe olmağın zəruriliyini və zəlalətdən nicat tapmağın yeganə yolu olduğunu ehtiva edir. Səhih Müslimdə Zeyd bin Ərqəmdən belə nəql olunur: "Rəsulullah (s) bir gün Məkkə ilə Mədinə arasında Xum adlanan suyun yanında xütbə söylədi. Allaha həmd deyib səna etdi. Öyüd nəsihət verdi, (möminlərə) xatırlatdı. Sonra belə buyurdu: "Ey insanlar, mən bir bəşərəm. Rəbbimin elçisinin gəlməsinə və mənim də onun istəyinə cavab verməyimə az qalıb. Mən sizin aranızda iki əmanət qoyub gedirəm. Onların birincisi Allahın kitabıdır. Orada hidayət və nur var. Allahın kitabını götürün və ondan yapışın". Allahın kitabına dəvət etdi və rəğbətləndirdi. Sonra buyurdu: "Və Əhli-Beytim. Əhli-Beytim xüsusunda sizə Allahı xatırladıram! Əhli-Beytim xüsusunda sizə Allahı xatırladıram! Əhli-Beytim xüsusunda sizə Allahı xatırladıram!"[558]

[558] Səhih Müslim, kitabu fəzailus-səhabə, babu min fəzaili Əli bin Əbu Talib.

Müsnədi Əhməddə belə nəql olunur: “Mən sizin aranızda iki xəlifə (əmanət) qoyub gedirəm: səma ilə yer arasında uzanan ip – Allahın kitabı” və ya “səma ilə yer arasında olan Allahın kitabı və ailəm Əhli-Beytim. Onlar hovuz başında mənim yanıma gələnədək bir-birindən ayrılmayacaqlar”.[559]

Sünəni Tirmizi və Mustədrək kitabında belə nəql olunur: “Mən sizin aranızda elə bir əmanət qoyub gedirəm ki, onlardan yapışsanız məndən sonra heç vaxt yolunuzu azmayacaqsınız. Biri digərindən daha böyükdür. Səmadan yerə uzanmış ip olan Allahın kitabı və itrətim Əhli-Beytim. Onlar hovuz başında mənim yanıma gələnədək bir-birindən ayrılmayacaqlar. Məndən sonra onların xüsusunda necə davranacağızınıza diqqət edin!”[560]

Bu hədisin mənbələrdə nəql olunması barədə müasir və məşhur sələfi alimi Albaninin yazdıqlarını qeyd etməklə kifayətlənirik.

“Bu hədisi Tirmizi (c. 2, səh. 308) və Təbərani (səh. 2680) qeyd etmişlər; Zeyd bin Həsən Ənmatidən, o da Cəfərdən, o da atasından, o da Cabir bin Abdullahdan belə nəql etmişdir: “Rəsulullahı (s) həcc edərkən ərəfə günü dəvəsinin üzərində oturaraq xütbə söylədiyini gördüm. Onun belə dediyini eşitdim. Sonra hədisi qeyd edir. O belə deyib: “Bu hədis həsən və bu yolla nəql olunması qəribdir. Zeyd bin Həsəndən Səid bin Süleyman və elm əhlindən olan başqaları nəql etmişlər”. Mən deyirəm: Əbu Hatəm deyib: “Onun hədisi tanınmır”. İbn Hibban “əs-Siqat” kitabında onu qeyd etmişdir. Hafiz demişdir: “Zəifdir”. Mən deyirəm: “Lakin hədis səhihdir. Bu hədisin mətni Zeyd bin Ərqəmdən də nəql olunmuşdur. O, belə nəql edir: “Rəsulullah (s) bir gün Məkkə ilə Mədinə

---

[559] Müsnədi Əhməd, c. 5, s. 182; c. 2, s. 603. Albani İbn Əbu Asimin sünnəsində olan bu hədisi səhih hesab etmişdir; s. 337.

[560] Sünəni Tirmizi, c. 5, s. 329; əl-Mustədrək, c. 3, s. 148. Hakim bu hədisi səhih hesab etmişdir. İbn Teymiyyə Tirmizinin sünnəsində olan hədisə əsasən itrətin icmasının höccət olmasını demişdir. Bax; Məcmuətul-fətava, c. 28, s. 269.

arasında Xum adlanan suyun yanında xütbə söylədi. Allaha həmd deyib səna etdi. Öyüd nəsihət verdi, (möminləri) xatırlatdı. Sonra belə buyurdu: “Ey insanlar, mən bir bəşərəm. Rəbbimin elçisinin gəlməsinə və mənim də onun istəyinə cavab verməyimə az qalıb. Mən sizin aranızda iki əmanət qoyub gedirəm. Onların birincisi Allahın kitabıdır. Orada hidayət və nur var. Allahın kitabını götürün və ondan yapışın”. Allahın kitabına dəvət etdi və rəğbətləndirdi. Sonra buyurdu: “Və Əhli-Beytim. Əhli-Beytim xüsusunda sizə Allahı xatırladıram! Əhli-Beytim xüsusunda sizə Allahı xatırladıram! Əhli-Beytim xüsusunda sizə Allahı xatırladıram!”

Bu hədisi Müslim (c. 7, səh. 122, 123) Tahavi “Muşkilul-asar” kitabında (c. 4, səh. 365), Əhməd (c. 4, səh. 366, 367), İbn Əbu Asim “əs-Sünnə” kitabında (səh. 1550, 1551) və Təbərani (səh. 5026) Yezid bin Həyyan Təmiminin yolu ilə qeyd etmişlər. Həmçinin bu hədisi Əhməd (c. 4, səh. 371), Təbərani (səh. 5040) və Tahavi Əli bin Rəbiənin yolu ilə nəql etmişlər. Əli bin Rəbiə belə nəql edir: “Zey bin Ərqəm Muxtarın yanına gələrkən və ya onun yanından çıxarkən onunla rastlaşdım. Ona dedim: “Rəsulullahın (s) “Mən sizin aranızda iki əmanət – Allahın kitabı və itrətimi (Əhli-Beytimi) qoyub gedirəm” dediyini eşitmisənmi?” O “Bəli” deyə cavab verdi.

Hədisin sənədi səhihdir. Raviləri səhih hədis ravilləridir. Təbərani bu hədisi başqa yollarla da nəql etmişdir: (səh. 4969, 4971, 4980, 4982, 5040). Hakim də bəzi yolarını nəql etmişdir. (c. 3, səh. 109, 148 və 533) O və Zəhəbi bu yolların bəzilərini səhih hesab etmişdir. Bu hədis həmçinin Ətiyyə Ovfidən, o da Əbu Səid Xidridən birbaşa nəql olunmuşdur: “Məni çağırırlar və mən bu çağrışa cavab verəcəm. Mən sizin aranızda elə iki əmanət qoyub gedirəm ki, əgər onlardan yapışsanız məndən sonra heç vaxt azmazsınız. Səmadan yerə uzanan ip – Allahın kitabı və itrətim Əhli-Beytim. Onlar hovuz başında mənim yanıma gələnədək bir-birindən ayırlmayacaqlar”.

Bu hədisi Əhməd (c. 3, səh. 14, 17, 26, 59), İbn Əbu Asim (səh. 1553, 1555), Təbərani (səh. 2678, 2679) və Deyləmi (c. 2, səh. 1, 45) qeyd etmişlər. Bu hədisin sənədi həsəndir. Hədisin başqa nümunələri də var. Darqutni (səh. 529, Hakim (c. 1, səh. 93) Xətib Bağdadi "əl-Fiqh vəl-mutəfəqqih" kitabında (c. 1, səh. 56) Əbu Hüreyrədən nəql etmişlər. Həmçinin İbn Abbasdan Hakim nəql etmiş və səhih hesab etmişdir. Zəhəbi də onunla müvafiq olmuşdur. İbn Əbdülbirr "Camiu bəyanil-ilmi" (c. 2, səh. 24, 110) Əmr bin Ovfdan nəql etmişdir. Bu rəvayətlərin ləfzləri ayrılıqda zəiflikdən xali olmasa da bir-birini gücləndirir. Bu rəvayətlərin ən xeyirlisi İbn Abbasdan nəql olunandır. Həmin hədisin başqa güclü nümunəsini Əlidən nəql olunan hədisdə rast gəldim. Tahavi "Muşkilul-asar" kitabında (c. 2, səh. 307) Əbu Amir Əqdi tərəfindən həmin hədisi qeyd etmişdir: Yezid bin Kuseyr Muhəmməd bin Ömər bin Əlidən, o da atasından, o da Əlidən mərfu olaraq "Əlinizdə olan Allahın kitabı və Əhli-Beytim" ləfzi ilə nəql etmişdir. Bu hədisin raviləri Yezid bin Kuseyrdən başqa hamısı etibarlıdır. Onu isə tanımıram. Belə güman olunur ki, o, çap edən və ya nasix (əlyazmaların üzünü köçürən) tərəfindən səhf yazılmışdır. Allah doğrusunu bilir. Ola bilər ki, onun adını səhv olaraq yazmışlar. Doğrusu isə Kuseyr bin Zeyd olmuşdur. Rical kitablarına müraciət etdikdən sonra onun Amir Əqdinin şeyxlərindən və Muhəmməd bin Ömər bin Əlidən nəql edən ravilərdən olduğuna rast gəldim. Müvəffəq etdiyinə görə Allaha həmd olsun! Onun adını İbn Əbu Asimdə (səh. 1558) gördükdə doğru olduğuna bir daha əmin oldum.

Başqa bir numunəni isə Şureyk Rəkin bin Rəbidən, o da Qasim bin Həssandan, o da Zeyd bin Sabitdən nəql etmişdir. Həmin hədisi Əhməd (c. 5, səh. 181, 189), İbn Əbu Asim (səh. 1548, 1549) və Təbərani "əl-Mucəmul-kəbir" kitabında (səh. 4921, 4923) nəql etmişdir. Bu sənəd başqa nümunələr və yollarla nəql olunmasına görə həsəndir. Heysəmi "Məcməuz-zəvaid" kitabında belə deyir: "Bu hədisi Təbərani "əl-

Mucəmul-kəbir” kitabında nəql etmişdir. Hədisin raviləri etibarlıdırlar”. Başqa bir yerdə isə (c. 9, səh. 163) belə demişdir: “Əhməd bu hədisi nəql etmişdir. Sənədi yaxşıdır”.

Bu hədis barəsində tədqiq etdikdən sonra hicri 1402-ci illərin əvvəllərində Dəməşqdən Omana, oradan isə Ərəb Əmirliklərinə səfər etməli oldum. Qatarda bəzi ustadlarla və akademiklərlə görüşdüm. Onlardan biri mənə bu hədisin zəif olması barədə bir yazılı araşdırma verdi. Həmin yazını oxuduqda onun bu sahədə təzə biri olduğunu başa düşdüm. İki cəhətdən bu qənaətə gəldim: Birincisi: Hədisi yalnız çap olunmuş bəzi mənbələrdən əldə etmişdir. Buna əsasən də hədis barədə hökm verərkən böyük qüsura yer vermişdir. Bir çox nəql olunma yollarından və sənədlərdən xəbərsiz qalmışdır. Həmin sənədlər və nəql olunma yolları öz-özlüyündə səhih və ya həsəndir. Bundan əlavə hədisin başqa nümunələri də nəql olunmuşdur. Hər bir tədqiqatçı mənim burada qeyd etdiklərimi onun qeyd etdikləri ilə müqayisə edə bilər.

İkincisi: O, hədisi səhih hesab edən alimlərin sözlərindən və hədis elmində istinad etdikləri hədis terminlərindən də xəbərsiz idi. Məsələn, zəif hədis nəql olunma yollarının çoxluğuna görə güclü ola bilir. O, bu yolda xətaya yol vermişdir. Səhih hədisi zəif hesab etməklə böyük xətaya yol vermişdi. Onunla görüşmədən və onun araşdırmasını oxumadan əvvəl Küveytdə doktor tituluna sahib olan alimlərdən biri bu hədisi zəif hesab edirdi. Orada olan qardaşlardan biri mənə dedi ki, “Səhihu camius-səğir” kitabında aşağıdakı sıra rəqəmləri ilə qeyd etdiyim (2453, 2454, 2745, 7754) hədisləri həmin doktor zəif hesab etmişdir. Mənim bu hədisi səhih hesab etməyimə təəccüb etmişdir. Həmin qardaş məndən xahiş edir ki, bu hədisin tədqiqinə yenidən nəzər salım. Ehtiyat babından bunu etdim. Bəlkə hədisi qəbul etmək və hədisə əsaslanmaq məsələsində doktorun xətasına dəlalət edən dəlilləri görəcək və bu elmdə mövcud olan böyük fərqə diqqət etmədiyini biləcək. Bu, qeyd olunan sahədə yazanların

kitablarını araşdıranların və bu elmdə dərin bilgisi olmayanların çoxlarının düşdüyü qəflətdir. Allah yardımçımız olsun!”[561]

Hədisin mütəvatir olması

Səqəleyn hədisi mütəvatirdir. Bu hədisi 35 səhabə, 19 tabein nəql etmişdir. Hədisin sənədinə nöqsan tutmağın heç bir əsası yoxdur. Hədisin mütəvatir olması sübuta yetdikdən sonra onun sənədlərinin araşdırılmasının elmi baxımdan heç bir əsası yoxdur.

Şeyx Əbulmunzir Sami Misri belə deyir: “Pak itrət hədisinin Rəsulullahın (s) yeddi səhabəsi – Allah onlardan razı olsun – tərəfindən nəql olunması sübuta yetdikdən, otuzdan çox yolla nəql olunması və səhihliyi barədə heç bir şübhəyə yer qalmadıqdan, mütəvatir məfhumunun mənası, şərtləri növləri, mütəvatir hədisi nəql edənlərin sayı, xüsusiyyətləri və mütəvatir hədisin nəyi ifadə etməsini bildikdən sonra deyirik: Pak itrət hədisi mütəvatir həddindədir. Bu hədisin mətəvatir olması, qeyd etdiyimiz kimi məna baxımındandır. Bundan başqa qeyd etdiyimiz hər bir hədisdə “kitab və itrət” sözləri var. Siyutinin sözlərinə əsasən hədisdə qeyd edilən “Allahın kitabı və itrətim” ifadəsi qəti olaraq mütəvatirdir”.[562]

İmam Muqbili deyir: “Əhli-Beyt və kitab (Quran) – səqəleyn hədisi – hovuz başında mənə çatanadək bir-birindən ayrılmayacaq məna etibarlı ilə mütəvatirdir. “Əhli-Beytimin məsəli Nuhun gəmisinin məsəli kimidir. Kim ona minərsə nicat tapar. Kim bu gəmidən geri qalarsa boğular” hədisi də onun səhihliyinə şahiddir”.[563]

---

[561] Silsilətul-əhadis-səhihə, c. 4, s. 355, hədis 1761. Albani səqəleyn hədisini zəif hesab etməyə çalışan Doktor Əli Salusiyə işarə edir.

[562] əz-Zuhrətul-ətirəti fi hədisil-itrəti.

[563] Nəcah Talib, “Şərhu muxtəsəru ibn Hacib”.

Səqəleyn hədisinin sözlərinin və dəlalət etdiyi mənaların bu qədər aşkar olmasına baxmayaraq müsəlmanların əksəriyyəti bu peyğəmbər vəsiyyətinə əməl etməkdən imtina etmişlər. Fəqihlər yalnız siyasətin tələbinə əsasən təyin olunan dörd imama təqlid etmişlər. Əhli-Beyt imamlarından üz döndərərək onları və sələfdən olan sələfiləri özlərinə nümunə seçmişlər. Hətta onların şeyxi İbn Teymiyyə müsəlmanların İmam Əlidən (s) və digər Əhli-Beyt imamlarından dini məsələləri öyrənmədiklərini isbat etmək üçün bütün gücünü sərf etmişdir. O bu barədə iftixarla belə deyir: "Dörd imamdan heç biri, nə də fəqihlərin imamlarından başqası fiqh məsələsindən ona – Əliyə - istinad etmir. Malikin elminə gəlincə, onun elmi Mədinə əhlindəndir. Mədinə əhli isə Əlinin sözlərinə demək olar ki, heç əməl etmirdilər. Onlar öz fiqhlərini Zeyd və Əmr bin Ömər kimi yeddi fəqihdən götürmüşlər. Şafeiyə gəlincə, o əvvəlcə İbn Cureycin ardıcılları olan Salim Qəddah və Müslim bin Zalid Zənci kimi məkkəlilərin yanında fiqh öyrənmişdir. İbn Cureyc isə İbn Abbasın səhabələri olan Əta və başqalarından öyrənmişdir. İbn Abbas isə müstəqil bir müctəhid idi. O, səhabələrin sözlərinə əsasən fətva verdikdə Əlinin deyil, Əbu Bəkr və Ömərin sözlərinə əsasən fətva verirdi. Bir çox məsələlərə görə Əliyə etiraz edirdi. Sonra isə Şafei Malikdən öyrənmişdir. Sonra isə İraq əhlinin kitablarını yazmış, hədis əhlinin məzhəblərini öyrənmiş və özünə məzhəb seçmişdir.[564] Əbu Hənifəyə gəlincə, onun

[564] Əmir Sənani İcabətus-sail şərhu buğyətil-Amil, c. 1, s. 155, 156 heç bir etiraz etmədən bu sözləri ondan nəql etmişdir. Bu isə onun bu sözlərə müvafiq olması deməkdir. Muqbili Ziyauddin Saleh bin Məhdi bin Əli bin Abdullah Muqbilidir. Hicri 1047-ci ildə dünyaya gəlmiş və 1108 –ci ildə Məkkədə vəfat etmişdir. Şovkani "əl-Bədrut-tale" kitabında c. 1, s. 388, onun tərcümeyi-halını qeyd etmişdir. Onun barəsində belə demişdir: "O, Quran və sünnə elmlərinin hamısında mahir olan biri idi. Üsul, ərəb qrammatikasını, məani, bəyan, hədis və təfsir elmlərini tədqiq etmişdir. Bütün bu elmlərdə yüksək dərəcəyə çatmışdır. Onun alimlərin hamısı tərəfindən

məxsusi şeyxi Həmmad bin Əbu Süleyman olmuşdur. Həmmad İbrahimdən, İbrahim Əlqəmədən, Əlqəmə İbn Məsuddan öyrənmişdir. Əbu Hənifə Ətadan və başqalarından da öyrənmişdir.

İmam Əhmədə gəlincə, o, hədis məzhəbində idi. İbn Uyeynədən öyrənmişdir. İbn Uyeynə Əmr bin Dinardan, o da İbn Abbasdan, o da İbn Ömərdən öyrənmişdir. O, həm də Hişam bin Bəşirdən öyrənmişdir. Hişam isə Həsənin səhabələrindən və İbrahim Nəxəidən öyrənmişdir. Həmçinin o, (Əhməd) Əbdürrəhman bin Məhdi, Vəki bin Cərrah və bu kimi şəxslərdən öyrənmişdir. Şafei ilə müzakirələr aparmış və Əbu Yusifdən də öyrənmişdir. Sonra isə özünə yol seçmişdir. Həmçinin İshaq bin Rahəveyh, Əbu Ubeydə və başqaları da onun kimi olmuşdur. Əvzai və Leysin fiqhinin əksəriyyəti kufəlilələrdən deyil, Mədinə əhlindən idi".

Budur İmam Malikin Muvatta kitabı! Orada nə ondan, nə də övladlarından çox az şey var. Orada Cəfərdən doqquz hədis var. Malik onun züriyyətindən yalnız Cəfərdən nəql etmişdir. Həmçinin sihahlarda, sünənlərdə və müsnədlərdə onun övladlarından çox az şey var. Orada olanların əksəriyyəti başqalarındandır".[565]

İbn Teymiyyə başqa bir yerdə belə deyir: "Şərqdə və qərbdə olan müsəlmanların əksəriyyəti Əlidən bir şey götürməmişlər".[566]

Həmçinin deyir: "Şafei və Muhəmməd bin Nəsr Mərvəzi müsəlmanların Əlidən götürmədikləri barədə böyük kitab toplamışlar. Çünki başqa səhabələrin sözləri Quran və sünnəyə daha müvafiq idi".[567]

Həmçinin deyir: "İslam şəhərlərinin əksəriyyətinə Rəsulullahın elmi Əli vasitəsilə deyil, başqasının yolu ilə çatmışdır".[568]

---

qəbul olunan və sevilən kitabları var. Onun rəylərini üstün tutur və əsaslanırlar. O, buna layiqdir".

[565] Minhacus-sunnə, c. 7, s. 529, 531. Doktor Muhəmməd Raşid Salimin tədqiqi ilə.

[566] Minhacus-sunnə, c. 8, s. 49.

[567] Minhacus-sunnə, c. 7, s. 512, 513.

Ümmətin Əhli-Beytə (ə) cəfakeşlik etməsini təsdiqləyən dəlillərdən biri də Zəhəbinin Malik bin Ənəsin tərcümeyi-halında qeyd etdikləridir. Tabeinlərdən və onlardan sonrakı dövrün fəqihlərindən onlarla etimad ediləcək fəqih adını qeyd etmişdir. Lakin İmam Baqir, Sadiq, Kazim, Rza, Cavad (Allahın onlara salamı olsun) kimi Əhli-Beyt (ə) fəqihlərindən heç birinin adlarını qeyd etməmişdir. Halbuki onlar həmin fəqihlərin müasirləri olmuşdurlar.

Zəhəbi deyir: "Maliki – Malikin ardıcıllarından biri – deyir ki, bu gün ictihad çox nadir və çətin olmuşdur. Malik təqlid üçün ən üstündür. Buna görə də onun təqlidini üstün tutmuşdur... lakin elm tələb edən əvvəlcə fiqhdə kitablar oxumalıdır. Hifz edib, araşdırıb, şərhləri mütaliə etməlidir. Əgər zəkalı və dərrakəli olarsa, imamların dəlillərini dərk edərsə Allahı üzərində nəzarətçi bilib dinində ehtiyat etsin. Dində ən xeyirli olan ehtiyatdır. Kim şübhəli məqamları tərk edərsə, dinini və namusunu qorumuş olar. Qorunan Allahın qoruduğudur. Təqlid olunanlar Rəsulullahın (s) səhabələridirlər. Bu şərtlə ki, onlara istinad sübuta yetmiş olsun. Sonra isə Əlqəmə, Məsruq, Ubeydə Salmani, Səid bin Musəyyib, Əbu Şəas, Səid bin Cubeyr, Ubeydullah bin Abdullah, Urvə, Qasim, Şəbi, Həsən, İbn Sirin, İbrahim Nəxəi kimi tabeinlərdən olan imamlardır.

Sonra isə Zuhri, Əbuzunnad, Əyyub Səxtiyani, Rəbiə və onların təbəqələrindən olanlardır. Sonra isə Əbu Hənifə, Malik, Əvzai, İbn Cureyc, Məmər, İbn Əbu Ərubə, Sufyan Sovri, Həmmadeyn, Şubə, Leys, İbn Macişun və İbn Əbu Zib kimiləridir. Sonra isə İbn Mubarək, Müslim Zənci, Qazi Əbu Yusif, Həql bin Ziyad, Vəki, Vəlid bin Müslim və onların təbəqələrində olanlardır. Sonra Şafei, Əbu Ubeyd, Əhməd, İshaq, Əbu Sovr, Buveyti, Əbu Bəkr bin Əbu Şeybə kimilərdir. Sonra Məzni, Əbu Bəkr Əsrəm, Buxari, Davud bin Əli, Muhəmməd bin Nəsr Mərvəzi, İbrahim

---

[568] Minhacus-sunnə, c. 5, s. 513.

Hərbi, İsmail Qazi kimiləridir. Sonra Muhəmməd bin Cərir Təbəri, Əbu Bəkr bin Xuzeymə, Əbu Abbas bin Sureyc, Əbu Bəkr bin Munzir, Əbu Cəfər Tahavi, Əbu Bəkr Xəllal kimiləridir. Bu silsilədən sonra ictihad fəsada uğradı. Ən biliklərinə diqqət edilmədən, sadəcə ittifaqa, zövqə, təzimə, adətə və məmləkətə görə fəqihlər təqlidlə əbədiləşdirildi".[569]

Albani səqəleyn hədisini təshih etdikdən sonra Peyğəmbər Əhli-Beytinə tabe olduqlarını iddia etmişdir. Lakin İbn Teymiyyənin və Zəhəbinin yuxarıda qeyd etdiyimiz sözləri onun iddiasının puç olduğunu aşkar edir.[570]

İmam Tirmizi islam məmləkətlərində olan Sufyan Sovri, Malik, Şafei, Əhməd, İshaq bin Rahaveyh və başqaları kimi fiqh imamlarının məzhəblərini nəql etmişdir. Əhli-Beytin (ə) fiqhi barədə isə bir şey danışmamışdır.[571]

Sələfi şübhəsi

Əhli-Beyt (ə) məktəbinə qarşı qaldırılan şübhələrin əksəriyyətinin mənşəyi səhv müqaddimələr, cəfəng səfsətələr və qarşı tərəfin prinsiplərinin başa düşülməməsinə əsaslanır.

Sələfilərdən biri hörümçək toru olan internet şəbəkələrində yayılmış məşhur bir şübhəni mənə təqdim etdi. Həmin şübhənin cavabını burada qeyd edirəm ki, bu kimi şübhələrə heç kim aldanmasın və fayda daha ümumi olsun. Əvvəlcə onun sözünü qeyd edəcəm sonra isə qaldırdığı şübhəni cavablandıracam.

---

[569] Siyəru əlamin-nubəla, c. 8, s. 90.

[570] Silsilətul-əhadis-səhihə, c. 4, s. 355, hədis 1761.

[571] Bax; əl-İləl, c. 1, s. 333.

Buxari və Kafi arasında müqayisə

Sələfilərdən biri mənə belə yazmışdı:

Rəsulullahın (s) Əhli-Beytini sevmək imanın bir hissəsidir. Onları yalnız mömin sevər və onlara yalnız münafiq nifrət edər... Məlumdur ki, Rəsulullahın Əhli-Beytindən olan Əli, Fatimə, Həsən və Hüseyn kimi ilk olanlar cənnətlə müjdələnmişlərdir. Onlar və başqa səhabələr sünnənin sütunları olmalasalar da, əhli-sünnə vəl-cəmaənin bir hissəsidirlər... İndi baxaq görək əhli-sünnə Əhli-Beytin (ə) elmi irsindən nə götürmüşdür...

Əhli-sünnə kitablarında Əhli-Beyt rəvayətləri:

Rəsulullahın (s) hədisləri: Şiənin dörd kitabında Rəsulullahdan (s) nəql olunan hədislərin sayı 644 hədisdir. Amma əhli-sünnənin doqquz kitabında Rəsulullahdan (s) on minlərlərlə hədis nəql olunmuşdur! Onların hədislərinin əksəriyyəti Rəsulullahdandır (s).

Əli bin Əbu Talibin (ə) hədisləri: Əhli-sünnə Əhli-Beytin rəvayətlərinə böyük etimad göstərmişdir. Əli bin Əbu Talibin rəvayətləri Buxaridə təkrar olunanlarla bir yerdə 98 rəvayətdir. Təkrar olunmayan isə 34 rəvayətdir. Səhih Müslimdə Əlinin – Allah ondan razı olsun – 38 rəvayəti nəql olunmuşdur. Kiçik bir hesablama apardıqda nəticə belə olur: Əhli-sünnənin ən səhih kitablarında Əlidən 72 rəvayət nəql olunmuşdur. Hlabuki şiənin ən səhih kitabında, yəni əl-Kafidə Əlinin – Allah ondan razı olsun – Peyğəmbərə (s) nisbət verdiyi 66 hədis qeyd edilmişdir. Kim deyər hansı daha çox, hansı daha az nəql etmişdir? Hətta əhli-sünnə kitablarında Əlidən – Allah ondan razı olsun – nəql olunan hədislər Əbu Bəkrin rəvayətlərindən, hətta Ömərin rəvayətlərindən, hətta Osmanın rəvayətlərindən daha çoxdur. Hətta sizə gizlətmədən deyirəm ki, Əlidən nəql olunanlar Əbu Bəkr, Ömər və Osmanın birlikdə nəql etdiklərindən daha çoxdur.

Bu nə insafdır? Məgər indi demək olarmı ki, əhli-sünnə Əbu Bəkrə, Ömərə və Osmana düşməndir?

Fatimənin (ə) nəql etdiyi hədislər: Fatiməyə - Allah ondan razı olsun -gəlincə, Buxaridə ondan bir hədis nəql olunmuşdur (hədis 4462). əl-Kafidə isə onun (Peyğəmbərə) istinad edən heç bir dənə hədisi yoxdur. əl-Kafi doqquz cilddən ibarətdir. Fatimeyi-zəhraya (ə) qarşı cəfa etdiyi üçün əl-Kafinin müəllifinin – Kuleyninin – nasibi olmasını demək doğrudurmu?

Həsənin nəql etdiyi hədislər: Həsənin əhli-sünnə kitablarında 35 hədisi nəql olunmuşdur. Təkcə İmam Əhmədin Müsnədində Həsənin 18 hədisi qeyd edilmişdir.

Hüseynin nəql etdiyi hədisləri: Hüseynin – Allah ondan razı olsun – hədislərinə gəlincə, onun atası Əlidən (ə), onun da Rəsulullahdan (s) nəql etdiyi bir hədis Səhih Buxaridə kitabul-cumə bölümündə (hədis 1127) və kitabu fərzil-xums bölümündə (hədis 3091) qeyd edilmişdir. Həmin hədis Səhih Müslimdə də qeyd edilmişdir... yəni ümumilikdə dörd hədis. Halbuki əl-Kafidə bir rəvayət nəql olunmuşdur. Həmçinin Həsəndən də bu cür nəql olunmuşdur. Bütün bunlardan sonra şiənin ən səhih kitabı olan əl-Kafinin müəllifinin cənnət cavanlarının ağasına qarşı cəfa etdiyini söyləmək olarmı? Əhli-sünnənin doqquz kitabında isə 43 rəvayət nəql edilmişdir!

Muhəmməd Baqirin (ə) hədisləri: İndi İmam Muhəmməd Baqirə (ə) nəzər salaq. Bu, görkəmli, böyük mühəddisin doqquz kitabda 240 rəvayəti nəql olunmuşdur. Gəlin Muhəmməd Baqirlə (ə) peyğəmbərlərdən və mürsəllərdən sonra ən üstün olan şəxs olan Əbu Bəkrin rəvayətləri arasında müqayisə edək... Bununla da əhli-sünnənin insaflı olduğunu biləcəksiniz. Lakin haqq ağırdır və insaflı olmaq çətindir! Nə olub bu insanlara bir şey bilmirlər və haqdan yayınırlar?!

Muhəmməd Baqirin (ə) Səhih Müslimdə 19 rəvayəti nəql olunmuşdur. Halbuki Siddinqin 9 rəvayəti qeyd edilmişdir. Bundan artıq insaflı olmaq olarmı?! Nəsainin Sünənində Muhəmməd Baqirdən 56 rəvayət nəql olunduğu halda Əbu Bəkrdən 22 rəvayət nəql olunmuşdur. Belə olduğu halda insaflı biri əhli-sünnəni Əhli-Beytin elmi irsinə qarşı cəfa etdiyini söyləyərmi?[572]

Cəfər Sadiqin nəql etdiyi hədislər: İndi isə böyük İmam Cəfər Sadiqin (ə) rəvayətlərinə nəzər salaq. Doqquz kitabda ondan 143 rəvayət nəql olunmuşdur... Əhli-sünnədə etimad edilən altı kitabın müəllifləri (Müslim, Əbu Davud, Tirmizi, Nəsai, İbn Macə), Buxaridən başqa hamısı İmam Cəfər Sadiqdən rəvayət qeyd etmişlər. Buxari əl-Ədəbul-mufrəd kitabında ondan iki hədis nəql etmişdir. Zəhlə tökən biri nə üçün Buxari Səhihində Cəfər Sadiqdən rəvayət nəql etməmişdir deyə bilər. Ona cavab olaraq belə deyirik: Nə üçün Buxari Əbu Hənifə, Şafei, Əhməd bin Hənbəl, İmam Müslim və başqa böyük imamlardan hədis nəql etməyib? Bu onun üçün nöqsandır, yoxsa səhih kitablarında tətbiq etdikləri müəyyən şərtlərə əsaslanmasından irəli gəlirdi?

Şübhənin cavabı

"Rəsulullahın (s) Əhli-Beytini sevmək imanın bir hissəsidir. Onları yalnız mömin sevər və onlara yalnız münafiq nifrət edər... Məlumdur ki, Rəsulullahın Əhli-Beytindən olan Əli, Fatimə, Həsən və Hüseyn kimi ilk olanlar cənnətlə müjdələnmişlərdir. Onlar və başqa

[572] Bu şəxsin imamiyyə kitabları və prinsipləri barədə dəqiq məlumatı yoxdur. əl-Kafi kitabı 7 hissədən ibarətdir. Səkkizinci hissə isə ər-Rovzə adlanır. Səhabələrin rəvayətlərini Əhli-Beytin rəvayətləri ilə müqayisə etmək doğru deyil. Səhabə yalnız nəql rolunu oynayır. Bizim nəzərimizdə isə Əhli-Beyt məsumdur və Quranın tayıdır. Cavab verərkən bu barədə müfəssəl danışacağıq.

səhabələr sünnənin sütunları olmalasalar da, əhli-sünnə vəl-cəmaənin bir hissəsidirlər".

Nə qədər arzu edərdik ki, Əhli-Beyt sünnənin sütunlarından olsun. Əhli-Beytin və ya Əli (ə)-ın məhəbbətini imandan, onlara nifrət etmək isə münafiqlik əlamətindən hesab edən hədisi əməli olaraq tətbiq edərdik! Lakin onun sözləri iddiadan başqa bir şey deyil. Necə ki, belə deyirlər, vərəq üzərində mürəkkəbdən başqa bir şey deyil. Əgər bu iddialarında doğru olsaydılar dini təlimlərin öyrənilməsində etimad etdikləri bütün nasibi raviləri bir kənara atardılar və Peyğəmbər Əhli-Beytinə qarşı çıxan bütün düşmənlərdən üz döndərərdilər. Onlar səhabələrin düşmənlərindən və onlara nifrət edənlərdən üz döndərirlər. Halbuki Əhli-Beytin (ə) məhəbbəti Qurani-Kərimdə vacib buyurulmuşdur. Onları sevmək iman, onlara nifrət bəsləmək isə nifaq əlamətidir. Bununla yanaşı onlar Əhli-Beytə (ə) nifrət bəsləyənlərdən razı qalır, onları etibarlı hesab edir və sünnənin nəqlində onları başqa ravilərdən üstün tuturlar!

Bu sələfi əvvəlcə belə deyir: **"Şiənin dörd kitabında Rəsulullahdan (s) nəql olunan hədislərin sayı 960 hədisdir. Amma əhli-sünnənin doqquz kitabında Rəsulullahdan (s) on minlərlər hədis nəql olunmuşdur! Onların hədislərinin əksəriyyəti Rəsulullahdandır (s)".**

Bu, onların sadəlövlüklə yerinə yetirdikləri gözdən salma əməllərindəndir. Onlar imamiyyə məktəbinin onların məzhəb prinsipləri ilə müştərək prinsiplərə sahib olduğunu güman edirlər. Əgər imamiyyə prinsiləri onlara müxalif olarsa bunu nöqsan hesab edir və irad tuturlar. Bu köklü məktəbin xüsusiyyətlərinə göz yumurlar.

Bu sözü deyən şəxs Əhli-Beyt imamlarının (ə) bütün hədislərinin, xüsusilə də, halal və haram məsələlərdə, Peyğəmbərdən (s) götürüldüyünü bilmir. Bu barədə imamlar (ə) özləri bəyan etmişlər. İmamlardan hər hansı birinin dediyi hədis Rəsulullahdan (s) götürülmüşdür.

Muhəmməd Əbu Zöhrə Əzhəri deyir: "Bu övladlar atalarının elmi irsini qorumuşlar. O, hidayət imamı idi. Onun elmini itməkdən qorudular. Bu elm onlarla Mədinəyə köçdü... Bununla da belə nəticəyə gəlirik ki, Əli evində Əlidən – Allah ondan razı olsun – nəql olunan kamil rəvayət elmi var. Onun Rəsulullahdan kamil surətdə nəql etdiklərini ondan nəql etmişlər. Ondan kamil surətdə və ya kamilliyə yaxın bir tərzdə fətvalarını və fiqhini nəql etmişlər. Bu parlaq elmi hörməti qorunan birevin içində saxlamışlar... Əhli-Beytin elminin böyük hissəsi Əlinin elmi idi. Onun zəngin mirası olaraq Əhli-Beytə çatmışdır".[573]

Səid bin Əbu Məryəm deyir: "Əbu Bəkr bin İyyaşa dedilər: "Cəfər Sadiqi (ə) gördüyün halda nə üçün ondan nəql etmirsən?". O, belə dedi: "Onun nəql etdiyi hədislər barədə "kimdən eşitmisən?" -deyə soruşduq. O da "Heç kimdən eşitməmişəm. Biz bu rəvayətləri atalarımızdan nəql edirik" dedi".[574]

İbn Səid deyir: "Bir dəfə ondan- Cəfər Sadiqdən – "Bu hədisləri atandan eşitmisən?" deyə soruşdular. O "Bəli" dedi. Bir dəfə də soruşulduqda "Atamın kitablarında rast gəlmişəm" dedi".[575]

Muhəmməd bin Əli Baqir bin Əli bin Hüseyndə çoxlu kitablar var. Həmin kitabların bəzilərini oğlu Cəfər Sadiq eşitmiş, bəzilərini isə oxumuşdur.[576]

Cəfər Sadiq (ə) buyurmuşdur: "Mənim hədisim atamın hədisidir. Atamın hədisi babamın hədisidir. Babamın hədisi atasının hədisidir. Onun atasının hədisi Əli bin Əbu Talibin hədisidir. Əlinin hədisi Rəsulullahın (s) hədisidir. Rəsulullahın hədisi isə Allah-taalanın sözləridir".[577]

---

[573] əl-İmam əs-Sadiq, s. 163, 164.

[574] Təhzibut-təhzib, c. 2, s. 88.

[575] Həmin mənbə, c. 2, s. 104.

[576] Həmin mənbə, c. 2, s. 104.

[577] əl-Kafi c, 1, s. 53.

İmam Cəfər Sadiq (ə) buyurub: "Allaha and olsun ki, biz öz həvayi-nəfsimizdən bir şey uydurub demirik. Biz öz rəyimizi söyləmirik. Yalnız Rəbbimizin buyurduqlarını deyirik. Sənə verdiyim bütün cavablar Rəsulullahdandır. Biz hər hansı bir şeydə öz rəyimizi söyləmərik".[578]

Bir nəfər Əbu Abdullah Sadiqdən (ə) bir məsələ barədə soruşdu və imam ona cavab verdi. Həmin adam dedi: "Necə fikirləşirsən? Əgər filan-filan cür olsa bu barədə rəy necə olacaqdır?" (İmam) ona dedi: "Sənə verdiyim cavab Rəsulullahdandır (s). Biz hər hansı bir şeydə rəy söyləmirik".[579]

İmam Baqir (ə) buyurub: "Əgər biz sizə öz rəyimizə və həvayi-nəfsimizə əsasən söz desəydik həlak olanlardan olardıq. Lakin biz camaat qızıl və gümüşlərini topladığı kimi Rəsulullahdan (ə) xəzinə olaraq əldə etdiyimiz hədisləri söyləyirik".[580]

Bəziləri Əban bin Təğlubu İmam Baqirə (ə) yaxın münasibət bəslədiyi və ondan nəql etdiyi üçün danlamışdır. O isə belə demişdir: "Elə bir adamdan rəvayət etdiyimə görə məni danlayırsınız ki, soruşduğum elə bir şey olmadı ki, "Rəsulullah (s) belə buyurmuşdur" deməsin".[581]

İmam Baqirin (ə), İmam Sadiqin (ə), İmam Rzanın (ə) və digər imamların bütün hədisləri Rəsulullahın (s) sözləridir. Onlarda Rəsulullahın (ə) diqtəsi və Əlinin (ə) xətti ilə yazılmış bir və ya bir neçə yazılı kitab olmuşdur. İmam Cəfər Sadiq (ə) səhabələrindən olan Əbu Nəsirə belə demişdir: "Ey Əbu Muhəmməd, bizdə əl-Camiə var. Onlar hardan bilsinlər ki, əl-Camiə nədir? Mən dedim: "Sənə fəda olum! əl-Camiə nədir?" (İmam) buyurdu: "Rəsulullahın (s) dirsəyi ilə yetmiş dirsək uzunluğunda (dəri) səhifədir. Rəsulullahın ağzından söylənilmiş və Əlinin

---

578 Biharul-ənvar, c. 2, s. 173. Səffarın Bəsairud-dəracat kitabından nəql etmişdir.

579 əl-Kafi, c. 1, s. 58.

580 Biharul-ənvar, c. 2, s. 172. Bəsairud-dəracat kitabından nəql etmişdir.

581 Biharul-ənvar, c. 53, s. 77.

əli ilə yazılmışdır. Orada bütün halal və haramlar var. Orada insanların möhtac olduqları hər şey, hətta cırmağın diyəsi belə yazılmışdır”.[582]

Əbulhəsən bin Babaveyh mötəbər sənədlə İmam Baqirdən (ə), o da atalarından (ə) belə nəql edir: “Rəsulullah (s) Əmirəlmömininə (ə) belə dedi: “Sənə dediklərimi yaz!” (Əli) dedi: “Ey Allahın peyğəmbəri, unudacağımdan qorxursan?” (Peyğəmbər) dedi: “Sənin uçün unutqanlıq qorxum yoxdur. Allaha dua etmişəm ki, səni qorusun və heç nəyi sənə unutdurmasın. Lakin bunu şəriklərin üçün yaz”. (Əli) dedi: “Ey Allahın peyğəmbəri, mənim şəriklərim kimlərdir?” (Peyğəmbər) belə dedi: “Sənin övladlarından olan imamlar...”.[583]

Əzafir Seyrəfi belə nəql edir: “Həkəm bin Uteybə ilə birlikdə Əbu Cəfərin (ə) yanında idim. Ondan suallar soruşurdu. Əbu Cəfər (ə) ona çox hörmət edirdi. Bir məsələ barədə ixtilaf etdilər. Əbu Cəfər (ə) dedi: “Oğlum, Əlinin (ə) kitabını gətir. Dəridə yazılmış bir kitab gətirdilər. O kitaba baxaraq həmin məsələni tapdı.

Əbu Cəfər (ə) dedi: “Bu, Əlinin (ə) xətti və Rəsulullahın (s) imlası (diktəsi) ilə yazılıb”. Sonra Həkəmə yaxınlaşıb dedi: “Ey Əbu Muhəmməd, sən və Əbulmiqdad hara istəyirsiniz gedin, sağa ya sola üz tutun! Allaha and olsun ki, Cəbrayılın (ə) endiyi hər hansı bir qövmdə bundan etibarlı elmə rast gəlməyəcəksiniz”.[584]

Qeyd edilənlərdən bu və bu şəxsin düşüncəsində olanların necə səhvə yola verdiklərini dərk edirik. Bununla yanaşı bu şəxsin dediklərinin səhv olduğunu izah edəcəyik.

---

[582] əl-Kafi, c. 1, s. 239.

[583] əl-İmamə vət-təbsirətu minəl-hiyrə”, s. 54, hədis 38; Bəsairut-dəracat, c. 1, s. 167.

[584] Nəcaşi, əl-Fihrist, c. 2, s. 261. “Dəvətin gələcəyi” kitabımızda bu məsələni daha müfəssəl izah etmişik.

Şübhə sahibi deyir: **"Şiənin dörd kitabında Rəsulullahdan (s) nəql olunan hədislərin sayı 644 hədisdir".**

Onun dediyi bu say dəqiq deyil. Bəlkə də o, bunu qəsdlə demişdir. əl-Kafi kitabında Peyğəmbərdən (s) nəql olunan hədisləri araşdırdım. Təkcə əl-Kafi kitabında 890 hədisə rast gəldim. Sonra Vəsailuş-şiə, Mustədrək aləl-vəsail və Xatimətul-vəsail kitablarında Rəsulullah buyurdu, Peyğəmbər dedi kimi ifadələrlə 9500 dən çox sayda hədisə rast gəldim. Bütün bu hədislər hamısı Rəsulullaha (s) istinad edilir. Həmçinin bu hədislər yalnız fiqh sahəsində olan hədislərdir!

Şübhə sahibinin **"Amma əhli-sünnənin doqquz kitabında Rəsulullahdan (s) on minlərlər hədis nəql olunuşdur!"** sözlərinə gəlincə, sünən kitablarını nəzərə alsaq bu doğrudur. Bəzi hədis alimləri həmin hədislərin sayının altı yüz min səhih hədis olduğunu demişdir.[585] Lakin bu hədislərin əksəriyyəti indi mövcud deyil. Ən böyük bəla məhz budur. Lakin qeyd etdikləri bu minlərlə hədislərin nə qədəri səhihdir? İbn Həcərin "ən-Nukət alə İbnussalah" kitabında dediklərinə əsasən səhih hədislərin sayı dörd min dörd yüz hədisdir. O, təkrar olunmayan səhih hədisləri nəzərdə tutmuşdur. Biz bu hədislərin hamısının səhih olmasını qəbul etmirik. Çünki bu hədislərin çoxu kiçik səhabələr tərəfindən nəql olunmuşdur. Onların çoxları səhabələrdən sayılan bəzi münafiqlərdən hədis nəql edirdilər.

Şiə kitablarında nəql olunan hədislərin sayı da minlərlədir. Çünki imamlardan nəql olunan hədislərin – hamısı olmasa da – əksəriyyətinin mənbəyi adını qeyd etməsələr də Peyğəmbərdir (s). Yuxarıda qeyd

---

[585] Bu Əhməd bin Hənbəldən nəql olunmuşdur. Bax; Siyuti, "Tədribur-ravi", c. 1, s. 50; Təhzibut-təhzib, c. 7, s. 30. Şöbə, Yahya bin Səid, Əbdürrəzzaq, İshaq bin Rahaveyh və İbn Muin sənədli hədislərin 4400 olduğunu demişlər. Bax; Zərkəşi, "ən-Nukətu alə muqəddiməti İbn Salah", c. 1, s. 181, 183.

etdiyimiz kimi bu məsələ imamiyyə məzhəbində qəbul olunmuş bir məsələdir. İmamiyyə məzhəbində nəql olunan şəriət hökmləri ilə bağlı hədislər başqa məzhəblərdə nəql olunanlardan qat-qat çoxdur. İki kitab arasında kiçik bir müqayisə aparsaq fərq bizə məlum olacaqdır.

Əhli-sünnənin ən əsas kitablarından biri İbn Həcər Əsqəlaninin "Buluğul-məram min ədillətil-əhkam" kitabıdır. Bu kitab orta həcmli bir cilddən ibarətdir. Bu kitabda təqribən 500 hədis qeyd edilmişdir. (Kitab şəriət hökmlərinin dəlillərindən bəhs edir). Amma şiə məzhəbində şəriət hökmləri ilə bağlı ən əasas kitablardan biri "Vəsail əş-Şiə" kitabıdır. Bu kitab böyük həcmdə 18 cilddən ibarətdir. Bu kitabda təqribən 36000 hədis nəql olunmuşdur. Sonradan Şeyx Nuri Vəsail əş-Şiə kitabında olmayan hədisləri "Müstədrəkul-vəsail" adlı kitabda toplamışdır. Bu kitabda isə 23000 dən çox hədis qeyd edilmişdir. Ümumilikdə şiə məzhəbində şəriət hökmləri ilə bağlı 60000 dən çox hədis var.

Biz şübhə sahibinin Peyğəmbərin (s) hədisləri barədə qeyd etdiyi saya şübhə etmirik, ümumiyyətlə onun dediyi hər bir rəqəmin doğru olmasında şübhə edirik. Məlumdur ki, imamiyyə məzhəbində dörd hədis kitabından başqa digər məşhur hədis kitabları da var. İmamların (ə) səhabələri onların kəlamlarını ehtiva edən çoxlu kitablar yazmışlar. Həmin kitablarda olanların bəziləri dörd kitabda, bəziləri isə başqa kitablarda yazılmışdır. Buna görə də müqayisə apararkən yalnız dörd kitaba əsaslanmaq doğru deyil.

Şübhə sahibi sonra belə deyir: **"Əli bin Əbu Talibin rəvayətləri Buxaridə təkrar olunanlarla bir yerdə 98 rəvayətdir. Təkrar olunmayan isə 34 rəvayətdir. Səhih Müslimdə Əlinin – Allah ondan razı olsun – 38 rəvayəti nəql olunmuşdur. Kiçik bir hesablama apardıqda nəticə belə olur: Əhli-sünnənin ən səhih kitablarında Əlidən 72 rəvayət nəql olunmuşdur. Halbuki şiənin ən səhih kitabında, yəni əl-Kafidə Əlinin – Allah ondan razı olsun –**

Peyğəmbərə (s) nisbət verdiyi 66 hədis qeyd edilmişdir. Kim deyər hansı daha çox, hansı daha az nəql etmişdir? Hətta əhli-sünnə kitablarında Əlidən – Allah ondan razı olsun – nəql olunan hədislər Əbu Bəkrin rəvayətlərindən, hətta Ömərin rəvayətlərindən, hətta Osmanın rəvayətlərindən daha çoxdur. Hətta sizə gizlətmədən deyirəm ki, Əlidən nəql olunanlar Əbu Bəkr, Ömər və Osmanın birlikdə nəql etdiklərindən daha çoxdur".

İnsanlarda belə bir təsəvvür yaratmaq istəyir ki, onun apardığı müqayisə doğrudur və reallığı əks etdirir. Burada sanki Əli (ə)-a hörmət göstərilmiş və təqdir edilmişdir. Lakin müqayisənin səhv əsaslar üzərində apardığı məlum olduqda bu fikir öz əsasını tapmır.

Ümumiyyətlə adları çəkilən üç xəlifə ən az rəvayət edən şəxslər olmuşlar.

Sənani deyir: "Əbu Bəkr Siddiqin böyük məqama sahib olmasına, hamıdan əvvəl İslamı qəbul etməsinə və Peyğəmbərlə (s) həmişə bir yerdə olmasına baxmayaraq az hədis nəql etməsinin səbəbi insanların hədis dinləməyə və əzbərləməyə diqqət yönəltdikləri zamandan əvvəl onun vəfat etməsidir".[586]

Muhəmməd Ucac əl-Xətib – hədis elmində ustad – Əbu Bəkr və Ömər haqqında belə deyir: "Onların hər ikisi Peyğəmbərdən (s) çox elm əldə etmişlər. Onlar, xüsusilə də, Əbu Bəkr bütün elmlərini bizə aşkar etməmişlər. Çünki Əbu Bəkr Rəsulullahdan sonra çox yaşamadığı üçün buna ehtiyac duyulmamışdır...".[587]

İlk üç xəlifə Peyğəmbərdən (s) hədis nəql etməyə qadağa qoymuş və insanlara hədis nəql etməməyi əmr etmiş, hətta yazılmış sünnələri yandırmışlar. Belə olduğu halda Əli (ə)-dan daha çox hədisi necə nəql edə

---

[586] Tovzihul-əfkar, s. 429.

[587] Usulul-hədis, s. 403.

bilərdilər? Onların hədisə qarşı etdiklərinə dair bəzi nümunələr qeyd edirik:

İbn Əbu Muleykə deyir: "Siddiq Peyğəmbərin vəfatından sonra insanları bir yerə topladı və onlara belə dedi: "Siz Rəsulullahdan (s) fərqli hədislər nəql edirsiniz. Sizdən sonrakı inanlar daha çox ixtilafa düşəcəklər. Rəsulullahdan heç bir hədis söyləməyin. Kim sizdən bir şey soruşarsa ona belə deyin: "Bizimlə sizin aranızda Allahın kitabı var. Onun halalını halal, haramını isə haramı edin".[588]

Aişə belə deyir: "Atam Rəsulullahdan (s) nəql olunan hədisləri cəm etdi. Beş yüz hədis idi. Həmin gecəni iztirab içində keçirdi. Buna görə narahat oldum. Ona dedim: "Bir yerin ağrıdığı üçün iztirab keçirirsən, yoxsa nəsə bir şey eşitmisən?" Səhər tezdən olanda mənə dedi: "Qızım səndə olan hədisləri gətir". Hədisləri ona gətirdim. Sonra od gətizdirib hədisləri yandırdı. Mən dedim: "Nə üçün onları yandırdın?" (Əbu Bəkr) dedi: "Öləcəyimdən və bu hədislərin məndə qalacağından qorxuram. Burada inandığım və etibar etdiyim bir şəxsdən elə hədislər nəql oluna bilər ki, həmin hədis onun nəql etdiyi kimi olmamışdır. Nəticədə mən də həmin hədisi nəql etmiş olaram".[589]

Yəhya bin Cədə belə nəql edir: "Ömər bin Xəttab sünnəni yazmaq istəyirdi. Sonra isə yazmamaq qərarına gəldi. Sonra hər tərəfə məktub yazdı ki, kimdə yazılı bir şey varsa onu pozsun!"[590]

Qərzə bin Kəb belə nəql edir: " İraqa səfər üçün (Mədinədən) çıxdıq. Ömər bin Xəttab bizimlə birlikdə Sirara kimi – Mədinə yaxınlığında yerdir – piyada gəldi. Orada dəstəmaz aldı. Sonra belə dedi: "Bilirsiniz sizinlə niyə gəldim?" (Səhabələr) dedilər: "Bəli. Biz Rəsulullahın (s) səhabələriyik. Ona görə də bizimlə birlikdə piyada gəldin". (Ömər) dedi:

---

[588] Təzkirətul-huffaz, c. 1, s. 2, 3.

[589] Təzkirətul-huffaz, c. 1, s. 5.

[590] Camiu bəyanil-ilmi, c. 1, s. 64, 65.

“Siz elə bir şəhərin əhalisi yanına gedirsiniz ki, onların arı vızıltısı kimi Quran oxunuşları var. Onlara heç bir hədis söyləməyin ki, sizi bu işə məşğul etsinlər. Quranı ciddi cəhdlə oxuyun və Rəsulullahdan az rəvayət nəql edin. Gedin! Mən də (bu xeyir əməldə) sizə şərikəm”. Qərzə (İraqa) gəldikdə ona bizə hədis söylə dedilər. (Qərzə) belə dedi: “Xəttabın oğlu bunu bizə qadağan edibdir!”[591]

İbn Səd Abdullah bin Əladan belə nəql edir: “Qasimdən yazmaq üçün mənə hədis söyləməsini istədim. Mənə belə dedi: “Ömər bin Xəttabın zamanında hədislər çox nəql olunurdu. İnsanlardan yazılı hədisləri ona gətirmələrini istədi. Yazılı hədisləri ona gətirdikdə onların yandırılmasını əmr etdi. Sonra belə dedi: “Kitab əhlinin yazdıqları yazılar kimi”. (Abdullah bin Əla) dedi: “Həmin gün Qasim mənə hədis yazmağı qadağan etdi”.[592]

İbn Quteybə deyir: “Ömər çox rəvayət nəql edənlərə qarşı sərt davranırdı...”[593]

Şübhənin sahibi münasib olmayan üç şəxs seçib onların nəql etdiyi hədislərlə Əli (ə)-ın hədisləri arasında müqayisə aparmışdır. Görəsən şübhə sahibi nə üçün Peyğəmbərin yanında ən az müddət olmasına baxmayaraq 5374 hədis nəql edən Əbu Hüreyrəni və ya 2630 nəql edən Abdullah bin Öməri seçməmişdir?[594]

Onların Əli (ə)-dan bu sayda, digər xəlifələrdən isə ona nisbətdə az rəvayət nəql etmələrini demələri Əli (ə)-a tabe olmaları istəklərindən irəli gəlmirdi. Əksinə həmin xəlifələr onlardan az rəvayət nəql olunmasına səbəb yaratmışdılar. Əli (ə) Rəsulullahdan (s) çox hədis nəql

---

[591] əl-Mustədrək, c. 1, s. 64, 65; Sünəni Darami, c. 1, s. 85; Təzkirətul-huffaz, c. 1, s. 524; Sünəni İbn Macə, c. 1, s. 12; Camiu bəyanil-ilmi, c. 2, s. 120.

[592] ət-Təbəqat, c. 5, s. 188; Xətib Bağdadi, “Təqlidul-ilm”, s. 52.

[593] Təvilu muxtələfil-hədis, s. 39.

[594] İbn Həzm, “Əsmaus-sahabə ər-ruvat”, s. 32.

edənlərdən idi. O, hicrətin 40-cı ilinədək yaşadı. Onların Əlidən (ə) nəql etdikləri hədislər o həzrətin elminə nisbətdə olduqca azdır. Şeyx Muhəmməd Əbu Zöhrə bu məsələni etiraf edərək belə deyir: "Etiraf etməyimiz vacibdir ki, Əlinin (ə) fiqhi, fətvaları və hökmləri onun xəlifəliyi müddətinə uyğun olacaq dərəcədə sünni kitablarında nəql olunmamışdır. Hətta özündən əvvəlki raşidi xəlifələrinin dövründə məşğul olduğu elm və fətva müddətilə də uyğun deyil. Onun bütün həyatı fiqh və din elmi üçün olmuşdur. O, səhabələr isçərisində Rəsulullaha (s) ən çox bağlı olan şəxs idi. Rəsulullah (s) peyğəmbər seçilmədən əvvəl belə uşaq ikən onun yanında olmuşdur. Allah Rəsulullahı (s) haqqa qovuşduranadək ondan ayrılmamışdır. Buna görə də sünni kitablarında ondan qeyd olunanlardan qat-qat çox hədis nəql olunmalı idi".[595]

Daha sonra şübhə sahibi Müsnədi Əhmədi misal çəkərək təkcə İmam Əhmədin Əlidən (ə) 804 hədis nəql etdiyini deyir. Bu isə dörd şiə kitabında Əlidən nəql olunan 690 hədisdən çoxdur.

Müsnədi Əhməddə qeyd edilən bu ədəd əhli-sünnənin digər hədis kitablarında İmam Əlidən (ə) qeyd edilən hədislərə də aiddir. Hətta bu sayın şiə kitablarında İmam Əlidən (ə) nəql olunan hədislərlə müqayisə etmək istəsək bu say imamiyyənin Əli (ə)-dan nəql etdikləri müqabilində çox azdır. Həsən Qabancinin qələmə aldığı Müsnədi Əli (ə) kitabı on ciliddən ibarətdir. Bu kitabdakı bütün hədislər Əhli-Beytdən (ə) nəql olunmuşdur. Müəllif İmam Əlinin (ə) hədislərini bu kitabda toplamışdır. Bu hədislərin sayı 11451 hədisə çatmışdır. Bu iki kitab arasında indi müqayisə etməyin bir mənası varmı? İndi aydın oldu ki, şiələr İmam Əlidən (ə) nə qədər hədis nəql etmişlər?!

Bəlkə də Əhməd İmam Əlidən (ə) hədis nəql etməklə başqalarının xarab etdiyini islah etmək istəyirdi. Çünki İmam Əli (ə) müsəlmanların mənbərlərindən söyülürdü. Məhz Əhməd ilk dəfə İmam Əlini dördüncü

[595] əl-İmam əs-Sadiq, s. 162.

xəlifə hesab etmişdi! Bəla məhz budur! İmam Əli (ə) Əhməd bin Hənbəlin zamanınadək şəri xəlifə hesab edilmirdi!

Bu hədislər – hamısını demirəm – şübhəlidir. İnsanların çoxu İmam Əlinin (ə) adından yalan hədislər uydurmuşlar. Öz məzhəblərini dəstəkləmək üçün muta nikahının haram olması və ya üç xəlifənin özündən üstün tutması kimi İmam Əliyə (ə) yalan hədislər nisbət vermişlər.[596]

Dediklərimizi təsdiqləyən dəlillərdən biri də İbn Həzmin İmam Əlidən (ə) nəql olunan hədislərin yalnız əllisinin doğru olduğunu hesab etməsidir.[597]

Bütün bunlardan sonra İmam Əlinin (ə) hədisləri ilə xəlifələrin nəql etdiyi hədisləri müqayisə etməyin bir mənası qalırmı? Qeyd etdiklərimizdən sonra belə bir müqayisə doğrudurmu?!

Şübhə sahibinin **"Bu isə dörd şiə kitabında Əlidən nəql olunan 690 hədisdən çoxdur"** deməsinə gəlincə, onun düzgün olmayan prinsiplərdən çıxış etməsindən irəli gəlir. İmamiyyə ilə onların etiqad etdikləri prinsiplər əsasında söhbət etmək lazımdır. Çünki əhli-sünnə özü belə, başqalarının onların prinsiplərinə əsasən diskusiya etməsini tələb edirlər. Onun bu sözü doğru prinsiplərə əsaslanmır. Onlar digər imamların da hədislərini hesablamalı idilər. Çünki onlardan nəql olunan hədislər adı qeyd edilməsə də İmam Əlidən (ə) götürülmüşdür.

Şübhə sahibi deyir: **"Fatiməyə - Allah ondan razı olsun -gəlincə, Buxaridə ondan bir hədis nəql olunmuşdur (hədis 4462). əl-Kafi kitabında isə onun nəql etdiyi heç bir dənə hədis yoxdur. əl-Kafi doqquz cilddən ibarətdir. Fatimeyi-zəhraya (ə) qarşı cəfa etdiyi**

---

[596] Əhməd bin Hənbəl hicri 241-ci ildə vəfat etmişdir. Qeyd etmək lazımdır ki, o, özündən əvvəlki hədis alimlərindən fərqli olaraq İmam Əlinin (ə) bəzi fəzilətlərini qeyd etmişdir.

[597] əl-Miləl vən-nihəl, c. 3, s. 60.

üçün əl-Kafinin müəllifinin – Kuleyninin – nasibi olmasını demək doğrudurmu?"

Bu sualı dəyişərək elə həmin şəxsin özünə veririk. Nə üçün Buxari Fatimeyi-zəhradan (ə) yalnız bir dənə rəvayət nəql etmişdir. Nə üçün Peyğəmbərin (s) qızı və aləmlərin qadınlarının xanımından bu qədər az rəvayət nəql etmişdir?

Gərək bir şey yazarkən insaflı olaq! Fatimə (ə) atasından (s) sonra bir neçə ay yaşamışdır. Bu müddət atasından eşitdiklərini nəql etmək üçün yetərli bir zaman deyil. Bununla yanaşı xəlifələr tərəfindən Peyğəmbərdən (s) hədis nəql etməyə qadağa qoyulmuşdur. Lakin Fatimənin (ə) övladları atasının vəfatından sonra baş verən hadisələr barədə ondan çoxlu hədislər nəql etmişlər. Bununla yanaşı əl-Kafi kitabına müraciət edərək Fatimədən (ə) çoxlu sayda nəql olunan rəvayətlərlə rast gəldim.[598]

Özündən müştəbeh olan bu şəxsin "əl-Kafi kitabında isə onun nəql etdiyi heç bir dənə hədis yoxdur" sözləri sadəcə quru iftiradan başqa bir şey deyil. Həmçinin Müsnədi Əhməddə Fatimədən (ə) nəql olunanlarla yalnız Usul əl-Kafidə nəql olunan arasında müqayisə aparmaq doğru deyil. Burada imamiyyə mənbələrində nəql olunan bütün rəvayətləri araşdırmaq lazımdır. Əhli-sünnənin Fatimədən (ə) doqquz rəvayət nəql etmələri onların Fatiməyə (ə) tabe olmaları və ona etimad edərək ondan rəvayət etmələri anlamındadırmı? Bunu da qeyd edim ki, həmin rəvayətlərdən yalnız ikisini səhih hesab etmişlər![599]

Görəsən şübhə sahibi nə üçün Aişəni qeyd etməmiş, onun nəql etdiyi hədislərləri Zəhranın (ə) nəql etdiyi hədislərin sayı ilə müqayisə etməmişdir. Onlar Fatimədən (ə) yeddi rəvayət nəql etdikləri halda

---

[598] Bax; əl-Kafi, c. 1, s. 242, 527, 528; c. 2, s. 500; c. 3, s. 342, 343.

[599] Siyutinin Müsnədi Fatimətuz-zəhra kitabında belə qeyd edilmişdir.

Aişədən 5636 hədis nəql etmişlər.[600] Əgər bu zülm və cəfa deyilsə, bəs zülm və cəfa nədir?

Fatimənin (ə) nəql etdiyi yeddi hədislə Aişənin nəql etdiyi 5636 hədislə müqayisə olunması doğrudurmu? Məşhur rəyə əsasən Aişədən 2210 hədis nəql olunmuşdur. Yenə də onunla Fatimənin (ə) nəql etdiyi hədislər arasındakı fərq çox böyükdür.

İmamiyyə məzhəbinə gəlincə təkcə Fatimeyi-zəhranın (ə) əzəmətli xütbəsini nəql etsəydilər kifayət edərdi. Həmin xütbədə yüzlərlə hədislərə dəyəcək qədər elm və bilgilər var. Fatimeyi-Zəhranın (ə) Əhli-Beyt yolu ilə nəql olunan hədislərinin sayını bilmək istəyən Əzizullah Utaridinin qələmə aldığı Müsnədi Fatimə (ə) kitabına müraciət edə bilər.

Şübhə sahibi deyir: **"Həsənin əhli-sünnə kitablarında 35 hədisi nəql olunmuşdur. Təkcə İmam Əhmədin Müsnədində Həsənin 18 hədisi qeyd edilmişdir".**

Dəyəsən bu şəxs təkrar olunan hədisləri də saymışdır. İbn Həzm İmam Həsəndən (ə) 13 hədis qeyd etmişdir.[601]

Bu qədər sayda hədis Əbu Hüreyrənin, İbn Ömərin və Aişənin nəql etdiyi rəvayətlərlə müqayisə oluna bilərmi? Əbu Hüreyrə 5374, İbn Ömər isə 2630 hədis nəql etmişdir. Peyğəmbər (s) səqəleyn hədisində bizə Əbu Hüreyrə və İbn Ömərə tabe olmağı tövsiyə etmişdir, yoxsa İmam Həsənə (ə) tabe olmağı əmr etmişdir? İmam Həsən (ə) uzun zaman yaşamasına baxmayaraq nə üçün ondan az hədis nəql etmişlər? İmamiyyə kitablarında bu şəxsin iddiasının əksinə olaraq İmam Həsəndən (ə) çoxlu sayda hədislər nəql olunmuşdur. Əzizullah Utaridinin "Müsnədi İmam

---

[600] Bu say Doktor Əbdülmunim Hufninin tədqiqatına əsasən deyilmişdir. O, Ummul-möminin Aişə binti Əbu Bəkrin barəsində yazdığı kitabın müqaddiməsində belə deyir: "Bu kitabda 5636 hədis var. Hamısı möminlərin anası Aişədəndir... Hətta onun nəql etdiyi hədislərin sayı Əbu Hüreyrənin və Ənəsin nəql etdiyi hədislərin sayından daha çoxdur..."

[601] Əsmaus-sahabə ər-ruvat, s. 143.

Həsən” kitabı 800 səhifədən ibarətdir. Bu kitabda İmam Həsəndən (ə) çoxlu sayda hədislər qeyd edilmişdir.

Sonra belə deyir: **“Hüseynin – Allah ondan razı olsun – hədislərinə gəlincə, onun atası Əlidən (ə), onun da Rəsulullahdan (s) nəql etdiyi bir hədis Səhih Buxaridə kitabul-cumə bölümündə (hədis 1127) və digər biri isə kitabu fərzil-xums bölümündə (hədis 3091) qeyd edilmişdir. Həmin hədis Səhih Müslimdə də qeyd edilmişdir... yəni ümumilikdə dörd hədis. Halbuki əl-Kafidə bir rəvayət nəql olunmuşdur. Həmçinin Həsəndən də bu cür nəql olunmuşdur. Bütün bunlardan sonra şiənin ən səhih kitabı olan əl-Kafinin müəllifinin cənnət cavanlarının ağasına qarşı cəfa etdiyini söyləmək olarmı? Əhli-sünnənin doqquz kitabında isə 43 rəvayət nəql edilmişdir!”**

İmam Hüseyndən (ə) yalnız iki hədisin nəql olunması çox dəhşətlidir! Lakin şübhənin sahibi Buxarinin İmam Hüseyndən iki rəvayət nəql etməsini çox sevinclə qeyd edir! Burada İmam Həsən və İmam Hüseyndən imamiyyənin kitablarında qeyd olunan bütün hədislərlə müqayisə aparılmalıdır. Başqa imamların da nəql etdikləri hədisləri hesaba almaq lazımdır. Belə ki, Həsən (ə) Əlidən (ə), o da Rəsulullahdan (s) nəql etmişdir. Həmin hədislər İmam Həsən (ə)-ın vasitəsilə sonrakı imamlara çatdırılmışdır. Məsələyə bu prinsiplə yanşılmalıdır. Belə olduqda onun dediklərinə cavab verilmiş olur. Onların kitablarına əsasən İmam Həsən 13 hədis nəql etmişdir. Şiə kitablarında isə İmam Həsəndən (ə) minlərlə hədis nəql edilmişdir. İmam Hüseyn (ə) onların kitablarına əsasən 8 hədis nəql etmişdir.[602] Şiə kitablarına əsasən isə minlərlə hədis nəql etmişdir. Usul əl-Kafi kitabına müraciət etdim orada İmam Hüseyndən bir çox rəvayətlərin nəql olunduğuna rast gəldim. Onun əl-Kafidə İmam Hüseyndən (ə) yalnız bir rəvayət nəql olunmasını iddia etməsi doğru deyil.

---

[602] Həmin mənbə, s. 170.

Sonra deyir: **“İndi İmam Muhəmməd Baqirə (ə) nəzər salaq. Bu, görkəmli, böyük mühəddisin doqquz kitabda 240 rəvayəti nəql olunmuşdur. Gəlin Muhəmməd Baqirlə (ə) peyğəmbərlərdən və mürsəllərdən sonra ən üstün olan şəxs olan Əbu Bəkrin rəvayətləri arasında müqayisə edək...”**

Yenə bu şəxs səhvə yol verir. İmam Muhəmməd Baqirin (ə) nəql etdiyi rəvayətləri Əbu Bəkrin nəql etdiyi rəvayətlərlə müqayisə etmək lazım deyil. Əbu Bəkr Peyğəmbərdən hədis nəql etməyi qadağan etmiş və yazılı sünnələri yandırmışdır. Peyğəmbərdən (s) sonra təqribən iki il yaşamışdır. Burada İmam Muhəmməd Baqir (ə)-la eyni dövrdə yaşayan ravilərlə müqayisə aparılmalı idi. Çox qəribədir ki, şübhənin sahibi sıçrayış edərək İmam Əli bin Hüseyn Zeynulabidini (ə) nəzərə almamışdır. Çünki İmam Zeynulabidin (ə)-dan onun məzhəbnin kitablarında az rəvayət nəql olunduğunu yaxşı bilir. Məsələn, İmam Zeynulabidinlə Urvə bin Zubeyrin nəql etdiklərini müqayisə etsək böyük fərqlə rastlaşacağıq. Buxari İmam Zeynulabidindən səkkiz rəvayət nəql etmişdir. Halbuki Urvə bin Zubeyrdən 612 hədis nəql etmişdir!

Müslim İmam Zeynulabidindən (ə) 6 hədis nəql etdiyi halda Urvə bin Zubeyrdən 379 hədis nəql etmişdir.

Əhməd Müsnədində İmam Zeynulabidindən (ə) 13 hədis nəql etdiyi halda Urvədən 950 dən çox rəvayət nəql etmişdir. Sanki Rəsullullah (s) bizə Əhli-Beytinə müraciət etməyi deyil, hər şeyi Urvə bin Zubeyrdən öyrənməyi tapşırmışdır. Halbuki İmam Zeynulabidinin (ə) dualarını, münacatlarını və sözlərini ehtiva edən “Səhifeyi-səccadiyyə” adlı kitab mövcuddur. Bu kitab imamiyyə yolu ilə nəql olunmuşdur. Həmçinin İmam Zeynulabidindən (ə) nəql olunan “Risalətul-huquq” kitabı hüquq sahəsində yazılmış ən qədim əsərlərdən hesab olunur. Bundan başqa Əbu Həmzə Somalinin İmam Zeynulabidindən (ə) nəql etdiyi dua bənzərsiz

irfani həqiqətləri özündə ehtiva edir. Çoxları məhz bu duaya görə imamiyyəyə qibtə edirlər!

İmam Muhəmməd Baqirə (ə) gəlincə, onun nəql etdiyi rəvayətləri ona müasir olan ravilərin nəql etdikləri rəvayətlərlə müqayisə etmək lazımdır. Məsələn, Amir Şəbi ilə müqayisə edək. Şübhə sahibinin dediklərini doğru fərz etsək, doqquz kitabın müəllifləri İmam Baqirdən (ə) 240 rəvayət nəql etmişdir. Amma Amir Şəbidən – onun Peyğəmbər Əhli-Beyti ilə nə yaxından, nə də uzaqdan heç bir əlaqəsi yoxdur – doqquz kitabda 1140 rəvayət nəql olunmuşdur. Yəni İmam Baqirdən (ə) nəql etdiklərinin təqribən beş qat artıq nəql etmişlər. Lakin imamiyyə məzhəbi pak Əhli-Beytə tabe olduqları üçün İmam Baqirdən (ə) çoxlu sayda rəvayətlər nəql etmişlər. Əzizullah Utaridinin qələmə aldığı Müsnədi İmam Baqir (ə) kitabı üç cilddən ibarətdir. Bu kitabda İmam Baqirdən (ə) 3000 rəvayət nəql olunmuşdur.

Şübhə sahibi deyir: **"İndi isə böyük İmam Cəfər Sadiqin (ə) rəvayətlərinə nəzər salaq. Doqquz kitabda ondan 143 rəvayət nəql olunmuşdur... Əhli-sünnədə etimad edilən altı kitabın müəllifləri (Müslim, Əbu Davud, Tirmizi, Nəsai, İbn Macə), Buxaridən başqa hamısı İmam Cəfər Sadiqdən (ə) rəvayət qeyd etmişlər. Buxari "əl-Ədəbul-mufrəd" kitabında ondan iki hədis nəql etmişdir".**

Elmi şərq və qərbə yayılan bu imamdan cəmi 143 rəvayət nəql etmişlər. Lakin onun müasiri olmuş Zuhridən nə qədər rəvayət nəql ediblər? Doqquz hədis kitabına müraciət etdikdə görürük ki, Zuhridən 4500-dən çox rəvayət nəql etmişlər.[603] Yəni İmam Sadiqdən (ə) nəql

[603] Həmçinin doqquz hədis kitablarının müəllifləri müsəlmanlarla iran arasındakı müharibədə əsir düşmüş İbn Ömərin azad etdiyi Nafedən 1870–dən çox rəvayət nəql etmişlər. Halbuki həmin dövrdə Əhli-Beyt imamından 50 hədis nəql etmişlər. Zuhri Bəni Üməyyə nəzarəti altında Peyğəmbər (s) sirəsini yazmışdır. Əbulhəsən İsbəhani "əl-Əğani" kitabında c. 22, s. 21, 22–də tarixçi Mədainidən nəql edərək deyir: "İbn

etdiklərindən on qat çox nəql etmişlər. Bu isə həmin müəlliflərin Əhli-Beyt imamını tərk edərək Əməvi meyilli olan Zuhridən nəql etdiklərini isbat edir.[604]

İmamiyyə məzhəbi isə İmam Sadiqdən (ə) minlərlə hədislər nəql etmişlər. Utaridinin qələmə aldığı Müsnədi İmam Sadiq (ə) kitabına müraciət etməyimiz kifayətdir. Bu kitab iri həcmli 22 cilddən ibarətdir. Buradakı bütün hədislər Əhli-Beytin elmindən nəql olunmuşdur. Muhəmməd Kazim Qəzvininin qələmə aldığı İmam Sadiq (ə) kitabı isə 28 cilddən ibarətdir. Bu kitabda İmam Sadiqdən (ə) 19000-dən çox hədis nəql olunmuşdur.

Şübhə sahibi deyir: **"Zəhlə tökən biri nə üçün Buxari Səhihində Cəfər Sadiqdən rəvayət nəql etməmişdir deyə bilər. Ona cavab**

Şihab bin Abdullah mənə belə xəbər verdi: "Xalid bin Abdullah Qisri mənə dedi: "Mənim üçün tarix kitabı yaz". Mən dedim: "Əli bin Əbu Talibin həyatından bəzi məqamlarla qarşılaşdıqda onları da yazım?" (Xalid) dedi: "Yox! Onu cəhənnəmin dibində görəsən!" Zuhri məhz bu Xalidə işləyirdi. Xalid zindiq idi. Mənbərə çıxıb belə deyirdi: "Nə vaxtadək bizim batilimiz sizin haqqınıza qalib gələcək? Yoxsa Rəbbiniz sizə qəzəblənibdir?" Onun anası xristian idi. O, xristianları, məcusiləri müsəlmanlara başçı təyin edirdi. Onlara müsəlmanlara əziyyət verməyi, hətta döyməyi tapşırırdı. Zimmə əhli olan xristianlar müsəlman kənizləri alıb özərinə halal edirdilər. Bu işdə onlara etiraz edən kimsə yox idi. Mədaini belə deyir: "Xalid deyirdi: "Əgər əmirəlmöminin əmr etsə Kəbənin daşlarını bir-bir söküb Şama gətirərdim".

[604] Siyəru əlamin-nubəla kitabı c. 5, s. 331-də belə yazılıb: Zuhri deyir: "Əbdülməlik vəfat etdi. Onun oğlu Vəlidin sonra Süleymanın, sonra Ömər bin Əbdüləzizin, sonra Yezidin yanında oldum". Yezid bin Əbdülməlik Zuhrini və Süleyman bin Həbib Muharibini qazi təyin etmişdir. Zuhri deyir: "Sonra Hişam bin Əbdülməliklə birlikdə oldum. Hişam övladlarını Zuhriyə tapşırmışdı. Onlara dərs keçir, onlarla birlikdə həccə gedirdi. Məkhul Zuhrinin barəsində belə demişdir. "O, necə bir insan idi! Kaş şahlarla dostluq edərək özünü heç etməzdi!". Mən deyirəm – Zəhəbi – "Bəziləri Zuhriyə etimad etmirlər. Onun xəlifələrlə dostluq etməsinə görə ondan nəql etməmişlər". Siyəru əlamin-nubəla, c. 5, s. 333.

olaraq belə deyirik: Nə üçün Buxari Əbu Hənifə, Şafei, Əhməd bin Hənbəl, İmam Müslim və başqa böyük imamlardan hədis nəql etməyib? Bu onun üçün nöqsandır, yoxsa səhih kitablarında tətbiq etdikləri müəyyən şərtlərə əsaslanmasından irəli gəlirdi?"

Şübhə sahibi demək istəyir ki, Buxarinin təyin etdiyi şərtlər İmam Sadiqin (ə) nəql etdiyi rəvayətlərdə öz əksini tapmamışdır. Başa düşə bilmirəm ki, bu şərtlər Buxarinin qəlbinə ilham edilmişdir, yoxsa bu şərtlər barədə səhih hədis nəql olunmuşdur? Buxarinin Əbu Hənifədən nəql etməməsinin səbəbinə gəlincə, çünki çoxlarının rəyinə əsasən Əbu Hənifə hədis və hədis nəqlinə bir o qədər də əhəmiyyət vermirdi. Bundan başqa Buxari Əbu Hənifəyə qarşı nifrət bəsləyirdi.

Buxarinin şərtləri nəyə əsaslanırdı ki, o, səhihində zəmanəsinin ən bilikli insanını tərk edərək nasibilərdən və xəvaricdən rəvayətlər nəql etmişdir? İbn Teymiyyə Buxarinin İmam Sadiqdən (ə) hədis nəql etməməsinin səbəbini açıqlayaraq belə demişdir: "Bu dörd nəfərdən heç kim ondan – İmam Sadiqi nəzərdə tutur – fiqhin əsaslarını və qaydalarını götürməmişlər. Lakin başqalarından hədis nəql etdikləri kimi ondan da hədislər nəql etmişlər. Başqalarının nəql etdiyi hədislər onun nəql etdiyi hədislərin on qatı qədərdi. Onunla Zuhrinin hədisləri arasında keyfiyyət və kəmiyyət baxımından heç bir nisbət yoxdur. Yəhya bin Səidin onun barəsində dediyi sözlər Buxariyə çatdıqda onun bəzi hədisləri barədə şübhəyə düşmüşdür. Buna görə də ondan hədis nəql etməmişdir. Onun hədis hifzi Buxarinin etimad etdiyi ravilərin hədis hifzi kimi olması mümkün deyil".[605]

İmam Sadiq (ə) barəsində belə söz deyilərmi? Bu sözü dedikləri halda onlar Əhli-Beytdən rəvayət nəql etdiklərini və onlara tabe olduqlarını necə iddia edə bilərlər? Buxarini şübhəyə salan Yəhya bin Səidin sözlərini İbn Həcər Təhzibut-təhzib kitabında (c. 2, səh. 88) qeyd etmişdir: Yəhya

[605] Minhacus-sunnə, 532.

bin Səid Qəttandan Cəfər Sadiq barəsində soruşdular. O da belə dedi: "İçimdə ona qarşı bir şey var. Mənim üçün Mucalid ondan daha əzizdir". Halbuki Yəhya Mucalidi yalançı olmaqda ittiham etmişdir.

Şübhə sahibi İmam Sadiqdə (ə) dayanmış və biabır olmamaq üçün sonrakı imamlar barədə söhbət açmamışdır. Çünki sonrakı imamlardan (ə) çox nadir hallarda rəvayət nəql edilmişdir.

Yalnız imamiyyədən olan Əhli-Beyt ardıcılları onlardan rəvayət nəql etmiş və həmin rəvayətlərin məzmununa əməl etmişlər. "Əhli-Beyt imamlarının (ə) hədisləri şiə məzhəbinə məxsus olan müxtəlif mənbələrdə qeyd edilmişdir. Şiə alimlərindən biri Əhli-Beyt imamlarının (ə) hədislərini hər birinə məxsus müsnəddə toplamışdır. Əzizullah Utaridi yuxarıda adlarını qeyd etdiyimiz müsnədlərdən əlavə digər imamlardan (ə) nəql olunan hədisləri də toplamışdır. Aşağıda həmin kitabların adlarını qeyd edirik:

- Müsnədi İmam Kazim (ə). Üç cilddən ibarətdir.
- Müsnədi İmam Rza (ə). Bu kitabda 1243 hədis qeyd edilmişdir.
- Müsnədi İmam Cavad (ə). Bu kitabda 512 hədis qeyd edilmişdir.
- Müsnədi İmam Hadi (ə). Bu kitabda 502 hədis qeyd edilmişdir.
- Müsnədi İmam Həsən Əskəri (ə). Bu kitabda 584 hədis qeyd edilmişdir.[606]

Şübhə sahibinin digər sözləri zəif olduğu üçün həmin sözlərə heç bir əhəmiyyət vermirik. Qeyd etdiklərimizdə sağlam düşüncə sahibi və insaflı olan hər kəs üçün yetərli dəlillər var.

Əhli-Beyt (ə) xəttinə düşmənçilik bütün imamların dövründə hicri birinci əsrdən başlayaraq hətta İbn Teymiyyənin dövrünədək davam

---

[606] Bundan başqa Muhəmməd Hüseyni Qəzvini tərəfindən qələmə alınmış 8 cildlik "Movsuətu əl-İmam ər-Rza (ə)" kitabı; Vəliyul-əsr müəssisəsi tərəfindən hazırlanmış 2 cilddən ibarət "Movsuətu əl-İmam əl-Cavad(ə)" kitabı və 5 cilddən ibarət "Movsuətu əl-İmam əl-Əskəri (ə)" kitabları var.

etmişdir. İbn Teymiyyə qələmə aldığı kitablarında bu düşmənçiliyi aşkarcasına bəyan etmişdir. İbn Həzm utanmadan bütün imamlar barəsində belə deyir: "Cəfər bin Muhəmməddən sonra onların bir aliminin olmasını tanımırıq. Baxmayaraq ki, onlar bizim dövrümüzə yaxın olublar, lakin onlardan nə bir rəvayət, nə də bir fətva nəql olunmamışdır. Əgər onların elmi olsaydı Muhəmməd bin Əli, oğlu Cəfər və başqaları kimi camaat onlardan nəql edərdilər".[607]

İbn Həzmin bu sözlərini müzakirə etməyə lüzum yoxdur. O, Mədinədən və İraqdan uzaqda Əndəlusda yaşamış həddindən artıq təəssübkeş biri idi. Onun bu uzaqlığı nəticəsində bir çox məsələlər ona gizli qalmışdır. Sələfi alimlərindən olan Mələmi deyir: "Məzhəblərin təsis olunduğu dövrdə Fatimə övladları təqiblərə və zülmə məruz qalırdılar. Onlarla əlaqə saxlayan hər kəs canı üçün qorxurdu. Onlar öz elmlərini lazım olduğu səviyyədə bəyan etməyə imkan tapmamışlar".[608]

Mələminin sözü İbn Həzm və onun kimi düşünənlər üçün yetərli cavabdır.

Əqili "əz-Zuəfa" kitabında İmam Musa bin Cəfər Kazim (ə)-ı zəiflərdən hesab etmişdir.[609]

Albani belə deyir: "Musa bin Cəfərin hədisi məhfuz (xətadan qorunmuş) deyil. Həmin hədislərə yaxın mənada nəql olunan hədislərdən başqa digər nümunələri yoxdur".[610]

İbn Qeysərani "Təzkirətul-huffaz" kitabında İbn Hibbanın "əl-Məcruhin" kitabının hədislərinin kənarında "Əli bin Musa Rza atalarından nəql etmişdir" hədisini qeyd etdikdən sonra belə deyir: "Atalarından

---

[607] əl-Fəslu fil-miləli vən-nihəl, c. 4, s. 175.

[608] ət-Tənkil bima fi tənibil-kovsəri minəl-əbatil, c. 2, s. 631.

[609] əz-Zuəfa, c. 4, s. 156.

[610] Silsilətul-əhadisuz-zəifə, c. 5, s. 296.

qəribə şeylər nəql edir”.[611] Bununla İmam Rzanı (ə) atalarından rəvayət nəql etməkdə aşkarcasına ittiham edir.

İbn Hibban İmam Cavad (ə) barədə qərəzli danışaraq belə deyir: “Əli bin Musa ər-Rza: O, Əli bin Musa bin Cəfər bin Muhəmməd bin Əli bin Hüseyn bin Əli bin Əbu Talib Əbulhəsəndir. Əhli-Beytin böyüklərindən, aqillərindən, haşimilərin ən hörmətlisi və alicənablarındandır. Əgər ondan övladları və şiələri nəql etməsələr nəql etdiyi rəvayət mötəbərdir. Xüsuisilə də Əbu Səltin ondan nəql etditi rəvayətlər batil olan məsələlərdən bəhs edir. Burada günah Əbu Səltin, onun övladlarının və şiələrinindir”.[612]

İbn Teymiyyə deyir: “Üçüncü; Rəyə əsaslanmaq, ictihad, qiyas, istehsan (zövqə əsasən hökm çıxartmaq) çox yalan danışması ilə tanınan birinin xəta və səhv edə biləcək birindən – elə birindən ki, nəql edən doğru danışan, söyləyən isə məsum deyil –nəql etdiyinə əməl etməkdən daha xeyirlidir. Heç bir ağıl sahibi şübhə etməz ki, Malik, İbn Əbu Ziib, İbn Macişun, Leys bin Səd Əvzai, Sovri, İbn Əbu Leyla, Şureyk, Əbu Hənifə... Buxari, Osman bin Səid Darami, Əbu Bəkr bin Xeyzəmə, Muhəmməd bin Cərir Təbəri, Muhəmməd bin Nəsr Mərvəzi va başqalarının səhih Peyğəmbər (s) sünnəsini araşdırmaq, şəriət hökmlərini tədqiq etmək üçün ictihad etmələri, rafizilərin iki Əskəridən (İmam Hadi və İmam Həsən Əskəri) və onlar kimilərdən nəql etdiklərinə əməl etməkdan daha xeyirlidir. Bunların hər biri iki Əskəridən daha çox Allahın və Rəsulullahın dinini daha yaxşı bilirlər. Onlardan hər hansı biri fətva verərsə onların fətvalarına müraciət etməkdənsə öz ictihadlarına əsaslanması daha yaxşıdır. Hətta bu ona vacibdir. Belə olduğu halda rafizilər kimilərin onlardan nəql etdiklərinə necə etimad etmək olar? İki Əskəri və onlar

[611] Həmdi Əbdülməcid, c. 1, s. 24.

[612] İbn Hibban, əs-Siqat, c. 8, s. 456.

kimilər bu alimlərin (yuxarıda adlarını sadaladığı) hər birindən öyrənmələri vacibdir".[613]

"...Onlar çox böyük-böyük danışırlar. (Ağızlarından çıxan söz necə də böyük küfrdür). Onlar ancaq yalan deyirlər!"[614] Beləcə xoş olsun İbn Teymiyyənin halına! İmam Hadi (ə) və İmam Həsən Əskəri (ə) əvəzinə bunları seçmişdir!

Təəssüflər olsun ki, bəziləri İmam Həsən Əskəriyə (ə) tənə vurmuşlar. Siyuti Həsən Əskəridən (ə) Fatimeyi-Zəhranın (ə) fəziləti barədə nəql olunan hədisi qeyd etdikdən sonra belə deyir: "Uydurmadır. Həsən Əskəri bir şey deyil".[615]

Əhli-Beyt imamlarının (ə) kəlamlarını oxuyan hər kəs heyrət və təəccüb içində qalır. Lakin İbn Teymiyyənin "Minhacus-sunnə" kitabı imamlara qarşı kobud və qərəzli ifadələrlə doludur.[616] Hətta İbn Həcər Əsqələni və başqaları onu nasibilikdə ittiham etmişlər.[617]

Sonda yenə əhli-sünnənin Peyğəmbər (s) Əhli-Beytindən hədis nəql etməmələri, dinin əsaslarını onlardan götürməmələri, Hureyz bin

---

[613] Minhacus-sunnə, c. 7, s. 472.

[614] Kəhf, 5

[615] Siyuti, "əl-Alail-məsnuə fil-əhadisil-movzuə, s. 361. Həmçinin İbn Covzinin əl-Movzuat kitabında da İbn Covzi imamı hədis qondarmaqda ittiham etmişdir.

[616] İbn Teymiyyə Minhacus-sunnə kitabında c. 7, s. 147-də deyir: "Səhabələrin çoxunun Əliyə tənə vurması məlumdur". Həmçinin deyir: "Xüsusilə Əbu Bəkr və Öməri bütün səhabələr və tabeinlər sevirdilər. Onların dövrü əsrlərin ən xeyirlisi idi. Əli isə belə deyildi. Səhabələrin və tabeinlərin çoxu ona nifrət edir, onu söyür və ona qarşı vuruşurdular". Minhacus-sunnə, c. 7, s. 137, 138.

[617] İbn Həcər Əsqəlani Lisaanul-mizan kitabı c. 6, s. 390 və 391-də İbn Teymiyyənin Əllamə Hilliyə qarşı dedikləri sözlərə cavab olaraq deyir: "... Rafizinin sözünü kiçiltmək üçün nə qədər mübaliğələrə yol verilmişdir ki, sonda bu, Əlinin – Allah ondan razı olsun – şəninin alçaldılmasına gətirib çıxartmışdır".

Osman[618], İmran bin Həttan, İmam Hüseynin (ə) qatillərindən olan Ömər bin Səd kimi nasibilərdən və xəvaricdən rəvayət nəql etmələri məsələsi izah olunmayaraq qalır. Halbuki bu şəxslər səhih hədisin məzmununa əsasən münafiq hesab olunurlar.[619]

Bununla da "Sələfi dəlillərinə dair araşdırma – Birinci hissə: Hədislər" adlı mövzumuzun birinci hissəsini tamamladıq. Yaxın zamanlarda eyni adlı mövzunun ikinci hissəsi olan Quran ayələri barədə tədqiqatımızı təqdim edəcəyik. Aləmlərin Rəbbi olan Allaha həmd olsun!

---

[618] Albani "Silsilətul-əhadis-səhihə" kitabı c. 13, s. 30 da deyir: "Hureyz bin Osman; Rəhbi Himsi. Buxarinin hədis nəql etdiyi etibarlı ravilərdəndir. Lakin o, Əliyə nifrət edirdi. Allah ona nifrət eləsin!"

[619] Səhih Müslim, kitabul-fəzail, babu fəzailu Əli bin Əbu Talib; "Ummi Peyğəmbər mənə demişdir ki, məni yalnız mömin sevər və mənə yalnız münafiq nifrət edər". Adları çəkilən bu şəxslərə münafiqlik sifətinin şamil olmasına baxmayaraq rical alimləri onları etibarlı hesab etmişlər. **"...Allah həm də münafiqlərin xalis yalançı olduqlarına şəhadət verir".** (Münafiqun, 1)

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Qurani-Kərim.

2. Əmir Sənani Muhəmməd bin İsmail (1182 h.) "İcabətus-sail şərhu buğyətil-amil". Qazi Hüseyn bin Əhməd və Doktor Həsən Muhəmməd Məqbulinin tədqiqi ilə. Beyrut 1986.

3. İbn Həzm Əbu Muhəmməd Əli bin Əhməd, "əl-İhkam fi usulil-əhkam".

4. Qəstəlani Əhməd bin Əbu Bəkr bin Əbdülməlik Quteybi Misri, "İrşadus-sari li şərhi səhihil-Buxari". Misir hicri 1323.

5. Şovkani Muhəmməd bin Əli bin Muhəmməd (vəfat tarixi1356 h.), "İrşadul-fuhul ilə təhqiqil-haqq min ilmil-usul". Misir 1356 h.

6. Albani Muhəmməd Nasirəddin, "İrvaul-ğəlil fi təxrici əhadisi mənaris-səbil". Misir 1356.

7. İbn Əbdülbirr Əbu Ömər Yusif Nəmri Qurtubi, "əl-İstizkar". Beyrut 1985.

8. İbn Əbdülbirr Əbu Ömər Yusif Nəmri Qurtubi,"əl-İstiab". Beyrut 2000.

9. İbn Əsir, "Usudul-ğabə fi mərifətis-sahabə".

10. İbn Həzm Əbu Muhəmməd Əndəlusi, "Əsmaus-səhabə vər-ruvat". Beyrut 1412 h.

11. İbn Həcər Əsqəlani, "əl-İsabə fi təmyizis-sahabə", Beyrut 1415.

12. Muhəmməd bin Əbdülvəhhab, "Usulul-iman".

13. Şatibi İbrahim bin Musa Ğəranati, "əl-İtisam".

14. İbn Qəyyim Covziyyə, "İlamul-muqiin ən Rabbil-aləmin".

15. Əbulfərəc İsfahani, "əl-Əğani".

16. İbn Teymiyyə Hərrani, "İqtizaus-siratəl-mustəqim muxalifəti əshabil-cəhim".

17. əl-Əmir əl-Hafiz İbn Məkula, "İkmalul-kamal".

18. Muhəmməd Əbu Zöhrə, “əl-İmam əs-Sadiq”.

19. Bəlazuri Əhməd bin Yəhya, “Ənsabul-əşraf”.

20. əl-Məclisi Muhəmməd Baqir, “Biharul-ənvar”. Beyrut 1983.

21. İbn Kəsir Diməşqi, “əl-Bidayətu vən-nihayə”. Beyrut 1988.

22. Əbu Həyyan Tovhidi, “əl-Bəsairu vəz-zəxair”. Beyrut 1408 h.

23. Zəhəbi Şəmsəddin Muhəmməd bin Əhməd bin Osman, “Tarixul-islam və vəfiyatul-məşahiri vəl-əlam”. Beyrut 1988.

24. Təbəri, “Tarixul-uməmi vəl-muluk”.

25. Xətib Bağdadi Əbu Bəkr Əhməd bin Əli, “Tarixi Bağdad”. Beyrut 1417 h.

26. Buxari Əbu Abdullah Muhəmməd bin İsmail, “ət-Tarixul-kəbir”.

27. İbn Əsakir Əbulqasim Əli bin Həsən bin Hibətullah bin Abdullah Şafei, “Tarixu mədinəti Diməşq”. Beyrut 1415 h.

28. Yaqubi Əhməd bin Yaqub, “Tarixu Yaqubi”.

29. İbn Quteybə Əbu Muhəmməd Abdullah bin Müslim, “Təvilu muxtələfil-hədis”.

30. Mubarəkfuri, “Tuhfətul-əhvazi”. Beyrut 1410 h.

31. Şovkani əl-Yəməni əs-Sənani Muhəmməd bin Əli bin Muhəmməd, “ət-Tuhəfu fi məzahibis-sələfi”.

32. Cəlaləddin Siyuti Əbdürrəhman bin Əbu Bəkr, “Tədribur-ravi şi şərhi təqribin-nəvavi”.

33. Zəhəbi Şəmsəddin Muhəmməd bin Əhməd bin Osman, “Təzkirətul-huffaz”.

34. Əbulhəsən Şeyx, “Təracuatil-AlbaniMuhəmməd Nasirəddin”.

35. İbn Həcər Əsqəlani, “Təcilul-mənfə bi zəvaidi ricalil-əimmətil-ərbə”.

36. İbn Əbu Hatəm Razi, “Təfsirul-Quranil-azim” (Təfsiri İbn Əbu Hatəm).

37. İbn Kəsir Diməşqi, “Təfsirul-Quranil-azim”.

38. İbn Həcər Əsqəlani, “Təqribut-təhzib”.

39. Əbusəlah Hələbi Təqiyy bin Nəcm, “Təqribul-məarif”.

40. İbn Əbdülbirr Əbu Ömər Yusif Nəmri Qurtubi, “ət-Təmhid”.

41. Mələmi Əbdürrəhman bin Yəhya bin Əli bin Muhəmməd, “ət-Tənkil bima fi tənibil-kovsəri minəl-əbatil”.

42. Cəlaləddin Siyuti Əbdürrəhman bin Əbu Bəkr Şafei, “Təndirul-həvalik şərhu alə muvatta Malik”. Beyrut 1986.

43. İbn Həcər Əsqəlani, “Təhzibut-təhzib”.

44. Mizzi Cəmaləddin Əbulhəccac Yusif , “Təhzibul-kəmal fi əsmair-rical”.

45. əl-Əmir Sənani, “Tovzihul-əfkar li məani tənqihil-ənzar”.

46. Vəhid Əbdüssəlam Bali ,”Teysirul-kərimil-əliy fi vəsfi hauzin-nəbiyy”.

47. İbn Hibban Muhəmməd bin Əhməd Əbu Hatəm Təmimi, “əs-Siqat”.

48. İbn Əbdülbirr, “Camiu bəyanil-ilmi və fəzlih”.

49. Təbəri, “Camiul-bəyan ən təvili ayil-Quran” (Təfsiri Təbəri).

50. Qurtubi, “əl-Camiu li əhkamil-Quran”.

51. İbn Əsir, “Camiul-usul fi əhadisir-rəsul”.

52. Cəlaləddin Siyuti, “əl-Camius-səğir fi əhadisil-bəşirin-nəzir”.

53. İbn Rəcəb Hənbəli ,”Camiul-ulumi vəl-hikəm”.

54. Əbdülkərim bin Abdullah Xuzeyr, “əl-Hədisuz-zəif və hukmil-ihticaci bih”.

55. Həssan bin Əbdülmənnan, “Hivarun mə Şeyx Albani fi munəqaşəti li hədisi İrbad bin Sariyə”.

56. “əd-Durərus-səniyyə fil-əcvibətin-nəcdiyyə”, Əbdürrəhman bin Muhəmməd bin Qasimin tədqiqi ilə.

57. Muhəmməd bin İbrahim Şeybani, “Həyatul-Albani asaruhu və sənaul-uləmai aleyhi”.

58. Muhəmməd Həsən Muzəffər, “Dəlailus-sidq li nəhcil-həqq”.

59. Beyhəqi Əbu Bəkr Əhməd bin Həsən, “Dəlailun-nubuvvə və mərifətu əhvali sahibiş-şəriə”.

60. Cəlaləddin Siyuti, “əd-Diybacu alə səhihi Müslim”.

61. Seyf bin Ömər Təmimi, “ər-Riddətu və nəbzətun mi futuhil-iraq”.

62. Muhəmməd bin Əbdülvəhhab, “Risalətun fir-rəddi alər-rafizə”.

63. İbn Qəyyim Covziyyə, “Zadul-məad fi huda xeyril-ibad”.

64. Əbulmunzir Sami Misri, “əz-Zəhrətul-ətirəti fi hədisil-itrəti”.

65. əl-Əmir Sənani, “Subulus-səlam”.

66. Albani Muhəmməd Nasirəddin, “Silsilətul-əhadis-səhihə və şeyun min fiqhuha və fəvaiduha”. ər-Riyad 1420 h.

67. Albani Muhəmməd Nasirəddin, “Silsilətul-əhadis əz-zəifə”.

68. İbn Macə Əbu abdullah Muhəmməd bin Yezid əl-Qəzvini, “Sünəni İbn Macə”. Fuad Əbdülbaqinin tədqiqi ilə.

69. Əbu Davud Süleyman bin Əşəs Sicistani, “Sünəni Əbu Davud”.

70. İbn Əbu Asim Əbu Bəkr Əmr Zəhhak bin Muxəllləd Şeybani, “əs-Sünnə”.

71. Tirmizi Əbu İsa Muhəmməd bin İsa bin Surə, “Sünəni Tirmizi”. Beyrut 1403 h.

72. Darami Əbu Muhəmməd Abdullah bin Rəhman bin Fəzl bin Bəhram, “Sünəni Darami”. Dəməşq 1349 h.

73. Nəsai Əbu Əbdürrəhman Əhməd bin Şueyb bin Əli, “Sünəni Nəsai”. Beyrut 1348 h.

74. Beyhəqi Əbu Bəkr Əhməd bin Hüseyn bin Əli, “əs-Sünənul-kubra”.

75. Zəhəbi Şəmsəddin Muhəmməd bin Əhməd bin Osman, “Siyəru əlamin-nubəla”. Şueyb Arnautun tədqiqi ilə. Beyrut 1413 h.

76. Muhəmməd bin İshaq bin Yəsar, “Sirətu İbn İshaq”.

77. İbn Hişam Himyəri, “əs-Sirətun-nəbəviyyə”.

78. Lalakai Əbu Qasim Təbəri, “Şərhu usuli itiqadi əhlis-sunnə vəl-cəmaə”.

79. Zərqani Muhəmməd bin Əbdulbaqi bin Yusif Misri Əzhəri , “Şərhu Zərqani alə muvatta imam Malik”.

80. Muhəmməd bin Saleh bin Muhəmməd Useymin, “Şərhul-əqidətis-səfariniyyə”.

81. İbn Əbulizz Hənəfi, “Şərhul-əqidətit-tahaviyyə”.

82. Səfər Həvali, “Şərhul-əqidətit-tahaviyyə”.

83. Abdullah bin Muhəmməd Ğəniman, “Şərhul-əqidətil-vasitiyyə”.

84. Tahavi Əbu Cəfər Əhməd bin Muhəmməd bin Səlamə bin Əbdülməlik bin Sələmə Əzdi, “Şərhu məanil-asar”.

85. İbn Əbdülhadi Şəmsəddin Muhəmməd bin Əhməd Hənbəli, “əs-Sarimul-munki fir-rəddi aləs-Subki”.

86. Buxari Əbu Abdullah Muhəmməd bin İsmail, “Səhih Buxari”.

87. Həsən bin Əli Səqqaf, “Səhihu şərhul-əqidətit-tahaviyyə”.

88. Həsən bin Əli Səqqaf, “Səhihu sifəti salətin-nəbiy”.

89. Muhyiddin Nəvəvi, “Səhih Müslim bi şərhin-nəvəvi”.

90. Şəhid Nurullah Tustəri, “əs-Səvarimul-muhriqə fi cəvabi əs-səvariqul-muhriqə”.

91. İbn Həcər Heysəmi, “əs-Səvaiqul-muhriqə fir-rəddi alə əhlil-bidəi vəz-zəndəqə”.

92. İbn Covzi, “Seydul-xatir”.

93. Əqili Əbu Cəfər Muhəmməd bin Əmr bin Musa bin Həmmad Məkki ,”əz-Zuəfaul-kəbir”.

94. İbn Covzi Hənbəli, “əz-Zuəfau vəl-mətrukin”.

95. Darqutni Əli bin Ömər, “əz-Zuəfau vəl-mətrukin” Subhi Bədri Samraninin tədqiqi ilə.

96. Albani Muhəmməd Nasirəddin, “Zəifu sünəni Tirmizi”.

97. Cəlaləddin Siyuti, “Təbəqatul-huffaz”.

98. İbn Səd, “ət-Təbəqatul-kubra”.

99. Sabuni, “Əqidətus-sələf və əshabul-hədis”.

100. Abdullah bin Yusif Cədi , “əl-Əqidətus-sələfiyyə fi kəlami rəbbil-bəriyyə və kəşfu əbatilil-mubtədiətur-rəddiyyə”.

101. Əbdüləziz bin Abdullah bin Baz, “əs-Əqidətus-səhihə və nəvaqizul-islam”.

102. Saleh bin Abdullah Əbbud, “Əqidətu Muhəmməd bin Əbdülvəhhab əs-sələfiyyə və əsəruha fil-aləmil-islami”.

103. Tirmizi Əbu İsa Muhəmməd bin İsa bin Surə, “İləlu Tirmizi”.

104. əl-Mədini Əli bin Abdullah bin Cəfər Sədi, “əl-İləl”.

105. Bədrəddin Eyni, “Umdətul-qari şərhi səhihi Buxari”.

106. Əbu Cəfər Səduq Muhəmməd bin Əli bin Hüseyn bin Babaveyh əl-Qummi, “Uyunu əxbari ər-Rza”.

107. Əbu Bəkr Şafei, “əl-Ğeylaniyyat”.

108. İbn Baz, “Fətava bin Baz”.

109. İbn Teymiyyə, “əl-Fətaval-kubra”.

110. Əhməd Əbdürrəzzaq Duveyş, “Fətava əl-ləcinətil-daimə lil-buhusil-ilmiyyəti vəl-ifta”.

111. İbn Həcər Əsqəlani, “Fəthul-bari şərhi səhih Buxari”.

112. Ğəmari Əhməd bin Muhəmməd bin Siddiq Həsənə Məğribi, “Fəthul-məlikil-əliy bi sihhiəti hədisi babi mədinətil-ilmi Əli”.

113. İbn Həzm Zahiri, “əl-Fəslu fil-miləli vəl-əhvai vən-nihəl”.

114. Şeyx Əmin bin Saleh, “Fiqhul-Al beynə dəval-ihmal və tuhmətul-intihal”.

115. Xətib Bağdadi, “əl-Fiqh vəl-mutəfəqqih”.

116. Nəcaşi Əbulabbas Əhməd bin Əli bin Əhməd bin Abbas Əsədi əl-Kufi, “Fihristi əsmai musənnifiyy əş-şiə” (Ricalu Nəcaşi).

117. Munavi Muhəmməd bin Əbdürrauf, “Feyzul-qədir”.

118. Kuleyni Əbu Cəfər Muhəmməd bin Yaqub bin İshaq Razi, “əl-Kafi”.

119. İbn Əsir, “əl-Kamil fit-tarix”.

120. İbn Udəy Curcani, “əl-Kamil fi zuəfaur-rical”.

121. İbn Covzi, “Kəşful-muşkil mi hədisis-səhiheyn”.

122. Şeyx Səduq, “Kəmalud-din və təmamun-nemə”.

123. əl-Muttəqi Hindi, “Kənzul-ummal fi sünənil-əqvali vəl-əfal”.

124. Cəlaləddin Siyuti, “əl-Alail-məsnuə fil-əhadisil-məvzuə”.

125. İbn Mənzur, “Lisanul-ərəb”.

126. İbn Həcər Əsqəlani, “Lisanul-mizan”.

127. Əhməd İslam, “Mə ənə əleyhi və əshabi”.

128. Muhəmməd bin Əbdülvəhhab, “Muəlləfatu şeyx Muhəmməd bin Əbdülvəhhab”.

129. Muhəmməd bin Hibban bin Əhməd Əbu Hatəm Təmimi, “əl-Məcruhinə minəl-muhəddisinə vəz-zuəfai vəl-mətrukin”.

130. Nuruddin Əli bin Əbu Bəkr Heysəmi, “Məcməuz-zəvaidi və mənbəul-fəvaid”.

131. İbn Teymiyyə, “Məcmuətur-rəsaili vəl-məsail”.

132. İbn Baz, “Məcmuəti fətava bin Baz”.

133. İbn Teymiyyə, “Məcmuətul-fətava”.

134. Məsudi, “Murucuz-zəhəb və məadinul-covhər”.

135. Hakim Nişapuri, “əl-Mustədrək aləs-səhiheyn”.

136. Əbu Davud Taylasi Süleyman bin Davud bin Carud Farisi, “Müsnədi Əbu Davud Taylasi”.

137. Əbu Yəla Mosuli, “Müsnədi Əbu Yəla”.

138. Əhməd bin Hənbəl Şeybani, “Müsnədu Əhməd bin Hənbəl”.

139. Əzizullah Utaridi, Müsnədu İmam Baqir (ə)”.

140. Əzizullah Utaridi, “Müsnədu əl-İmam əs-Sadiq (ə).

141. Əzizullah Utaridi, “Müsnədu əl-İmam əl-Muctəba (ə).

142. Əzizullah Utaridi, “Müsnədu əl-İmam əş-şəhid Əbu Abdullah Hüseyn (ə).

143. Həsən Qabanci , “Müsnədu əl-İmam Əli (ə).

144. Əzizullah Utaridi, “Müsnədu Fatimə (ə).

145. Siyuti, “Müsnədu Fatimətuz-zəhra”.

146. Abdullah bin Muhəmməd bin Əbu Şeybə İbrahim bin Osman əl-Kufi, “Musənnifu ibn Əbu Şeybə fil-hədisi vəl-asar”.

147. İbn Quteybə Əbu Muhəmməd bin Müslim, “əl-Məarif”.

148. Təbərani Əbulqasim Süleyman bin Əhməd, “əl-Mucəmul-əvsat”.

149. Təbərani, “əl-Mucəmus-səğir”.

150. Təbərani, əl-Mucəmul-kəbir”.

151. Vaqidi Muhəmməd bin Ömər bin Vaqid, “əl-Məğazi”.

152. Zəhəbi, “əl-Muğni fiz-zuəfa”.

153. Muhəmməd bin Əbdülvəhhab, “Mufidul-mustəfid fi kufri tarikit-tovhid”.

154. İbn Teymiyyə, “Minhacus-sunnə”.

155. Əbdülmunim Hufni, “Movsuətu ummulmumininə Aişə bin Əbu Bəkr.

156. Doktor Əbdürrəhman bin Saleh bin Saleh Mahmud, “Movqifu İbn Teymiyyə minəl-əşairə”.

157. İmam Malik bin Ənəs, “əl-Muvatta”.

158. İbn Covzi, “əl-Movzuat”.

159. Zəhəbi, “Mizanul-itidal fi nəqdir-rical”.

160. Muhəmməd Reyşəhri, “Mizanul-hikmə”.

161. Mərvan Xəlifat, “ən-Nəbiyyu və müstəqbəlud-dəvə”.

162. Kəttani, “Nəzmul-mutənasir minəl-hədisil-mutəvatir”.

163. İbn Həcər Əsqəlani, “ən-Nukətu alə kitabu ibn Salah”.

164. Zərkəşli, “ən-Nukətu alə muqəddiməti ibn Salah”.

165. Şovkani Muhəmməd bin Əli bin Muhəmməd, “Neylul-əvtar”.

166. Doktor Muhəmməd Bakərim Məhəmməd bin Abdullah, “Vasatiyyətu əhlis-sunnə beynəl-firəq”.

167. İbn Xəlkan, “Vəfiyyatul-əyan və ənbu əbnauz-zəman”.

168. Mərvan Xəlifat, “Rakibtus-səfinə”.